AZƏRBAYCAN UĞRUNDA!

# HƏRBİ BİLİK

№ 1/2024



Azərbaycan Respublikası Müdafiə Nazirliyi
Milli Müdafiə Universiteti

# HƏRBİ BİLİK

**Hərbi elmi-nəzəri jurnal**

**№1, 2024**

---

Ministry of Defence of the Republic of Azerbaijan
National Defence University

# MILITARY KNOWLEDGE

**Military scientific-theoretical journal**

**№1, 2024**

**HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE**
**№1/2024**

**Baş redaktor** milli təhlükəsizlik və hərbi elmlər üzrə fəlsəfə doktoru, polkovnik Rəşad Tahirov
**Məsul katib** mayor Fərəhim Eyvazov
**Redaktor** e.o. polkovnik-leytenant Mərhəmət Abiyev
**Korrektor** Nigar Əbilova
**Tərtibatçı** e.o. baş gizir İlqar Hüseyn

**Redaksiya heyətinin üzvləri**

– general-leytenant Azər Əliyev;
– milli təhlükəsizlik və hərbi elmlər üzrə fəlsəfə doktoru, dosent, general-mayor Arif Həsənov;
– general-mayor Hilal Nəcəfov;
– general-mayor Namiq İslamzadə;
– general-mayor Anar Kərimov;
– general-mayor Nicad Qarayev;
– general-mayor Eldəniz Yəhyayev;
– general-mayor Namiq Bayramov;
– milli təhlükəsizlik və hərbi elmlər doktoru, professor, polkovnik Bəbir Quliyev;
– texnika elmləri doktoru, professor Əminağa Sadıqov;
– milli təhlükəsizlik və hərbi elmlər doktoru, professor Elşən Həşimov;
– riyaziyyat elmləri doktoru, professor Etibar Pənahov;
– texnika elmləri doktoru, professor Bayram İbrahimov;
– tarix elmləri doktoru, professor Nurulla Əliyev;
– milli təhlükəsizlik və hərbi elmlər doktoru, professor Əziz Talıbov;
– tarix elmləri doktoru, professor Mehman Süleymanov;
– psixologiya elmləri doktoru, professor Elnarə Şəfiyeva;
– texnika elmləri doktoru, dosent İslam İslamov;
– texnika elmləri doktoru, dosent Elxan Səbziyev;
– texnika üzrə fəlsəfə doktoru, professor, 1-ci dərəcəli kapitan Əsəd Rüstəmov;
– milli təhlükəsizlik və hərbi elmlər üzrə fəlsəfə doktoru, dosent, polkovnik Yalçın İsayev;
– milli təhlükəsizlik və hərbi elmlər üzrə fəlsəfə doktoru, professor Heydər Piriyev;
– fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru, dosent Arzuman Həsənov;
– siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Vüqar Məmmədzadə;
– dosent, polkovnik Yaşar Kərimov;
– tibb xidməti polkovniki Çingiz Əlləzov.

Redaksiyaya daxil olmuş əlyazmalar, fotolar, illüstrasiyalar geri qaytarılmır. Müəllif hərbi elmi-nəzəri fikirlərə və tarixi faktlara görə məsuliyyət daşıyır.

"Hərbi bilik" jurnalında verilmiş materiallardan istifadə zamanı jurnala mütləq istinad edilməlidir.

"Hərbi bilik" jurnalı elmi tədqiqatların əsas müddəalarının nəşr edilməsi üçün Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan nəşrlər siyahısına daxil edilmişdir.

**Təsisçi:** Milli Müdafiə Universiteti
www.mmu.edu.az
AZ1065, Azərbaycan Respublikası, Bakı şəhəri, Yasamal rayonu, "Qırmızı Şərq" hərbi şəhərciyi, Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu.
mmu-heti@mod.gov.az

**HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE**
**№1/2024**

| | |
|---|---|
| **Editor-in-chief** | PhD in National Security and Military Sciences, Colonel Rashad Tahirov |
| **Executive secretary** | Major Farahim Eyvazov |
| **Editor** | Reserved Lieutenant Colonel Merhemet Abiyev |
| **Corrector** | Nigar Abilova |
| **Designer** | Reserved Senior Warrant Officer Ilgar Huseyn |

**Editorial board members**

– Lieutenant General Azer Aliyev;
– PhD in National Security and Military Sciences, Associate Professor, Major General Arif Hasanov;
– Major General Hilal Najafov;
– Major General Namig Islamzadeh;
– Major General Anar Karimov;
– Major General Nijad Garayev;
– Major General Eldeniz Yahyayev;
– Major General Namig Bayramov;
– ScD in National Security and Military Sciences, Professor, Colonel Babir Guliyev;
– ScD in Technical Sciences, Professor Aminagha Sadigov;
– ScD in National Security and Military Sciences, Professor Elshan Hashimov;
– ScD in Mathematic Sciences, Professor Etibar Panahov;
– ScD in Technical Sciences, Professor Bayram Ibrahimov;
– ScD in History, Professor Nurulla Aliyev;
– ScD in National Security and Military Sciences, Professor Aziz Talibov;
– ScD in History, Professor Mehman Suleymanov;
– ScD in Psychological Sciences, Professor Elnara Shaphieva;
– ScD in Technical Sciences, Associate Professor Islam Islamov;
– ScD in Technical Sciences, Associate Professor Elkhan Sabziyev;
– PhD in Technical Sciences, Professor, Navy Captain Asad Rustamov;
– PhD in National Security and Military Sciences, Associate Professor, Colonel Yalchin Isayev;
– PhD in National Security and Military Sciences, Professor Heydar Piriyev;
– PhD in Physics and Mathematics, Associate Professor Arzuman Hasanov;
– PhD in Political Sciences, Associate Professor Vugar Mammadzada;
– Associate Professor, Colonel Yashar Karimov;
– Colonel of Medical Service Chingiz Ellazov.

Manuscripts, photos, illustrations received by the editorial section are not returned. An author is responsible for military scientific-theoretical views and historical facts.

While using any kind of material given in “Military knowledge” you should refer to the journal.

“Military knowledge” journal has been included in the list of recommended publications by Higher Attestation Commission under the President of the Republic of Azerbaijan for the publication of main theses of scientific researches.

**Founder:** National Defence University
www.mmu.edu.az
AZ1065, Republic of Azerbaijan, Baku, Yasamal district, “Girmizi Sherg” military settlement, National Defence University, Military Scientific Research Institute.
mmu-heti@mod.gov.az

# MÜNDƏRİCAT

*HƏRBİ NƏZƏRİ ELMLƏR*

**1918 – 1920-ci illərdə ölkənin müdafiəsində Azərbaycan Ordusunun idarəetmə orqanlarının fəaliyyəti**
*Nurulla Əliyev* ........ 7

**Yürüşün planlaşdırılması və keçirilməsi**
*Rafael Qasımov* ........ 17

**Hərbi qulluqçuların maddi təminatında yaranan çatışmazlıqlar, nizamnamədənkənar münasibətlərdə kriminogen amillər və bu kimi neqativ halların aradan qaldırılması tədbirləri**
*Elçin Salmanov* ........ 29

**Hərbi qulluqçularda psixi dayanıqlıq problemlərinin öyrənilməsi**
*Elçin Salayev* ........ 36

*HƏRBİ XÜSUSİ ELMLƏR*

**Oyunlar nəzəriyyəsi ilə kiberhücumlara qarşı məhvetmə vasitələrinin tətbiqinin araşdırılması**
*Arzuman Həsənov* ........ 45

**Azərbaycanın suverenliyinin təmin edilməsi üçün həyata keçirilən lokal xarakterli antiterror tədbirləri**
*Mehman Süleymanov, Sevinc Ələkbərova* ........ 53

**Xüsusi təyinatlı təhsil müəssisəsində müəllimin pedaqoji fəaliyyətinin və pedaqoji ustalığının xüsusiyyətləri**
*Təkminə Cabbarova, Ramil İbrahimov* ........ 65

**Dünya təhlükəsizliyinə hegemon dövlətlərin yaratdıqları qlobal təhdidlər**
*Yaşar Kərimov, Davud Kazımov* ........ 73

**Beynəlxalq humanitar hüququn beynəlxalq hüquq normaları sistemində yeri və rolu**
*Əlövsət Allahverdiyev, Aytən Hüseynova* ........ 80

**Qarabağ münaqişəsində beynəlxalq humanitar hüquq normalarının pozulması**
*Elmin Həsənov* ........ 87

**Azərbaycan Ağqoyunlu dövlətində ağır zirehli süvarilər: puşandarlar**
*Nəriman Şirəliyev* ........ 94

**Şəxsi heyətdə qəhrəmanlıq keyfiyyətlərinin formalaşmasında audiovizual təbliğat vasitələrinin rolu (Azərbaycan bədii kinosu kontekstində)**
*Əlisəfdər Hüseynov* ........ 103

# CONTENTS

*MILITARY THEORETICAL SCIENCES*

**Activities of the governing bodies Azerbaijan army for the defense of the country in 1918 – 1920**
*Nurulla Aliyev* .......... 7

**Planning, calculating and conducting of movement**
*Rafael Gasimov* .......... 17

**Measures to eliminate deficiencies in the financial support of military personnel, criminogenic factors in extrastatutory relationships, and similar negative situations**
*Elchin Salmanov* .......... 29

**Study of individual psychological characteristics of military personnel**
*Elchin Salayev* .......... 36

*MILITARY SPECIAL SCIENCES*

**Investigating the application of destructive means against cyber attacks with game theory**
*Arzuman Hasanov* .......... 45

**A local anti-terrorist event to ensure the sovereignty of Azerbaijan**
*Mehman Suleymanov, Sevinj Alakbarova* .......... 53

**Characterıstıcs of the teacher's pedagogıcal actıvıty and pedagogıcal skılls ın a specıal educatıon ınstıtutıon**
*Takmina Jabbarova, Ramil Ibrahimov* .......... 65

**Global threats posed by hegemonic states to the world's security environment**
*Yashar Kerımov, Davud Kazımov* .......... 73

**The place and role of international humanitarian law in the system of international law norms**
*Alovsat Allahverdiyev Aytan Huseynova* .......... 80

**Violation of international humanitarian law norms in the Karabakh conflict**
*Elmin Hasanov* .......... 87

**Heavily armoured cavalry units in the Azerbaijani Akkoyunlu state: pushandars**
*Nariman Shiraliyev* .......... 94

**The role of audiovisual means of propaganda in the formation of heroic qualities in personnel**
*Alisafdar Huseynov* .......... 103

**HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE**
**№1/2024, səh. 7-16**
***HƏRBİ NƏZƏRİ ELMLƏR*** ***MILITARY THEORETICAL SCIENCES***

UOT 355/359

# 1918 – 1920-ci İLLƏRDƏ ÖLKƏNİN MÜDAFİƏSİNDƏ AZƏRBAYCAN ORDUSUNUN İDARƏETMƏ ORQANLARININ FƏALİYYƏTİ

**tar.e.d., professor, e.o. 1-ci dərəcəli kapitan Nurulla Əliyev**
nurullaliyev@mail.ru
*Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu*
DOI: 10.30546/mk.2024.1.0007.

***Xülasə.*** Məqalədə milli təhlükəsizliyin təmin edilməsində və ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsində Azərbaycan Xalq Cümhuriyyəti (AXC) hökumətinin və parlamentinin rolu araşdırılmış, eyni zamanda nizami Azərbaycan Ordusunun və hərbi idarəetmə orqanlarının formalaşdırılması məsələlərinə baxılmışdır. Milli ordunun yaradılmasında, yeni hərbi nazirliyin, baş qərargahın idarəetmə orqanlarının şöbələrində zabit heyətinin işə götürülməsində obyektiv və subyektiv çətinliklər göstərilmiş, habelə Hərbi Dəniz Qüvvələrinin qərargah və idarəetmə orqanlarında, birləşmə, bölmə və gəmilərində zəngin təşkilati iş təcrübəsi olan milli kadrların xidmətə cəlb edilməsi üçün görülən tədbirlər açıqlanmışdır. Tədqiqat işində məqsəd Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan Ordusunun idarəetmə orqanlarının formalaşması prosesini və onun fəaliyyətini, hökumətin hərbi quruculuq sahəsində gördüyü tədbirlərin, Müdafiə Nazirliyi aparatının və onun müvafiq struktur bölmələri-şöbələrinin yaranmasının tarixi aspektlərinin təhlili, bu idarəetmə orqanlarına rəhbərlik üçün təcrübəli general və zabitlərin cəlb olunması, həmçinin hərbi kadrların hazırlanması məqsədilə hərbi təhsil sistemində görülən tədbirlərin araşdırılmasıdır. Problemin işıqlandırılması üçün tarixi-xronoloji və müqayisəli təhlil metodlarından istifadə edilib. Aparılan tədqiqat nəticəsində qeyd edilmişdir ki, qısa bir müddətdə milli silahlı qüvvələr diviziya, korpus və orduya bölünmüşdü, onlar müxtəlif səviyyələrdə yaradılan qərargahlar tərəfindən idarə edilirdi və bu idarəetmə orqanlarının komanda heyətində milli kadrlar üstünlük təşkil etməyə başlamışdı. Hərbi idarəetmə orqanlarında, qərargah, hərbi hissə və birləşmələrdə rus, türk və gürcü zabitləri, eləcə də digər ordulardan olan zabitlər xidmətə cəlb edilmişdi. Ordunun formalaşmasına Türkiyənin göstərdiyi böyük dəstək, o cümlədən əhəmiyyətli maddi və canlı qüvvə yardımı Azərbaycana ərazi bütövlüyünü qorumağa və gələcəkdə döyüş tapşırıqlarını yerinə yetirməyə qadir olan döyüş qabiliyyətli öz hissələrini yaratmağa imkan vermişdir.

**Açar sözlər:** müdafiə qabiliyyəti, hərbi doktrina, milli təhlükəsizlik, hərbi quruculuq, hərbi idarəetmə orqanları, müdafiə rayonu

## Giriş

İstiqlaliyyətin qazanıldığı günlərdən başlayaraq Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi və ərazi bütövlüyü üçün mövcud olan real təhlükə hökumət və parlamentdən ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə daim ciddi diqqət yetirməyi tələb edirdi [1, s.6]. Buna görə də AXC-nin milli təhlükəsizlik və hərbi quruculuq məsələləri ölkə hökumətinə həvalə edilmişdi. Birinci hökumət kabinetində hərbi nazir vəzifəsini Xosrov bəy Sultanov icra edirdi, lakin o, nazir olduğu qısa müddətdə (mayın 28-dən hökumətin istefa verdiyi 17 iyuna qədər) üzərinə düşən vəzifələri yerinə yetirməyə imkan tapmadı. Xarici işlər naziri Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılan ikinci kabinetin tərkibində belə bir vəzifə yox idi, yalnız 6 oktyabr 1918-ci ildən İ.Ziyadxanov hərbi məsələlər üzrə səlahiyyətli nümayəndə təyin edilmişdir [2, s.83].

Həmin dövrdə xarici hərbi təhlükə, ilk növbədə, həm şimaldan, həm Ağqvardiyaçı ordusundan, Denikinin Xəzər donanmasından, Qızıl Ordunun quru və dəniz qüvvələrindən, həmçinin cənub-qərbdən Ermənistanın Azərbaycana qarşı tükənməyən ərazi iddialarından qaynaqlanırdı.

Baş nazir və xarici işlər naziri F.Xoyski 1918-ci il dekabrın 26-da keçirilən parlament iclasında daxili və xarici siyasət sahəsində yeni – üçüncü Nazirlər Kabinetinin bəyannaməsini təqdim edərək qeyd etmişdir: *"Hökumətin əsas vəzifələrindən biri ölkənin ərazi bütövlüyünü qoruya biləcək hərbi qüvvənin yaradılmasıdır"* [1, s.7].

## 1. Azərbaycan Ordusunun idarəetmə orqanlarının formalaşdırılması

Milli hərbi birləşmələrin formalaşdırılması üçün ilk cəhdlər 1917-ci ilin sonu 1918-ci ilin əvvəllərində edildi. Bolşeviklərə qarşı mübarizə aparmaq üçün çox hərbi qüvvənin təmin edilməsində Türkiyə hökuməti böyük kömək göstərdi [3, s.50-51]. Qafqaz İslam Ordusunun (QİO) tərkibində olan birləşmələr 1918-ci il sentyabrın ortalarında Bakının azad edilməsində fəal iştirak etmişdir. Hökumət Gəncədən Bakıya köçdükdən sonra isə QİO-nun tərkibinə daxil olan Azərbaycan hərbi hissələrinin bazasında respublikanın nizami silahlı qüvvələrinin və onun idarəetmə orqanlarının formalaşdırılmasına başlanıldı. Belə ki, 23 oktyabr 1918-ci ildə Hərbi Nazirliyin fəaliyyətinin bərpası barədə qərar qəbul edildi. Artıq noyabrın 7-də Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə Müdafiə Nazirliyi yaradıldı [3, s.51]. Nazirliyin aparatının formalaşdırılması isə bu orqana rəhbərlik edən artilleriya generalı S.Mehmandarova tapşırıldı. Onun köməkçisi vəzifəsinə Azərbaycan korpusunun komandiri olmuş general-leytenant Ə.Şıxlinski təyin edildi [4, s.134]. Bu generallar Rus – yapon və I Dünya müharibələri zamanı böyük şöhrət qazanmış, bir çox rus və xarici dövlətlərin döyüş ordenləri ilə təltif edilmiş və 28 aprel 1920-ci ilə qədər vəzifələrini icra etmişdilər [5, s.61-62].

1918-ci il noyabrın 22-də Hərbi Nazirlik Gəncəyə köçürüldü və burada nizami Azərbaycan Ordusunun yaradılmasına və onun idarəetmə orqanlarının formalaşdırılmasına başlanıldı. 15 yanvar 1919-cu ildə müvafiq struktur bölmələri-şöbələri olmaqla doqquz şöbəyə bölünən Baş Qərargah yaradılır ki, buraya artilleriya, kvartirmeyster (ordu maddi-texniki təminat rəisi), mühəndis, kvartirmeyster generalı, növbətçi general, hərbi sanitariya, hərbi təlim, hərbi topoqrafiya, nəzarət və s. daxil idi [6, s.29].

Baş Qərargah Rəisi vəzifəsinə general-leytenant Süleyman Sulkeviç (1865 – 1920) təyin edilmişdir. 1919-cu ilin martında növbəti yenidənqurma işləri aparıldıqdan sonra əməliyyat işlərinin əlaqələndirilməsi üçün general-kvartirmeyster şöbəsi Baş Qərargahdan ayrılmış və onun bazasında qərargahın Baş İdarəsi yaradılmış, 1920-ci il martın əvvəlində general-mayor H.Səlimov Azərbaycan Ordusunun birləşmiş Qərargahının rəisi təyin olunmuşdur. Strukturun tərkibinə hərbi topoqrafiya və kvartirmeyster generalı, Hərbi rabitə və Qoşunların hərəkəti şöbələri daxil idi [4, s.134].

Ümumiyyətlə, hökumətin hərbi quruculuq sahəsində fəaliyyətinin təhlili göstərir ki, AXC Ordusunun idarəetmə orqanlarının yaradılmasına yalnız 1918-ci ilin sonundan başlanılmışdır. Belə ki, Silahlı Qüvvələrin idarəetmə orqanlarının sıralarında hərbi xidmətdə olan S.Mehmandarov və Ə.Şıxlinski kimi böyük simalarla bərabər, təcrübəli general-leytenant S.Sulkeviçi (AXC Ordusunun Baş Qərargah rəisi), general-mayor Həbib bəy Səlimovu (Ordu Baş Qərargahının Baş İdarəsinin rəisi), general-mayor İbrahim ağa Usubovu (respublikanın hərbi naziri yanında tapşırıqçısı general, 1920-ci ildən Bakı müdafiə rayonunun rəisi), general-mayor Fəzulla Mirzə Qacarı (Gəncə qarnizonunun rəisi), polkovnik İbrahim ağa Vəkilovu (Gəncə valisi, 1919-cu ildən AXC Ordusunun general-mayoru və Baş Qərargahın topoqrafik şöbəsinin rəisi), polkovnik Teymur bəy (və ya Timur) Novzurovu (1919-cu ildən Azərbaycan Ordusunun general-mayoru və 1-ci süvari tatar alayının komandiri, sonra üç süvari alayından ibarət süvari diviziyasının rəisi), kapitan Rəşid bəy Əfəndiyevi (AXC Ordusunun polkovniki, 1920-ci ildən 8-ci Ağdaş piyada alayının komandiri) və digər zabitləri göstərmək olar.

Azərbaycan Ordusu sıralarına digər dövlətlərdən zabit və generallar da cəlb olunmuşdu. Məhz bu amil sınanmış köhnə kadrların Milli Silahlı Qüvvələrin yaradılmasında, onun qurulmasının ilkin dövründə və dövlət orqanlarının kadr təminatında fəal iştirakı gənc respublikanın bu istiqamətdə qazandığı müəyyən uğurların təməli oldu.

Azərbaycanlı zabitlərin siyahısı göstərir ki, AXC Ordusunun idarəetmə orqanlarının yaradılmasının ilkin mərhələsində hökumət türk və rus ordularında xidmət təcrübəsi olan, çoxsaylı döyüşlərdə fərqlənmiş təcrübəli milli kadrlara arxalanırdı [2, s.85].

İstər respublika daxilində, istərsə də kənarda hərbi-siyasi vəziyyətin gərginləşməsi, həmçinin Denikin qoşunlarının ölkəyə hücum təhlükəsi ilə əlaqədar 1919-cu il iyunun 14-də Azərbaycanın bütün ərazisində hərbi vəziyyət elan edildi və Dövlət Müdafiə Komitəsi yaradıldı.

Bunun ardınca hərbi məhkəmə və hərbi prokurorluq nəzarəti təşkil edildi və hərbi nazirin rəhbərliyi altında "hərbi qanunvericilik və maliyyə-təsərrüfat məsələlərini həll etmək" üçün ordunun ən yüksək rütbəli şəxslərindən ibarət Hərbi Şura yaradıldı. Belə ki, 1920-ci ilin fevralında Kiçik və Böyük Hərbi Şuralar fəaliyyət göstərməyə başladı.

Kiçik Hərbi Şuranın tərkibinə hərbi nazir (sədr), hərbi nazirin köməkçisi, Bakı müdafiə rayonunun rəisi və Baş Qərargah rəisi, Qərargahın Baş İdarə rəisi, Böyük Hərbi Şuraya isə hərbi nazirin köməkçisi (sədr), Baş Qərargah rəisi, Bakı müdafiə rayonunun rəisi, Bakıda yerləşən piyada və süvari diviziyalarının komandirləri, baş artilleriya, kvartirmeyster və mühəndis idarələrinin rəisləri, hərbi gəmi və hərbi baytarlıq bölmələrinin rəhbərləri, habelə dövlət nəzarət nümayəndələri daxil idi [7, s.135, 177-178].

Bakının mühüm strateji əhəmiyyəti ilə əlaqədar olaraq general-mayor M.H.Tlexasın komandanlığı altında Bakı müdafiə rayonunun hərbi general-qubernatorluğu təsis edildi. Qeyd etmək lazımdır ki, bu hərbi qurum Bakıda öz General-Qubernatorluğunu yaradan Böyük Britaniya qoşunları getdikdən sonra fəaliyyət göstərə bildi. Hərbi qurumun ehtiyacları üçün xərclər respublika büdcəsinin ən mühüm bəndini təşkil edirdi. 1919-cu ildə bu xərclər 400 milyon rubldan çox, yəni respublika büdcəsinin dörddə birindən çoxunu təşkil edirdi. Azərbaycan hökuməti ölkənin suverenliyini qorumağa qadir olan öz silahlı qüvvələrinin dəyərini dərk edirdi. 1920-ci ildə ölkənin əsas güc strukturuna xərclərin artırılması planlaşdırılırdı, xüsusən də 1919-cu ildə 25 min nəfərlik bir ordu yaratmaq nəzərdə tutulurdusa, növbəti ildə bu rəqəm 30 min nəfərə çatdırıldı [2, s.85].

## 2. Dövlətin müdafiəsində Azərbaycan Ordusunun idarəetmə orqanlarının fəaliyyəti

Bu dövrdə ölkənin müdafiəsinin təmin olunmasında və aparılan hərbi quruculuq işlərində əsas istiqamətlərdən biri Azərbaycan Ordusunun formalaşan idarəetmə orqanları və hissələri üçün komandanlıq heyətinin hazırlanması idi. Hələ 1918-ci ilin iyun ayında Gəncədə türk zabitlərinin köməyi ilə Gizir hərbi məktəbi açılmışdı. Buraya təhsili ibtidai peşə təhsilindən aşağı olmayan şəxslər qəbul edilirdi. 1918-ci ilin oktyabrında bu məktəbin ilk sürətləndirilmiş buraxılışı oldu [8, 1997, № 4, s.54-55]. 1918-ci il oktyabrın 27-də Daxili İşlər Nazirliyinə "Bakı şəhərində üç hərbi məktəbin açılması və təchiz edilməsi üçün 50 min rubl ayrıldı" [9, OP.I, D. 21, L.130]. 1919-cu ilin noyabrında Gizir hərbi məktəbi üç bölmədən ibarət 250 dinləyici üçün nəzərdə tutulmuş hərbi məktəbə çevrildi. Burada ümumi, artilleriya və mühəndislik bölmələri (sonuncunu açmaq mümkün olmadı) tədris edilirdi. Həmçinin hərbi rəhbərliyin təşəbbüsü ilə 1919-cu il və 1920-ci ilin birinci yarısında respublikada süvari, artilleriya və istehkamçı, pulemyotçu-qumbaraatan, aviasiya, hərbi dəmir yolu və hərbi feldşer məktəbləri açıldı [6, s.29]. Ordunun kiçik zabit heyətinin hazırlığını yüksəltmək məqsədilə 1920-ci ilin aprel ayından etibarən savadsızlığı aradan qaldırmaq üçün dördaylıq təlim kursu ilə xüsusi tabor və alay məktəblərinin yaradılması nəzərdə tutulurdu [10, s.56].

Lakin milli zabit kadrlarının hazırlanması vaxt tələb edirdi və hərbi mütəxəssislərə artan ehtiyacları ödəmək üçün hökumət rus və gürcü zabitlərini cəlb etmək məcburiyyətində qalmışdı. Bu dövrdə Azərbaycanda köhnə rus ordusunun yalnız 300 nəfərə yaxın kadr zabiti qalmışdı ki, bunların da 30-dan çoxu qərargah zabiti idi [4, s.135]. Bu amili nəzərə alaraq 1919-cu ilin fevralında general S.Mehmandarovun təkidi ilə hökumətin qəbul etdiyi xüsusi qərara əsasən, hərbi nazirin razılığı olmadan Azərbaycan zabitlərinin mülki xidmətə qəbul edilməsi qadağan olundu [11, L.18].

Hərbi işlərin genişləndirilməsi əhalinin dəstəyinə səbəb olmuş [1, s.9] və göstərilən səylər nəticəsində artıq 1919-cu ilin sonunda müxtəlif səviyyələrdə hərbi idarəetmə orqanları səmərəli fəaliyyət göstərməyə başlamış, həmçinin iki piyada və bir süvari diviziyasından ibarət Azərbaycan Ordusunun Quru Qoşunları yaradılmış, bundan əlavə, türk və rus zabitlərinin köməyi ilə artilleriya briqadaları və

diviziyaları, ehtiyat alay və taborları, digər xüsusi təyinatlı qüvvələr yaradılıb. Silahlı Qüvvələrinin ümumi sayı 1920-ci ilin aprelinə qədər 30 minə çatdırılmışdır [12].

Qeyd etmək lazımdır ki, AXC hökuməti mövcud olduğu müddət ərzində hərbi quruculuq məsələsində ölkənin suverenliyinin qorunması ilə bağlı ciddi çətinlikləri dəf etməli olurdu. Belə ki, 1919 – 1920-ci illərdə Ermənistan qoşunları Zəngəzur və Qarabağı Azərbaycandan qoparmaq məqsədilə işğal etmişdi. Bu bölgədə fəaliyyət göstərən iyirmi minlik Azərbaycan Ordusu təcavüzkara layiqli cavab verərək respublikanın ərazi bütövlüyünü qoruya bildi [13, s.191–210].

1919-cu il avqustun sonunda Britaniya qoşunları Azərbaycanı tərk etdikdən sonra AXC-nin hərbi dəniz qüvvələrinin idarəetmə orqanları formalaşmağa başladı. Bu dövrə qədər Xəzərin qərbi, Azərbaycan sahillərinin müdafiəsi bütünlüklə Britaniya hərbi donanması tərəfindən təmin edilirdi. Hərbi Nazirlikdə isə donanma ilə məşğul olan idarə və ya şöbə yox idi. Xəzər Hərbi Donanmasına (XHD) gəldikdə isə, QİO tərəfindən Bakı azad edildikdən sonra “Qars”, “Ərdahan” və “Astrabad” kimi əsas gəmilər “Sentrokaspiya Diktaturası”nın hakim dairələri tərəfindən Port-Petrovsk şəhərinə qaçırılmış, yalnız 1918-ci il noyabrın ortalarında Xəzərdə öz donanmasını yaratmağa başlayan Britaniya qoşunları gəldikdən sonra geri qaytarılmışdır [14, s.173-175].

1919-cu il avqustun sonunda Britaniya qoşunları Cənubi Qafqaz və Xəzərdəki fəaliyyətlərini məhdudlaşdırmağa başladı, qoşunlarını bölgədən, o cümlədən Azərbaycandan təxliyə edərək hərbi-dəniz qüvvələrini denikinçilərə təhvil verdi. 1919-cu ilin iyulunda əldə edilmiş razılaşmaya əsasən, sentyabrın əvvəlinə qədər Britaniya qoşunları 11 köməkçi kreyser, Uaythed minaları olan 12 sürətli qayıq, 54 silah, təxminən 23 min mərmi və s. avadanlığı I dərəcəli kapitan A.Sergeyevin komandanlıq etdiyi denikinçi XHD-yə qaytardı [14, s.183; 1, s.11].

Böyük Britaniya qoşunlarının bu hərəkəti Azərbaycan hökumətinin əsaslı narahatlığına səbəb oldu. 1919-cu il avqustun 1-dən baş nazir N.Usubbəyov və xarici işlər naziri M.Y.Cəfərovun imzası ilə Böyük Britaniya qoşunlarının Bakıdakı komandanlığına ünvanlanan məktubda həmin ilin 30 iyul tarixli “Rossiya” qəzetində XHD-nin İngiltərə komandanlığı tərəfindən Könüllü Orduya təhvil verilməsi barədə xəbər dərc edildiyi bildirilirdi: *“Dövlətin toxunulmazlığı və ərazi bütövlüyünün keşiyində duran, habelə ölkədə əmin-amanlığın və asayişin qorunmasında maraqlı olan AXC hökuməti hazırda ölkəni Xəzər dənizində xarici hücumlara qarşı bu qədər çətinliklə əldə edilmiş təhlükəsizlik zəmanətindən məhrum edən bu cür güclənməyə imkan verə bilməz, çünki bu təhlükəsizlik XHD-nin bu zamana qədər əhali arasında böyük nüfuz və etimada malik olan Böyük Britaniya Komandanlığının tabeliyində olması sayəsində qoruna bilər”* [15, L.19]. Məktubda belə bir məlumat da xüsusi vurğulanırdı: *“Xəzər Hərbi Donanmasının bir hissəsinin Könüllü Orduya verilməsi Azərbaycanın müstəqilliyi və ərazi toxunulmazlığı üçün birbaşa təhlükədir və əhali arasında təbii ki, narahatlıq doğurmaya bilməz. Bu, Azərbaycana qarşı düşmən qüvvələrin güclənməsi səbəbindən onun həyati maraqlarına məhəl qoymamaq aktıdır”* [15, L.19].

Məktubun yekununda Böyük Britaniya Komandanlığından XHD-nin bir hissəsinin Denikinə verilməsi qərarının ləğv edilməsi xahiş olunurdu [15, L.19]. Məktub Bakıdakı Böyük Britaniya qoşunlarının komandanlığı tərəfindən İngiltərə Silahlı Qüvvələrinin Ali komandanlığına yönləndirilmişdi [16, s.133].

Azərbaycan hökumətinin bütün xahiş və xəbərdarlıqlarına baxmayaraq, gəmilərin əksəriyyəti Denikinçilərə təhvil verildi və bu da AXC-nin təhlükəsizliyinə təhdid yaratdı. 1919-cu ilin sentyabrında tərtib edilmiş sənədlərin birində qeyd olunurdu: *“Xəzər Donanmasının Denikinə verilməsi Azərbaycan paytaxtına birbaşa təhlükədir”* [17, s.130].

1919-cu ilin yayında Muğanla bağlı hərbi-siyasi hadisələr göstərdi ki, AXC öz sahillərinin dənizdən gələn təhlükədən etibarlı müdafiəsini təmin etməlidir. Hakimiyyətə qarşı silahlı qiyam qaldıran bolşeviklər burada kiçik bir “Muğan – Lənkəran hərbi Donanması” yaratdılar ki, buraya da müəyyən silahlarla möhkəmləndirilmiş “Dmitri Milyutin” paroxodu, “Görüş”, “Fasilə”, “Kür”, “Bayılov” və “Xəzər” döyüş gəmiləri, həmçinin 47 mm-lik silah və pulemyotlarla silahlanmış bir neçə motorlu barkas daxil idi [4, s.140–141]. Xəzər dənizinin cənub-qərb sahili boyunca hərəkət edən bu donanma kəşfiyyat aparır, sahilyanı müdafiə bölmələri arasında operativ əlaqə yaradır, AXC Ordusunun irəliləyən hərbi

hissələrini dənizdən atəşə tuturdu. Bəzən donanmanın sürətli qayıqlarının Bakıdan 30 – 32 mil aralı məsafədə görünməsi yerli hakimiyyət orqanlarında ciddi narahatlıq yaradırdı. Bolşeviklər tərəfindən təşkil edilən və 1919-cu ilin yazından fəaliyyətə başlayan “Xüsusi Dəniz Ekspedisiyası” (XDE) da hakimiyyət orqanlarını çətin vəziyyətə saldı. XDE-yə təxminən iyirmi balıqçı gəmisi və motorlu barkas, həmçinin 200 nəfər dənizçi daxil idi. Həştərxana gizli şəkildə böyük miqdarda neft və neft məhsulları tədarük edən bu ekspedisiyanın qayıqları qayıdarkən Bakıya yaraqlı dəstələri, silahlar, döyüş sursatları və s. gətirirdi [18, s.42-45]. Bütün bu amilləri nəzərə alan Azərbaycan hökuməti ölkənin Hərbi Dəniz müdafiəsinin gücləndirilməsi üçün praktiki tədbirlər görməyi nəzərdə tuturdu.

Respublika Hərbi Dəniz Qüvvələrinin idarəetmə orqanlarının formalaşmasında Azərbaycan hökuməti təkcə hərbi-texniki bazanın zəifliyi ilə deyil, həm də hərbi dənizçilik sahəsində komanda heyətinin və təcrübəli mütəxəssislərin kəskin çatışmazlığı ilə bağlı obyektiv və subyektiv çətinliklərlə üzləşməli oldu [1, s.28-29; 18, s.42-45]. Bu fakt özünü ölkənin hərbi-dəniz qüvvələrinin milli zabit kadrları ilə təchiz edilməsində aydın şəkildə göstərdi [19, s.23]. Donanmanın ən böyük “Qars” və “Ərdahan” döyüş gəmilərində faktiki olaraq ali hərbi dənizçilik təhsili almış bir azərbaycanlı zabit yox idi. Yalnız “Ərdahan” və “Astrabad” gəmilərinin komandirləri Dəniz Xidmətinin kapitanı Həsən Çilingirzadə və 1-ci dərəcəli kapitan Kitabçızadə azərbaycanlı idilər [4, s.143].

Gəmilərin şəxsi heyəti ilə də eyni mənzərə müşahidə olunurdu. Belə ki, burada xidmət edən azərbaycanlılar ticarət donanmasından olduqları üçün hərbi dənizçilik təcrübələri yox idi. Bu amil donanmanın idarəetmə orqanlarının yaradılmasına imkan vermirdi. Həmçinin Hərbi Nazirlikdə donanma ilə məşğul olan idarə və ya şöbə belə yox idi və XHD ilə bağlı bütün məsələlərin həlli, ilkin olaraq, Nəqliyyat Nazirliyinin səlahiyyətinə verilmişdi.

Buna baxmayaraq hökumət hələ də dəniz işlərini qaydasına salmağa çalışırdı. İlk olaraq bütün hərbi-dəniz məsələlərini hərbi idarənin əlində cəmləşdirmək üçün Baş Qərargahın nəzdində tərkibi baş köməkçi (dəniz zabiti), onun müavini və köməkçisi, iki katib və iki kuryerdən ibarət 6 nəfərlik xüsusi bir dəniz şöbəsi yaradıldı [20, ll. 7, 72]. 5 dekabr 1919-cu ildə Bakı limanında dayanan və Azərbaycanın sahil müdafiəsi üçün istifadə edilməsi nəzərdə tutulan “Qars” və “Ərdahan” silahlı qayıqlarının yoxlanılması üçün xüsusi komissiya yaradıldı [24 21, s.12]. Ümumi olaraq, Azərbaycan XHD-nin tərkibinə səkkiz ədəd 75 mm-lik, 100 mm və 120 mm-lik silahlarla təchiz edilmiş iki qayıq, “Ərdahan” və “Qars”, “Astrabad”, “Göy-Təpə”, “Araks”, “Nargin” köməkçi gəmiləri, “Oryol” nəqliyyat vasitələri, “Puşkin” silahlı paroxodu, habelə az sayda qayıq daxil idi [17, s.133].

Keçmiş Bakı Hərbi Dəniz Aviasiyası Məktəbinin bazasında hərbi dəniz aviasiyasının təşkili üçün də tədbirlər görülürdü. Bu məktəbin maddi-texniki təminat vəziyyəti 1919-cu ilin payızına qədər qənaətbəxş deyildi. Bakı Şəhər İdarəsinin təşkil etdiyi xüsusi komissiya tərəfindən aparılan yoxlama nəticəsində 1919-cu ilin avqust ayının sonunda anqarda mühərriki və pərləri olmayan 10 hidroaeroplan, həmçinin bu aparatlar üçün yeni ehtiyat qanadlar aşkar edildi [12, l.3]. 19 avqust 1919-cu ildə hərbi pilot leytenant Xan Avşar Temurçin Azərbaycan Ordusuna hərbi xidmətə qəbul edildi, sentyabrın 14-də isə dəniz aviasiyası dəstəsi yaradıldı [4, s.143-144]. 26 yanvar 1920-ci ildə Hərbi Şura bu eskadronun yeni heyətini təsdiqlədi.

Hökumət donanmanın və dəniz aviasiyasının texniki təchizatı üçün tədbirlər gördü. Belə ki, Paris Sülh Konfransında Antantanın Ali Şurasına təqdim olunan memorandumda Azərbaycan hökumətinin müttəfiq dövlətlərə ordu ilə yanaşı, öz donanmasının sualtı qayıqlarla, lazımi gəmi artilleriyası və mərmi ehtiyatı ilə, limanın tam hərbi texnika ilə, hidroaeroplanlar, naqilsiz teleqraflar, optik qurğular və digər hərbi-texniki avadanlıqlarla təchiz olunmasına köməklik göstərilməsinə dair müraciəti əks olunurdu [25 22, s.73]. Xüsusilə, donanmanın təchiz edilməsi üçün 6 sualtı qayıq, müxtəlif sinifli döyüş gəmiləri, dəniz artilleriya silahları sifariş edildi [10, s.38]. Lakin 1920-ci ilin aprel ayının sonlarında baş verən məlum hadisələrlə əlaqədar bu işlər başa çatdırılmadı.

Şimaldan real təcavüz təhlükəsini nəzərə alaraq, hökumət əsas hərbi-strateji əhəmiyyətə malik olan Bakı sahillərinin hərbi-dəniz müdafiəsinin təşkilinə xüsusi diqqət yetirirdi.

Baş Qərargah rəisi general-leytenant S.Sulkeviç tərəfindən 1919-cu ilin avqustunda tərtib edilərək hərbi nazir S.Mehmandarova göndərilən məxfi hesabatda Azərbaycan üçün əlverişsiz olan Xəzər

dənizində yaranmış vəziyyətdən, bolşeviklərin təhdid etdiyi Həştərxandan və ağqvardiyaçıların Port-Petrovsk tərəfdən Bakıya yönəltdikləri ikiqat təhlükədən bəhs edilirdi. Bakı şəhərinin dəniz tərəfdən tamamilə açıq olduğunu nəzərə alaraq, generalın fikrincə: *"Hər an, hətta Bakı şəhər administrasiyasının ərazisinə belə eniş gözləmək mümkündür"* [7, s.348]. Bundan əlavə, general müvafiq tədbirlərin görülməsini, o cümlədən dəniz müşahidəsinin qurulmasını, dəniz tərəfdən Bakı istiqamətində gələn təhdidlərin qarşısını almaq üçün artilleriya müdafiəsinin hazırlanmasını və nəhayət, dəniz polisi və dəniz poçt patrulunun yaradılmasını təklif edirdi [4, s.144].

Hesabatda, həmçinin sahil müdafiəsi və dəniz kəşfiyyatının təşkili üzrə konkret tədbirlər öz əksini tapırdı. Mövcud vəziyyətdə Azərbaycanda hərbi gəmilərin olmadığı nəzərə alınaraq, öncədən top və pulemyotlarla təchiz olunmuş, azərbaycanlılardan ibarət komandası olan iki gəmidən istifadə etmək təklif olunurdu. Bundan əlavə, bu məqsədlər üçün bir neçə barkas və motorlu qayığın tələb edilməsi və istifadəsi nəzərdə tutulurdu. General S.Sulkeviçin fikrincə, bu, Mixaylovka (aşağı bərə) Bandovana burnuna və imkan olduqda Astaraya qədər bütün sahil zonasını idarə etməyə imkan verirdi [4, s.145].

Bakı sahilinin əlverişli konfiqurasiyasını, Şıxov burnunun, Nargin adasının və Sultan (Zığ) burnunun mövcudluğunu nəzərə alaraq, onların üzərində artilleriya sistemləri yerləşdirməklə paytaxtın sahilboyu müdafiəsinin effektiv sistemini yaratmaq mümkün idi. Bu mövqelərdən edilən çarpaz artilleriya atəşi Bakı körfəzinə və daha sonra limana girişi bağlamağa imkan verirdi. Artıq 1919-cu ilin 13 sentyabr tarixində S.Mehmandarov baş nazir N.Usubbəyova: *"Artilleriya və mühəndislik hissələri üzrə görülən tədbirlər, əvvəlki səngərlərin yenilənməsi, məftil hasarların quraşdırılması, Bakı körfəzinə girişi əhatə edən batareyalar üçün yerlərin seçilməsi, 1915 – 1916-cı illərdə fəaliyyət göstərən telefon rabitəsinin bərpa edilməsi"* barədə məlumat vermişdir.

Daha sonra hərbi nazir Bakının müdafiəsinin təşkili ilə bağlı bütün işləri bir idarəçilik altında birləşdirmək üçün həmin gün Dövlət Müdafiə Komitəsinin (DMK) qərarı ilə təsis edilən Bakı hərbi general-qubernatoru vəzifəsinin əvəzinə Bakı müdafiə rayonunun rəisi vəzifəsinin təsis edilməsini təklif etdi [7, s.137]. Eyni vaxtda S.Mehmandarov da öz əmri ilə Bakı müdafiə rayonunu strateji əhəmiyyətinə görə I dərəcəli qala adlandırdı. Onun sərhədləri Xəzər dənizinin Qızılburundan Ələt də daxil olmaqla sahillərini əhatə edirdi. Bakı müdafiə rayonunun rəisinə üzən vasitələri olan hərbi liman, Xəzər dənizinin sahilində yerləşən bütün artilleriya bölmələri, habelə qarnizon qoşunları və qurumları tabe idi [7, s.136-137].

Sentyabrın 16-da DMK-nın Bakı müdafiə rayonu rəisinə ölkənin müdafiəsi üçün lazım olan hər cür avadanlıqları rekvizisiya etmək hüququ verildi. Oktyabrın 26-da şəhərin hüquq-mühafizə orqanları da ona tabe oldu. Bakı müdafiə rayonunun rəisi general-mayor Murad Girey Tlexas, qərargah rəisi isə polkovnik İ.Hacıbəyli idi [7, s.138].

Bakı müdafiə rayonu qoşunlarının tərkibinə bir alay, fövqəladə şərait üçün isə iki piyada alayı daxil idi. Üstəlik, qarnizonun bütün hissələri tezliklə müharibə şəraitinə uyğun tərtiblənməli və bütün komanda heyəti möhkəmləndirilmiş mövqelərlə tanış olmalı idi [7, s.367-369].

1920-ci ilin əvvəlində Dövlət Müdafiə Komitəsinin qərarı ilə Bakı ərazisinin müdafiəsi üçün Dövlət Xəzinədarlığının vəsaitindən Hərbi Nazirliyə 6 milyon rubl məbləğində kredit açıldı. Ümumilikdə isə Hərbi Nazirliyin Bakının müdafiəsinin mühəndis hissəsi üçün fövqəladə xərclər smetası 14 milyon rubl təşkil edirdi [7, s. 370].

Bu tədbirlər, ilk növbədə, gizli bolşevik qrupları üçün Bakıya silah-sursat ötürülməsinin, habelə Həştərxana qanunsuz neft və neft məhsullarının ixracının qarşısını almaq məqsədi daşıyırdı.

Həmçinin Azərbaycan Ordusunda bolşevik təbliğatının qarşısını almaq üçün hərbi rəhbərlik təsirli tədbirlər görməyə çalışırdı. 1919-cu il aprel ayının əvvəlində Baş Qərargah Rəisi general-leytenant S.Sulkeviç qarnizon rəislərinə *"Qoşunlarda bolşevizmin təbliğatına nəzarət etmək üçün tədbirlər görmək"* əmrini verdi [23; 24, s.138]. Baş Qərargahın Baş İdarəsinin Əks-kəşfiyyat şöbəsinin orduda bolşevik təbliğatına qarşı mübarizə vəzifəsinin öhdəsindən gələ bilməməsi səbəbindən oktyabr ayında Hərbi Nazirlik Daxili İşlər Nazirliyi yanında qoşunlarda siyasi polis vəzifəsini yerinə yetirən xüsusi cinayət-axtarış şöbəsinin yaradılmasını təklif etdi [26]. Ancaq bütün bu tədbirlər gözlənilən nəticəni vermədi.

Bununla yanaşı, Qafqaz – Xəzər regionunda hərbi-siyasi hadisələr 1920-ci ilin yazında sürətlə bolşevik Rusiyasının xeyrinə inkişaf etməyə başladı. Fevralın 6-da Qızıl Ordu Orta Asiyanın dəniz qapısı olan Krasnovodsk liman şəhərini işğal etdi. Denikin qoşunlarının məğlubiyyətindən və mart ayında Qızıl Ordu tərəfindən Stavropol, Pyatiqorsk, Armavir, Novorossiysk və Qroznı şəhərlərinin işğalından sonra bölgədəki bütün hərbi-strateji vəziyyət kökündən dəyişdi. XI Qızıl Ordu hissələri martın 30-da Port-Petrovsk, bir neçə gün sonra isə Dərbənd şəhərini ələ keçirdi. Üstəlik, Qafqaz Cəbhəsinin İnqilabi Hərbi Şurasına 2 aprel 1920-ci il tarixli teleqramında V.İ.Lenin dönə-dönə və ciddi şəkildə tövsiyə edərək qeyd edirdi: *"Diqqətli davranın və müsəlmanlara qarşı maksimum xoşməramlılıq nümayiş etdirməyi unutmayın, xüsusən də Dağıstana daxil olarkən. Müsəlmanlara, onların muxtariyyətinə, müstəqilliyinə və s. rəğbəti ən təntənəli şəkildə nümayiş etdirin"* [25, c.241].

Xəzər dənizinin sularında Volqa – Xəzər Hərbi Donanması (VXHD) 1920-ci ilin mart-aprel aylarında bir neçə döyüşdə ağqvardiyaçıların XHD-ni məğlub etdi. Bu donanmanın gəmilərinin əksəriyyəti ağqvardiyaçılar tərəfindən oradakı Böyük Britaniya qüvvələrinin mühafizəsi altında Ənzəli limanına qaçırılmışdı [26, s.112-113]. Aprelin 5-də Aleksandrovski qalası, aprelin 13-də Çeçen adası hərbi-dəniz qüvvələri tərəfindən hücum edilərək alındı, daha sonra VXHD Həştərxandan Port-Petrovsk şəhərinə köçürüldü.

Nəticədə, XI Qızıl Ordu və VXHD Azərbaycanın quru və dəniz sərhədlərinə çatdı. Qafqaz Cəbhəsi Komandanlığının qarşısına qısa müddətdə Bakı neft-sənaye rayonunu ələ keçirmək və İran sərhədlərinə çatmaq vəzifəsi qoyulmuşdu. Azərbaycan Ordusunun Zəngəzur və Qarabağdakı erməni təcavüzünün dəf edilməsində iştirak etməsi ilə bu vəzifənin icrası asanlaşdı [27, s.82–83].

XI Qızıl Ordu bir sıra hərbi əməliyyatlar keçirərək 1920-ci ilin may ayının ortalarına qədər Azərbaycanın bütün ərazisini işğal etdi. 29 aprel 1920-ci ildə – Bakının işğalından dərhal sonra V.İ.Lenin: *"... artıq bütün sənayemizi canlandıra biləcək bir iqtisadi bazaya sahib olduğumuzu anlamaq olar"* – deyərək məmnunluqla qeyd etmişdir [28, s.332].

XI Qızıl Ordu və VXHD tərəfindən aprelin 27 – 28-də həyata keçirilən Bakı əməliyyatı Azərbaycan Respublikasının müstəqilliyinin ləğv edilməsinə və Xəzər dənizinin bütün qərb sahillərində Sovet nəzarətinin bərqərar olmasına gətirib çıxardı.

## Nəticə

Beləliklə, 1919-cu ildə milli silahlı qüvvələr diviziya, korpus və orduya bölünmüşdü, onlar müxtəlif səviyyələrdə yaradılan qərargahlar tərəfindən idarə edilirdi. Silahlı Qüvvələrin komanda heyəti və bütövlükdə idarəetmə orqanlarının zabitləri I Dünya müharibəsində iştirak təcrübəsinə malik idilər. Bu baxımdan çox yüksək peşəkarlıq hazırlığı ilə fərqlənirdilər. Ordu və donanmanın komanda heyətində və qərargahlarında milli kadrlar üstünlük təşkil etməyə başlamışdı. Hərbi idarəetmə orqanlarında, qərargah, hərbi hissə və birləşmələrdə rus, türk və gürcü zabitləri, eləcə də digər ordulardan olan zabitlər xidmət edirdilər. Ordunun formalaşmasına böyük dəstək yaxın tərəfdaşların, ilk növbədə, Türkiyənin cəlb edilməsi oldu. Türkiyənin göstərdiyi əhəmiyyətli maddi və canlı qüvvə yardımı Azərbaycana ərazi bütövlüyünü əldə etməyə və gələcəkdə döyüş tapşırıqlarını yerinə yetirməyə qadir olan döyüş qabiliyyətli öz hissələrini yaratmağa imkan verdi.

Bununla belə, 1918 – 1920-ci illərdə kifayət qədər güclü və döyüş qabiliyyətli Silahlı Qüvvələrin yaradılmasının mümkün olmamasının əsas səbəbi AXC hökumətinin qısaömürlü olması ilə yanaşı, həm də Azərbaycan Ordusunun zəif hərbi-texniki təchizatı, milli zabit kadrları və mütəxəssislərlə kifayət qədər təmin edilməməsi idi. Bu, xüsusilə, yüksək ixtisaslı komanda və mühəndis kadrları hazırlamaq üçün praktiki olaraq heç bir bazanın olmadığı ölkənin Hərbi Dəniz Qüvvələrinin idarəetmə orqanlarında və gəmilərində özünü göstərirdi.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Əliyev, N.A. Azərbaycanda Hərbi Dəniz Qüvvələri üçün kadr hazırlığı (1918–1997-ci illər) / N.A.Əliyev. – Bakı: Səda, – 1999. – 137 s.
2. Муханов, В. По следам Азербайджанской Демократической Республики / В.Муханов, М.Волхонский – Москва: Европа, – 2007. – 256 с.
3. Асланов, Э.М. О вооружённых силах Азербайджанской Демократической Республики (1918–1920 гг.) / А.Я.Ахундов, С.Ф.Абдуллаева, Ф.Б.Алиева [и др.] // World Science, – Варшава: – 2018. с. 5., № 2(30), – с. 50–54.
4. Алиев, Н.А. Военно-морская история Азербайджана / Н.А.Алиев. – Баку: Элм, – 2002. – 347 с.
5. Ибрагимов, С. Полный генерал от артиллерии А.Шихлинский // – Баку: Харби Билик, – 1993. №3, – с. 60–64.
6. Дарабади, П.Г. О вооружённых силах Азербайджанской Демократической Республики (1918–1920 гг.) // – Баку: Известия Академии наук Азерьайджана. Серия истории, философии и права, – 1991. №11, – с. 27–34.
7. Азербайджанская Демократическая Республика: 1918-1920 гг. / Главное Архивное Управление при кабинете министров Азербайджанской Республики. Армия: документы и материалы / Под ред. В.Т.Агаев, Ф.А.Асланова, М.Д.Ельдарова, Ч.Д.Садыхлы. – Баку: Азербайджан, – 1998. – 440 с.
8. Əliyev, N.A. Azərbaycanda hərbi təhsil / N.A.Əliyev. – Bakı: AZpoliqrAF, – 2021. – 600 s.
9. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi, 1918–1920 // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 894, siyahı №1, iş № 21, vərəq – 48-49; siyahı №10, iş № 86, № 108, vərəq – 12-14.
10. Стеклов, А. Армия мусаватского Азербайджана / А.Стеклов. – Баку: Азгосиздат, – 1928. – 74 с.
11. Təhsil Nazirliyi // Azərbaycan Respublikası Dövlət tarix Arxivi, Fond № 51, siyahı №2, iş №4, vərəq – 24-26.
12. Bakı Şəhər Şurası // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 2802, siyahı №1, iş №367, vərəq – 73-75.
13. Дарабади, П.Г. Военно-политическая история Азербайджана (1918–1920) / П.Г.Дарабади. – Баку: Издательский дом Кавказ, – 2013. – 296 с.
14. Алиев, Н.А. Геополитика в Кавказско-Каспийском регионе и Азербайджан / Н.А.Алиев, П.Г.Дарабади – Баку: АФполигрАФ, – 2017. – 288 с.
15. Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 570, siyahı №1, iş № 196, vərəq – 114-116.
16. Из истории иностранной интервенции в Азербайджане. 1918–1920 гг. Документы и материалы. // Архив Азербайджана, № 1-2, – 226 с.
17. Дарабади, П.Г. Военно-политическая борьба за Баку и Каспий в 1918–1920 гг. // – Баку: Возрождение – XXI век, – 1999. №21–22, – с. 126-138.
18. Агаев, К.А. Особая морская экспедиция / К.А.Агаев. – Баку: Азернешр, – 1967. – 71 с.
19. Джангиров, М.Б. Коммунистическая партия – организатор интернационального воспитания личного состава Военно-Морского Флота в годы Великой Отечественной войны / М.Б.Джангиров. – Баку: КВВМКУ им. С.М.Кирова, – 1971. – 84 с.
20. Hərbi Nazirliyin Baş Qərargahının Baş İdarəsi // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 2898, siyahı №1, iş № 13, vərəq – 17-18.
21. Hərbi Dəniz Donanmasının Rusiya Dövlət Arxivi, Fond № 562, siyahı №2, iş № 31, vərəq – 111-112.
22. Гусейнов, И.А. Историческое значение большевистского лозунга “Независимый Советский Азербайджана” // – Баку: Ученые записки АГУ им. С.М.Кирова. Серия общественных наук, – 1957. №10, – с. 63–83.
23. История Азербайджана: [в 3 томах] / Под. ред. И.А.Гусейнов [и др.] – Баку: Издательство АН Азерб. ССР, – т. 3. – 1963. – 545 с.

24. Дарабади, П.Г. Военные проблемы политической истории Азербайджана начала XX века / П.Г.Дарабади. – Баку: Элм, – 1991. – 205 с.
25. Ленин, В.И. Военная переписка (1917–1920) / В.И.Ленин. – Москва: Воениздат, – 1987. – 268 с.
26. Маковский, А.А. Каспийская Краснознаменная / А.А.Маковский, Б.М.Радченко – Москва: Воениздат, – 1961. – 206 с.
27. Həsənov, A.H. 1918–1920-ci illərdə erməni təcavüzünün dəf olunmasında Azərbaycan Ordusunun rolu / A.H.Həsənov, D.R.Hüseynova // AR SQHA-in "Milli Təhlükəsizlik və Hərbi Elmlər" elmi-praktik jurnalı, – Bakı: – 2016. №2, – s. 80–86.
28. Ленин, В.И. Полное Собрание Сочинений / В.И.Ленин. – Москва: Издательство политической литературы, – т. 40. – 1974. – 506 с.

**Аннотация**
**Деятельность органов управления**
**Азербайджанской армии по обороне страны в 1918 – 1920 гг.**
**Нурулла Алиев**

В представленной статье исследуется роль правительства и парламента Азербайджанской Республики в обеспечении национальной безопасности и укреплении обороноспособности страны, а также рассматриваются вопросы формирования регулярной Азербайджанской армии и органов военного управления. В ней показаны объективные и субъективные трудности при создании национальных вооружённых сил, комплектовании офицерским составом во вновь созданном Военном министерстве, органах управления и отделов Генерального штаба, а также раскрываются предпринятые меры по привлечению к службе в штабах и органах управления, в соединениях, частях и на кораблях ВМС национальных кадров, имевший богатый опыт организационной работы. Цель исследования является раскрытия процесса формирования в Азербайджанской Армии органов управления и их деятельность в период Азербайджанской народной республики. В ходе исследования данной проблемы основными обязанностями были анализ деятельности правительства в области военного строительства, исследование исторических аспектов в деле создания аппарата Министерство Обороны и его соответствующих структурных подразделений-отделов, анализ по привлечению в данные органы военного управления опытных генералов и офицеров, а также принимаемых мер в военной образовательной системе в деле подготовки военных кадров. В статье для раскрытия поставленной проблемы использовалось историко-хронологический и сравнительный методы исследования. В заключительной части статьи отмечается, что в короткие сроки национальные вооружённые силы имели чёткую организационную структуру, где были сведены в дивизии, корпуса и армии, а управление ими осуществляли созданные штабы управления различных уровней, в командном составе данных органах управления стали преобладать национальные кадры. В органах военного управления, штабах и войсковых частях, и соединениях служили также бывшие турецкие, российские, грузинские офицеры, а также из других армий. В становлении армии огромная поддержка, а также значительная материальная и людская помощь Турции позволила Азербайджану обрести территориальную целостность и создать в дальнейшем собственные боеспособные части, способные решать боевые задачи.

**Ключевые слова:** обороноспособность, военная доктрина, национальная безопасность, военное строительство, органы военного управления, укреплённый район

**Abstract**

**Activities of the governing bodies**
**Azerbaijan army for the defense of the country in 1918 – 1920**
**Nurulla Aliyev**

This article examines the role of the government and parliament of the Republic of Azerbaijan in ensuring national security and strengthening the country's defense capability, and also discusses the formation of a regular Azerbaijani army and military command and control bodies. It shows the objective and subjective difficulties in creating the national armed forces, recruiting officers in the newly created War Ministry, management bodies and departments of the General Staff, and also reveals the measures taken to attract service in headquarters and command bodies, in formations, units and at Navy ships of national personnel who had rich experience in organizational work. The purpose of the study is to reveal the process of formation of governing bodies in the Azerbaijan Army and their activities during the period of the Azerbaijan People's Republic. During the study of this problem, the main responsibilities were the analysis of the government's activities in the field of military development, the study of historical aspects in the creation of the Ministry of Defense apparatus and its corresponding structural units and departments, the analysis of the involvement of experienced generals and officers in these military command bodies, as well as the measures taken in the military educational system in the training of military personnel. The article used historical, chronological and comparative research methods to reveal the problem posed. In the final part of the article, it is noted that in a short time the national armed forces had a clear organizational structure, where they were consolidated into divisions, corps and armies, and they were managed by established control headquarters at various levels; national personnel began to predominate in the command composition of these control bodies. Former Turkish, Russian, Georgian officers, as well as from other armies, also served in military command and control bodies, headquarters and military units and formations. In the formation of the army, enormous support, as well as significant material and human assistance from Turkey, allowed Azerbaijan to gain territorial integrity and subsequently create its own combat-ready units capable of solving combat missions.

**Keywords:** defense capacity, military doctrine, national security, military construction, military command and control, fortified area

*Məqalə redaksiyaya daxil olmuşdur: 11.01.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 12.01.2024*
*Çapa qəbul edilmişdir: 17.01.2024*

**HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE**
**№1/2024, səh. 17-28**
***HƏRBİ NƏZƏRİ ELMLƏR*** ***MILITARY THEORETICAL SCIENCES***

UOT 355/359

# YÜRÜŞÜN PLANLAŞDIRILMASI VƏ KEÇİRİLMƏSİ

**polkovnik Rafael Qasımov**
rafo-q@rambler.ru
*Hərbi İdarəetmə İnstitutu*
DOI: 10.30546/mk.2024.1.0017.

***Xülasə.*** Müasir dövrdə birliklərin və idarəetmə məntəqələrinin yürüşünün təşkili komandir və qərargahların işinin əhəmiyyətli tapşırıqlarından biridir. Ta qədim dövrlərdən bu günə qədər dəyişən tələb, yalnız yürüş keçirən birliyin mümkün qədər kiçik tərkibdə olmasıdır. Maskalanma, qoşunların gizli idarəedilməsi qaydalarına riayət, planlaşdırmanın maksimum dəqiqliklə həyata keçirilməsi və döyüş sənədlərinin hazırlanması tələbləri dəyişməzdir. Yürüşün planlaşdırılması və döyüş sənədləri üzrə müxtəlif ədəbiyyat və rəhbər sənədlərdə göstərilən məlumatların bir araya gətirilməsi və Azərbaycan Ordusunun komandir və qərargahlarına təqdim olunması olduqca əhəmiyyətlidir. Məlumatlar, NATO standartlarına uyğun təşkilati (adi) və taktiki yürüşün əsaslarını, səfər düzülüşü qaydalarını, nəzarət tədbirlərini, sutkanın vaxtının, ərazi və hava şəraitinin (iqlimin) xüsusiyyətlərinin təsirlərini əhatə etməlidir. Məqalədə əks olunan yerdəyişmə üzrə tarixi nümunələr, əsaslar, planlaşdırma faktorları və hesablama üsulları komandir və qərargah zabitlərinin biliklərini təkmilləşdirməli, yürüş əmri və onun əlavələrinin (xüsusən də yürüş tətbiq krokisinin, yürüşün vaxt cədvəlinin) hazırlanmasına müvafiq standart baxışın formalaşmasının əsasını təşkil etməlidir.

Məqalədə, həmçinin birliklərin öz hərəkəti ilə, müxtəlif nəqliyyat vasitələrində daşınmaqla yerdəyişməsinin ümumi əsasları və planlaşdırılması haqqında geniş məlumatlara əlavə olaraq yerdəyişmə tarixinin nümunələri göstərilmiş və praktiki hesablamalar aparılmışdır.

**Açar sözlər:** yürüş, yerdəyişmə, daşınma, birlik, idarəetmə məntəqəsi

## Giriş

Azərbaycan Ordusunda qoşun növü və xidmətlərinin birlik və idarəetmə məntəqələrinin mütəşəkkil və vaxtında yerdəyişməsi daima diqqət mərkəzindədir. Müasir dövrdə birliklərin mütəşəkkil şəkildə yerdəyişməsi, müvafiq ərazidə yerləşməsi və tətbiq edilməsi öz aktuallığını itirməyib. Yüksək texnologiyanın inkişaf etdiyi bu dövrdə birliklərin fəaliyyətləri qarşı tərəfdən dəqiqliklə izlənilir və onlara maneələr yaradıla bilir, lakin buna baxmayaraq şəxsi heyətin və texnikanın yerdəyişməsi, ərazidə yerləşməsi təşkil edilməlidir. Düşmənin təsiri, yerdəyişmə keçirənlərin imkan və qabiliyyətləri, yolların vəziyyəti və hava şəraiti planlaşdırmada diqqətlə nəzərə alınmalıdır ki, birliklər və idarəetmə məntəqələri yeni bölgədə öz tapşırıqlarını uğurla yerinə yetirsinlər.

Bu məqalədə birliklərin əsas yerdəyişmə üsulu olan yürüşün əsasları, planlaşdırma faktorları, nəzarət tədbirləri və hesablama xüsusiyyətlərinə baxılmışdır.

## Əsas hissə

**Tarixə nəzər.** Hərb sənəti tarixində qoşunların yerdəyişməsinin bir çox parlaq nümunələrini göstərmək olar. Məsələn, 21 sentyabr 1799-cu ildə feldmarşal Suvorovun Alp dağlarından keçidi başladı. Rus sərkərdəsi çevikliklə və basqınla fransız birliklərinin həssas yerinə zərbə vurmaq üçün ən qısa, lakin ən çətin yoldan, Sen-qotard keçidindən istifadə etdi. Düşmənlə toqquşmalar vəziyyətində çətin hava şəraitində rus və Avstriya birlikləri gözlənilməz şəkildə dağları aşaraq düşməni xeyli itkilərə məruz qoydu. Səfər nəticəsində Aleksandr Suvorova "Rusiya Ordusunun generallissimusu" rütbəsi verildi [1].

Bu hadisələrdən bir neçə il sonra, 16 – 19 oktyabr 1805-ci ildə fransız sərkərdəsi, daha sonra Fransanın imperatoru Napoleon Avstriya qoşunlarına qarşı mübarizənin bir döyüşü haqqında deyirdilər: *"Mən avstriyalılara yalnız yürüşlərlə qalib gəldim".* Ulm şəhəri yaxınlığındakı döyüşdə bacarıqla

manevr nəticəsində, qanlı döyüşlərə girmədən fransız qoşunları Avstriya qoşunlarını yürüşlə dövrələdi və təslim olmağa məcbur etdilər.

Qoşunların müxtəlif nəqliyyat vasitələrində daşınmaqla və ya kombinə üsulu ilə yerdəyişməsinin qeyri-adi nümunəsi I Dünya müharibəsinin gedişində – 1914-cü ilin sentyabr ayında baş verdi. Alman qoşunlarının Paris şəhərinə hücumu zamanı (7 sentyabr) aviakəşfiyyatın məruzəsində alman qoşunlarının cinahının açıqda qalması və əks-zərbə üçün əlverişli şəraitin yaranması haqqında məlumat verildi. Fransız qoşunları az qala mühasirəyə alınacaqdı, Parisdən 50 kilometr uzaqlıqda olan əməliyyat meydanında isə heç bir ehtiyat qalmamışdı, onlar artıq əvvəlki döyüşlərdə tətbiq edilmişdi. Fransa hökuməti tərəfindən qorxudan tərk edilən Parisə, şəhərin komendantı general Qalienin komandanlığı altına marrokan diviziyası həmin gün gəlib çatmışdı. Kimin tərəfindən təklif verildiyi naməlumdur, amma 2 saat ərzində şəhərin bütün taksiləri polis vasitəsilə bir yerə cəmləşdirildi. Gündüz və gecə ərzində fəaliyyət göstərən taksilər hər biri 2 reys həyata keçirərək 6.000 nəfərə yaxın əsgəri Marna çayının yaxınlarına cəbhəyə daşıdılar. Taksidən düşüb döyüşə girən əsgərlərin səyləri nəticəsində alman qoşunlarının hücumu dayandırıldı.

1941 – 1945-ci illərdə Böyük Vətən müharibəsi zamanı cəbhə qruplaşmalarının 50-dən, cəbhələrin 200-dən və ordunun 1.000-dən çox əməliyyatı keçirilmişdir. Cəbhə qruplaşmalarının əməliyyatlarında yüzlərlə diviziyalar iştirak edirdi və belə əməliyyatların təminatı üçün böyük həcmdə daşınmalar keçirilməli idi. Məsələn, bir atıcı diviziyanın dəmir yolu vasitəsilə yerdəyişməsi üçün 25 hərbi eşelona ehtiyac vardı. Ümumilikdə strateji hücum əməliyyatının təminatı üçün dəmir yolları ilə qoşunlarla və hərbi texnika ilə dolu 400 – 600 min vaqona ehtiyac vardı [2]. Böyük ölçülü dəmir yolu stansiyalarının düşmənə məlum olduğunu, onun hava kəşfiyyatını və havada üstünlüyünü nəzərə alaraq əksər hallarda qoşunlar kiçik stansiyalarda, hətta çöllüklərdə boşaltma məntəqələri təchiz edirdilər. Dəmir yolu platformasının yan tərəfindən tullanan tankların birbaşa düşmənin yarılan qoşunlarına əks-zərbə vurmaları nümunələri mövcuddur.

1944-cü ilin avqust ayında Yassı-Kişinyov əməliyyatının hazırlığı zamanı düşməndən gizlin qoşunların irimiqyaslı yenidən qruplaşması keçirildi. Həmin dövrdə əməliyyat meydanındakı hərəkətli birləşmələr və motoatıcı diviziyaların 86 faizi yerləşmə rayonlarını dəyişdilər. Yenidən qruplaşma zamanı qoşunlar yalnız sutkanın qaranlıq vaxtında hərəkət edirdilər. Yürüş zamanı işıq maskalanmasına ciddi riayət üçün tank, avtomobil və traktorların faralarından lampalar çıxarılmışdı. Orduların qərargahlarının xüsusi ayrılan zabitləri yollarda və müxtəlif keçidlərdə növbətçilik çəkərək intizama və işıq maskalanmasına nəzarət edirdilər. Gündüz vaxtı onlar təyyarələrlə cəmləşmə rayonları üzərində uçurdular və qoşunların dincəlmə zamanı maskalanmasını havadan yoxlayırdılar [3, s.124].

12 iyun 1999-cu il tarixinə keçən gecə Bosniya və Herseqovinada beynəlxalq sülhməramlı qüvvələri tərkibində fəaliyyət göstərən Rusiya Federasiyasının hava desantı taboru 600 kilometrdən çox yolu qət etdi və Priştina yaxınlarında olan Slatina aerodromunu ələ keçirdi. Gizli planlaşdırılan əməliyyat nəticəsində az qala üçüncü dünya müharibəsi başlayacaqdı. Təbii ki, yerdəyişmədən əvvəl yürüşdə iştirak edən komandirlərlə (hətta manqa komandirləri ilə) ərazi maketində tapşırıqların dəqiqləşdirilməsi və fəaliyyətlərin məşqi keçirilmişdi [4].

Hərb sənəti tarixində onlardan ən yaddaqalan və əksər ölkələrin Silahlı Qüvvələri tərəfindən öyrənilən 2020-ci il tarixində Vətən müharibəsi dövründə aparılan “Şuşa əməliyyatı”dır. Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən 27 sentyabr 2020-ci il tarixindən aparılan əks-hücum əməliyyatının son günlərində Laçın istiqamətindəki hücumlara başı qarışan erməni terrorçularının nəzərindən Xüsusi Təyinatlı Qüvvələrinin fəaliyyəti yayındı. Həm ərazinin relyefi, həm də seçilən marşrutlar nəqliyyat vasitələri ilə yerdəyişməyə imkan vermədiyinə görə Azərbaycan qoşunları Şuşa istiqamətində 5 gün piyada hərəkət etdilər. Meşə yanğınları və pis hava şəraiti nəticəsində Şuşa şəhəri istiqamətində pilotsuz uçuş aparatlarının istifadəsi çətinləşmişdi, bu da Şuşa şəhəri ərazisinə 4 istiqamətdən 4 dəstə (hərəsi 100 nəfərdən ibarət) xüsusi təyinatlının yerdəyişməsinə imkan verdi. Hava yolu ilə 20 km uzunluğunda hesab edilən, əslində isə çətin dağlıq ərazidə və düşmən mövqelərinin tam yaxınlığında yerləşən cığırlarla Azərbaycan xüsusi təyinatlıları 5 noyabra keçən gecə Şuşa şəhərinə yaxınlaşdılar. Ağır təchizat götürmədən hərəkət edən dəstələr, atəş dəstəyi olmadan, döyüşlə

Azərbaycanın tarixi şəhərini ələ keçirdilər, üstəlik düşmənin bir neçə əks-həmləsinin qarşısını aldılar [5]. Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin mütəşəkkil və gözlənilməz yürüşü 10 noyabr 2020-ci il tarixində "Dəmir yumruq" sülhə məcburetmə əməliyyatında Zəfərlə nəticələndi.

**Yürüş üzrə ümumi əsaslar.** Qoşunlar və idarəetmə məntəqələri daima uzaq məsafələrə yerdəyişməyə hazır olmalıdır. Yerdəyişmə zamanı düşmən tərəfindən onlara kütləvi qırğın silahları, kəşfiyyat-zərbə kompleksləri, məsafədən minalama, aviasiya zərbələri tətbiq edilə bilər. Buna görə də çirklənmiş ərazilərin, dağıdılmış yolların və keçidlərin dəf edilməsi, diversiya-kəşfiyyat qrupları, hava desantları və hava təhdidləri ilə mübarizə nəzərə alınmalıdır.

Yerdəyişmə, qoşun qruplaşmalarının yaradılması, onların gücləndirilməsi və ya yeni istiqamətlərdə açılması (yenidən qruplaşması) məqsədilə keçirilir. Birliklər öz hərəkəti ilə, müxtəlif nəqliyyat vasitələrində daşınmaqla və ya kombinə üsulu ilə yerdəyişmə həyata keçirə bilər [6].

"Yürüş" birliklərin **öz hərəkəti ilə** yerdəyişməsi zamanı birliklərin əsas yerdəyişmə üsuludur. Bunun əsas səbəbləri düşmən tərəfindən tutulan əraziyə yaxınlığı, yüksək dəqiqliyə malik silahların kütləvi istifadəsi təhlükəsini, daşınmanın hərbi-iqtisadi göstəricisini göstərmək olar. **Daşınma,** qoşunların bir rayondan (məntəqədən) digərinə müxtəlif nəqliyyat vasitələrindən istifadə edilməklə mütəşəkkil yerdəyişməsidir. Birliyin daşınması dəmir yolu, hava və su nəqliyyatı ilə həyata keçirilə bilər. Dəmir yolu (su) nəqliyyatı vasitələri ilə birlik tam tərkibdə və ya ancaq gediş ehtiyatı az və zəif yürüş qabiliyyəti olan texnika ilə silahlanmış birliklər daşınır. **Kombinə üsulu ilə yerdəyişmə** eyni vaxtda və ya ardıcıl həyata keçirilə bilər: eyni vaxtda – birliyin bir hissəsi yürüşlə hərəkət edir, digər hissəsi dəmiryolu, su və ya hava nəqliyyatı ilə daşınır; ardıcıl – birlik əvvəlcə bütövlükdə nəqliyyat növlərindən biri (bir neçəsi) ilə daşınır və sonra yürüş keçirir və yaxud əksinə, əvvəlcə yürüş keçirir, sonra daşınır.

Birliklər yürüşə dislokasiya məntəqəsindən, döyüş həyəcanı ilə cəmləşmə rayonundan, məcburiyyətdən dayandırılmış dəmiryol (su və ya hava ilə) daşınmasının davamı olaraq başlaya bilər.

Birliklərin uzaq məsafələrə (bir neçə sutka davam edən) yürüşü ştat üzrə və əlavə verilmiş nəqliyyat vasitələrində icra oluna bilər. Tanklar, özüyeriyən artilleriya və tırtıllı mühəndis texnikaları kolonların tərkibinə daxil olan böyük yüklər daşınan qoşqularda daşına bilər. Birliklərə bir-iki əsas marşrut təyin edilir. Bəzən belə marşrut tankların və digər ağır texnikanın dəmir yolu (su) nəqliyyatında daşınması ilə həyata keçiriləcəkdir.

Birliklər həm yuxarı birliyin tərkibində, həm də müstəqil olaraq uzaq məsafəyə yürüş icra edə bilər. Müasir dövrdə yüksək dəqiqliyə malik müşahidə vasitələrinin və silahların imkanlarını nəzərə alaraq irihəcmli qrupların birgə yerdəyişməsi məqsədəuyğun deyildir.

Yürüş icra olunarkən hər sutkalıq keçidin sonunda gündüz (gecə) istirahəti, ehtiyac olduqda isə hər 3 – 5 keçiddən sonra bir sutkalıq istirahət təyin edilə bilər.

Əvvəlki rəhbər sənədlərdə yürüşün düşmənlə döyüşəgirmə gözlənildiyi və ya onunla toqquşma təhlükəsi olmayan şəraitlərdə, ştatda olan və əlavə verilmiş nəqliyyat vasitələri ilə gizli, bir qayda olaraq, gecə və ya digər məhdudgörmə şəraitində, döyüş fəaliyyətləri gedişində öz qoşunlarımızın kifayət qədər böyük dərinliyində isə gündüz keçirilməsi nəzərdə tutulurdu. Yürüşlərin siniflındirilməsi mövcud yollara və düşmənin vəziyyətinə uyğun olaraq dəyişir. Düşmən təhlükəsindən asılı olaraq birliklərin yerdəyişməsi **təşkilati (adi), taktiki** və ya **yaxınlaşma yürüşü** şəklində təşkil olunur. Düşmənlə qurudan təmas ehtimalının az olduğu ərazilərdə təşkilati (adi) yürüş, döyüş sahəsi daxilindəki yerdəyişmələrdə düşmənlə təmas ehtimalı olanda taktiki yürüş, düşmənlə təmas mütləq olanda isə yaxınlaşma yürüşü tətbiq edilir. Düşmənə yaxınlaşma – düşmənlə təmas yaratmaq və ya itirilmiş təması bərpa etmək məqsədilə icra edilən yürüşdür. Bu fəaliyyətə, həmçinin döyüşdən əvvəl toplanma və ya döyüş təyinatı olan ərazilərə yürüş də daxildir (Cədvəl 1).

Taktiki yürüş və yaxınlaşma yürüşlərində mühafizə, təşkilati (adi) yürüşlərdə isə sürət və idarəetmə əsas rol oynayır [7].

**Təşkilati (adi) yürüş**, düşmənlə qurudan təmas ehtimalının çox az olduğu hallarda icra olunur. Ümumiyyətlə, komandirlər birliklərinin önündə hərəkət etməli, lazımi yerə çatdıqdan sonra və ya yolda düşmənlə təmas ehtimalının uzaq olduğu zaman dayanmalıdır. Əgər dost birliklər hərəkət edən

qüvvələrin ən öndə gələn qüvvələri ilə düşmən arasındadırsa, bu zaman yürüş təhlükəsiz yollarla icra olunmalıdır. Adi yürüşlər zamanı birliklərin bütünlüyü qorunmalı və taktiki yerdəyişməyə uyğun üsullar tətbiq olunmalıdır.

**Taktiki yürüş** düşmənlə təmas ehtimalı olduğu hallarda icra olunur. Yürüş, əsasən, mövcud olan ən sürətli maşınlarla yollar və ya cığırlarla hərəkət etməklə həyata keçirilir. Yürüş birlikləri yan (cinah) mühafizə qüvvələri çıxarmaqla təhlükəsizliklərini təmin etməlidirlər. Dağılma isə düşmənin vəziyyətindən asılıdır.

**Yaxınlaşma yürüşü** düşmənlə təmasın mütləq olduğu yerdə və vaxtlarda icra olunur. Yaxınlaşma yürüşündə də taktiki məqsədlər mühüm əhəmiyyət kəsb edir. Buna görə də, düşmənlə təmas ehtimalı mütləq olan birliklər döyüş düzülüşünü seçməlidir. Komandirin əsas vəzifəsi birliyini tez bir zamanda döyüş düzülüşü vəziyyətinə gətirmək, düşmənə qarşı müqavimət göstərmək və birliyini qəfil basqına qarşı qorumaqdır. Belə vəziyyətlərdə birlik hərəkət edərkən ön, yan və arxaya mühafizə qüvvələri çıxarmalıdır.

**Cədvəl 1. Yürüşlərin sinifləndirilməsi**

| S/s | Yürüşlərin sinifləndirilməsi | Yürüşlərin növü | Qeydlər |
|---|---|---|---|
| 1 | Taktiki vəziyyətə görə | Təşkilati (adi) yürüş | Düşmənlə qurudan təmas ehtimalının uzaq olduğu hallarda icra olunur. Sürət və idarəetmə əsas rol oynayır. |
| | | Taktiki yürüş | Düşmənlə təmas ehtimalı olduğu hallarda icra olunur. Mühafizə əsas rol oynayır. |
| | | Düşmənə yaxınlaşma yürüşü | Düşmənlə təmasın mütləq olduğu yerdə və vaxtlarda icra olunur. Mühafizə əsas rol oynayır. Döyüşdən əvvəl toplanma və ya döyüş təyinatı olan ərazilərə yürüş də daxildir. |
| 2 | Keçirilmə şəraitinə görə | Gündüz | Düşmən təhlükəsi olmadıqda, daha sürətli hərəkət imkanı, birliklər üçün daha az yorucu. |
| | | Gecə | Kəşfiyyat və nəzarət tədbirləri daha çətin, düşmən müşahidəsi və hava hücumlarına məruzqalma. |
| 3 | Hərəkət imkanlarına görə | Piyada | |
| | | Maşınlarda (döyüş texnikasında) | |
| | | Tez icra olunan yürüş (cəld yürüş) | Daha çox məsafə qət etmək üçün fasilələr azaldılaraq yürüş müddətinin artırılması. Çox zəruri hallarda keçirilməlidir. |
| | | Mərhələli yürüş | Nəqliyyat vasitələri mümkün qədər şəxsi heyət götürdükdən sonra qalan şəxsi heyət müəyyən bir xəttə kimi piyada hərəkət edir, sonra n/v onların dalınca qayıdır. |

**Gündüz yürüşləri** düşmən təhlükəsi olmadıqda daha sürətli hərəkət imkanı təmin etdiyinə və birliklər üçün daha az yorucu olduğuna görə onlara üstünlük verilir. Açıq düzülüş qaydaları, kəşfiyyat və nəzarət məsələlərinin asanlığı, düşmənin hava hücumu və müşahidəsinə məruz qalmaq kimi həssas cəhətləri ilə xarakterizə edilir.

**Gecə yürüşləri** qapalı düzülüşlərə üstünlük verildiyi, kəşfiyyat və nəzarət tədbirlərinin daha çətin həyata keçirildiyi, yavaş hərəkət sürəti, düşmən müşahidəsi və hava hücumlarına məruz qalmaq kimi həssas cəhətləri ilə fərqlənir. Gecə yürüşləri daha yaxşı maskalanma imkanı təmin etməklə yanaşı, çox isti hava şəraitindən qorunmaq, məhdudgörmə imkanlarından istifadə etmək və qəfil basqın təsiri əldə etmək baxımından da mühüm əhəmiyyət kəsb edir. Nəzarət çətinliyi daha təfərrüatlı planlaşdırma, ciddi nəzarət tədbirləri, mükəmməl təlim, yürüş intizamı, işıq və səs intizamına riayət etməklə aradan qaldırıla bilər.

Əgər gizlənməyə (maskalanmaya) ehtiyac varsa, qaranlıq düşməmişdən əvvəl daha kiçik birliklərin hərəkətinə icazə verilməlidir. Yürüş səhərin ilk saatlarında tamamlanmalıdır. Yürüş düşmənə yaxın yerdə icra olunursa, səs intizamına ciddi riayət olunmalıdır. Fəaliyyətin (əməliyyatın) gizliliyi və

düşmənin yürüş haqqında məlumata malik olmasının qarşısının alınması baxımından digər müvafiq tədbirlər də həyata keçirilməlidir.

**Tez icra olunan yürüş (cəld yürüş)** adi vəziyyətlərdə olduğundan daha çox məsafə qət etmək üçün yürüş fasilələri azaldılaraq yürüş müddətinin artırılması ilə icra olunan yürüşdür. Birliklərin səmərəsini azaldacağına görə cəld yürüşlər yalnız çox zəruri hallarda həyata keçirilməlidir.

**Mərhələli yürüş** birliyin kifayət qədər nəqliyyat vasitəsi olmadığına görə, şəxsi heyətin maşınla və piyada bir nöqtədən digər bir nöqtəyə mərhələli hərəkət etməsidir. Belə bir vəziyyət bütün birliyi daşıyacaq qədər nəqliyyat vasitəsinin olmamasından irəli gəlir. Mərhələli yürüşlər zamanı nəqliyyat vasitələri mümkün qədər şəxsi heyət götürdükdən sonra qalan şəxsi heyət müəyyən bir xəttə kimi piyada hərəkət etməli, maşınlar şəxsi heyəti daşıdıqdan sonra piyada hərəkət edən birlikləri yoldan toplamalı və bu prosesi bir neçə dəfə təkrarlamalıdır [7].

Əlavə olaraq, NATO ölkələrinin ordularında **"Akkordeon hərəkəti"** deyilən hərəkət sürətinin qəflətən dəyişməsi nəticəsində yürüş kolonunun uzunluğunun artıb-azalmasına fikir verilməlidir. Əsas səbəb öndəki birliklərin hərəkət sürətinin müxtəlif səbəblərə görə qəflətən dəyişməsidir. Hərəkət sürətindəki cüzi dəyişiklik tez bir vaxtda kolonun yürüş sürətinə təsir etdiyinə görə, arxadakı birliklər hərəkət sürətindəki fərqi aradan qaldırmaq üçün ya ikiqat cəld hərəkət etməli və ya arxada qalmalıdırlar. Buna görə də ön birliyin hərəkət sürətindəki cüzi dəyişiklik müəyyən vaxt ərzində kolonun sonuna doğru gedərək artır.

Belə vəziyyətin qarşısını almaq üçün ən yaxşı üsul yürüş sürətinin azalmasına səbəb ola biləcək maneəni keçdikdən sonra öndəki birliyin arxadakı birliklərin qaçmasına səbəb olmayacaq şəkildə müəyyən bir müddət üçün yürüş sürətlərini azaltmalarıdır. Bundan başqa, ərazi relyefinə uyğun olaraq, addımları qısa və ya böyük atmaq, birliklər arasındakı məsafələri uzatmaq və ya qısaltmaqdır.

Yürüş sürətinin qəflətən dəyişməsi nəticəsində kolonunun uzunluğunun artıb-azalması səbəbindən onun arxasında hərəkət etmək öndə hərəkət etməkdən daha çətindir. Buna görə də əsgərlərin və ya birliklərin hər zaman arxada hərəkət etməməsi üçün onların yeri fasilələr zamanı mütəmadi olaraq dəyişdirilməlidir.

## Yürüşün planlaşdırılması

Yürüş ətraflı şəkildə planlaşdırma tələb edir. Komandir və qərargah tərəfindən vəziyyətin qiymətləndirilməsi üsulları tətbiq edilərək yürüşün ən yaxşı necə icra ediləcəyinə qərar verilir.

Planlaşdırılmada düşmənin vəziyyəti və imkanları, ərazi və hava şəraiti, birliyin quruluşu, yerdəyişmədən əvvəl və yerdəyişmə vaxtı təyin olunmuş yerdə təhlükəsizlik tədbirlərinin görülməsi, yürüş birliklərinin toplanması, şəxsi heyətin və təchizatın yüklənməsi, gediləcək yerdəki fəaliyyətlər nəzərə alınmalıdır.

Döyüş tapşırığını aldıqdan sonra mövcud şəraitdən asılı olaraq tabor və ondan yuxarı birliklərdə komandir və qərargah "Hərbi qərar qəbuletmə prosesi", bölük və daha aşağı birlik komandirləri isə "Birlik idarəetmə üsulu" tətbiq edərək yürüşə hazırlıq zamanı planlaşdırma tədbirlərini təşkil edirlər.

Birlik taktiki yürüş üçün hazırlanarkən aşağıdakı yürüş planlaşdırılması ardıcıllığına riayət edilməlidir:

– tabelikdə olan birliklərin hazır olmaları üçün ən qısa müddətdə ön əmr verilir;
– vəziyyət qiymətləndirilir, yürüş yolu öyrənilir və yürüş qrupunun quruluşu yaradılır;
– yürüş əmri hazırlanır və verilir;
– təfərrüatlı yürüş planı və toplanma rayonunun planı hazırlanır;
– kəşfiyyat və yerləşdirmə heyəti təyin edilir və göndərilir.

Komandir və qərargahın səviyyəsindən və təcrübəsindən asılı olaraq tədbirlərin siyahısı artırıla (azaldıla) bilər.

Uzaq məsafələrə yürüşdə şəxsi heyət (xüsusilə sürücülər) üzərinə düşən məsuliyyətin artması; motoehtiyat, yanacaq və sürtkü materialları, ərzaq və ehtiyat hissələri sərfiyyatının xeyli artması, qoşunların təchizatının çətinliyi; hərəkət istiqamətində "tıxacların" yaranması nəzərə alınmalıdır. Son keçidə isə xüsusi diqqət yetirilir ki, bu keçidin sonunda birliklərin döyüşə girməsi təmin edilsin.

Yürüş vaxtı güclü radiostansiyaların işləməsinə qadağanın (məhdudiyyətin) tətbiq edilməsi ilə qərargahların işi çətinləşir. Bunu aradan qaldırmaq üçün az güclü radiovasitələrdən, dövlət stasionar rabitə xətlərindən və hərəkətli rabitə vasitələrindən istifadə edilir.

Yürüş zamanı birlik komandiri və qərargahı: birliklərin planauyğun hərəkətini və döyüş hazırlığının təmin edilməsi; kəşfiyyat orqanlarına, səfər mühafizəsinə rəhbərlik edilməsi; döyüş düzülüşünə açılma və döyüşə yeridilmə qərarını dəqiqləşdirmək üçün məlumatların vaxtında toplanması, işlənməsi və məruzə edilməsi; qoşunlara dəqiqləşdirilmiş və yaxud yeni tapşırıqların təcili çatdırılması; qonşu və tabelikdə olanların vəziyyəti haqqında məlumatın toplanılması; qoşunların fəaliyyətinə və hərtərəfli təminatına nəzarətin həyata keçirilməsi kimi əsas tapşırıqları yerinə yetirirlər.

Planlaşdırma zamanı birliklərin və idarəetmə məntəqələrinin həm adi, həm də müxtəlif şəraitlərdə yürüş keçirməsi nəzərə alınmalıdır. Dağlarda, səhra şəraitində, qış fəslində keçirilən yürüşlərin özünəməxsus xüsusiyyətlərinin gözdən qaçırılması döyüş qabiliyyətinin itirilməsi, nəticədə isə verilən tapşırığın yerinə yetirilməməsinə (gec yerinə yetirilməsinə) gətirib çıxara bilər.

Dağlarda yürüşün hazırlanması və keçirilməsi zamanı sürətin azaldılması və aşırımları, eniş və yoxuşları keçdikdə maşınlararası məsafənin artırılması, təhlükəsiz hərəkətin təmin olunması nəzərə alınır.

Səhra şəraitində keçirilən yürüşdə ərazi xüsusiyyətləri, düşmənin imkan və qabiliyyəti, öz qoşunlarımızın təminatı, açıq cinahların mühafizəsi, su təminatı, birliklərin ərazidə səmtləşməsinə komandir və qərargah tərəfindən xüsusi diqqət yetirilməlidir.

Yürüşün qış fəslində keçirilməsi zamanı yollardan kənar hərəkətin məhdudlaşdırılması, düşmənin qışa xüsusi hazırlıqlı birliklərinin mövcud olub-olmaması, öz birliklərimizin silah və texnikasının soyuq hava şəraitlərində döyüşə hazırlığı, yanacaq sərfinin yay fəslinə nisbətən artması xüsusi diqqət mərkəzində olmalıdır [6].

## Səfər düzülüşü

Bir neçə il əvvəl tələblərə görə, döyüşəgirmə gözlənildiyi şəraitdə yürüş edən birliyin səfər düzülüşü alınmış tapşırıqdan, vəziyyət şəraitlərindən, qarşıdakı fəaliyyətlərin niyyətindən və marşrutların sayından asılı olaraq, adətən, ön dəstədən, səfər mühafizəsindən, hərəkəti təminetmə qruplarından, əsas qüvvələrin kolonundan, maddi-texniki təminat və tibbi təminat birliklərinin kolonlarından ibarət olurdu. Müasir dövrdə, təbii ki, müharibə şəraitində yüksək dəqiqliyə malik silahların tətbiqini nəzərə alaraq böyükhəcmli kolonların formalaşdırılmasından və hərəkət etdirilməsindən söhbət gedə bilməz. Lakin mütəşəkkilliyi təmin etməkdən ötrü yürüş üçün kəşfiyyat heyəti, yerləşdirmə heyəti, əsas qüvvələr və texniki birlik təyin edilir.

**Kəşfiyyat heyəti:** mövcud döyüş təminatı və istehkam dəstəyi ilə gücləndirilən kəşfiyyat taqımı marşrut boyu körpü, keçid, dərə və çayların keçməyə münasib yerlərinin kəşfini aparır. Yol kəşfi xəritə üzərində iş, yuxarı komandanlıqdan və hava kəşfindən əldə edilən məlumatlarla gücləndirilir. Kəşfiyyat taqımına verilən əmrdə tələb edilən məlumatların təfərrüatı, raportun veriləcəyi yer və vaxt göstərilməlidir.

**Yerləşdirmə heyəti:** yerləşdirmə heyəti bölüklərin yerləşdirmə heyətlərindən ibarət olur. Komandir yeni ərazinin kəşfi və marş birliklərinə bələdçilik etmək üçün yerləşdirmə heyəti ayırır.

**Əsas qüvvələr:** yürüş başlamazdan əvvəl marşda iştirak edəcək hər bir birlik yürüşə başlama nöqtəsinə qədər olan yolun kəşfini aparmalı və həmin nöqtəyə çatmaq üçün sərf ediləcək vaxtı müəyyən etməlidir. Yürüş əmrində birliyin yürüşə başlama nöqtəsinə getmək üçün sərf etdiyi vaxt göstərilməlidir. Yürüşdə iştirak edəcək hər bir birlik yürüşə başlama nöqtəsinə tam vaxtında gəlməlidir. Əks halda digər birliklər də gecikə bilər.

Yürüş zamanı birliklər göstərilmiş sürətdən kənara çıxmamalı və aralarındakı intervalı saxlamalıdırlar. Onlar hər bir nəzarət məntəqəsindən keçdikləri zaman məruzə etməlidirlər. Yürüş müddətində marşın mühafizəsi həm havadan, həm də qurudan təmin edilməlidir.

**Texniki birlik:** texniki birlik əsasən taborun maddi-texniki təminat (MTT) taqımının şəxsi heyətindən ibarət olur.

Texniki birlik yürüş qrupunun sonuncu marş birliyidir. MTT taqımının (bölüyün) komandiri tərəfindən idarə edilir. Vəzifəsi nasaz maşınlarla bağlı tədbirlər görməkdir. Nasaz maşını təmir etmək və ya qoşqu ilə çəkmək mümkün deyilsə, onu yolun kənarında təhlükəsiz bir yerə aparır. Sürücü və şəxsi heyət də maşının yanında saxlanılır və yeməklə təmin edilir.

Hər hansı bir texnika yolda qaldığı zaman səbəbi və maşının yeri taborun qərargahına bildirilməlidir.

Yürüş bitdikdən sonra texniki birlik yenidən yolda qalmış nasaz maşınların yanına gedir və maşınları təxliyə edir. Yürüşdə iştirak edən bütün birliklər və maşınlar gediləcək yerə çatmayınca taktiki yol marşı tamamlanmış hesab edilə bilməz.

Birliklər yürüş zamanı bir neçə **kolon növündən** istifadə edirlər. Bunlar: bağlı və açıq kolonlar və sızmadır. **Bağlı kolonda** gündüz maşınlar arasındakı məsafə 25 m olmalıdır. Gecə isə bu məsafə hər sürücünün qarşısında gedən maşının maskalanmış işarə lampalarını görə biləcəyi şəkildə tənzimlənir. Bağlı kolon, adətən, gecə marşlarında istifadə edilir. **Açıq kolonda** maşınlar arasındakı məsafə və səpələnmə daha çoxdur. Maşınlar arasındakı məsafə yol və hava şəraitindən asılı olaraq, adətən, 50 – 100 metr olur. Lazım gəldikdə bu məsafə artırıla da bilər. Müasir dövrdə düşmən tərəfindən təsir artdıqca yürüş üçün **sızmanın** istifadəsi ən məqsədəuyğun sayıla bilər. Yürüş zamanı sızma tətbiq edildikdə yoldakı nəqliyyat sıxlığını minimal səviyyədə saxlamaq və ya yoldakı maşınların səpələnməsini azaltmaq üçün maşınlar tək-tək, kiçik qruplar şəklində və müxtəlif sürətlərlə hərəkət edir. Sızma zamanı düşmənin müşahidə və hücumlarına qarşı ən yaxşı mühafizə təmin edilir. Kifayət qədər vaxt və əlverişli yol olduqda maksimum mühafizə, aldatma və səpələnmə tələb edilirsə, sızma taktiki yürüşlər üçün əlverişlidir.

## Yürüşdə nəzarət tədbirləri

Hal-hazırda istifadə edilən rəhbər sənədlərə görə yürüşü planlaşdıranlar onun vaxtında və mütəşəkkil şəkildə başlanması və həyata keçirilməsi, kolonların hərəkətinin tənzimlənməsi üçün başlanğıc hədd (bir marşrutla hərəkətdə – məntəqə) və tənzimləmə hədləri (məntəqələri) təyin edirlər. NATO ordularında isə yürüşdə aşağıdakılar nəzarət tədbirləri olaraq nəzərə alınır:

– kritik nöqtə;
– yürüşün başlanğıc nöqtəsi (YBN);
– yürüşün son nöqtəsi (YSN).

Bu terminlərdən ən mühümü və geniş məna daşıyan “kritik nöqtə”dir. Kritik nöqtə, yürüşün ləngiməyə məruz qala biləcəyi və vaxt itkisinə səbəb ola biləcək yol qovşağı, yoldakı sərt döngələr, keçidlər kimi yerlərdir. Yol kəşfi aparan birlik mühüm məntəqələri bildirə bilər və ya bu nöqtələr xəritə ilə müəyyən edilə bilər. YBN, YSN və bütün tənzimləmə məntəqələri kritik nöqtələrdir.

## Yürüşün planlaşdırılma faktorları

Vaxt və məsafə faktoru yürüşün planlaşdırılmasının əsasıdır, onları yürüş kolonunun nə qədər məsafə qət edəcəyini və yürüşün müddətini planlaşdıran müəyyən edir.

Planlaşdıran şəxs yürüş kolonunun uzunluğunu, birliklər arasındakı məsafəni və sərf ediləcək vaxtı da bilməlidir. Birliklər arasındakı aralıqlar onları bir-birindən ayırır. Yürüş kolonunun uzunluğu (dərinliyi) və yürüş məsafəsi kilometrlə, onun vaxt meyarı isə dəqiqə və ya saatla ölçülür.

Yürüşdə **planlaşdırma faktorları** olaraq aşağıdakılar nəzərə alınır:

– **məsafə faktorları**: dərinlik; məsafə; yürüşün dərinliyi; yürüşün məsafəsi; yolboşaltma məsafəsi;

– **sürət faktorları**: yürüşün sürəti; mütəşəkkil yürüş sürəti; orta sürət;

– **vaxt faktorları:** vaxta görə dərinlik; vaxta görə fasilə; önalma müddəti; yürüşün dərinlik müddəti; yürüşün müddəti; yolboşaltma müddəti; tam yürüş müddəti; çatma vaxtı; keçmə vaxtı; bitmə vaxtı [7, s. 374].

Komandir və qərargahlar bu faktorları bilməli və məharətlə tətbiq etməlidirlər. Yürüş mövzusunda yeni terminlər eyni səsləndiyinə baxmayaraq, fərqli mənalar verir. Məsələn, "çatma vaxtı" kolonun baş hissəsi ilə bir nöqtəyə çatdığı anındakı vaxtı, "bitmə vaxtı" isə kolonun ən son maşınının yürüşün bitirilmə nöqtəsindən keçdiyi anındakı vaxtı ifadə edir. Başqa bir nümunə "yürüş sürəti" və "mütəşəkkil yürüş sürəti" arasındakı fərqdir ki, planlaşdırma zamanı birinci termin üçün, məsələn, 40 km/saat hesablandığı halda, ikinci termin üçün 32 km/saat nəzərə alınır (Cədvəl 2) [8].

**Cədvəl 2. Yürüşü planlaşdırma cədvəli**

| Sürət (km/saat) | Mütəşəkkil yürüş sürəti (km/saat) | 1 km yol getmək üçün lazım olan vaxt (dəq.) |
|---|---|---|
| 16 | 12 | 5 |
| 24 | 20 | 3 |
| 32 | 25 | 2,4 |
| 40 | 32 | 1,84 |
| 48 | 40 | 1,5 |
| 56 | 46 | 1,3 |
| 65 | 53 | 1,13 |

**Yürüşün planlaşdırılması üzrə sənədlər**

Yürüşün planlaşdırılmasından sonra əsas döyüş sənədi olaraq yürüş əmri hazırlanır. Hücum və müdafiədə hazırlanan əməliyyat planı (əmri) kimi yürüş əmrində də 5 maddəlik formata riayət edilir. Yürüş tətbiq krokisi, zaman cədvəli və digər müxtəlif əlavələr yürüş əmrinə əlavə edilir. Bundan başqa, yürüşə nəzarət cədvəli, yürüş kolonu komandirinin məruzəsi hazırlanır.

Yürüş tətbiq krokisi yürüş marşrutunu göstərən sxemdir. Bu sxem yürüşün idarə edilməsində iştirak edən hər bir şəxsə təqdim olunmalıdır. Tətbiq krokisindəki təfərrüatlar hazırlanma məqsədinə və birliklərin səviyyəsinə görə müxtəlif olur. Krokidə yürüşün başlanğıc və son nöqtələri, məhdudiyyətlər, kritik nöqtələr və onlar arasındakı məsafə göstərilməlidir (Şəkil 1).

Yürüşün vaxt cədvəli 2 hissədən ibarət olur: birinci hissədə sənədin başlıq hissəsi və bütün birliklərə aid olan məlumatlar mətn şəklində əks olunur; ikinci hissədə isə yürüşdə iştirak edən hər bir birliyin və ya idarəetmə məntəqəsinin adı, tərkibi, kritik nöqtələri keçmə vaxtı cədvəlin içində ayrı-ayrı göstərilir.




**Şəkil 1. Yürüş tətbiq krokisi (variant)**

**Yürüşün hesablanması**

Məsafə, sürət və zaman yürüş hesablamalarında əsas faktorlardır. Bu faktorlardan 2-si məlumdursa, 3-nü hesablayaraq tapmaq olar:

– sürət məsafənin zamana bölünməsi ilə tapılır (S = M / V);
– məsafə sürətin zamana vurulması ilə tapılır (M = S × V);
– zaman məsafənin sürətə bölünməsi ilə tapılır (V = M / S) (Şəkil 2).

Əlavə olaraq, hesablamaların asanlaşdırılması məqsədilə müxtəlif cədvəllərdən və şablonlardan istifadə edilir. Məsələn, cədvəl 2-də müvafiq sürətlə hərəkət zamanı 1 km yol getmək üçün lazım olan vaxt dəqiqələrlə göstərilmişdir. Şəkil 3-də isə müvafiq sürətlə hərəkət zamanı müəyyən vaxtda gedilən məsafəni tapmaq olar.



**Şəkil 2. Yürüş hesablanması düsturu**



**Şəkil 3. Yürüş hesablanmasını asanlaşdıran cədvəl**

Yerdəyişməni planlaşdıran şəxs əsasən yürüş müddətini; keçmə müddətini (vaxt cəhətdən dərinliyi); çatma vaxtını; sona çatdırma vaxtını hesablamalıdır. Yürüşü **sonaçatdırma vaxtı** çatma vaxtına keçmə müddəti (vaxt cəhətdən dərinlik) artırılmaqla və ya çıxış nöqtəsi vaxtına yürüş müddəti, keçmə müddəti (vaxt cəhətdən dərinlik) və planlı uzunmüddətli fasilələr əlavə olunmaqla hesablanır.

Düz ərazilərdə keçirilən yürüşlərdən fərqli olaraq dağlıq ərazilərdə, şəraitlərin hər iki tərəf üçün də eyni dərəcədə çətin olduğu dik dağlıq bölgələrdə, zirehli birliklərin ağır silahlarının dəstəyindən məhrum və məhdud hava dəstəyinə sahib birliklərin düşmən üzərində üstünlüyü yalnız döyüş hazırlığı, təchizat və təcrübədir. Bəzi hallarda artıq planlaşdırma və qiymətləndirməyə ehtiyac olmur. Manqa səviyyəsindən tabor səviyyəsinə qədər dik dağlıq ərazidə fəaliyyət göstərəcək komandirlər irəliləmə sürətini düzgün hesablamalıdırlar. Dağlıq ərazidəki 2 – 3 km-lik bir məsafəyə baxaraq ehtiyac olan vaxtı təxmin etmək belə asan deyil. Yürüşdən əvvəl hesablama zamanı standart olaraq düz ərazidə hər 4 km yürüş üçün 60 dəqiqə nəzərdə tutulur, həmin istiqamətdə yüksəkliyin hər 300 m artmasına və ya yüksəkliyin hər 500 m azalmasına görə 60 dəqiqə əlavə edilir. Daha sonra düz ərazi, yüksəlmə və enişlərin müddətləri müəyyən edilərək, yürüşə tələb olan ümumi vaxt çıxarılır. Sadələşdirilmiş üsul olaraq hər 100 m yürüş üçün 1,5 dəqiqə, yüksəkliyin hər 5 m artması üçün 1 dəqiqə, yüksəkliyin hər 8,3 m azalması üçün 1 dəqiqə tələb olunur. Məsələn, 3.000 m düz ərazi 45 dəqiqəyə keçiləcək, 100 m yüksəkliyə qalxmaq üçün 20 dəqiqə, 50 m enmə üçün 6 dəqiqə, 75 m yüksəlmə üçün 15 dəqiqə əlavə edilir. Cəmi olaraq yürüş üçün 86 dəqiqə tələb olunur. Yüksəkliyin artması və azalmasını düzgün hesablamaq üçün komandir və qərargahlar hərbi topoqrafiyanı yaxşı bilməli və düzgün tətbiq etməlidirlər [9]. Əlavə olaraq, xüsusilə antiterror əməliyyatlarında şəxsi heyətin üzərində daşıdığı yükün azaldılması, yük heyvanlarının istifadəsi, kiçik birliklər arasında əlaqənin itməməsinə xüsusi diqqət yetirilməlidir.

Yürüşün (marşın) hesablanmasının aparılması üçün müəyyən edilir:

Marşrut sahəsində hərəkət sürəti – marş (yürüş), yəni qoşunların həmin sahədə icazə verilən maksimum hərəkət sürətidir. Bu sürət $L_{sahə}$ sahə uzunluğunun qoşunların hərəkətə sərf etdiyi $t_{hərəkət}$ vaxtına bölünməsi ilə tapılır.

Bundan əlavə, yürüşdə ən vacib məsələlərdən biri orta sürətin müəyyən edilməsidir. Orta hərəkət sürəti marşın gərginliyinin bir göstəricisidir. Orta sürət $L_{km}$ keçid uzunluğunun, dincəlmə vaxtının nəzərə alınmaması şərti ilə $T_{m.}$ cəm vaxta bölünməsi ilə tapılır. $T_{m.}$ cəm vaxt marşrutun bütün sahə yollarının keyfiyyəti nəzərə alınmadan dəf edilməsinə sərf edilən vaxtların toplanması nəticəsində müəyyən edilir.

**Nümunə.** *Vəziyyət:* Hərəkət marşrutunun uzunluğu 250 km-dir, burada 90, 100 və 60 km olmaqla üç sahədə: 30, 25 və 20 km/saat sürətlər müəyyən edilib.

*Məsələnin həlli:* Bu halda sahələrin dəf edilməsinə sərf olunan vaxt 3 saat (90:30) + 4 saat (100:25) + 3 saat (60:20) = 10 saat. Belə halda, $V_{orta}$= L $_{km}$/$T_m$ = 250 (90+100+60) /10 = 25 km/saat, yəni $V_{orta}$ hərəkətin orta sürəti 25 km/saat olacaq [10, s. 125].

Yürüşün hesablanması eyni zamanda düşmənin ehtimal fəaliyyətlərinin (imkan və qabiliyyətlərinin) müəyyən edilməsində tətbiq edilir. Belə ki, düşmən ehtiyatlarının cəbhənin müəyyən bölgəsində müdaxilə vaxtının hesablanması zamanı müdaxilə vaxtı, müdaxilə müddətinin birliyin ən son göründüyü saata əlavə edilməsi ilə tapılır. Məsələn, düşmənin imkan və qabiliyyəti, “düşmənin tank taqımı ən erkən 031800 C OKT 2023” və ya “düşmənin tank taqımı hərəkətindən 40 dəqiqə sonra A bölgəsində tətbiq edilə bilər” olaraq ifadə edilə bilər [11, s. 152].

## Nəticə

Birliklərin və idarəetmə məntəqələrinin yürüşünün düzgün planlaşdırılması və onların verilən tapşırığın yerinə yetirilməsinə hazır vəziyyətdə təyin olunmuş bölgədə yerləşməsinin (açılmasının) təmin edilməsi komandir və qərargahların mühüm tapşırıqlarından biridir. Yürüşün planlaşdırılmasında müxtəlif faktor, göstərici və nəzarət tədbirləri nəzərə alınmalı, nəticədə ilk növbədə yürüş əmri olmaqla əsas döyüş sənədləri hazırlanmalıdır. Yürüşün hesablanması mümkün qədər sadələşdirilməli və standartlaşdırılmalıdır. Eyni zamanda yürüşün keçiriləcəyi ərazi və şərait diqqətlə nəzərə alınmalıdır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Ordusunda mexanikləşdirilmiş və tank taborunun (tabor taktiki qrupunun) müvəqqəti döyüş Təlimatı // Azərbaycan Respublikası Müdafiə nazirinin 07 sentyabr 2021-ci il tarixli 25 nömrəli qərarı ilə təsdiq edilmişdir. – Bakı: Hərbi nəşriyyat, – 2022. – 384 s.
2. KKY 164-2 “Piyada yürüşlər” / ixtisas red. İ.İsmayılov – Bakı: Hərbi nəşriyyat, – 2007. – 112 s.
3. Rasim Anıl Kunt Zorlu arazide harekât konsepti: [Elektron resurs] / – 2018. URL: https://www.defenceturk.net/zorlu-arazide-harekat-konsepti
4. “Taktik ve operatif seviye mesele hazırlama ve çözüm esasları”, HEYY 175-1 / – Yenilevent/İstanbul: Milli Savunma Üniversitesi, Kara Harp Enstitüsü, – 2020. – 374 s.
5. Операция “Шуша”: [Электронный ресурс] / URL: https://azerbaijan.az/ru/related-information/304
6. 21 сентября 1799 г. 224 года назад начался знаменитый переход через Альпы армии фельдмаршала Суворова: [Электронный ресурс] / – 21 сентября, 2023. URL:https://www.calend.ru/events/4558/#:~:text=21%20%D1%81%D0%B5%D0%BD%D1%82%D1%8F%D0%B1%D1%80%D1%8F%201799%20%D0%B3%D0%BE%D0%B4%D0%B0%20%D0%B2%D0%BE%D0%B9%D1%81%D0%BA%D0%B0,%D1%87%D0%B5%D1%80%D0%B5%D0%B7%20%D0%90%D0%BB%D1%8C%D0%BF%D1%8B%20%D0%B2%20%D0%BD%D0%B0%D0%BF%D1%80%D0%B0%D0%B2%D0%BB%D0%B5%D0%BD%D0%B8%D0%B8%20%D0%90%D0%B2%D1%81%D1%82%D1%80%D0%B8%D0%B8.
7. Битва под Ульмом: [Электронный ресурс] / URL: https://dic.academic.ru/dic.nsf/ruwik/36273
8. Такси едет на войну: [Электронный ресурс] / – 15 марта, 2014. URL: https://mil-history.livejournal.com/1250014.html

9. Ковалев, И.В. Транспорт в Великой Отечественной войне (1941–1945 гг.): [Электронный ресурс] / – 1981. URL: http://militera.lib.ru/h/kovalev_iv/20.html

10. Мацуленко, В.А. Оперативная маскировка войск / В.А.Мацуленко. – Москва: Военное Издательство МО СССР, – 1975. – 199 с.

11. Дмитров, И. Все вело к третьей мировой. Самая дерзкая военная операция 90-х: бросок на Приштину в воспоминаниях очевидцев: [Электронный ресурс] / – 2019.
URL: https://lenta.ru/news/2023/09/29/soglas/

**Аннотация**
**Планирование и проведение марша**
**Рафаэль Гасымов**

В современное время организация марша частей и пунктов управления является одной из важных задач работы командиров и штабов. Что изменилось с древних времен к настоящему, так это то, что передвигающееся подразделение должно быть на сколько возможно небольшим. Требования к маскировке, соблюдению порядка скрытого управлению войсками, осуществлению максимально точного планирования и подготовке боевых документов остаются неизменными. Очень важно объединить информацию по планированию и боевым документам на марш, содержащуюся в различной литературе и руководящих документах, и представить ее командирам и штабам Азербайджанской Армии. Информация должна включать основы организационного (обычного) и тактического марша в соответствии со стандартами НАТО, порядок походного построения, мероприятия контроля, влияние особенностей времени суток, местности и погодных условий (климата). Представленные в статье исторические примеры, основы, факторы планирования и методы расчета перемещения должны совершенствовать знания командиров и штабных офицеров, должны лечь в основу формирования стандартного представления о подготовке приказа на марш и приложений к нему (особенно схемы марша, временного графика марша).

В статье, помимо обширных сведений об общих основах и планировании передвижения частей собственным ходом, перевозки на различных транспортных средствах, были показаны примеры истории движения и произведены практические расчеты.

**Ключевые слова:** марш, передвижение, перевозка, подразделение, пункт управления

**Abstract**
**Planning and conducting of movement**
**Rafael Gasimov**

In modern times, organizing the march of units and command posts is one of the important tasks of commanders and headquarters. What has changed from ancient times to the present is that the size of the moving unit should be as small as possible. The requirements for camouflage, compliance with the order of covert command and control of troops, the implementation of the most accurate planning and preparation of combat documents remain unchanged. It is very important to combine information on planning and combat documents for the march, contained in various literature and guidance documents, and present it to the commanders and headquarters of the Azerbaijan Army. The information should include the basics of organizational (regular) and tactical marching in accordance with NATO standards, the order of march formation, control measures, the influence of the time of day, terrain and weather conditions (climate) on the movement. The historical examples, fundamentals, planning factors and methods for calculating of the movement presented in the article should improve the knowledge of commanders and staff officers and should form the basis for the formation of a standard idea on preparing a march order and its annexes (especially the march diagram, march time schedule).

In the article, in addition to extensive information about the general principles and planning of the movement of units under their own power, transportation on various vehicles, examples of the history of movement were shown and practical calculations were made.

**Keywords:** marsh, movement, transportation, unit, command post

*Məqalə redaksiyaya daxil olmuşdur: 08.01.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 09.01.2024*
*Çapa qəbul edilmişdir: 11.01.2024*

HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE
№1/2024, səh. 29-35
HƏRBİ NƏZƏRİ ELMLƏR MILITARY THEORETICAL SCIENCES

UOT 355/359

# HƏRBİ QULLUQÇULARIN MADDİ TƏMİNATINDA YARANAN ÇATIŞMAZLIQLAR, NİZAMNAMƏDƏNKƏNAR MÜNASİBƏTLƏRDƏ KRİMİNOGEN AMİLLƏR VƏ BU KİMİ NEQATİV HALLARIN ARADAN QALDIRILMASI TƏDBİRLƏRİ

**polkovnik Elçin Salmanov**
elcinsalmanov2021@gmail.com
*Milli Müdafiə Universiteti*
DOI: 10.30546/mk.2024.1.0029.

***Xülasə.*** Maddi-texniki təminat Azərbaycan Ordusunda vacib məsələ kimi daima komandanlığın diqqət mərkəzində olmuşdur. Hərbi qulluqçuların, xüsusən də müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının təminat prosesində nizamnamədənkənar münasibətlər zəmnində meydana gələn neqativ hallar hərbi xidmət dövründə özünü açıq şəkildə büruzə verir. Təbiidir ki, belə vəziyyət yarandıqda təcili tədbirlər görülməzsə, bu hallar tədricən ordu daxilində nizam-intizamın ciddi şəkildə pozulmasına səbəb ola bilər.

Təqdim olunan məqalədə hərbi qulluqçuların maddi təminat sahəsində yaranan çatışmazlıqlar, əsgər kateqoriyasına aid hərbi qulluqçular arasında bu sahədə yaranan münasibətlər, xidmət prosesində bu və ya digər səbəblərdən neqativ halların baş verməsi, həmçinin oxşar xoşagəlməz hallara qarşı mübarizə üsulları təhlil edilmişdir. Orduda belə hadisələrin təkrarlanmaması üçün mövcud problemlərin effektiv həlli yolları təklif olunmuşdur.

Nəticə olaraq, hərbi hissələrdə hərbi qulluqçuların maddi və gündəlik təminatında meydana gələn çatışmazlıqların və neqativ halların yaranmaması üçün komandir heyəti üstün idarəetmə qabiliyyəti keyfiyyətlərinə sahib olmalı və səhlənkarlığa yol vermədən qabaqlayıcı tədbirlərin həyata keçirilməsi istiqamətində işləri kompleks şəkildə həyata keçirməlidir.

**Açar sözlər:** hərbi qulluqçular, maddi təminat, nizamnamədənkənar münasibətlər, kriminogen amillər

Çox qısa zaman kəsiyində dinamik və kompleks inkişaf sürətinə nail olan, regionda lider dövlətə və beynəlxalq aləmdə isə söz sahibinə çevrilən Azərbaycan dünyanın həm qəbul, həm də etiraf etdiyi gerçəklikdir. Belə sürətli inkişafın əsası vaxtilə Ulu öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş və konkret konturları çəkilmişdir. Ümummilli liderin müəyyən etdiyi yeni və güclü Azərbaycanın inkişaf strategiyası möhtərəm Prezident cənab İlham Əliyevin əzmkarlığı, qətiyyəti, xarizması, yüksək siyasi və liderlik keyfiyyətləri ilə həyata vəsiqə almışdır. Silahlı Qüvvələrimizin əldə etdikləri bugünkü uğurları təmin edən səbəb də məhz buradan qaynaqlanır.

Maddi-texniki təminat bəzi hallarda o dərəcədə mühüm əhəmiyyət kəsb edir ki, o, döyüş hazırlığı baxımından ordu komandanlığının əsas diqqət mərkəzində olur. Bu da səbəbsiz deyil. Belə ki, maddi-texniki təminatın davamlı inkişafı, yaxud sabit qənaətedici durumu təkcə birlik, birləşmə və hərbi hissələrin döyüş qabiliyyətinin birbaşa göstəricisi olmayıb, həm də ordunun hərbi əməliyyat meydanında qalib gəlmək iqtidarının əsas təminatçısıdır. Elə bu səbəbdəndir ki, ordunun döyüş qabiliyyətinin gücləndirilməsini, hərbi-texniki imkanlarının zənginləşdirilməsini, hərbi qulluqçuların güzəranının yaxşılaşdırılmasını öz fəaliyyətində bir nömrəli prioritet hesab edən komandanlıq, ilk növbədə, bu sahəyə ciddi fikir verir və onu həmişə diqqətdə saxlayır.

Dünya miqyasında orduların inkişaf tempinin azalması ilə bağlı təsadüflər də bu sahədə istisna hesab edilmir. Ümumi mənada əsgər kateqoriyasına aid hərbi qulluqçular arasında münasibətlərin formalaşmasının müəyyən məqamlarında nəzərdə tutulan qaydaların icrası zamanı səhvlərə yol verilir. Hətta bu zaman cinayət məsuliyyətli hallara da rast gəlmək olur. Qeyd edək ki, maddi təminat üzrə hüquqi pozuntuların səbəb kompleksini təşkil edən kriminogen amillər heç də az deyil. Bəzi geyim əşyalarının, ərzaq, sanitariya və digər növ materialların hərbi hissəyə gətirilməsi prosesində təsadüf

edilən çatışmazlıqlar, habelə hərbi qulluqçuların bir-biri ilə münasibətləri zəminində baş verən neqativ hallar, pozuntu faktlarının törənmə səbəbləri hərbi hüquqşünaslar tərəfindən araşdırılır və operativ əlaqələr qurulur. Problemlə bağlı hər hansı dəlil və sübutların obyektiv, yaxud subyektiv amillərinə baxmayaraq, hərbi hüquqi aktların tələblərinin pozulması nəticəsində yaranmış maddi təminat çatışmazlığı hərbi personalın nizamsız münasibətlərini müəyyənləşdirir. Bu durum heç bir halda ötəri xarakter daşımır və bir qayda olaraq, həmişə diqqət mərkəzində saxlanılır [1].

Hərbi xidmətin təminat prosesində meydana gələn çatışmazlıqlar hərbi qulluqçuların geyim və pul təminatı ilə əlaqədar nöqsanların müəyyənləşdirilməsində, habelə hərbi qulluqçuların yaxşı xidməti üçün normal fəaliyyət şəraitinin təşkilində açıq şəkildə özünü büruzə verir. Əksər situasiyalarda hər hansı əsgəri istənilən təminat növündən məhrum etmək, yaxud vəzifə mövqeyindən istifadə edərək öz xidməti münasibətində sərt hərəkətlərə yol vermək kimi hərbi xidmətin qeyri-qanuni təzahür formalarına da rast gəlinir.

Hərbi kollektivdə nizamnamədənkənar münasibətlər ilk baxışdan bəsit görünən iki mühüm sualla bağlı olur. Birincisi, komandir hansı xarakterə malikdir? İkincisi, komandir idarəetmə zamanı güzəşt edirmi? Hər iki sualın dərin psixoloji mahiyyəti vardır. Belə ki, əgər komandir öz vəzifə mövqeyinə uyğun olmayan hərəkətlərə yol verirsə, bu, hərbi kollektivdə tədricən nizamnamədənkənar münasibətlərə şərait yaradır. Neqativ hallara biganə qalmaq heç bir halda müsbət nəticə vermir. Bu səbəbdən də əsgər kateqoriyasına aid hərbi qulluqçuların şəxsi keyfiyyətlərinə, rəftar və davranışlarına xüsusi diqqət yetirilməli, həm də gənc və "yaşlı" əsgər fərqləri qiymətləndirilmə zamanı, əsassız olaraq, qabardılmamalıdır.

Əsgəri nəyinsə qəbulundan məhrum etmək, gənc əsgərlərə istifadə üçün verilən əşyaların bir qismini dəyişdirmək, aylıq müavinətini, həmçinin geyim və digər zəruri avadanlıqları əlindən almaq nizamnamədənkənar münasibətlərin bir forması kimi hələ də təzahür edir. Qida miqdarının azaldılması kimi neqativ hallar da bu qəbildəndir. Nəticə verib-verməməsindən asılı olmayaraq, belə əməllər hərbi cinayətin təməlini qoyur. Buna görə də komandirlər tərəfindən bu məsələ köklü şəkildə öz ədalətli həlledilmə axarına salınmalıdır. Real təcrübi faktlar sübut edir ki, nizamnamədənkənar münasibətlərin ağır, ziyanlı formalarının yeri və vaxtı məhdud deyil. Qeyd etmək lazımdır ki, sadaladığımız qeyri-qanuni əməllərin yayılma miqyası ordu daxilində digər formalarla müqayisədə daha çox narahatedicidir. Üstəlik, davamlı xarakter daşıyan mənfi təzahürlər mahiyyət etibarilə kollektiv anlayış doğurur və çox təhlükəli hadisələrin törənməsinə stimul verir.

Əsgərlər arasında daha çox yayılmış və hərbi nizamnamə tələblərinin pozulmasına səbəb olan halları aşağıdakı kimi qruplaşdırmaq olar:

a) "Qəlyanaltı etmək" – gənc əsgərlər aldıqları aylıq müavinətin miqdarına uyğun olaraq, əsgər çayxanasında təzə yemək almaq məcburiyyəti qarşısında qalır və ya mütəmadi olaraq ərzaq mağazasından müxtəlif ərzaq məhsulları almağa meyilli olurlar [2];

b) "Pul borcuna düşmək" – belə borcların ödənilməsi, adətən, təmin olunmur;

c) "Oğurluq naminə kompensasiya" – belə hallar gənc əsgərin bölmə daxilində xidməti zamanı baş verir. "Yaşlı" əsgərlərdən biri şəxsi pulunun və ya əşyasının oğurlandığını bəyan edir, gənc əsgərlər isə dəymiş itkinin əvəzini öz pul ehtiyatı hesabına ödəməyə məcbur edilir. Seçim belə təyin olunur: borc tam ödənilməyincə (əgər digər "yaşlı" əsgərlər pul dəstəyinin verilməsində iştirak edərlərsə) aylıq müavinət, ümumiyyətlə, verilmir;

ç) "Oğurlanmamaq bəhanəsi ilə şəxsi pulun, guya, etibarlı saxlanılması üçün kiməsə verilməsi" – şəxsi pulun bu cür saxlanılması, bir qayda olaraq, özünü doğrultmur, yəni pulun öz sahibinə qaytarılması haçansa məqsədli şəkildə təmin edilmir;

d) "Tutarlı səbəb olmadan şəxsi pulun əldən çıxarılması" – belə hallar müxtəlif hiylə yolu ilə baş tutur. Şəxsi heyət mövcud normalara əsasən əşya əmlakı, o cümlədən yuyucu ləvazimatlarla və s. zəruri vəsaitlərlə vaxtlı-vaxtında təmin edilsə də, bəzi hərbi hissələrdə tualet aksessuarları və s. təmizləyici kimyəvi maddələrin alınması üçün müxtəlif tərzdə pul yığılmalarına da təsadüf edilir [3]. Əksər hallarda zəruri əşyalar qismən alınaraq gənc əsgərlərə verilir, lakin yığılan pulun bir hissəsi bəzən çavuşlarda, bəzən də "yaşlı" əsgərlərdə qalır. Bundan əlavə, bəzi "yaşlı" əsgərlərin işlətdiyi hiylə sayəsində gənc

əsgərlərə bölmənin zabit heyətindən borc pul almaq təklif edilir. Bu yolla əldə edilən pul vəsaiti "yaşlı" əsgərlərə, təxminən bir ildən artıq hərbi xidmət həyatı sürən əsgərlərə verilir, qeyd edilən borc isə zabit heyətinə gənc əsgərlərin aylıq müavinəti hesabına qaytarılır. Gənc əsgərlərdən alınan pulları gizlətməyin yolları müxtəlifdir. Məsələn, qeyri-rəsmi şəkildə "yaşlı" əsgər statusu ilə önə çıxanların müvafiq razılığı əsasında gənc əsgərlərin aylıq müavinətinin bir hissəsi şəxsi gigiyena vasitələri almaq üçün sərf edilir. Bu, zəruri sayılan pulun yetərincə olmaması barədə şübhəni aradan qaldırır. Yaxud zabitlər tərəfindən aparılan yoxlama zamanı pulun dərhal təqdim olunması bəhanəsi ilə gənc əsgərlər pul dəstəyinin yarısına qədərindən istifadə etmək hüququndan məhrum olurlar. Sonra nəzərdə tutulan pul vəsaiti pulyığılma riski olmadan "yaşlı" əsgərlər tərəfindən mənimsənilir;

e) "Sərt münasibət" – müxtəlif bəhanələrlə gənc əsgərlərin isti geyimlərdən məhrum edilməsində əks olunur. İsti alt paltarları, kostyumlar, əlcəklər, bəzən də palto və gödəkcələr, qış papaqları cürbəcür əməllərlə gənc əsgərlərin əlindən alınır. Yay bölmə təlim düşərgəsində olan zaman gənc əsgərlərin yorğanları gecə götürülür və özləri də küçədə qalmağa məcbur edilir. Alt paltarlarında açıq havada qalan gənc əsgərlər "yaşlı" əsgərlərin bu əməllərini komandirlərindən gizlədərək, soyuq havada qalmalarının səbəbini təbii ehtiyaclarını ödəmək istəmələri ilə izah edirlər.

İntizamsızlığa meyilli hərbi qulluqçular tərəfindən açıqladığımız neqativ halların törədilməsi hər kəsin görə bilmədiyi mənəvi aclıq yaradır, bölmənin xidmət fəaliyyətinin normal inkişafına xələl gətirir və bunun nəticəsində hərbi qulluqçulara geyim və aylıq müavinətlərin verilməsi ilə bağlı müvafiq qayda və prosedurları tənzimləyən hüquqi aktların tələbləri pozulur. Məsələn, yorğan çatışmazlığının doğurduğu soyuqlama halları dəyən ziyanın hansı fəsadlar verməsini yaxşı aydınlaşdırır. Belə ki, soyuq gecələrdə "yaşlı" əsgərlər iki yorğan altında yatır, bəzi gənc əsgərlər isə yorğansız qalırlar. "Sərt münasibət"in ağır nəticəsi kimi, əlavə olaraq, yeni əsgərlərə verilən paltar və ayaqqabılar "yaşlı" əsgərlər tərəfindən dəyişdirilir.

Qida təchizatı sektorunun tam maliyyələşdirilməməsi, yaxud qida rasionu normalarına uyğun ərzağın verilmə qaydasının pozulması, əsgər yeməkxanasında yemək qablarının əsgərlərin sayına uyğun olmaması, habelə nahar zamanı "yaşlı" əsgərlər tərəfindən yemək seçmək hegemonluğu şəxsi heyət arasında haqlı qarşıdurmalara səbəb olur.

Dünya ordularının bir qismində gənc əsgərlər "yaşlı" əsgərlərin tələbi ilə hətta oğurluğa, dilənçiliyə təhrik edilirlər. Məlum faktlara əsasən, qidalanmada olan bu formada çatışmazlıqlar hərbçilərin bir qisminin yüksək aqressivliyinə səbəb olur. Məsələn, Rusiya ordusunun illik hesabat göstəricilərində hərbi ekspertlərin verdiyi rəyə əsaslanaraq qeyd olunur ki, 1997-ci ildə ərzaq məhsullarının normadan 8 – 14% az olması səbəbindən şəxsi heyət arasında potensial aqressivlik yüksək olmuşdur [4].

Qida rasionunun çatışmazlığı faktiki olaraq 23 – 57% arasında dəyişir. Əslində bu və buna bənzər çatışmazlıqlar maliyyələşdirmə azlığı, hamam-camaşırxana xidmətinin yarıtmazlığı, həmçinin şəxsi heyət üçün zəruri hesab edilən digər dəstək növləri ilə əlaqədar məsələlərin tələblərə uyğun həll edilməməsinin nəticəsidir.

Maddi vəziyyətin və yaşayış şəraitinin bu cür qeyri-qənaətbəxş göstəriciləri hərbi intizam qaydaları əsasında idarə edilən hərbi xidmətin özünə ciddi təsir etməsə də, xoşagəlməz halların davam etməsinə, operativ yoxlamalara baxmayaraq, nizamnamədənkənar münasibətlərdə kriminogen amillərin qalmasına səbəb olur. Bir faktı da qeyd etmək yerinə düşərdi. Bölmələrdə bəzən kifayət qədər dəsmal, yataq dəsti olmur ki, bu da "qarşılıqlı oğurluğa" yol açır və zor vasitəsilə törədilən məcburi əməllərə səbəb olur. Bu səbəbdən də məişət alətlərinin yoxluğu bir sıra münaqişə məqamları yaradır.

Qışda əsgər yataqxanaları daxilində istilik çatışmazlığı da müəyyən problemlər yaradır. Bu nəinki qazanxanalarda, həmçinin paltarqurutma otaqlarında və digər zəruri yerlərdə nəzarətsiz qruplaşmaların meydana gəlməsinə yol açır. Bəzi xarici ölkələrin ordularında şəxsi heyətin hamamda hər 2 – 4 həftədə bir dəfə çimməsi, alt paltarlarının, yataq dəstlərinin, dəsmalların 2 – 4 həftədə bir dəfə dəyişdirilməsi səbəbindən sanitar-gigiyena, müalicə-profilaktika və epidemiya əleyhinə tədbirlər vaxtında və ya tam həcmdə yerinə yetirilmir [4].

Bölmədə gigiyena vasitələri, alt paltarları və s. kimi çatışmazlıq faktları ortaya çıxan zaman isə, ehtimal ki, həmin əşyalar zəruri ehtiyac üzündən təbii bir axarla "yaşlı" əsgərlər tərəfindən aciz duruma düşən gənc əsgərlərin əllərindən alınır. Əsgər yataqxanalarında olan camaşır vasitələrinin sayı şəxsi heyətin həqiqi sayına uyğun gəlmirsə, yalnız "hökmlü" kateqoriya sayılan əsgərlər tərəfindən səhər yuyunması zamanı mövcud vasitələrdən istifadə edilir. Bu proses bəzi qüvvələrin əli ilə elə ustalıqla nizamlanır ki, gənc əsgərlər həmişə real imkanlardan məhrum olurlar. Bu cür faktlar da bölmədə xoşagəlməz halların yaranmasına səbəb olur. Aydındır ki, təcili tədbirlər görülməzsə, bu hallar tədricən ordu daxilində qanuni münasibətlərin ciddi formada pozulmasına və nizamnamədənkənar münasibətlərin həddini aşmasına səbəb ola bilər.

Daha bir faktın da qeyd edilməsi yerinə düşər. Material çatışmazlığı nəticəsində tualet əşyalarından məhrum olan gənc bir əsgər gündəlik işlə bağlı vaxtın kifayət qədər məhdudluğuna, yuyunma yerlərinin, adətən, yalnız "yaşlı" əsgərlər tərəfindən istifadə olunmasına, habelə hərbçi sırasında yenicə duran əsgərlərin qeyri-ixtiyari surətdə əmələ gələn natəmizliyinə görə "yaşlı" əsgərlər tərəfindən nizamnamədənkənar əməllərin törədilməsinə səbəb olur. Əslində, bu sayaq qanun pozucusu öz bəd niyyəti əsasında həyata keçirmək istədiyi "cəza"nı rəsmi qaydalar biçimində öz "üstün" səlahiyyətlərini gücləndirmək və fağır hərbi qulluqçuları qorxutmaq üçün tətbiq edir.

Acınacaqlı bir hal da ondan ibarətdir ki, fağır gənc əsgərlər haqsız hərəkətlərə görə susduqları üçün onlar kollektiv daxilində "hörmət şkalasında" sonuncu yeri tuturlar. Bununla yanaşı, münasibətlərdə qeyri-sabitlik, kollektiv daxilində yaxşı ilə yamanı düzgün seçməmək, qiymətləndirmə prosesində qeyri-obyektivliyin hökm sürməsi və s. kimi qüsurlar komandir nüfuzuna ləkə salır. Son nəticədə hərbi ədəb-ərkana əngəllər törədən şəxsi mənafe üstünlük təşkil edir və dolayı yollarla döyüşə hazırlıq vəziyyəti əhəmiyyətli dərəcədə aşağı düşür.

Qeyd edək ki, belə obyektiv səbəbləri nəzərə alaraq, qoşunların maddi bazasının möhkəmləndirilməsi və hərbçilərin gündəlik ehtiyaclarının daha yaxşı ödənilməsi nizamnamədənkənar münasibətlər axarında törədilən mənfi təzahürlərin qarşısını almağa kömək edir.

Dediklərimizi yekunlaşdıraraq, "hərbi xidmət həyatına təhlükə yaradan neqativ halların qarşısının alınması və lazımi maddi və məişət dəstəyinin təşkili üçün xüsusi tədbirlər görülməlidir" fikrini söyləmək mümkündür. Hesab edirəm ki, həmin tədbirlər aşağıdakı sahələri əhatə etməlidir:

1) tabeliyində olan hərbi əmlakdan düzgün istifadə edilməsini, itkiyə görə məsuliyyətin vacibliyini, əmlaka qəsdən ziyan vurulmasının ağır nəticələrini hərbi qulluqçulara izah etmək;

2) bölmədə yerləşən əmlakın mövcudluğunu, istismar vəziyyətini və uçotunu yoxlamaq (bu yoxlamanı tabor komandiri 3 ayda ən azı 1 dəfə, bölük komandiri isə ayda ən azı 1 dəfə həyata keçirməlidir) [5];

3) müəyyən edilmiş pul təminatı və təchizat normaları barədə hər bir hərbi qulluqçunu vaxtında və tam məlumatlandırmaq;

4) şəxsi heyətin düzgün qidalanması və sağlamlığının müntəzəm qorunması üçün nəzarət işini gücləndirmək;

5) yeməyin keyfiyyətinə planlı şəkildə nəzarət etmək;

6) şəxsi heyətin rahat yerləşdirilməsi üçün sanitar-gigiyena normalarını və hərbi qayda-qanun tələblərini ciddi şəkildə yerinə yetirmək;

7) hərbi qulluqçuların nümunəvi görünüş və geyiminin saxlanılmasına vaxtaşırı nəzarət etmək;

8) şəxsi heyətin hamamda vaxtında çimizdirilməsi üzrə həftəlik yoxlama keçirmək.

Hərbi qulluqçunun tutduğu vəzifə ilə bağlı yol verdiyi nöqsanları vaxtında müəyyənləşdirmək və zərərverici amilləri neytrallaşdırmaq məqsədilə səmərəli yollar seçilməlidir. Xüsusən qida qəbulunu düzgün təşkil etmək və yeməkxanada xidmətin qüsursuz icrasına nail olmaq üçün bəzi mühüm məqamları müntəzəm izləmək lazımdır. Xidmət sahəsində ehtimal edilən neqativ halların əsas səbəbləri aşağıdakılardan ibarətdir:

1. Yemək zalında lazımi sayda masa və stulun olmaması. Bu, aciz hərbi personal kateqoriyasında (bir qayda olaraq, gənc əsgərlərdə) tam yemək üçün real imkanların olmamasına gətirib çıxarır. Süfrə arxasında oturmağa sadəcə olaraq icazə verilmir və ya "növbə" gözlənilir. Ayrıca vurğulanır ki, tam

yemək üçün vaxt yoxdur. Bu cür yolverilməz faktlar qeyri-qanuni təzahürlərdir, belə ki, "qida qəbulu qaydası" qeyri-rəsmi meyarlarla – xidmət müddəti, fiziki güc, müəyyən bir qrupa üzv olmaq və s. səbəblərlə müəyyən edilir. Xüsusi olaraq, "birinci yerə" düşmək cəhdi hərbçilər arasında şiddətli qarşıdurmalara səbəb ola bilər [6].

2. Qablar və bıçaq dəstləri ilə tamamlanmamış masaların qəbul edilməsi.

3. Bölmələrdə iki masanın kimlərəsə daimi təhkim olunması, böyük masaların xüsusi adla və rəsmi təyin edilməsi. Belə məqamlarda "yaşlı" bir əsgər gənc əsgərlərə hər hansı bir səbəbdən fiziki zorakılıq göstərə bilər.

4. Yemək otağının və onun girişinin lazımi səviyyədə işıqlandırılmaması. Bu kimi çatışmazlıqlar hərbi qulluqçular arasında xoşagəlməz münaqişələrin artmasına şərait yaradır və bəzən təhrikedici vəziyyət doğurur. Problem çox vaxt yemək yeyəndə əsgərlər arasında gedən müxtəlif "söz-söhbətdən" qaynaqlanır: gileylənirlər ki, ayrılan çörək çox kiçikdir, yaxud "çörəkkəsən" əlavə çörək verməyib və bu kontekstdə dedi-qodu yaranır. Bir qayda olaraq, bu cür mübahisələr şiddətli bir nəticəyə çevrilir. Yemək otağına yaxın qaranlıq bir otaq və ya ən azı görünməz bir künc, yaxud döngəli dəhliz dalanı varsa, belə gözədəyməz yerlərdə qarşıdurmaların baş verəcəyini proqnozlaşdıra bilərik.

5. Yemək zalında qida qəbulunun və yemək hazırlığının qeyri-düzgün təşkil edilməsi. Bu zaman hərbi qulluqçular arasında ət, balıq, şəkər və kərə yağının qeyri-bərabər paylanılması, digər qida standartlarının qeyri-tamlığı, yemək zamanı hərbi intizam qaydalarının pozulması və s. səbəblər üzündən narazılıq yaranır. Bu cür pozuntular hərbi personal arasında şəxsiyyətlərarası qarşıdurmaların birbaşa yaranmasına əsaslı təkan verir.

Maddi təminat məsələsi ilə əlaqədar olaraq nizamnamədənkənar münasibətlərdə sadaladığımız neqativ halların qarşısını almaq üçün aşağıdakı tədbirlər həyata keçirilməlidir:

1. Müvafiq rəhbəredici sənədlərin tələblərinə əsasən, yemək otağının zəruri və keyfiyyətli müasir avadanlıqlarla təchiz edilməsinə nail olmaq;

2. Hər bir bölmə üçün müntəzəm olaraq yemək masaları düzəltmək. Bu vəziyyətdə böyük masaları düzgün yerləşdirmək və yeməkxananın işçi personalının (naryadın, aşpazların) öz vəzifələrinin icrasına vaxtaşırı nəzarət etmək;

3. Şəxsi heyətə müəyyən edilmiş qida rasionuna uyğun yeməklərin verilməsinə vaxtaşırı nəzarət etmək (ilk növbədə ət, kərə yağı, çörək və şəkər məhsullarının çatışmazlığı aradan qaldırılmalıdır, çünki onların qıtlığı ucbatından şəxsi heyət arasında münaqişə baş verir) [7];

4. Texniki imkanlar hesabına özünəxidmət xətlərini qurmaq və rahat istifadə şəraiti təşkil etmək. Bəzi hərbi hissələrdə bu sayaq təcrübə sayəsində qida porsiyalarının düzgün verilməməsi, yemək ardıcıllığının pozulması, porsiyaların ədalətsiz bölüşdürülməsi və s. hallarla bağlı bir sıra problemlər öz həllini tapır. Qüsur doğurmayan özünəxidmət xətti istifadə edilərkən birinci və ikinci yemək qabları üçün xüsusi boş yerlər yaradılmalı, müvafiq qayda əsasında qaşıq, çəngəl və bıçaq yerləşdirilməlidir. Belə qidalanma üsulu daha az vaxt sərf etməyə imkan verir və şəxsi heyət arasında ədalətsiz paylanma ehtimalını azaldır.

5. Hər gün şəxsi heyətin yemək prosesini şəxsən izləmək. Bəzi zabitlər bu məsuliyyəti çavuşun üzərinə atırlar. Unutmaq olmaz ki, şəxsi heyət arasında nizamnamədənkənar münasibətlərin əksər ağır məqamları məhz əsgərlərin yeməkxanada nəzarətsiz olduğu dövrdə baş verir.

6. Aşpaz və yeməkxananın digər işçilərini yemək oğurluğuna və məişət alətlərinin itirilməsinə görə məsuliyyətə cəlb etmək, həmçinin qida porsiyalarına, qab-qacaqlara və s. əşyaların varlığına, istifadə prosesinə nəzarət etmək.

Beləliklə, hərbi qulluqçuların maddi və gündəlik təminatında meydana gələn çatışmazlıqlar hərbi hissələrdə neqativ halların inkişafına təkan verir. Əgər ordu həyatına yad hesab edilən belə mənfi təzahürlər vaxtında aradan qaldırılmasa, həm kəmiyyət, həm də keyfiyyət baxımından əhəmiyyətli dərəcədə üstün göstəricilər əldə edilməsə, hər hansı bir ölkədə müasir və kamil bir səviyyədə Silahlı Qüvvələrin effektiv sistemini yaratmaq mümkün ola bilməz [8].

## Nəticə

Maddi təminat işində komandir heyəti idarəetmə qabiliyyətinin üstün keyfiyyətlərinə sahib olmadan hərbi qulluqçuların gündəlik təminatını nöqsansız təşkil edə bilməz. Neqativ halların yaranmaması üçün işlər kompleks şəkildə icra edilməlidir. Zəruri qabaqlayıcı tədbirlərin həyata keçirilməsi istiqamətində səhlənkarlığa qətiyyən yol verməmək olmaz.

Başlıca nəticə ondan ibarətdir ki, ehtimal edilən nöqsanların qarşısının vaxtında alınması məqsədilə Azərbaycan Ordusunda effektiv maddi təminat sisteminin yaradılması dəyərli nümunə kimi önə çəkilməli və qazanılmış təcrübə yetişməkdə olan gənc zabitlərimiz tərəfindən yaxşı mənimsənilməlidir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsi // Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 885 nömrəli Qanunu ilə təsdiq edilmişdir. – Bakı: Hərbi nəşriyyat, – 2010. – 8-9 s.
2. Əsgər mağazasının və əsgər kafesinin fəaliyyətinin təşkili və bununla bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında Təlimat // Azərbaycan Respublikası müdafiə nazirinin 19.11.2013 tarixli 337 nömrəli əmri ilə təsdiq edilmiş. – Bakı: Hərbi nəşriyyat, – 2013.
3. Azərbaycan Ordusunda əşya xidmətinin təşkili üzrə təlimat // Azərbaycan Respublikasi müdafiə nazirinin 265 nömrəli 25 iyul 2001-ci il tarixli əmri. – Baki: Hərbi nəşriyyat, – 2003.
4. Моргуленко, Е.А. Юридическая правого оценка. Методическое пособие. / Е.А.Моргуленко. – Москва: Космос, – 2008.
5. Azərbaycan Respublikası Silahlı Qüvvələrində qoşun (gəmi) təsərrüfatının aparılması haqqında təlimat // Azərbaycan Respublikası müdafiə nazirinin 2014-cü il tarixli 1 nömrəli qərarı ilə təsdiq edilmişdir. – Baki: Hərbi nəşriyyat, – 2014.
6. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsi // Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu ilə təsdiq edilmişdir. – Bakı: Hərbi nəşriyyat, – 2014.
7. Azərbaycan Ordusunda ərzaq xidmətinin təşkili üzrə təlimat // Azərbaycan Respublikası müdafiə nazirinin 08.09.2014-cü il tarixli 60 nömrəli Qərarı. – Bakı: Hərbi nəşriyyat, – 2014.
8. Azərbaycan Ordusunda hərbi qulluqçuların pul təminatı haqqında Əsasnamə // Azərbaycan Respublikası müdafiə nazirinin 2017-ci il 19 oktyabr tarixli 22 nömrəli qərarı ilə təsdiq edilmişdir. – Bakı: Hərbi nəşriyyat, – 2014.

## Аннотация

**Меры по устранению недостатков финансового обеспечения военнослужащих, криминогенных факторов во внезаконных отношениях и аналогичных негативных ситуаций**

**Эльчин Салманов**

Материально-техническое обеспечение всегда находилось в центре внимания командования как важный вопрос в Азербайджанской Армии. В период прохождения военной службы ярко проявляются негативные ситуации, возникающие в контексте неуставных отношений в процессе обеспечения военнослужащих, особенно военнослужащих срочной службы. Конечно, если при возникновении такой ситуации не принять срочных мер, эти ситуации могут постепенно привести к серьезному нарушению дисциплины в армии.

В представленной статье рассмотрены недостатки в сфере финансового обеспечения военнослужащих, взаимоотношения между военнослужащими, относящимися к категории военнослужащих в этой сфере, возникновение негативных ситуаций по тем или иным причинам в процессе службы, а также способы борьбы с ними были проанализированы подобные

неприятные ситуации. Чтобы не допустить повторения подобных инцидентов в армии, предложены эффективные решения существующих проблем.

В результате, во избежание недостатков и негативных ситуаций в материальном и повседневном обеспечении военнослужащих в воинских частях, начальствующий состав должен обладать прекрасными управленческими навыками и проводить комплексную работу в направлении реализации превентивных мер, не допуская халатности.

**Ключевые слова:** военная служба, военнослужащие, материальное обеспечение, внеочередные отношения, криминогенные факторы, жесткое отношение

## Abstract

## Measures to eliminate deficiencies in the financial support of military personnel, criminogenic factors in extrastatutory relationships, and similar negative situations

**Elchin Salmanov**

Material and technical support has always been the focus of the command as an important issue in the Azerbaijan Army. During the military service period, the negative situations that occur in the context of non-statutory relations in the process of ensuring the military servicemen, especially the regular military servicemen, manifest themselves clearly. Of course, if urgent measures are not taken when such a situation arises, these situations can gradually lead to a serious breakdown of discipline within the army.

In the presented article, shortcomings in the field of financial security of military personnel, relations between military personnel belonging to the category of soldiers in this field, occurrence of negative situations for one reason or another in the service process, as well as methods of combating similar unpleasant situations were analyzed. In order to prevent such incidents from happening again in the army, effective solutions to existing problems have been proposed.

As a result, in order to avoid deficiencies and negative situations in the material and daily support of military personnel in military units, the commanding staff should have excellent management skills and should carry out work comprehensively in the direction of implementing preventive measures without allowing negligence.

**Keywords:** military service, military personnel, material support, extraordinary relations, criminogenic factors, harsh attitude

*Məqalə redaksiyaya daxil olmuşdur: 04.12.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 28.12.2023*
*Çapa qəbul edilmişdir: 09.01.2024*

HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE
№1/2024, səh. 36-44
HƏRBİ NƏZƏRİ ELMLƏR MILITARY THEORETICAL SCIENCES

UOT 355/359

# HƏRBİ QULLUQÇULARDA PSİXİ DAYANIQLIQ PROBLEMLƏRİNİN ÖYRƏNİLMƏSİ

**polkovnik Elçin Salayev**
salayevelcin7878@gmail.com
*Hərbi İdarəetmə İnstitutu*
DOI: 10.30546/mk.2024.1.0036.

***Xülasə.*** Məqalədə Azərbaycan Ordusunda psixoloji işin təşkilindən bəhs olunur. Məlumdur ki, hərbi qulluqçuların psixoloji vəziyyətinin sabitliyi istənilən ordunun döyüş qabiliyyətinin təmin olunmasında əhəmiyyətli rola malikdir. Orduda psixoloji işin təşkili zamanı, hər şeydən əvvəl, hərbi qulluqçuların temperament tipi nəzərə alınmalıdır. Bundan başqa, tapşırıqlar onların fiziki və mənəvi imkanları çərçivəsində verilməlidir, çünki tələb və tapşırıqların həddindən artıq olması hərbi qulluqçularda stres vəziyyətinin yaranması, ordunun hərbi hazırlıq səviyyəsinin aşağı düşməsi ilə nəticələnir. İstər qısamüddətli, istərsə də uzunmüddətli stresin qarşısı vaxtında alınmazsa, bu daha ciddi fəsadlara gətirib çıxara bilər. Oxşar vəziyyətlə üzləşməmək üçün müəyyən amillərə diqqət yetirilməsi vacibdir. İlk növbədə, hərbi hissəyə yeni gələn şəxsi heyətin hər bir üzvünün sənədləri öyrənilməli, davranışı və digər şəxslərlə ünsiyyət forması müəyyən müddət müşahidə altında saxlanılmalıdır. Hərbi qulluqçularla aparılan fərdi söhbətlər də onların psixoloji durumunu üzə çıxarmağa və adekvat qərarlar qəbul etməyə imkan verir. Hərbi qulluqçuların psixoloji vəziyyəti xidmətin müxtəlif mərhələlərində fərqli ola bilər. Bu səbəbdən də, şəxsi heyətlə psixoloji işin təşkili zamanı hərbi xidmətə uyğunlaşma müddətinin reallıqları ilə xidmətin davam etdiyi müddətin reallıqları nəzərə alınmalıdır. Ümumilikdə, orduda psixoloji işin düzgün təşkili həm xidmətin keyfiyyətini artırmaq, həm də hərbi qulluqçuların sağlamlığını qorumaq baxımından vacibdir.
**Açar sözlər:** fərdi psixoloji xüsusiyyətlər, psixoloji tədqiq, psixoloji işin subyekti, stres

## Giriş

Qədim zamanlarda alimlər insanların davranışının xarici təzahürlərini müşahidə edərək onlar arasında böyük fərdi fərqlərin mövcud olması barədə fikirlər irəli sürmüşlər. Bəzi insanlar çox mütəhərrik, emosional cəhətdən oyanıq və enerjilidirlər, digərləri zəif, astagəl və adamayovuşmazdırlar, digərləri isə fəal, ünsiyyətə meyilli olduğu halda, başqaları qapalı və qaraqabaqdırlar. İnsanlar haqqında fərqli təsəvvürlər də buradan meydana gəlmişdir. Onların davranış və fəaliyyət prosesində aşkara çıxan bu cür fərdi fərqləri bildirən xüsusiyyətlər kompleksi öz əksini "temperament" anlayışında tapmışdır.

Temperamenti yalnız şərti olaraq şəxsiyyətin komponentinə aid etmək olar. Çünki temperament, bir qayda olaraq, anadangəlmədir və bioloji xüsusiyyətlərlə şərtlənir, xarakterlə sıx bağlıdır və yaşlı adamlarda onları fərqləndirmək xeyli çətindir [1].

Temperament həm də elmi cəhətdən tədqiq olunmasını tələb edən xüsusiyyətdir. Bu fenomenin öyrənilməsi fərdlərin davranışını və əmək fəaliyyətini qiymətləndirmək baxımından da əhəmiyyətlidir.

Psixologiya tarixində temperament haqqında ilk təlimin müəllifi qədim yunan həkimi Hippokrat hesab edilir (e.ə. V – IV əsrlər). O, temperamentin şərhini və izahını, fizioloji əsaslarını insan orqanizmində mövcud olan dörd müxtəlif mayenin qarşılıqlı nisbəti ilə izah edirdi.

1. Qan (latınca "sanqviz") – sanqvinik.
2. Selik (latınca "fleqma") – fleqmatik.
3. Öd (latınca "xole") – xolerik.
4. Qara öd (latınca "melame xole") – melanxolik.

Qeyd etmək lazımdır ki, insanların hər biri müəyyən temperament tipinə aid edilsə də, xalis şəkildə bu və ya digər temperamentə rast gəlmək çox çətindir. İnsanların böyük əksəriyyəti qarışıq temperament

tipinə aiddirlər. Lakin hər hansı temperament tipinin xüsusiyyətinin üstün olması baxımından onlar konkret bir tipə aid edilirlər [1].

Psixoloji işin icrası zamanı temperament tiplərinin nəzərə alınması mütləqdir. Bu prosesi yerinə yetirmək üçün müxtəlif subyektlərin hər biri öz spesifik funksiyalarını yerinə yetirirlər. Psixoloji işin müvəffəqiyyətlə icrası bütün iştirakçıların birgə, yaxşı koordinasiya edilmiş səyləri ilə təmin edilə bilər. Təcrübə göstərir ki, zabitin psixoloqa müraciət etməsini şərtləndirən əsas situasiyalar aşağıdakılardır:

– idarəçiliyə dair qərarın qəbul edilməsi üçün lazımi məlumatın olmaması;
– digər vəzifəli şəxslər və hərbi qulluqçularla qarşılıqlı əlaqənin, ünsiyyətin daha optimal modelinin olmaması;
– şəxsi heyətin həyat şəraitinin, xidməti fəaliyyətinin və şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin səviyyəsinə təsir edən faktorları müəyyən edə bilməməsi;
– psixoloji iş tədbirlərini həyata keçirmək üçün metodiki biliyin olmaması;
– şəxsən psixoloji yardıma ehtiyaclı olması və s.

## Əsas hissə

Psixoloji işin təşkili. Müasir dövrdə qoşunlarda zabit (gizir) heyətinin xidməti fəaliyyətinin, insani keyfiyyətlərinin müəyyən edilməsi, dəyərləndirilməsi məqsədilə onların peşə yararlılığının dərindən və kompleks şəklində öyrənilməsinə zərurət yaranır.

Bu məqsədlə hərbi psixoloqlar hərbi qulluqçuların peşə qabiliyyətlərinin qiymətləndirilməsi və çıxarılan nəticələrin obyektivliyinin artırılması üçün müşahidələrin aparılması, söhbətlərin keçirilməsi, müqayisə edilməsi, psixoloji testləşmə kimi üsullardan geniş istifadə edirlər.

Sinir-psixi dayanıqsızlıq dedikdə, fiziki və psixi yüklənmələr artdığı zaman sinir sisteminin pozulmasına meyillik başa düşülür. Bu kifayət qədər geniş anlayışdır, özündə gizlin, ifadə olunmamış (görünməyən) və yaxud zəif ifadə olunmuş, lakin tarazlaşdırılmış formada cərəyan edən, sinir sisteminin fəaliyyətindəki qüsurlarla şərtləndirilən və orqanizmin uyğunlaşma imkanlarını azaldan müxtəlif xəstəlikqabağı vəziyyətləri – stresi ehtiva edir.

Sinir-psixi dayanıqsızlığın əmələ gəlməsində sinir sisteminin bioloji natamamlığının (bioloji keyfiyyətlərində anadangəlmə və yaxud qazanılmış qüsurların olması) psixoloji və sosial arzuolunmaz amillərlə birləşməsi şərtləndirici (müəyyənedici) rol oynayır. Hərbi psixoloq üçün sinir-psixi dayanıqsızlığın inkişafına zəmin yaradan bioloji mühiti başa düşmək çox vacibdir.

Birincisi, niyə adi insanın davranış və fəaliyyətində rast gəldiyimiz qüsurlar az əhəmiyyətli olaraq insanın şəxsiyyətində bütöv bir iz qoymur, əlamətləri görünmür. Sinir-psixi dayanıqsızlığı olan insanlarda isə bu qüsurlar nəinki aydın görünür, həm də davamlı olur, sabit xarakter daşıyır və özünü şəxsiyyətin təzahürünün müxtəlif cəhətlərində əhəmiyyətli dərəcədə göstərir.

İkincisi, sinir-psixi dayanıqsızlığın dərk olunmasına bu cür yanaşma, sinir-psixiki dayanıqsızlığın əlamətləri olan hərbi qulluqçularla aparılacaq psixoloji işdə yalnız tərbiyəvi və psixoterapevtik yox, həm də təşkilati tədbirlərin kompleksini qabaqcadan müəyyən edir. Bu da öz növbəsində hərbi qulluqçuların stres vəziyyətlərinə düşməsinin qarşısının alınması istiqamətində profilaktik tədbirlərin həyata keçirilməsində önəmli rol oynayır [2, s. 8-9].

**Stres.** Həddindən artıq tələblərə qarşı insan bədəninin və zehninin reaksiyasıdır. Bu reaksiyalar dəyişiklik tələb edən, daxili aləmimizdə həyəcanverici konfliktlər və ya təhlükə yaradan hadisələr, yaxud da vəziyyətlərdir. Bunlar istər fiziki (soyuqdəymə, zədə, xəstəlik), istərsə də psixi xarakterli (qorxu, münaqişə, təzyiq), müsbət və ya mənfi ola bilər. Bu da əsgərin necə qəbul edildiyindən asılıdır. Məsələn, döyüşlər ara verərkən istirahətetmə, dincəlmək və yenidən güc toplamaq bir qisim hərbi qulluqçular üçün müsbət, digərləri üçün mənfi qarşılana bilər. İstək və reallıq üst-üstə düşmədikdə stres yaradır.

Stresin aşkarlanması xüsusilə vacibdir. Müəyyən xarici hadisələrin və ya şəxsi ehtiyacların təhdidedici, ya da əlverişsiz kimi şərh edilməsi də stresə səbəb ola bilər. Təyyarənin görünüşü özlüyündə stres deyil. Əksinə, hava hücumu ilə həyəcanlanan bir əsgərdə hər hansı bir təyyarənin görünməsi ilkin stres reaksiyasına səbəb ola bilər, xüsusən də təyyarənin yaxınlaşması, onun uçuş istiqaməti, xarakterik səsi, hündürlüyü, yaxınlaşan zaman təyyarənin niyyəti məlum olduqda. Stresin səbəbləri aşkar edildikdə,

streslə mübarizənin bu üsulu əsgərin mənəvi qabiliyyəti ilə gücləndirilir. Digər tərəfdən, yaxşı istifadə olunan stres də maksimum nəticə üçün lazım olan ayıqlıq və həyəcan yarada bilər.

Stres ictimaiyyət tərəfindən dağıdıcı bir qüvvə kimi qəbul edilir. Stres, bu formada əsgərlərin arzuolunmaz və ya çətin vəziyyətlə üzləşməsinə və onun aradan qaldırılmasına kömək edən bir təzyiq faktoru da ola bilər. Belə bir stres əsgəri fiziki hazırlıq məşğələsində bir kilometr artıq qaçmağa, müharibədə fədakar və qəhrəmancasına hərəkət etməyə sövq edən qüvvə də ola bilər.

İnsan mürəkkəb varlıq olduğu üçün stresin əsgərlərə mənfi təsirləri də mürəkkəbdir. Bu təsirlər aşağıdakı amillərə görə dəyişir:
– stresi yaradan amillərin şiddəti;
– bu amillərin miqdarı;
– bu amillərin birləşməsi və onların qarşılıqlı təsiri;
– əsgərin dəqiqlik dərəcəsi.

**Hərəkət və stres.** Bir çox hallarda hərəkətlilik stres problemlərini həll edə bilər. Bununla belə, hərəkət etmək mümkün olmaya bilər. Bədən hərəkətə hazırdırsa, lakin bu mümkün deyilsə, məyusluq yarana bilər. Məsələn, ataş altında açıq sahədən keçməli olan əsgərlər düşmən ataşinə tuş gəlmək barədə düşünürlər. Bu fikir onlar üçün mürəkkəb, ziddiyyətli və təhdidedici bir mühit yarada bilər. Eynilə, səngərdə olan əsgərlər də düşmənin artilleriya, minaatan atəşi ilə üzləşirlər. Əgər əsgərlər mövqelərini tərk etsələr, birbaşa düşmən atəşinə məruz qalacaqlar. Belə vəziyyətlərdə əsgərlər çox vaxt qorxu hissi keçirirlər. Qorxu onları gizlənməyə, ehtiyatlı olmağa məcbur edir. Amma bir tərəfdən məntiqi düşüncələri və dostlarına bağlılıqları onları hərəkətə keçməyə məcbur edir. Beləliklə, əsgərlər bir-birinə zidd hərəkətlər arasında qalırlar. Onlar bu zaman həyatdaqalma fəaliyyət istiqamətini seçərək əmrləri necə yerinə yetirəcəklərinə qərar verməlidirlər və bu psixoloji konflikt (zehni konflikt) onlarda stres yaradır.

Arxa cəbhədə fəaliyyət göstərən bölmələr pusqu, artilleriya atəşi və hava hücumları təhlükəsi ilə rastlaşırlar və bu onlarda psixoloji diskonfort yaradır. Hava-quru əməliyyatı həm də bu bölmələri birbaşa münaqişə vəziyyətinə gətirir. Döyüşə hazırlıq zamanı və ya düşmənlə birbaşa təmasda olarkən, bölmələrin döyüş sursatı və yanacaqla təmin edilməsi, nəqliyyat vasitələrinin təmiri və ya bərpası, rabitə sisteminin işlək vəziyyətdə saxlanılması, yaralıların təxliyə və müalicəsi böyük səy tələb edir. Bütün bu məsələlərin həlli zamanı arxa cəbhədə fəaliyyət göstərən bölmələr döyüş bölmələri kimi gərginlik keçirirlər və onlar üçün gərginliyin öhdəsindən gəlmək də eyni dərəcədə vacibdir.

Stres mənbəyi yarandıqda, beyin avtomatik olaraq bunu qiymətləndirir və streslə mübarizə aparmaq üçün resursları aktivləşdirir. Stresin öhdəsindən gəlmək üçün beyin hormon ifraz edən vəzilərə mesaj göndərir. Digər mesajlar sinirlərə gedir, ürəyin daha sürətli döyünməsinə və daha çox qan dövranına səbəb olur. Qaraciyərdə yığılan enerji boşaldılır, nəfəs dərinləşir və inkişaf edir, beyinə və əzələlərə daha çox qan gedir.

Döyüş stresi aşağıdakı müxtəlif amillərin birləşməsindən yaranır:
– ağrı, yaralanma, ölüm kimi şəxsi təhlükəsizliyə təhdidlər;
– uğursuzluq qorxusu;
– dəhşətli hadisələrin şahidi olmaq və dəhşətli sınaqlardan keçmək;
– ağır əzab, həddindən artıq qəzəb və cinayət;
– ardıcıl fiziki yorğunluq, yuxusuzluq və istirahətin olmaması.

Normal döyüş stresi ilk növbədə əsgərlər üçün həyəcan siqnalı kimi çıxış edir. Stres yaşayanlar hərdən bu haqda danışır, stres keçirməyənlər isə laqeyd davranır və ya təəccüblənirlər. Bir qrup əsgər arasında bu əlamətlər özünü göstərir və çox təsirlənənlər də olur. Digərlərində simptomlar azdır və ya yoxdur [3, s.56-69].

**Həddindən artıq və uzun sürən stres.** Şəxsi heyət üçün həddindən artıq dərəcədə olan streslə effektiv şəkildə mübarizə aparmaq çətin olur. Bunun üçün ciddi səylər tələb olunur. Aşağıdakı davranışlar, streslə mübarizə səylərinin uğursuz olduğunu göstərən davranış nümunələridir:

1. Güclü atəş altında olan əsgər birdən özünü evdə, təhlükəsiz bir yerdə olduğunu düşünməyə başlayır.

2. Döyüş əməliyyatları prosesində əsgər sıxılır, görməyən, eşitməyən və hiss edə bilməyən bir vəziyyətə düşür.

3. Mülki qadın və uşaqların cəsədlərini basdırmaq vəzifəsi daşıyan əsgər bu dəhşətli mənzərə qarşısında silahından istifadə edə və addım ata bilməz.

Bir çox əsgərlər yaranmış vəziyyətlərinə məhəl qoymayaraq stresin öhdəsindən adekvat şəkildə gələ bilsələr də, bəziləri, əgər stres şiddətli və ya uzun müddət davam edərsə, müvəqqəti olaraq onun təsiri altına düşə bilərlər. Davamlı güclü stres həm də orqanizmin qeyri-adi vəziyyətlərə fasiləsiz hazırlaşması nəticəsində yaranan fizioloji problemlər və xəstəliklərə gətirib çıxarır.

Stresin öhdəsindən gəlmək, xarici stres faktorlarını qarşılamaq və aradan qaldırmaq üçün daxili reaksiyaları tarazlaşdırmaq tələb edilir. Stresə səbəb olan amillər aradan qaldırıla bilmirsə, insanlar ***“stres altında istirahət etmək”*** kimi streslə mübarizə üsullarını (şüuraltı) tətbiq etməli olurlar. Stresin səbəb olduğu daxili narahatlıq problemin həllinə cavabdeh olan ağıldır.

**Stres hər kəsə təsir edir.** Stres uzun müddət davam edərsə, hətta stresə ən çox davamlı və yaxşı təlim keçmiş bir əsgər belə onun öhdəsindən gələ bilməyəcəkdir. Stres yaradan amillərə vaxtında müdaxilə edilməzsə, bu simptom tezliklə digər əsgərlərdə müşahidə olunur. Əsgərin stresin öhdəsindən gəlmək bacarığı, gərginliyin şiddəti və müddəti də qazanılan təcrübədən asılıdır. Eyni artilleriya atəşi altında təcrübəsiz bir əsgər təcrübəli əsgərdən daha çox çətinliklə stresə tab gətirir. Döyüş təcrübəsi olan əsgərlər bilirlər ki, bu atəş hər şeyin sonu deyil. Onlar əvvəlki təcrübələrdən sağ qala biləcəklərini düşünürlər. Onların şəxsi fikir ayrılıqları sadəcə həyata baxışlarındadır. Heç kim stresdən immunitetə malik deyil. Bununla belə, hər kəsin bir stres həddi, hər kəsin ***“maksimum yükləmə nöqtəsi”*** var. Bu sabit nöqtə deyil, insanın sağlamlığından, istirahətindən, psixoloji hazırlığından, son təcrübələrdən asılı olaraq gündən-günə, saatdan-saata dəyişir.

**Hərbi hissəyə yeni şəxsi heyətin gəlməsi dövründə.** Hərbi hissəyə yeni heyətin qəbul olunması dövründə psixoloq gənc əsgər bölməsinin komandirləri və şəxsi heyətlə iş üzrə zabitlərlə metodiki-təlimat məşğələsi keçirməlidir. Bu məşğələdə o, hərbi qulluqçuların xarici görkəmində, ünsiyyətində, davranış və fəaliyyətində sinir-psixi dayanıqsızlığın mahiyyəti və təzahür əlamətləri barədə aydın və başa düşülən formada danışır, həmçinin yeni qəbul olunan heyətlə söhbətlərdə, müşahidələrdə və sənədlərin öyrənilməsində nəyə diqqət yetirmək lazım olduğunu göstərir.

Fəaliyyət qaydası, işlənilən sənədlərin forması müəyyən edilir və bölmə komandirləri, onların şəxsi heyətlə iş üzrə müavinləri daha dərindən psixoloji müayinə keçirilməsinə ehtiyac duyulan şəxslərin siyahısını hərbi hissə psixoloquna təqdim edirlər. Həmin siyahıda sinir-psixi dayanıqsızlığı olan şəxslərin soyadı, adı, atasının adı və təsdiqləyici faktlar göstərilməlidir [2, s.13].

**Sənədlərin öyrənilməsi.** Sənədlərin öyrənilməsi nəticəsində sinir-psixi dayanıqsızlığın əlamətləri haqqında məlumatlar əldə oluna bilər:

– valideynlərində və yaxud yaxın qohumlarında psixi xəstəliklər;
– aldığı zədələr və baş beynin infeksion xəstəlikləri;
– psixonevroloji dispanserdə müşahidə olunması;
– gecələr yatağını islatması, səhhəti ilə əlaqədar hərbi xidmətdən möhlət alması;
– uğursuz, natamam ailədə tərbiyə olunması, valideynlərindən birinin yoxluğu;
– polisə düşməsi, antisosial qruplara cəlb olunması;
– yoldaşları ilə münasibətlərindəki çətinlik, ictimai aktivliyində zəiflik;
– ixtisasını öyrənmə və yiyələnmə çətinliyi, yaşına uyğun olmayan maraqları;
– tez hirslənməsi, hər şeydən qıcıqlanması, əhvalının dəyişkənliyi, küskünlüyü, qapalı olması;
– qeyri-təşəbbüskarlığı, lazımsız prinsipiallığı, qeyri-təbiilik, özünü süni aparması, iradə zəifliyi;
– siqaretə, spirtli içkilərə erkən yaşlarından aludə olması, narkotik tərkibli maddələrin qəbul edilməsinə meyillilik.

Göstərilən əlamətlərin 3 – 5-i mövcud olduqda hərbi qulluqçuya qarşı daha diqqətli olmaqla yanaşı, müşahidə aparılmalıdır. 6 – 9 əlamət mövcud olduğu halda hərbi qulluqçu hərbi psixoloq tərəfindən daha dərindən müayinə olunanlar siyahısına salınmalıdır.

**Hərbi qulluqçuların davranışlarının müşahidə olunması.** Müşahidə aşağıda sadalanan əlamətləri olan şəxslərin aşkar olunmasına yönəldilməlidir:

– qapalı, tək qalmağa meyilli, sıxıntılı, aciz, qorxaq, ağlağan şəxslər;

– münaqişəli, sözgüləşdirən, əmr və tapşırıqları yerinə yetirməkdən imtina edən, günün nizam qaydalarını pozan, davranışları pozulmuş hərbi qulluqçular.

Həmçinin danışığında pəltəklik, əzələlərində qıcolma, əl-ayaq-baş əsmələri, hərəkətlərində yöndəmsizlik əlamətləri olan, bacarıqsız, sıraya həmişə gecikən şəxslər haqqında olan məlumatlara da diqqət yetirilməlidir.

Müşahidə dövründə yuxarıda sadalanan əlamətlərdən birinin belə davamlı şəkildə mövcud olması, xüsusilə həmin şəxs sənədlərin öyrənilməsi nəticəsində sinir-psixiki dayanıqsızlığın 1 – 2 əlaməti olan şəxslərin siyahısından olarsa, bu şəxslər hissənin psixoloqu tərəfindən dərin müayinə olunacaq şəxslərin siyahısına daxil edilməlidir. Bu və ya digər əlamətlərin hərdənbir, təsadüfi aşkar olunduğu hərbi qulluqçular davamlı öyrənilmədə xüsusi diqqət tələb edir.

Müşahidələrə yeni qəbul olunmuş şəxslərin davranış xüsusiyyətləri barədə məlumatların alınması məqsədilə qabaqcadan müvafiq təlimat aparılmış çavuş heyətini də cəlb etmək olar.

Bütün toplanmış məlumatları təhlil etdikdən sonra yeni qəbul olunmuş heyətin öyrənilməsinin son mərhələsinə – fərdi söhbətləşmə mərhələsinə keçmək olar [2, s.14].

**Fərdi söhbətləşmələrin aparılması.** Fərdi söhbət tabelikdə olanla ünsiyyətin əsas forması, bir şəxsin digər şəxslə təkbətək söhbətidir. Bir şəxs üçün təyin olunur və həmin şəxsin bütün çətinliklərinə baxılması, onu maraqlandıran sualların cavablandırılması və ona məsləhət verilməsi üçün imkan yaradılır. Bu, tərbiyə işində komandirlərin və şəxsi heyətlə iş üzrə zabitlərin istifadə etdikləri ən geniş üsuldur.

Fərdi söhbət hərbi hissəyə, bölməyə yeni gəlmiş hər bir hərbi qulluqçu ilə aparılır. Bu kimi fərdi söhbətin məqsədi tanışlıqdır.

Bəzi hallarda söhbət hərbi qulluqçunun zabitə göstərilən inamının əlaməti olaraq hər hansı bir məsələ ilə əlaqədar baş tutur. Fərdi söhbət əsnasında suallar müxtəlif ola bilər. Nəzərə almaq lazımdır ki, tabelikdə olanın müraciətini müxtəlif səbəblər doğura bilər. Buna görə də vəziyyət tez təhlil edilməli, düşünülmüş addım atılmalıdır. Bu zaman tabelikdə olan şəxsin xüsusiyyətləri, maraqları, ümumi inkişaf səviyyəsi haqqında məlumatlara əsaslanmaq lazımdır.

Tabelikdə olan şəxsi heyəti narahat edən problemlər ətraflı və tam şəkildə aydınlaşdırılmalıdır. Verilmiş hər bir sual sadəlövh görünsə belə, diqqətdən yayınmamalıdır. Qarşı tərəfə nəzakətli və səbirlə lazımi izahatlar verilməlidir. Əgər sual çətinlik doğursa, tələsik və dəqiq olmayan ötəri cavablar qarşı tərəfin inamını qıra bilər. Sözün düzü deyilməli, hər şey öz adı ilə çağırılmalıdır [4, s.89-93].

Hərbi qulluqçularla tanışlıq məqsədilə fərdi söhbət apardıqdan sonra onların hərbi xidmətə, yoldaşlarına münasibətini müşahidə etmək lazımdır. **Müşahidə nəticəsində ilk növbədə aşağıdakı hərbi qulluqçularla fərdi söhbət aparılmalıdır:**

– arzu edilməyən ailə şəraitində tərbiyə almış, yaxud valideynlərini itirmişlərlə;

– orduya çağırılanadək üzrlü səbəb olmadan iş yerlərini tez-tez dəyişən və yaxud inzibati məsuliyyətə cəlb edilənlərlə;

– hərbi intizamı pozmağa meyillilərlə;

– yoldaşları arasında saxta nüfuz qazanmışlarla;

– fiziki cəhətdən qüsurlu, yaxud fiziki hazırlığı zəif olanlarla;

– özünün hərəkətlərinə və danışığına görə yoldaşları tərəfindən həmişə məsxərəyə qoyulanlarla;

– özünə qapananlarla, yoldaşları ilə ünsiyyət qura bilməyənlərlə;

– keçirilən dərslərin öyrənilməsində çətinlik çəkənlər və tapşırıqları vaxtında yerinə yetirə bilməyənlərlə (lakin bununla yanaşı, dərs əlaçıları komandir və şəxsi heyətlə iş üzrə zabitlərin diqqətindən kənarda qalaraq hərbi xidmət qaydalarını pozmaq yoluna düşməməlidirlər).

Söhbət əsnasında əldə olunmuş məlumatlar dəqiqləşdirilir, hərbi qulluqçu haqqında olan sənədlərin öyrənilməsi və müşahidə olunması nəticəsində müəyyən etmək mümkün olmayan suallar qiymətləndirilir. Sənədlərin öyrənilməsi mərhələsində sinir-psixiki dayanıqsızlığın 1 – 2 dolayısı

əlamətləri ilə yanaşı, davranışında hərdənbir, təsadüfi hallar aşkar edilmiş şəxslərə də xüsusi diqqət yetirilməlidir.

Söhbətin planını qurarkən aşağıdakı mövzuları müzakirə etməyin qabaqcadan nəzərdə tutulması zəruri sayılır:

– tərbiyəolunma və böyümə şəraiti;
– spirtli içkilərə və narkotik maddələrə olan münasibəti;
– sağlamlıq vəziyyəti;
– ətrafındakılara və əks cinsin nümayəndələrinə olan münasibəti və s.

Sinir-psixiki dayanıqsızlığın əlamətləri və onun inkişaf etməsinə imkan yaradan şəraitlər aşağıdakılardır:

– natamam, uğursuz ailədə tərbiyə olunması (valideynlərin bir-biri ilə pis münasibətləri, onların məhkum olunması, psixi xəstəlikləri, həddən artıq ciddi və yaxud "ərköyün" tərbiyəvermə, ailə üzvlərinin çoxlu spirtli içki qəbul etməsi, evdən qaçmalar);
– hərbi qulluqçunun erkən yaşlarında spirtli içki, narkotik tərkibli maddələri qəbul etməsi;
– polisədüşmə halları, məktəbdə və ailədə çoxsaylı münaqişələr;
– sinir-psixi xəstəliklər, erkən cinsi təcrübə, nizamsız cinsi əlaqələr.

Görülmüş işlər nəticəsində bölmə komandirləri, şəxsi heyətlə iş üzrə zabitlər dərin psixoloji müayinəyə ehtiyacı olan hərbi qulluqçuların siyahısını tərtib edirlər. Hərbi hissənin psixoloqu yeni qəbul edilmiş heyətlə "Proqnoz-2" anketinin köməyi ilə anketləşdirmə keçirir. Dərin psixoloji müayinəyə ehtiyacı olan şəxslərlə "sinir-psixiki dayanıqsızlığa", "uyğunlaşma" və digər psixoloji metodikaların köməyi ilə şəxsi sorğular keçirilir.

**Yeni qəbul edilmiş heyətin öyrənilməsinin nəticəsi olaraq sinir-psixiki dayanıqsızlıqlı hərbi qulluqçuların seçilərək aşağıdakı qruplara bölünməsi zəruridir:**

– sinir-psixiki dayanıqsızlığın **kəskin** ifadə olunmuş əlamətləri olan qrupun üzvləri həkim-psixiatrın (psixonevroloqun) ilkin tibbi müayinəsindən keçməlidirlər;

– sinir-psixiki dayanıqsızlığın **zəif** (mülayim) ifadə olunmuş əlamətləri olan şəxslərin bəzi ixtisaslara təyin edilməsi və yaxud müəyyən vəzifələrdə istifadə olunması məhdudlaşdırılmalıdır.

Bu qrupun üzvləri ilə fərdi psixoprofilaktik, tənzimləyici, tərbiyəedici və təşkilati tədbirlərin (bölmələr və ixtisaslar üzrə bölərkən) keçirilməsi tələb olunur [2, s.49].

**Hərbi xidmətə uyğunlaşma müddətində** (ilkin 3 – 5 ay). Bu dövrdə müşahidə olunan hərbi qulluqçuların öyrənilməsi üzrə səylər artırılır.

Onların öyrənilməsi üzrə **əsas vəzifələr** aşağıdakılardır:

– hərbi xidmət şəraitinə və tələblərinə uyğunlaşma prosesinin qiymətləndirilməsi və ehtiyac yarandıqda sinir-psixiki dayanıqsızlıq hallarının qarşısının alınması məqsədilə müvafiq tərbiyəedici təsirlərin, psixoprofilaktik və psixotənzimləyici tədbirlərin təmin edilməsi;

– hərbi kollektivlərdə qarşılıqlı münasibətlərin öyrənilməsi, ünsiyyət və əlaqəqurma çətinliyi çəkən hərbi qulluqçulara köməklik göstərilməsi;

– əlavə psixoloji müayinəyə ehtiyacı olan şəxslərin aşkar edilməsi.

Şəxsi heyəti öyrənmə (tədqiqetmə) metodları (üsulları) yenə də müşahidə, psixoloji testləşdirmə və fərdi söhbətləşmələrdir. Müşahidəyə xüsusi yer ayrılmalıdır, çünki bu dövrdə hərbi qulluqçuların davranışlarını, sinir-psixiki dayanıqsızlığını bütün əlamətləri açıq-aşkar görünməyə başlayan, onlar üçün çətin olan qeyri-adi şəraitdə müşahidə etmək imkanı yaranır.

Hərbi qulluqçular müşahidə olunmadan öncə hərbi hissənin psixoloqu şəxsi heyətlə bilavasitə işləyəcək vəzifəli şəxslərlə təlimat keçirməlidir. İntizamsız, tutulan iradlara qeyri-normal reaksiya verən, tapşırıqları yerinə yetirməyən, tez həyəcanlanan, münaqişəli və yaxud əksinə, qapalı, küsəyən, cəsarətsiz və utancaq hərbi qulluqçulara diqqət yetirmək tövsiyə olunur. Yekəxanalıq, lovğalıq göstərən, nəyin bahasına olursa-olsun ətrafdakıların içərisində seçilməyə çalışan və yaxud əksinə, zarafat, lağ edən, yöndəmsiz hərəkətlər edən, qeyri-normal davranışı, qəribəliyi olan, zahiri görkəmi pinti olan şəxslərin aşkar edilməsi labüddür. Müxtəlif məşğələlərdə diqqətini toplaya bilməyən, sıxılan, hərəkətləri pozulmuş, həddən artıq həyəcanlı, qəribə duruşlar və hərəkətlər edən hərbi qulluqçuları seçmək,

ürəkgetmə, müxtəlif şikayətlərlə tez-tez tibbi yardım üçün müraciətetmə halları, geridə qalanları, hərbi ixtisasını böyük çətinliklə mənimsəyənləri, əmr və sərəncamların yanlış yerinəyetirmə hallarını qeydə almaq mütləqdir [5, s. 267-270].

Bundan başqa, vəzifəli şəxslərə sinir-psixiki dayanıqsızlığın profilaktikası (qarşısının alınması) üzrə əsas fəaliyyətlər də çatdırılır:

– tabeliyində olanlara həssas və diqqətli münasibət, onların hiss, fikir, düşüncə və təkliflərinə hörmətlə yanaşma, təhqiramiz ifadələrin işlədilməməsi, onlara qarşı ədalətsizliyə yol verilməməsi;

– hərbi kollektivlərdə sağlam mənəvi-psixoloji şəraitin – qarşılıqlı yardım, xoş münasibət və hörmət mühitinin yaradılması;

– sağlam yaşayış tərzinin qurulması, spirtli içkilərə, toksiki və narkotik maddələrə qarşı mübarizə;

– münaqişəli vəziyyətlərin qarşısının alınması və digər psixozədəli şəraitlərin aradan qaldırılması;

– fiziki cəhətdən zəifləmiş hərbi qulluqçular üçün fiziki yüklənmənin azaldılması, belə hərbi qulluqçuların xidməti vəzifələrini yerinə yetirmələrindən müvəqqəti, qismən və yaxud tam azad edilməsi, onların təsərrüfat işləri ilə məşğul olan bölmələrə keçirilməsi;

– hərbi qulluqçulara onların xasiyyət əlamətlərinin, bununla əlaqədar yaşana biləcək mənfi halların izah edilməsi, özünənəzarət və özünütənzimləmə üçün tövsiyələrin verilməsi (şəxsən hissənin psixoloqu tərəfindən keçirilir);

– sinir-psixiki dayanıqsızlığın əlamətləri olan hərbi qulluqçuların davranışlarında qeyri-adekvatlığın yarana biləcəyi səciyyəvi şəraitləri bilməsi.

Əldə olunmuş məlumatın hərbi qulluqçunun əleyhinə, ziyanına qəsdən istifadə olunmasına yol verilməməsi xüsusilə vurğulanmalıdır.

Hərbi hissənin psixoloqu müşahidə əsnasında əldə etdiyi məlumatları təhlil edir, söhbətləşmə zamanı dəqiqləşdirir və psixoloji testləşmələrin nəticələrini tamamlayır. Hərbi xidmət şəraitinə uyğunlaşmanın gedişatını “uyğunlaşma” adlı çoxsəviyyəli şəxsi sorğunun köməyi ilə qiymətləndirmək olar. Tədqiqatın ümumiləşdirilmiş məlumatları komandanlığa bu və ya digər hərbi qulluqçunun necə səmərəli istifadə edilməsi, ona qarşı hansı fərdi-tərbiyəvi xarakterli, psixoprofilaktik və psixotənzimləyici tədbirlərin görülməsi barədə konkret təkliflərin işlənilməsi üçün əsas sayılır. Sadalanmış bütün tədbirlər hissə psixoloqunun sinir-psixiki dayanıqsızlığın əlamətləri olan hərbi qulluqçularla iş planında öz əksini tapmalıdır [5, s. 271-278].

**Hərbi xidmətini davam etdirdiyi müddətdə.** Hərbi xidmətini davam etdirdiyi müddətdə (plana uyğun olaraq) sinir-psixiki dayanıqsızlığın əlamətləri olan şəxslərin cari vəziyyətlərini nəzarətdə saxlamaq, müşahidə olunan hərbi qulluqçuların kollektivdəki münasibətlər sistemini öyrənmək, onların emosionallıq və işgüzarlıq səviyyələrini qiymətləndirmək, psixoprofilaktik və psixotənzimləyici tədbirləri vaxtında həyata keçirmək məqsədilə onların müşahidəsi mütəmadi olaraq aparılmalıdır.

## Nəticə

Psixoloji işin təşkili və aparılması üzrə bir neçə rəhbəredici sənədin olmasına baxmayaraq, bu iş hələ də bölmələrdə tam olaraq aparılmır. Məhz buna görə də psixoloji problemli şəxslər xidmət dövrü ərzində ümumi gedişata mənfi təsir göstərirlər. Bu sahədə ən çox məlumatı sosiometrik metodlar vasitəsilə almaq olur. Bundan əlavə, şəxsiyyəti öyrənməyin digər metodları da (müstəqil xasiyyətnamələr, ekspert sorğusu) istifadə oluna bilər.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Psixologiyanın predmeti, vəzifələri və metodları. Psixika və şüur: [Elektron resurs] / – 27 dekabr, 2023. URL: http://www.azkurs.org/pars_docs/refs/7/6073/6073.pdf

2. Azərbaycan Respublikası Silahlı Qüvvələrində psixoloji işin təşkili və aparılması haqqında təlimat // Azərbaycan Respublikası müdafiə nazirinin 20 iyul 2015-ci il tarixli 29 nömrəli Qərarı ilə təsdiq edilmişdir. – Bakı: Hərbi nəşriyyat, – 2015. – 60 s.

3. Bayramov, Ə.S. Psixologiya / Ə.S.Bayramov. – Bakı: Azərnəşr, – 2006. – 166 s.

4. Hərbi psixologiya və pedaqogika / Hüseynov, Ə. – Bakı: Hərbi nəşriyyat, – II hissə, – 2015. – 254 s.

5. Hərbi psixologiya və pedaqogika / Hüseynov, Ə. – Bakı: Hərbi nəşriyyat, – I hissə. – 2014. – 307 s.

## Аннотация

### Исследование индивидуально-психологических особенностей военнослужащих

**Эльчин Салаев**

В статье речь идет об организации психологической работы в Азербайджанской Армии. Известно, что устойчивость психологического состояния военнослужащих играет важную роль в обеспечении боеспособности любой армии. При организации психологической работы в армии прежде всего следует учитывать тип темперамента военнослужащих. Кроме того, задачи следует ставить в пределах физических и моральных возможностей военнослужащих, поскольку чрезмерные требования и задачи приводят к возникновению у них состояния стресса и снижению уровня боевой готовности армии. Если вовремя не предотвратить кратковременный или долговременный стресс, он может привести к более серьезным осложнениям. Чтобы не столкнуться с подобной ситуацией, важно обратить внимание на определенные факторы. Прежде всего, должны быть изучены документы каждого члена личного состава, только что прибывшего в воинскую часть, а также в течение определенного периода времени вести наблюдения за его поведением и формой общения с сослужившими. Личные беседы с военнослужащими также позволяют выявить их психологическое состояние и принять адекватные решения. Психологическое состояние военнослужащих может быть различным на разных этапах службы. По этой причине при организации психологической работы с личным составом следует учитывать реалии периода адаптации к военной службе и реалии периода службы. В целом правильная организация психологической работы в армии важна как с точки зрения повышения качества службы, так и с точки зрения охраны здоровья военнослужащих.

**Ключевые слова:** индивидуально-психологические особенности, психологическое исследование, субъект психологической работы, стресс

## Abstract

### Study of individual psychological characteristics of military personnel

**Elchin Salayev**

The article deals with the organization of psychological work in the Azerbaijan Army. It is know that the stability of the psychological state of military personnel plays an important role in ensuring the combat effectiveness of any army. When organizing psychological work in the army, you should first of all take into account the type of temperament of military personnel. In addition, tasks should be set within the limits of the physical and moral capabilities of military personnel, since excessive demands and tasks lead to stress in them and a decrease in the level of combat readiness of the army. If short-term or long-term stress is not prevented in time, it can lead to more serious complications. To avoid such a situation, it is important to pay attention to certain factors. First of all, the documents of each member of the personnel who have just arrived at the military unit must be studied, as well as, for a certain period of time, observations of his behavior and form of communication with other people must be carried out. Personal conversations with military personnel also make it possible to identify their psychological state and make adequate decisions. The psychological state of military personnel may be different at different

stages of service. For this reason, when organizing psychological work with personnel, one should take into account the realities of the period of adaptation to military service and the realities of the period of service. In general, the correct organization of psychological work in the army is important both from the point of view of improving the quality of service and from the point of view of protecting the health of military personnel.

**Keywords:** individual psychological characteristics, psychological research, the subject of psychological work, stress

*Məqalə redaksiyaya daxil olmuşdur: 17.01.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 19.01.2024*
*Çapa qəbul edilmişdir: 22.01.2024*

**HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE**
**№1/2024, səh. 45-52**
***HƏRBİ XÜSUSİ ELMLƏR*** ***MILITARY SPECIAL SCIENCES***

UOT 681.5

# OYUNLAR NƏZƏRİYYƏSİ İLƏ KİBERHÜCUMLARA QARŞI MƏHVETMƏ VASİTƏLƏRİNİN TƏTBİQİNİN ARAŞDIRILMASI

**f.-r.ü.f.d., dosent Arzuman Həsənov**
gasqhapk@gmail.com
*Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu*
DOI: 10.30546/mk.2024.1.0045.

***Xülasə.*** Məqalədə oyunlar nəzəriyyəsi ilə kiberhücumlara qarşı məhvetmə vasitələrinin tətbiqinin araşdırılması məsələsinə baxılmışdır. Kiberhücumların dünya üzrə zərərinin ildə 15% artacağı və 10 trilyon dollardan çox olacağı gözlənilir. Hazırkı dövrdə kiberhücumların hədəfləri ölkənin müdafiə, iqtisadiyyat, bank, idarəetmə və s. sistemləridir. Belə hücumların zərərli nəticələrinin böyükmiqyaslı olması realdir. Onlara qarşı müdafiə və məhvetmə vasitələrinin olması və ya yaradılması vacib və zəruridir. Belə problemin elmi araşdırılması nəticəsində əvvəlcədən tədbirlər planının hazırlanması aktualdır. Bu məqsədlə ikin məlumat kimi keçmiş illərin statistikasına uyğun olaraq, müəyyən dövr üçün olmuş kiberhücumlar təsir xüsusiyyətlərinə görə növlərə bölünmüş, kiberhücumlara qarşı onların məhvetmə vasitələrinin optimal seçilməsi problemi oyunlar nəzəriyyəsini tətbiq edərək qarşılıqlı qoşma iki xətti proqramlaşdırma məsələsinə gətirilməklə Simpleks metodu vasitəsilə həll edilmişdir. Hesablamalar nəticədə məhvetmə vasitələrinin tətbiqolunma və kiberhücumların məhv olunması ehtimallarını tapmaq olar. Beləliklə, kiberhücumların baş verməsi ehtimalları nəzərə alınmaqla onların məhv edilməsi və ya qarşısının alınmasının idarəetmə prosesi əvvəlcədən daha effektli planlaşdırıla bilər. Məhvetmə vasitələrinin tətbiqolunma və kiberhücumların neytrallaşdırılması ehtimalları tapılır. Alınmış nəticələr kiberhücumlara qarşı məhvetmə vasitələrinin tətbiqinin əvvəlcədən effektiv planlaşdırılmasında istifadə oluna bilər.

**Açar sözlər:** kibertəhlükəsizlik, kiberhücum, məhvetmə vasitələri, oyunlar nəzəriyyəsi, Simpleks metod

## Giriş

Kiberhücum kibertəhlükəsizlik hücumu kimi də tanınır. Kiberhücum informasiya təhlükəsizliyi (İT) sistemlərinə və yaxud istifadəçilərinə, onların tərkibində olan sistem və məlumatlara icazəsiz giriş əldə etməyə, məlumatları oğurlamağa və ya kompüterlərə, kompüter şəbəkələrinə, həmçinin digər hesablama sistemlərinə ziyan vurmağa cəhd edən təhdid subyektləri tərəfindən həyata keçirilən tədbirlər toplusudur. Kiberhücum istənilən yerdən bir və ya bir neçə taktiki və texniki vasitələrdən istifadə edən şəxs və ya qrup tərəfindən həyata keçirilə bilər. Əksər İT şəbəkələri və onları qoruyan insanlar həmişə kiberhücumla qarşılaşacaq və buna hazır olmalıdırlar.

Kiberhücumları həyata keçirən şəxslərə kibercinayətkarlar və ya hakerlər deyilir. Onlar təkbaşına, digər kibercinayətkarlarla əməkdaşlıqda və ya mütəşəkkil cinayətkar qrupun bir hissəsi kimi işləyə bilərlər. Hakerlər kompüter sistemlərindəki problemlər və ya zəiflikləri müəyyən etməyə çalışır və məqsədlərinə çatmaq üçün onlardan istifadə edirlər. Kibercinayətkarların müxtəlif məqsədləri ola bilər. Bəziləri şəxsi və ya maddi mənfəət, digərləri sosial və ya siyasi səbəblər naminə fəaliyyət göstərirlər. Müəyyən hücumlar müxtəlif dövlətlər tərəfindən öz rəqiblərinə qarşı həyata keçirilən və ya məlum terror qruplarının bir hissəsi kimi fəaliyyət göstərən kibermüharibə əməliyyatlarının bir hissəsidir.

Kiberhücumların dünya üzrə zərərinin ildə 15% artacağı və 10 trilyon dollardan çox olacağı gözlənilir. Təkcə Ransomware hücumları nəticəsində ABŞ-da sahibkarlıq fəaliyyətinə ildə 20 milyard dollar ziyan vurulur. Məlumatların pozulmasının orta dəyəri 3,8 milyon dollardır. Kiberhücumlardan sonra şirkətlər səhmlərinin orta hesabla 8%-ni itirir [1].

Hazırkı dövrdə kiberhücumların hədəfləri ölkənin müdafiə, iqtisadiyyat, bank, idarəetmə və s. sistemləridir. Belə hücumların zərərli nəticələrinin böyükmiqyaslı olması realdir. Onlara qarşı müdafiə

və məhvetmə vasitələrinin olması və ya yaradılması vacib və zəruridir. Belə problemin elmi araşdırılması nəticəsində əvvəlcədən tədbirlər planının hazırlanması ən aktual işlərdən biridir. Bunun üçün əvvəlcə kiberhücumların ümumi növləri və nümunələri ilə tanış olaq.

**Kiberhücumların ümumi növləri və nümunələri**

Hazırda kiberhücumların aşağıdakı kimi ümumi növləri vardır:

**1. Zərərli proqram** məlumatların oğurlanmasından tutmuş *veb* məzmunun pozulmasına və ya dəyişdirilməsinə, hesablama sisteminə daimi ziyan vurmağa qədər bir sıra məqsədlər üçün istifadə edilə bilər. Zərərli proqram viruslar və s. zərərli proqram təminatının müxtəlif formalarına aiddir. O, kompüterə daxil olaraq bütün proseslərə nəzarət edərək bu kompüterdən və ya onun yerləşdiyi şəbəkədən hər cür məlumatları göndərməyə qədər çoxsaylı təxribatlar törədir. Çox sürətlə inkişaf edir. Belə proqramların ən çox yayılmış formaları bunlardır:

– Botnet: yoluxmuş sistemləri botnetə əlavə edərək, hakerlərə onlardan cinayət fəaliyyəti üçün istifadə etməyə imkan verir;
– Cryptominers: hədəf olan kompüterdən istifadə edərək kriptovalyutanı çıxarır;
– Infostealers: hədəf olan kompüterdən həssas məlumatları toplayır;
– Bank troyanları: bank saytlarından maliyyə və etimadnamə məlumatlarını oğurlayır;
– Mobil zərərli proqram: proqramlar və ya SMS vasitəsilə cihazlara nəzarət edir;
– Rootkits: hakerə cihazın əməliyyat sistemi üzərində tam nəzarət imkanı verir;
– DoS və DDoS hücumları.

**2. Fişinq və sosial hücumları.** Bu hücumla sizə işlədiyiniz şirkətdə etibar etdiyiniz şəxslərin adından *e-poçt* göndərə bilər. *E-poçtu* açmaq üçün əlavə və ya klikləmək üçün keçid ola bilər. Zərərli qoşmanı açdıqdan sonra sizin xəbəriniz olmadan kompüterdə zərərli proqram quraşdıracaq. Buna görə Fişinq cəhdləri ilə mübarizə aparmaq üçün *e-poçta* göndərənlərin, qoşmaların və ya keçidlərin yoxlanması vacibdir. Hücumların 90%-dən çoxu insanların qarşılıqlı fəaliyyətinə əsaslanır. Bu, etibarlı şəxsi və ya qurumu təqlid etmək və fiziki şəxsləri hakerə həssas məlumat vermək, pul köçürmək və ya sistemlərə, ya da şəbəkələrə giriş təmin etmək üçün aldatmağı əhatə edir. Fişinq hücumları hədəfdən həssas məlumat əldə etdikdə və etibarlı, qanuni mənbədən görünən mesaj göndərdikdə baş verir. Bu mesajın bir hissəsi kimi hakerlər, adətən, zərərli vebsaytlara keçidlər göndərir, istifadəçini zərərli proqram təminatını yükləməyə dəvət edir və ya birbaşa *e-poçt*, mətn mesajlaşma sistemləri və ya sosial media platformaları vasitəsilə həssas məlumatları tələb edir. Fişinqin bir variantı “nizə fişinqidir” ki, burada hakerlər xüsusi imtiyazları olan şəxslərə, şəbəkə administratoru, rəhbər və ya maliyyə işçilərinə hazırlanmış mesajlar göndərirlər.

**3. SQL inyeksiya hücumu.** Bu hücum xüsusi olaraq, adətən, server məlumatı yaymaq üçün zərərli koddan istifadə edərək kritik *veb-sayt* və xidmət məlumatlarını saxlayan serverləri hədəf alır. SQL inyeksiya hücumu SQL serverinə zərərli kodu işlətməyə imkan verən məlum SQL imkanlarından hər hansı birini istifadə etməklə işləyir. Məsələn, SQL serveri inyeksiya hücumuna məruz qalarsa, *veb-saytın* axtarış qutusuna daxil ola və saytın SQL serverində bütün saxlanmış istifadəçi adlarını və parollarını atmağa məcbur edəcək kodu daxil edə bilər.

**4. Saytlararası Skript (XSS).** XSS hücumları *veb-sayta* zərərli kodun daxil edilməsini nəzərdə tutur. Bu halda *veb-saytın* özü hücuma məruz qalmır. Bunun əvəzinə, zərərli kod yalnız istifadəçinin brauzerində hücuma məruz qalan *veb-sayta* daxil olduqda işləyir və burada birbaşa istifadəçini hədəfə alır. XSS hücumunun yerləşdirilməsinin ən ümumi yollarından biri avtomatik işləyə bilən skriptə zərərli kodu yeritməkdir. Məsələn, onlar zərərli JavaScript-ə keçidi blokdakı şərhdə yerləşdirə bilər. Zərərli hər hansı bir prosesin baş verdiyini göstərmədən istifadəçilərin məlumatlarını risk altında qoymaqla *veb-saytın* reputasiyasını əhəmiyyətli dərəcədə aşağı sala bilər.

**5. Xidmətdən imtina (DoS).** Bu hücumlar *veb-saytı* idarə etmək üçün qurulduğundan daha çox trafiklə doldurur və bununla da saytın serverini həddən artıq yükləyir, onu istifadəçilərə təqdim etməyi, demək olar ki, mümkünsüz edir. Eyni anda bir çox kompüter tərəfindən həyata keçirilə bilər. Bu hücum ssenarisi xidmətdən imtina hücumu (DDoS) kimi tanınır. Xidmətdən imtina hücumları hədəf sistemini

alt-üst edir, ona görə də qanuni sorğulara cavab verə bilmir. Paylanmış xidmətdən imtina hücumları (DDoS) oxşardır, lakin bir çox *host* sistemlərini əhatə edir. Hədəf sayt qeyri-qanuni xidmət sorğuları ilə yüklənməklə qanuni istifadəçilərə xidmətdən imtina etmək məcburiyyətində qalır.

**6. MitM hücumları**. Man-in-the-Middle (MitM) hücumları hakerlərə şəbəkə, kompüter və ya istifadəçilər arasında ötürülən məlumatları ələ keçirməyə imkan verən pozuntulardır. Haker iki tərəfin "ortasında" yerləşir və çox vaxt aşkarlanmadan onların ünsiyyətinə casusluq edə bilər. Haker, həmçinin mesajları nəzərdə tutulan şəxsə göndərməzdən əvvəl dəyişdirə bilər.

**7. Faylsız hücumlar.** Bu, istifadəçinin cihazında artıq quraşdırılmış proqramlardan istifadə edən zərərli proqram hücumunun yeni növüdür. Özünü hədəf kompüterdə yerləşdirməli olan ənənəvi zərərli proqramlardan fərqli olaraq, faylsız hücumlar təhlükəsiz hesab edilən və köhnə antivirus tərəfindən aşkar edilməyən, artıq quraşdırılmış proqramlardan istifadə edir. Faylsız zərərli proqram hücumları istifadəçinin təşəbbüsü ilə və ya əməliyyat sisteminin zəifliklərindən istifadə etməklə istifadəçi təsiri olmadan baş verə bilər. Belə proqram cihazın operativ yaddaşında yerləşir və adətən, zərərli kodu yerinə yetirmək üçün PowerShell və Windows İdarəetmə Alətləri (WMI) kimi əməliyyat sistemi alətlərinə daxil olur.

**8. Sessiyaqaçırma.** Sessiyanın oğurlanması əks tərəfin unikal və şəxsi sessiya ID-sini (identifikator) ələ keçirərək sessiyanı qaçırdığı və sorğu verən kompüter rolunu oynadığı zaman baş verir ki, bu da onlara, şübhəsiz ki, istifadəçi kimi daxil olmağa və *veb* serverdə məlumatlara icazəsiz giriş əldə etməyə imkan verir. Hər hansı bir İnternet sessiyası zamanı hər şey olduğu kimi gedirsə, *veb* serverlər sizə daxil olmağa çalışdığınız məlumatları verməklə müxtəlif sorğularınıza cavab verməlidir. Bununla belə, əks tərəfin sessiya identifikatorunu oğurlamaq üçün istifadə edə biləcəyi bir sıra üsullar var, məsələn, sessiya identifikatorlarını oğurlamaq üçün istifadə edilən saytlararası skript hücumu. Əks tərəfin, özünü, həmçinin sessiyanın digər tərəfi kimi göstərərək sorğu edən kompüter və uzaq server arasına daxil olmaq üçün sessiyanı ələ keçirə bilər. Bu onlara hər iki istiqamətdə məlumatı əldə etməyə imkan verir.

**9. Etibarnamənin təkrar istifadəsi.** Bu, kimsə eyni etimadnaməsini birdən çox *veb-saytda* istifadə etdikdə baş verir. Belə anda istifadəçinin işini asanlaşdıra bilər, lakin sonradan həmin istifadəçini təqib edə bilər. Ən yaxşı təhlükəsizlik təcrübələri universal olaraq bütün proqramlar və *veb-saytlar* üçün unikal parolları tövsiyə etsə də, bir çox adamlar hələ də parollarını təkrar istifadə edirlər. Bu faktdan əks tərəf asanlıqla istifadə edəcək. Əks tərəf pozulmuş *veb-sayt* və ya pozulmuş etimadnamələr toplusuna sahib olur. Bu etimadnamələri onlayn olaraq haradasa istifadə edə bilər.

Kiberhücumların aşağıdakı kimi nümunələri vardır:

**1. Kaseya Ransomware hücumu.** ABŞ-da yerləşən uzaqdan idarəetmə proqram təminatı provayderi Kaseya 2 iyul 2021-ci ildə kiberhücuma məruz qaldı. Müştəri kompüterlərini yoluxdurmaq üçün müəyyən vasitələrdən istifadə olunmuşdur. Hücum zamanı Kaseya məhsulunda aşkar edilmiş CVE-2021-30116 (etimadnamələrin sızması və biznes məntiqi qüsuru), CVE-2021-30119 (XSS) və CVE-2021-30120 (ikifaktorlu autentifikasiya qüsuru) boşluqlarından istifadə edən zərərli proqram "Kaseya VSA Agent Hot Fix" etiketli saxta proqram yeniləməsini müştərilərə ötürür. Hücum Rusiyada yerləşən REvil qrupu tərəfindən həyata keçirilmişdir. Nəticədə, 800 – 1.500-ə yaxın şirkətin kompüter sistemi REvil ransomware tərəfindən yoluxduğu məlum oldu.

**2. SolarWinds Supply Chain Attack.** Bu, 2020-ci ilin dekabrında aşkar edilmiş kütləvi, yüksək innovativ təchizat zənciri hücumu idi və onun qurbanı olan Ostində yerləşən SolarWinds-in adını daşıyan İT idarəetmə şirkəti oldu. Onu Rusiyada yerləşən APT 29 qrupu həyata keçirmişdir. Bu qrup tərəfindən SolarWinds-in proqram platforması Orion üçün nəzərdə tutulan yeniləməni pozaraq Orion yeniləmələrinə Sunburst və ya Solorigate kimi tanınan zərərli proqram göndərildi. Sonra yeniləmələr SolarWinds müştərilərinə paylandı. SolarWinds hücumu ciddi kibercasusluq hücumlarından biri hesab olunur. Kiberhücum bir çox federal qurumlar, o cümlədən nüvə silahlarına cavabdeh olan agentliklər, mühüm infrastruktur xidmətlər və s. təşkilatların əksəriyyətinin fəaliyyətini yararsız hala saldı.

**3. Amazon DDoS hücumu.** 2020-ci ilin fevral ayında Amazon Web Services (AWS) genişmiqyaslı paylanmış xidmətdən imtina (DDoS) hücumu nəticəsində Şirkətin paketötürmə və sorğu sürəti xeyli azaldı.

**4. Microsoft Exchange – uzaqdan kod icra hücumu.** 2021-ci ilin mart ayında məşhur korporativ *e-poçt* serveri olan Microsoft Exchange-ə qarşı genişmiqyaslı kiberhücum həyata keçirilmişdir. Hakerlər URL-ləri saxtalaşdırmağa, onlardan Exchange Server sisteminə daxil olmaq üçün istifadə etməyə və zərərli proqram üçün birbaşa server tərəfindən saxlama yolunu təmin etməyə imkan verdi. Bu, serverin işini tamamilə pozmağa və onun bütün məlumatlarına çıxış əldə etməyə imkan verən Uzaqdan Kod İcrası (RCE) kiberhücumu idi. Təsirə məruz qalan serverlərdə hakerlər həssas məlumatları oğurladılar. Təkcə ABŞ-da bu hücumlar nəticəsində doqquz dövlət qurumuna və 60 mindən çox özəl müəssisəyə təsir etdi.

**5. Twitter məşhurların hücumu.** 2020-ci ilin iyul ayında Twitter hesabları üç hücumçudan ibarət qrup tərəfindən sındırıldı. Onlar işçilərin etimadnaməsini oğurlamaq və daha sonra Twitter tərəfindən fişinq (telefon fişinqi) kimi müəyyən edilən şirkətin daxili idarəetmə sistemlərinə giriş əldə etmək üçün sosial mühəndislik hücumlarından istifadə etdilər. Barak Obama, Ceff Bezos və Elon Musk da daxil olmaqla, onlarla tanınmış hesablar sındırıldı. Hakerlər oğurlanmış hesablardan bitcoin fırıldaqları dərc etmək üçün istifadə edərək xeyli vəsait qazandılar.

**6. Digər kiberhücumlar.** 2018-ci ildə olmuş Marriott's Starwood Hotels kiberhücum nəticəsində 500 milyondan çox qonağın şəxsi məlumatları ələ keçdi. UnderArmor-un MyFitnessPal brendi kiberhücum nəticəsində 150 milyon istifadəçi hesabının *e-poçt* ünvanlarını və giriş məlumatlarını ələ keçirdi.

2017-ci ildə WannaCry Ransomware Kiberhücumu 150 ölkədə 300.000-dən çox kompüterə təsir göstərərək milyardlarla dollar ziyan vurulmasına səbəb oldu. Equifax kiberhücumu nəticəsində 145 milyon adamın şəxsi məlumatları ələ keçdi və proqram komponentində açıq mənbə zəifliyi ilə üzləşdi.

2016-cı ildə NotPetya hücumu bir ildən çox davam etdi və 10 milyard dollardan çox ziyana səbəb oldu. FriendFinder böyüklər üçün tanışlıq *veb-saytına* edilən hücum nəticəsində 412 milyon istifadəçinin şəxsi məlumatları ələ keçdi. Yahoonun məlumat pozuntusu hadisəsi nəticəsində 1 milyard istifadəçinin hesabları ələ keçirildi, çox keçmədi ki, əvvəlki hücum 500 milyon istifadəçi hesabında olan şəxsi məlumatları ifşa etdi [1].

## Nəzəri metodologiya

Fərz edək ki, keçmiş illərin statistikasına uyğun olaraq, müəyyən dövr üçün hər hansı müəssisənin obyektlərinə $N$ sayda kiberhücumlar olmuşdur. Müəyyən xüsusiyyətlərinə görə bu kiberhücumları $k_1$ sayda $KH_1$ növlü, $k_2$ sayda $KH_2$ növlü və s. $k_n$ sayda $KH_n$ növlü kiber hədəflərə bölmək olar. Onda şərtə görə

$$k_1 + k_2 + \cdots + k_n = N \qquad (1)$$

və baş vermiş kiberhücumlar sırasında $KH_j$ növlü kiberhücumun ehtimalı və ya payını

$$P_j = \frac{k_j}{N}, \qquad j = 1, 2, \dots, n \qquad (2)$$

düsturu ilə hesablamaq olar. Fərz edək ki, $m$ sayda $ME_1, ME_2, \dots, ME_m$ məhvetmə vasitələrinin hər hansı $ME_i$ ilə $j$ növlü $KH_j$ kiberhücumun neytrallaşması ehtimalı $a_{ij}$ matrisi ilə verilmişdir (Cədvəl 1). Kiberhücumların müəyyən edilməsi və onların neytrallaşdırılması üçün ən yaxşı həlli təmin edən məhvetmə vasitələrinin effektiv seçilməsi üzrə tövsiyələrin verilməsi aktual məsələdir.

Oyunlar nəzəriyyəsindən istifadə edərək məsələni həll edə bilərik [2; 3]. Bunun üçün, fərz edək ki, $ME_1, ME_2, \dots, ME_m$ məhvetmə vasitələri I oyunçunun, $KH_1, KH_2, \dots, KH_n$ kiberhücumlar isə II oyunçunun strategiyaları olsun. Onda II oyunçunun tətbiq etdiyi hər hansı $KH_j, j = 1, 2, \dots, n$ strategiyasına qarşı I oyunçu $ME_i, i = 1, 2, \dots, m$ cavab strategiyasını edir. Bu halda I oyunçunun $a_{ij}$

uduşu, yəni məhvetmə vasitəsinin effektivliyinin və bu II oyunçu üçün uduzduğunu, yəni kiberhücumun məhv olunmasının kəmiyyət göstəricisi deməkdir. Bütün hallar üçün $a_{ij}, i = 1, 2, \dots, \mathrm{m}$ və $j = 1, 2, \dots, \mathrm{n}$ uduşlarından ibarət $m \times n$ ölçülü matris oyununun ödəniş matrisini alarıq (Cədvəl 1).

I oyunçu üçün tapılmış optimal strategiya elə $ME_i$ strategiyasıdır ki, ona rəqib olan II oyunçunun hər hansı $KH_j$ strategiyanı seçməsindən asılı olmayaraq, mümkün maksimum uduşu təmin edir. I oyunçu hesab edir ki, $ME_i$ strategiyasını seçdikdə onun minimum uduşu $i$ saylı sətirdəki ən kiçik ədədə bərabərdir. Ona görə I oyunçu elə strategiya tapmaq istəyir ki, mümkün minimum uduşlarını (məhv edilən kiberhücumların sayını) maksimumlaşdırsın (maksimin strategiyası)

$$\alpha = \max_i \min_j a_{ij} \,,$$

burada $\alpha$ oyunun aşağı qiyməti adlanır. I oyunçunun uduşu $\alpha$ - dan aşağı olmayacaq. II oyunçu üçün optimal strategiya elə strategiyadır ki, I oyunçunun mümkün maksimum uduşu ən az və minimum olsun və heç bir halda

$$\beta = \min_j \max_i a_{ij}$$

qiymətini aşmasın (minmax strategiyası). $\beta$ ədədi oyunun yuxarı qiyməti adlanır.

**Cədvəl 1. Kiberhücumlar əleyhinə məhvetmə və ya neytrallaşdırıcı vasitələrin effektivlik əmsalları**

| **Sıra №-si** | **Məhvetmə və ya neytrallaşdırıcı vasitələr** | **Kiberhücumların növü** | | | | | | $\alpha_i = \min_j a_{ij}$ |
|---|---|---|---|---|---|---|---|---|
| | | $KH_1$ | $KH_2 2$ | ... | $KH_{j}$j | ... | $KH_n$ | |
| 1 | $ME_1$ | $a_{11}$ | $a_{12}$ | ... | $a_{1j}$ | ... | $a_{1n}$ | $\alpha_1$ |
| 2 | $ME_2$ | $a_{21}$ | $a_{22}$ | ... | $a_{2j}$ | ... | $a_{2n}$ | $\alpha_2$ |
| | ... | ... | ... | ... | | ... | ... | ... |
| $i$ | $ME_i$ | $a_{i1}$ | $a_{i2}$ | ... | $a_{ij}$ | ... | $a_{in}$ | |
| | ... | ... | ... | ... | ... | ... | ... | ... |
| $m$ | $ME_m$ | $a_{m1}$ | $a_{m2}$ | ... | $a_{mj}$ | ... | $a_{mn}$ | $\alpha_m$ |
| $\beta_j = \max_i a_{ij}$ | | $\beta_1$ | $\beta_2$ | ... | $\beta_j$ | ... | $\beta_n$ | |

I oyunçunun maxmin, II oyunçunun isə minmax strategiyası ən ehtiyatla seçilmiş oyunçuları sığortalayan strategiyalardır. II oyunçunun təminatı var ki, I oyunçunun uduşu heç vaxt minmaxdan çox olmayacaq, I oyunçu isə bilir ki, ən az uduşu maxmin qədər olacaq. Oyunlar nəzəriyyəsi minmax və ya maxmin strategiyalarını tətbiq etməyi həmişə tövsiyə etmir. Bu ödəniş matrisinin yəhərvari nöqtəsinin olub-olmamasından asılıdır.

Fərz edək ki, əgər baxılan halda oyunun aşağı və yuxarı qiymətləri bərabərdirsə, yəni maxmin və minmax $\alpha = \beta$ . Onda $a_{ij}$ elementinə kiberhücumlar əleyhinə məhvetmə və ya neytrallaşdırıcı vasitələrin effektivlik əmsallarına matrisin yəhərvari nöqtəsi və ya elementi deyilir. Yəhərvari nöqtəsi olan oyunlarda hər iki oyunçu maxmin (minmax) strategiyalarını seçməlidir. Bu, prinsipdən yayınan oyunçu üçün məğlubiyyət deməkdir.

Əgər oyunda yəhərvari nöqtə yoxdursa, onda $ME_i$ və $KH_j$ təmiz strategiyalarından heç biri optimal həll olmayacaq və həllin dayanıqlığını təmin etməyəcəkdir. Buna görə də fərz edək ki, $KH_j, j = 1, 2, \dots, \mathrm{n}$ kiberhücumlarının baş verməsi ehtimalları $q_j^*$ , $j = 1, 2, \dots, \mathrm{n}$ və $ME_i, i = 1, 2, \dots, \mathrm{m}$ məhvetmə vasitələrinin tətbiqolunma ehtimalları $p_i^*, i = 1, 2, \dots, n$ dir. $q_j^*$ , $j = 1, 2, \dots, \mathrm{n}$ və $p_i^*, i = 1, 2, \dots, m$ ehtimallarının qiymətləri məlum deyil və onların tapılması lazımdır.

Onda tələb olunur ki,

$$S_I^* = \begin{pmatrix} ME_1, & ME_2, \dots, & ME_m \\ p_1^*, & p_2^*, \dots, & p_m^* \end{pmatrix} \quad \text{və} \quad S_{II}^* = \begin{pmatrix} KH_1, & KH_2, \dots, & KH_n \\ q_1^*, & q_2^*, \dots, & q_n^* \end{pmatrix}$$

optimal strategiyaları tapılsın.

Burada $S_I^*$ və $S_{II}^*$ ilə uyğun olaraq $2xm$ və $2xn$ ölçülü matrislərdir ( $I$ və $II$ oyunçunun optimal strategiyaları işarə olunub);

$p_i^*$ - I oyunçunun təmiz $ME_i$ strategiyasının və $q_j^*$ - isə II oyunçunun təmiz $KH_j$ strategiyasının tətbiqolunma ehtimallarıdır:

$$p_1^* + p_2^* + \cdots + p_m^* = 1, \quad q_1^* + q_2^* + \cdots + q_n^* = 1. \tag{3}$$

I oyunçunun optimal $S_I^*$ strategiyası o deməkdir ki, o, I oyunçuya II oyunçunun ixtiyari strategiyasında oyunun qiyməti $v$-dən az olmayan orta uduşu təmin edir. II oyunçunun optimal strategiyasında uduş $v$ -yə bərabər olur. Ümumiliyi pozmadan qəbul edə bilərik ki, $v > 0$. Bunu ödəniş matrisinin bütün elementlərini mənfi olmayan ədəd etməklə nail olmaq olur.

Əgər I oyunçu II oyunçunun ixtiyari təmiz $KH_j$ strategiyasına qarşı özünün qarışıq $S_I^*$ strategiyasını atarsa, onda o, orta uduş (məhv edilən və ya zərərsizləşdirilən kiberhücumların sayı) və ya uduşun (məhv edilən və ya zərərsizləşdirilən kiberhücumların sayı) riyazi gözləməsi

$$a_{1j}p_1 + a_{2j}p_2 + \cdots + a_{mj}p_m, \; j = 1, 2, \dots, n \tag{4}$$

olan uduş əldə edir. I oyunçunun optimal $S_I^*$ strategiyasında bütün orta uduşlar oyunun qiyməti $v$ - dən az deyil:

$$\begin{cases} a_{11}p_1 + a_{21}p_2 + \cdots + a_{m1}p_m \geq v, \\ a_{12}p_1 + a_{22}p_2 + \cdots + a_{m2}p_m \geq v, \\ \dots\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots. \\ a_{1n}p_1 + a_{2n}p_2 + \cdots + a_{mn}p_m \geq v \end{cases} \tag{5}$$

(5) bərabərsizliklərində hər iki tərəfi müsbət $v > 0$ ədədinə bölsək və yeni

$$x_1 = \frac{p_1}{v}, x_2 = \frac{p_2}{v}, \dots, x_m = \frac{p_m}{v} \tag{6}$$

dəyişənlərini qəbul etsək, onda (5) bərabərsizlikləri aşağıdakı kimi olar:

$$\begin{cases} a_{11}x_1 + a_{21}x_2 + \cdots + a_{m1}x_m \geq 1, \\ a_{12}x_1 + a_{22}x_2 + \cdots + a_{m2}x_m \geq 1, \\ \dots\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots. \\ a_{1n}x_1 + a_{2n}x_2 + \cdots + a_{mn}x_m \geq 1. \end{cases} \tag{7}$$

I oyunçunun məqsədi özünün zəmanətli uduşunu maksimallaşdırmaqdır (yaxşılaşdırmaq). Bunun üçün

$$p_1 + p_2 + \cdots + p_m = 1$$

bərabərliyinin hər tərəfini $v \neq 0$ ədədinə bölsək

$$x_1 + x_2 + \cdots + x_m = \frac{1}{v} \tag{8}$$

alarıq.

Burada

$$x_i = \frac{p_i}{v} \text{ və } p_i \geq 0, i = 1, 2, \dots, n. \tag{9}$$

$v > 0$ olduğundan,

$$x_1 \geq 0, \; x_2 \geq 0, \dots, \; x_m \geq 0 . \tag{10}$$

Oyunun qiyməti $v$ -nin maksimallaşdırılması $\frac{1}{v}$ -nin minimallaşdırılması ilə eyni güclüdür. Beləliklə, $m\ x\ n$ oyununun həlli $x_i \geq 0,\ i = 1, 2, \dots, n$ dəyişənlərinin (7) məhdudiyyət şərtlərini ödəyən

$$f = \frac{1}{v} = x_1 + x_2 + \dots + x_m \to min \qquad (11)$$

xətti funksiyasına ən kiçik qiymət verən $x_i \geq 0$ dəyişənlərinin tapılmasına gətirilir. (7), (10), (11) məsələsi Simpleks metod ilə həll edilərək oyunun qiyməti [4, 5] $v = 1/f_{min}$ kimi, I oyunçunun optimal qarışıq strategiyası və $p_i^* = x_i^* * v$ müəyyən edilir. Deməli, oyunun qiyməti $v$ -nin və I oyunçunun $S_I^*$ qarışıq optimal strategiyasının tapılması (7), (10), (11) məsələsinin həllinə gətirilir.

II oyunçunun $S_{II}^*$ qarışıq optimal strategiyasını tapmaq üçün isə (7), (10), (11) məsələsinin qoşmasını quraq:

Məhdudiyyət şərtləri:

$$\begin{cases} a_{11}y_1 + a_{12}y_2 + \dots + a_{1n}y_n \leq 1, \\ a_{21}y_1 + a_{22}y_2 + \dots + a_{2n}y_n \leq 1, \\ \dots\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots\dots . \\ a_{m1}y_1 + a_{m2}y_2 + \dots + a_{mn}y_n \leq 1. \end{cases} \qquad (12)$$

$$y_1 \geq 0, y_2 \geq 0, \dots, y_n \geq 0. \qquad (13)$$

Məqsəd funksiyası:

$$z = y_1 + y_2 + \dots + y_n = 1/v \to max. \qquad (14)$$

(12) – (14) qoşma məsələni də Simpleks metod ilə həll etməklə oyunun qiyməti [4, 5] $v = 1/z_{max}$ kimi, II oyunçunun optimal qarışıq strategiyası və

$$q_j^* = y_j^* * v, \qquad j = 1, 2, \dots, n \qquad (15)$$

müəyyən edilir.

## Nəticə

Keçmiş illərin statistikasına uyğun olaraq, müəyyən dövr üçün olmuş kiberhücumları təsir xüsusiyyətlərinə görə növlərə bölmək olar. Kiberhücumlara qarşı onların məhvetmə vasitələrinin optimal seçilməsi problemi oyunlar nəzəriyyəsini tətbiq edərək qarşılıqlı qoşma iki xətti proqramlaşdırma məsələsinə gətirilməklə Simpleks metod vasitəsilə həll edilə bilər. Nəticədə, $p_i\ i = 1, 2, \dots, m$ məhvetmə vasitələrinin $ME_i$ tətbiqolunma və $q_j, j = 1, 2, \dots, m$ kiberhücumların məhv olunması ehtimallarını tapmaq olar. Beləliklə, kiberhücumların (2) düsturu ilə təyin olunan baş verməsi ehtimalları nəzərə alınmaqla onların məhv edilməsi və ya qarşısının alınmasının idarəetmə prosesi əvvəlcədən daha effektli planlaşdırıla bilər.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Imperva. Cyber Attack: [Electronic resource] / Imperva Learning Center, Application security. – Austin, 2021. URL: https://www.imperva.com/learn/application-security/cyber-attack/

2. Самаров, К.Л. Элементы теории игр / К.Л.Самаров. – Москва: ООО «Резольвента», – 2009. – 24 с.

3. Самарский, А.А. Математические моделирование. Идеи. Методы. Примеры. – 2-е изд. испр. / А.А.Самарский, А.П.Михайлов – Москва: Физматлит, – 2005. – 320 с.

4. Həsənov, A.Q. Hərbi sistemlərin riyazi modelləşdirilməsi məsələlərinin həlli. Dərs vəsaiti. / A.Q.Həsənov. – Bakı: Hərbi nəşriyyat, – 2018. – 120 s.

5. Həşimov, E.Q. Hərbi sistemlərin riyazi modelləşdirilməsi. Dərs vəsaiti. / E.Q.Həşimov, Ə.M.Talıbov, A.Q.Həsənov – Bakı: Hərbi nəşriyyat, – 2018. – 266 s.

**Аннотация**
**Исследование применения средства поражения против кибератаки с помощью теории игр**
**Арзуман Гасанов**

В статье рассмотрен вопрос исследования применения средств поражения от кибератак с помощью теории игр. Ожидается, что мировой ущерб от кибератак будет увеличиваться на 15% в год и превысит 10 триллионов долларов. В текущий период объектами кибератак являются оборона, экономика, банковское дело, администрация и т.д. страны. системы. Пагубные последствия таких атак вполне реальны. Важно и необходимо иметь или создавать средства защиты и уничтожения от них. В результате научного исследования такой проблемы важно заранее подготовить план действий. Для этого по статистике прошлых лет кибератаки за определенный период делятся на типы по характеристикам воздействия. Задача оптимального выбора средств поражения от кибератак решена методом Симплекс путем применения теории игр к задаче взаимного билинейного программирования. В результате расчетов можно узнать вероятность применения средств поражения и уничтожения кибератак. Таким образом, учитывая вероятность возникновения кибератак, процесс управления их уничтожением или предотвращением можно более эффективно планировать заранее. Найдены вероятности использования средств разрушения и нейтрализации кибератак. Полученные результаты могут быть использованы для эффективного предварительного планирования применения средств поражения от кибератак.

**Ключевые слова:** кибербезопасность, кибератака, средства поражения, теория игр, Симплекс метод

**Abstract**
**Investigating the application of destructive means against cyber attacks with game theory**
**Arzuman Hasanov**

In the article, the issue of investigating the application of means of destruction against cyber attacks with the theory of games was considered. The worldwide damage caused by cyber attacks is expected to increase by 15% per year and exceed 10 trillion dollars. In the current period, the targets of cyber attacks are defense, economy, banking, administration, etc. of the country. systems. The harmful consequences of such attacks are real. It is important and necessary to have or create means of protection and destruction against them. As a result of the scientific investigation of such a problem, it is important to prepare an action plan in advance. For this purpose, according to the statistics of the past years, the cyber attacks for a certain period are divided into types according to the characteristics of the impact. The problem of optimal selection of means of destruction against cyber-attacks was solved using the Simplex method by applying the game theory to the problem of mutual coupling bi-linear programming. As a result of the calculations, it is possible to find out the probability of the use of means of destruction and the destruction of cyber attacks. Thus, taking into account the probability of occurrence of cyber attacks, the management process of their destruction or prevention can be planned more effectively in advance. Probabilities of using destruction tools and neutralizing cyber attacks are found. The obtained results can be used for effective pre-planning of the application of means of destruction against cyber-attacks.

**Keywords:** cyber security, cyber attack, means of destruction, theory of games, Simplex method

*Məqalə redaksiyaya daxil olmuşdur: 19.01.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 25.01.2024*
*Çapa qəbul edilmişdir: 30.01.2024*

**HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE**
**№1/2024, səh. 53-64**
***HƏRBİ XÜSUSİ ELMLƏR*** ***MILITARY SPECIAL SCIENCES***

UOT 355/359

# AZƏRBAYCANIN SUVERENLİYİNİN TƏMİN EDİLMƏSİ ÜÇÜN HƏYATA KEÇİRİLƏN LOKAL XARAKTERLİ ANTİTERROR TƏDBİRLƏRİ

**professor Mehman Süleymanov**
smehman@mail.ru
**dosent Sevinc Ələkbərova**
sevaelekberova1975@gmail.com
*Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu*
DOI: 10.30546/mk.2024.1.0053.

***Xülasə.*** 2023-cü ilin 19 – 20 sentyabr tarixlərində Azərbaycanın Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi ərazilərdə qeyri-qanuni erməni silahlı dəstələrinə qarşı lokal xarakterli anti-terror tədbirləri keçirildi. Azərbaycan Ordusunun qüvvələri tərəfindən aparılan bu antiterror tədbirləri zamanı mülki əhaliyə və obyektlərə heç bir ziyan yetirmədən Azərbaycan hakimiyyətinə tabe olmaq istəməyən erməni hərbi qüvvələrinə ağır zərbə vuruldu. Cəmi 23 saat davam edən bu tədbirlərdən sonra qeyri-qanuni erməni hərbi qüvvələri məğlub duruma düşdülər və onlar təslim olmağa, habelə bütün silahlarını təhvil verməyə hazır olduqlarını bildirdilər. Təqdim olunan məqalədə lokal xarakterli antiterror tədbirlərinin ilkin təhlili aparılmışdır. Respublikanın ərazi bütövlüyünün təmin edilməsi və tarixinin öyrənilməsi baxımından bu mövzunun tədqiq edilməsinə elmi-tarixi zərurət vardır. Məqsəd Azərbaycanın suverenliyinin təmin edilməsi sahəsində Azərbaycan Ordusunun cəmi bir gün davam edən antiterror tədbirlərinin uğurla başa çatdırılmasındakı rolunu araşdırmaqdır. Araşdırma göstərdi ki, Azərbaycan Ordusunun qarşısına qoyulan vəzifə düzgün planlaşdırmanın, səriştəli fəaliyyətin və xüsusi taktikanın tətbiq edilməsinin nəticəsi olaraq tam həcmdə və mülki əhaliyə ziyan vurmadan yerinə yetirilmişdir.
**Açar sözlər:** antiterror tədbirləri, Vətən müharibəsi, üçtərəfli bəyanat, qeyri-qanuni erməni silahlı dəstələri, Azərbaycanın suverenliyinin təmini

## Giriş

2020-ci ilin sentyabr ayının 27-də başlanan Vətən müharibəsinin böyük Zəfərlə başa çatması nəticəsində Azərbaycan ərazilərinin təxminən 30 ilə yaxın davam edən işğalına son qoyuldu. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin də dəfələrlə qeyd etdiyi kimi**,** Azərbaycan xalqının, dövlətinin və ordusunun dəmir yumruğa çevrilmiş birliyi nəticəsində Ermənistanın işğalçı ordusu məhv edildi, bu ordunun canlı qüvvəsinə və texniki təchizatına ağır zərbə vuruldu. Nəticədə, 2020-ci il noyabr ayının 10-da Ermənistanın baş naziri, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev birlikdə üçtərəfli Bəyanat imzaladılar. Həmin Bəyanatla Ermənistan Respublikası hərbi məğlubiyyətə uğraması ilə barışmalı oldu. Vətən müharibəsinin getdiyi günlərdə Azərbaycan Respublikasının Silahlı Qüvvələri işğalçı qüvvələrə ağır zərbə vuraraq 300-ə yaxın məntəqəni azad etdi.

Ermənistanın hərbi-siyasi rəhbərliyi işğal altında qalmış Ağdam, Kəlbəcər və Laçın rayonlarını isə hərbi əməliyyatlar aparılmadan azad etməyi öz öhdəsinə götürməli oldu [1, s. 67-68].

İlkin hesablamalara görə, Ermənistanın Azərbaycan Ordusu tərəfindən məhv edilmiş hərbi texnikasının ümumi dəyəri 3 milyard ABŞ dollarından çox idi [2].

Üçtərəfli Bəyanatın 3-cü maddəsinə əsasən, Dağlıq Qarabağın təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1.960 nəfər odlu silahla silahlanmış hərbi qulluqçusu, 90 ədəd hərbi texnikası, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirildi. Bu Bəyanatın 4-cü maddəsində isə deyilirdi ki, Rusiya Federasiyasının sülhməramlı kontingenti Qarabağın dağlıq hissəsindən erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir [2]. Bununla da

nəzərdə tutulurdu ki, Qarabağ ərazisi erməni silahlı qüvvələrindən tam təmizlənsin, bütün köçkünlər geri qaytarılmaqla azərbaycanlı və erməni sakinlərinin birgə yaşayışı təmin olunsun və respublikanın ərazisində Azərbaycan hakimiyyəti bərqərar edilsin. Lakin Ermənistanın hərbi-siyasi rəhbərliyi üzərinə götürdüyü bu öhdəliyi yerinə yetirmədi və Azərbaycan Ordusu ərazilərimizdə qalmış qeyri-qanuni erməni silahlı dəstələrinə qarşı 2023-cü il sentyabr ayının 19 – 20-də lokal xarakterli antiterror tədbirləri keçirdi. Hazırkı məqalədə onun keçirilməsinin səbəbləri, gedişi və nəticələri qeyri-məxfi məlumatlar əsasında ilkin təhlilə cəlb edilmiş və ümumiləşdirilmişdir. Mövzunun tədqiq olunması Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsi istiqamətində Azərbaycan Ordusunun tarixi fəaliyyətinin öyrənilməsi baxımından aktuallıq kəsb edir.

## 1. Lokal xarakterli antiterror tədbirlərinin başlanması səbəbləri

2020-ci il noyabr ayının 8-də Şuşa şəhərinin azad edilməsi Vətən müharibəsinin tarixində həlledici əhəmiyyət kəsb edirdi. Hərbi baxımdan bu şəhərin ələ keçirilməsi Qarabağ ərazisində erməni separatizminin mərkəzi olan Xankəndi şəhərinin və bütünlükdə Qarabağın dağlıq hissəsinin nəzarət altına alınması, habelə Qarabağ ərazisindəki erməni hərbi qüvvələrinin Ermənistanla quru əlaqələrinin kəsilməsi demək idi. Bu şəhərin azad edilməsindən sonra da Azərbaycan Silahlı Qüvvələri uğurlu döyüşlərini davam etdirdi və noyabr ayının 9-da erməni işğalı altında olan daha 71 kənd, 1 qəsəbə və 8 strateji yüksəklik azad edildi [3]. Bundan sonra oktyabrın 9-dan 10-na keçən gecə Rusiya, Azərbaycan və Ermənistan rəhbərləri arasında imzalanan Bəyanata əsasən, hərbi əməliyyatlar dayandırıldı. Bəyanatın şərtlərinin icra ediləcəyi təqdirdə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bütünlüklə təmin edilə bilərdi. Lakin ermənilər öz havadarlarına arxalanaraq buna getmədilər.

2023-cü il oktyabrın 15-də Xankəndidə Azərbaycan bayrağını qaldıran Azərbaycan Respublikasının Prezidenti bu məsələyə öz münasibətini belə ifadə edirdi: *"Xatırlayıram, o vaxt bəziləri sual verirdi: nə üçün, nə üçün biz o vaxt – noyabrın 10-da müharibəni dayandırmağa razılıq verdik? Bu gün, bax, burada durarkən bir daha bildirmək istəyirəm ki, biz hər şeyi vaxtında etməliyik və etmişik. Azərbaycan xalqının böyük əksəriyyəti o vaxt da – noyabrın 10-da və ondan sonrakı dövrdə çox yaxşı başa düşürdü ki, biz istədiyimizə nail olacağıq. İstədiyimiz isə, bax, burada dalğalanan Azərbaycan Bayrağıdır"* [4].

Əldə edilmiş üçtərəfli Bəyanatda Azərbaycan tərəfinin bütün şərtləri qəbul edildiyi üçün hərbi əməliyyatların dayandırılması məqsədəuyğun hesab edildi. Həmin Bəyanatın bütün şərtlərinin tam şəkildə yerinə yetiriləcəyi təqdirdə hərbi əməliyyatların aparılmasına da bir ehtiyac qalmırdı. Doğrudur, razılaşdırılmış tarixlərdə Ağdam, Kəlbəcər və Laçın rayonları Ermənistan hərbi qüvvələrindən təmizləndi. Lakin Rusiyanın müvəqqəti sülhyaratma kontingentinin dayandığı ərazilərdə erməni hərbi qüvvələrinin silahsızlaşdırılması və bundan sonra da Qarabağın dağlıq hissəsində yaşayan ermənilərin Azərbaycanın daxili həyatına inteqrasiya edilməsi aparılmadı. Ancaq Ermənistanın hərbi-siyasi rəhbərliyi üçtərəfli Bəyanatla öz üzərinə götürdüyü öhdəliyi tam şəkildə icra etmədi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, Ermənistanda revanşist qüvvələr baş qaldırdı və beynəlxalq himayədarları da onları Azərbaycana qarşı təxribatçı əməllərə təhrik etməyə başladılar [5; 6].

Ermənilər tərəfindən üçtərəfli Bəyanatın şərtlərinə əməl edilməməsinin səbəblərini də İlham Əliyev çıxışlarının birində səsləndirmişdi: *"Əfsuslar olsun, onlar bu günə qədər kiməsə arxalanırlar ki, kimsə gələcək onları xilas edəcək, kimsə gələcək Azərbaycanla müharibə aparacaq. Bunlar hamısı cəfəngiyyatdır. İkinci Qarabağ müharibəsi zamanı biz güclü iradə göstərmişik və əgər o vaxt heç kim bizə qarşı kənardan müdaxiləyə cürət etmədisə, bu gün bütün bu torpaqlara yenə də sahib olandan sonra kim gəlib ermənilərin yerinə bizimlə vuruşacaq? Birincisi, bu, qanunsuzdur. Biz öz doğma torpağımızdayıq və bu gün ermənilərin yaşadıqları Qarabağ bölgəsi bizim əzəli, hüquqi torpağımızdır. Sadəcə olaraq, biz hesab edirik ki, onlar özləri başa düşəcəklər, özləri gəlib Azərbaycan Bayrağı altında yaşamağa addım atacaqlar. Biz bunu gözləyirik. Ona görə hər hansı bir başqa addım atmırıq və hesab edirəm ki, iki il yarım ərzində baş vermiş hadisələr artıq onları da oyatmalıdır, bu yuxudan, bu xülyadan ayıltmalıdır"* [7].

Ermənistanın hərbi-siyasi rəhbərliyi, bu rəhbərlik tərəfindən Qarabağda yaradılmış xunta rejimi yeni iddialara düşməklə bir tərəfdən Qarabağın dağlıq hissəsində mövcud olan təbii sərvətləri talan edib Ermənistana aparır, digər tərəfdən də Rusiya sülhyaratma kontingentinin müvəqqəti nəzarəti altında olan ərazilərə silah-sursat daşıyırdı. Azərbaycan tərəfi davamlı şəkildə bu cinayətlərə qarşı öz etiraz səsini qaldırsa da, ermənilər ona ciddi yanaşmadılar. Əksinə, Ermənistanın hərbi-siyasi rəhbərliyi Rusiyanın sülhyaratma kontingentinin müvəqqəti şəkildə bölgədə olmasından istifadə edərək yeni səngərlər və mühəndis-istehkam xətlərinin qurulmasını, bölgəyə yeni hərbi qüvvələri və hərbi təchizat daşınmasını davam etdirdilər. Müşahidəçilərin də qeyd etdiyi kimi, erməni hərbi qüvvələrinin yeni bir müharibəyə hazırlaşdıqları göz qabağında idi. Onlar fasiləsiz təminat xətləri yaradır, öndəki postlarını müasir videomüşahidə və rabitə vasitələri ilə təmin edirdilər. Bu qədər açıq müşahidə olunan müharibə hazırlıqlarının və erməni revanşizminin qarşısını almaq üçün Azərbaycan Ordusunun bölmələri 2022-ci il mart ayının 24 – 25-də Fərrux dağı ətrafında mövqelərin dəqiqləşdirilməsini apardı. Nəticədə, erməni hərbi qüvvələrinin gözləmədiyi halda Fərrux dağı Azərbaycan qüvvələrinin tam nəzarəti altına düşdü. Bununla da, Azərbaycan Ordusu bölmələri həmin istiqamətdə strateji üstünlüyü ələ almış oldu. Fərrux dağının ətrafındakı geniş vadi, Cinli, Çullu, Əlimədədli, Mollalar və Əliağalı kəndlərinin təhlükəsizliyi təmin edildi. Eyni zamanda Yeddixırman və Daşbaşı zirvələri, habelə 1050 və 1145 nömrəli adsız yüksəkliklər, həmçinin Pirlər, Xanabad və Əsgərana qədər olan ərazilər Azərbaycan qüvvələrinin müşahidə-nəzarəti altına düşdü [8].

Fərrux dağının nəzarət altına götürülməsi ilə bu dağla Şuşa arasındakı ərazilərdə Azərbaycanın hərbi qüvvələrinin nəzarəti daha da gücləndi. Lakin erməni hərbi qüvvələri öz müharibə hazırlıqlarını və hərbi təxribatlarını yenə də dayandırmadılar. Atəşkəs rejimini davamlı şəkildə pozan erməni hərbi qüvvələri 2022-ci il avqust ayının 3-də daha bir qanlı təxribata əl atdılar. Belə ki, Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində mövcud olan qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri üçtərəfli Bəyanatın müddəalarını yenidən kobud şəkildə pozaraq 2020-ci il avqustun 3-də Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat törətdilər. Nəticədə, Azərbaycan Ordusunun hərbi qulluqçusu əsgər Kazımov Anar Rüstəm oğlu şəhid oldu. Bununla da, kifayətlənməyən qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri Kəlbəcər və Laçın rayonları istiqamətindəki Qırxqız yüksəkliyini ələ keçirməyə və orada yeni döyüş mövqeləri qurmağa cəhd göstərdilər. Bu yüksəkliyi tutmaq ermənilərə taktiki üstünlük imkanı verə bilərdi. Azərbaycan Ordusu bölmələrinin bu təxribata cavab olaraq keçirdikləri “Qisas” əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin strateji əhəmiyyət kəsb edən Sarıbaba yüksəkliyi və bir sıra digər hakim yüksəkliklər nəzarətə götürüldü. Bu əməliyyat nəticəsində qeyri-qanuni erməni silahlı qüvvələrinin bir neçə döyüş mövqeyi dağıdıldı, keçmiş Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsində dislokasiya olunmuş erməni hərbi hissəsinə havadan zərbə endirildi. Erməni hərbi qüvvələrinə məxsus xeyli sayda canlı qüvvə məhv edildi və zərərsizləşdirildi. Bundan başqa, erməni hərbi qüvvələrinin bir neçə D-30 haubitsası, hərbi nəqliyyat vasitələri və çoxlu sayda döyüş sursatı məhv edildi. Bu əməliyyat haqqında məlumat yayan Azərbaycan Respublikasının Müdafiə Nazirliyi bəyan etdi ki, üçtərəfli bəyanata zidd olaraq Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni silahlı birləşmələrinin Rusiya Federasiyası sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində mövcudluğu təhlükə mənbəyidir və bu ərazilərin demilitarizasiyası, Ermənistan qoşunlarının oradan tam çıxarılması və qanunsuz erməni silahlı ünsürlərinin tərk-silah edilməsi mütləq şəkildə labüddür. Müdafiə Nazirliyi onu da bəyan edirdi ki, Azərbaycan Respublikasının Konstitusiyasını rəhbər tutaraq bundan sonra ölkəmizin suveren ərazilərində törədiləcək istənilən terror və təxribatın qarşısı qətiyyətlə alınacaq və əks-cavab tədbirləri daha da sarsıdıcı olacaqdır [9].

Fərrux dağı və Qırxqız-Sarıbaba yüksəklikləri ətrafında aparılmış döyüşlərin əməliyyat-taktiki əhəmiyyətini İlham Əliyev də yüksək qiymətləndirirdi: *“Fərrux əməliyyatı, Sarıbaba-Qırxqız əməliyyatı və digər hərbi əməliyyatlar* həm *bizim strateji mövqelərimizi böyük dərəcədə yaxşılaşdırmışdır. Eyni zamanda, Ermənistana göndərilmiş bir mesaj idi ki, bizi heç kim və heç nə dayandıra bilməz, Qarabağ Azərbaycan torpağıdır və burada vəziyyəti biz diktə edirik və siz dərhal silahlı qüvvələrinizi bizim torpaqlarımızdan çıxarmalısınız”* [5].

2022-ci il sentyabr ayının ortalarına yaxın Ermənistan hərbi qüvvələrinin Azərbaycan ərazilərinə qarşı daha geniş hərbi təxribatları baş verdi. Sentyabrın 11-i axşam saatlarında erməni hərbi qüvvələri Ermənistan ərazisindən Gədəbəy rayonunun Novoivanovka və Laçın rayonunun Hüsülü yaşayış məntəqələrini atəşə tutdular [10].

2022-ci il sentyabr ayının 12-də Ermənistanın silahlı qüvvələri hərbi təxribatları daha da genişləndirərək Azərbaycan Ordusunun Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki bəzi mövqelərini, sığınacaqlar və dayaq məntəqələrini müxtəlif çaplı silahlar, o cümlədən minaatanlardan intensiv atəşə tutdular. Nəticədə, şəxsi heyət arasında itkilər oldu, hərbi infrastruktura ziyan dəydi [11].

2022-ci il sentyabr ayının 12 – 14-ü arasında Azərbaycan – Ermənistan sərhəd xəttində erməni hərbi təxribatlarının qarşısı uğurla alındı. Bu zaman Azərbaycan Ordusu itkilər versə də, sərhəd xəttindəki strateji yüksəklikləri ələ keçirdi və bununla da, bu istiqamətdən davam edən erməni təxribatlarının qarşısı da alındı. Həmin döyüşlər revanşist niyyətlərindən əl çəkməyən erməni hərbi qüvvələrinə yeni bir zərbə oldu. Azərbaycan Respublikasının Prezidenti bu döyüşlərə belə qiymət verirdi: *"Qarabağ bölgəsində bütün vacib olan məntəqələrə yerləşdik. Eyni zamanda, uzun illər ərzində işğal altında qalmış Azərbaycan – Ermənistan sərhədini nəzarətə götürdük. Sərhəddə mövqelərimizi tədricən yaxşılaşdırdıq və müxtəlif tədbirlər nəticəsində Azərbaycan – Ermənistan sərhədinin böyük hissəsində ən əlverişli mövqelərə malik olduq"* [5].

Lakin Azərbaycan dövlətinin qətiyyəti, imzalanmış üçtərəfli Bəyanatın icrasına sədaqətlə yanaşması Ermənistanı sülh yoluna döndərə bilmədi. Ermənistanın hərbi-siyasi rəhbərliyi bu ölkənin daxili işləri ilə məşğul olmaq əvəzinə, Qarabağda hərbi vəziyyətin gərginləşdirilməsi yolunu tutdu, Qarabağa göz dikməkdən əl çəkmədi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev haqlı olaraq qeyd edirdi: "*Belə bir siyasət izləməklə Ermənistan kimlərə isə bel bağlayırsa, yenidən faciə ilə üzləşəcəkdilər. Üçtərəfli Bəyanatın şərtlərini icra etmək əvəzinə, Ermənistan yenə vaxt uzatmağa başladı. Mən bir daha demək istəyirəm, o öhdəlik hələ tam yerinə yetirilməyib. Erməni silahlı qüvvələri Qarabağda nə gəzir? Bizim səbrimiz tükənməz deyil və bir daha xəbərdarlıq etmək istəyirəm, əgər bu öhdəlik yerinə yetirilməsə, Azərbaycan lazımi addımlar atacaq. Ermənistan bilməlidir ki, bizi indiki çərçivələrdə saxlayan Ermənistanın hansısa havadarının bəyanatı deyil, bizim öz siyasətimizdir. Biz heç kimdən qorxmuruq, heç kimdən çəkinmirik. Əgər biz kimdənsə qorxsaydıq, heç vaxt İkinci Qarabağ müharibəsinə start verməzdik. Biz hər birimiz ölümə gedirdik, öldü var, döndü yoxdur, ya azadlıq, ya ölüm! İndi də ölümə getməyə hazırıq öz haqlarımızı tələb edərək. Çünki hələ də, – müharibə iki il bundan əvvəl başa çatsa da, – narahatedici məqamlar var və erməni xalqına müraciət edib sözümü demək istəyirəm. ... Onlar bunu anlamalıdırlar ki, xaricdə oturan və bu bölgəyə bir oyun meydançası kimi baxmaq istəyən dairələrin qurbanına ikinci dəfə çevrilməsinlər"* [12].

Ermənistanın Qarabağ ərazisində yerləşən hərbi qüvvələrinə silah və sursat gətirilməsinə və Qarabağdakı təbii sərvətlərin talanaraq Ermənistana daşınmasına etiraz əlaməti olaraq 2022-ci il dekabrın 12-də Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələrinin, ekologiya fəallarının və gənc könüllülərin Şuşa – Laçın yolunda etiraz aksiyası başladı [13]. 2023-cü il aprel ayının 23-də isə Azərbaycanla Ermənistanı quru yolla birləşdirən Laçın yolu üzərində sərhəd-nəzarət postu qoyuldu. Bununla, Azərbaycanın bütün sərhəd xətti respublikanın nəzarəti altına alındı və respublika Prezidenti İlham Əliyevin dediyi kimi, Azərbaycan öz ərazi bütövlüyünü təmin etdi [5].

Ermənistanın baş naziri beynəlxalq formatda apardığı müzakirələr zamanı 1991-ci il Alma-Ata Bəyannaməsi əsasında Azərbaycanın ərazi bütövlüyünü tanısa da, öz fəaliyyətində Azərbaycana qarşı ərazi iddialarından əl çəkmədi. 2023-cü il sentyabrın 2-də qondarma "Dağlıq Qarabağ Respublikasının" yaradılmasının ildönümü münasibətilə təbrik məktubu yayması, sentyabrın 9-da qondarma quruma "rəhbər seçkisi" keçirilməsi Azərbaycan üçün qırmızı xəttin keçilməsi və Azərbaycana qarşı ərazi iddialarının yenidən irəli sürülməsi idi. Ermənistanın hərbi-siyasi rəhbərliyi reallıqların əksinə olaraq Azərbaycana qarşı ərazi iddialarından əl çəkmədiyini nümayiş etdirdi. Bu istiqamətdə həm də Ermənistan tərəfindən əməli tədbirlər də həyata keçirilirdi. Ermənistan tərəfindən Qarabağın dağlıq hissəsinə çoxlu sayda mina daşındı və əlavə mina sahələri yaradıldı. Vətən müharibəsinin başa çatmasından sonra lokal antiterror tədbirlərinin başladığı günə qədər Azərbaycanın 315 nəfər hərbi və

mülki vətəndaşı erməni minalarından həlak olmuş və ya yaralanmışdı [14]. Yəni Azərbaycan vətəndaşları öz ərazilərində erməni minalarından həyatlarını itirirdilər. 2023-cü il sentyabrın 18-də ermənilərin yol üzərində yerləşdirdiyi minalardan 6 nəfər həyatını itirdi. Əvvəlcə Avtomobil Nəqliyyatı Agentliyində çalışan iki nəfər Azərbaycan vətəndaşı Xocavənd rayonunda, sonra isə Daxili İşlər Nazirliyinin dörd əməkdaşı həmin rayonun ərazisində mina qurbanı oldu [15].

Sentyabr ayının 19-da isə saat 11:45 radələrində Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqeləri Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən minaatanlar və müxtəlif çaplı atıcı silahlardan atəşə tutuldu. Bu atəş nəticəsində Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yaralandı [16].

Bütün bu baş verənlər göstərdi ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycana qarşı öz iddialarından əl çəkmədiyi kimi, qondarma qurumun qondarma rəhbərliyi də Qarabağın dağlıq hissəsində yaşayan erməni sakinlərinin Azərbaycana inteqrasiya edilməsi təkliflərini qəbul etmək fikrində deyil. Vətən müharibəsindən sonra bölgədə cərəyan edən proseslər Azərbaycanın öz ərazilərində suverenliyini bütünlüklə təmin etmək üçün başqa seçim yolu qoymadı və dövlət rəhbərinin əmri ilə Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində lokal xarakterli antiterror tədbirlərinin keçirilməsinə qərar verildi.

## 2. Lokal xarakterli antiterror tədbirlərinin başlanması və gedişi

Lokal xarakterli antiterror tədbirləri 2023-cü il sentyabr ayının 19-da, təxminən saat 13-də başladı. Bununla bağlı Müdafiə Nazirliyi tərəfindən açıqlanan məlumatda deyilirdi ki, üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələri birləşmələrinin tərk-silah edilərək Azərbaycan ərazilərindən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanmışdır. Qeyd olunurdu ki, həyata keçirilən tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələri birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqliyə malik silahların tətbiqi ilə sıradan çıxarılır. O da bildirilirdi ki, Azərbaycan Ordusu tərəfindən həyata keçirilən bu tədbirlərin gedişində mülki əhali və infrastruktur obyektləri hədəfə alınmır, yalnız legitim hərbi hədəflər məhv edilir. Başlanmış antiterror tədbirləri ilə bağlı Rusiya sülhməramlı kontingentinin komandanlığı və Türkiyə – Rusiya Birgə Monitorinq Mərkəzinin rəhbərliyi məlumatlandırılıb [17; 18].

Bu, xüsusi olaraq planlaşdırılmış antiterror tədbirləri idi. Məqsəd də mülki əhaliyə və infrastruktura ziyan yetirmədən Müdafiə Nazirliyinin məlumatında göstərilən hədəflərə nail olmaq idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də bu antiterror tədbirlərinin mülki əhaliyə ziyan vurmadan aparılmasını zəruri sayırdı: *"Əməliyyat başlamazdan əvvəl mənim tərəfimdən bütün hərbi birləşmələrimizə bir daha ciddi tapşırıq verilmişdir ki, aparılan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yaşayan erməni əhalisi zərbə altına düşməməlidir və mülki əhali qorunmalıdır. ... göstəriş verilmişdir ki, mülki infrastruktura da heç bir zərbə dəyməməlidir, ancaq hərbi infrastruktur sıradan çıxarılmalıdır"* [19].

Mülki əhaliyə və obyektlərə ziyan yetirilmədən antiterror tədbirlərinin keçirilməsi isə Azərbaycanın hərbi rəhbərliyindən xüsusi diqqət və qətiyyət tələb edirdi. Çünki təxminən 30 il ərzində Ermənistanın hərbi rəhbərliyi Qarabağın dağlıq hissəsinə böyük sayda hərbi qüvvə və texnika yerləşdirmiş və eşelonlaşdırılmış mühəndis-istehkam sistemi yaratmışdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, *"antiterror əməliyyatının aparıldığı sahə mürəkkəb relyefə malik idi, erməni döyüş mövqelərinin əksəriyyəti əlverişli yüksəkliklərdə yerləşmişdi: Azərbaycan ərazisində qanunsuz olaraq Ermənistan ordusuna məxsus yüzdən çox tank və zirehli nəqliyyat vasitələri, zirehli texnika yerləşdirilmişdir. Radioelektron mübarizə vasitələri yerləşdirilmişdir. İki yüzdən çox top və artilleriya qurğuları, hava hücumuna qarşı ən müasir qurğular yerləşdirilmişdir"* [19].

Əldə edilən məlumatlar da göstərirdi ki, erməni hərbi qüvvələri, hətta Vətən müharibəsindən sonra Qarabağın dağlıq hissəsində hərbi imkanlarını xeyli artırmışdılar. Bəlli idi ki, antiterror tədbirlərinin başlanması ərəfəsində erməni hərbi qüvvələrinin 300-ə yaxın artilleriya və 50-dən artıq minaatan mövqeləri, həmçinin erməni hərbi qüvvələrinin ixtiyarında ondan artıq yer-hava raket sistemi, 6 radiolokasiya stansiyası, 20-dən artıq radioelektron mübarizə vasitəsi və təxminən 30 mobil operator baza stansiyası var idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş döyüş tapşırıqlarının düzgün və vaxtında icra edilməsi üçün dərhal zəruri tədbirlərin icrasına başlandı. Bu məqsədlə əvvəldən aparılmış kəşfiyyat işlərinin nəticələri, düşmənin ehtimal olunan mina sahələrindən keçidlərin açılma yerləri, hərəkət istiqamətində düşmənin istifadə etdiyi yollar və onlara birləşmə yerləri döyüş tapşırıqlarına uyğun olaraq yenidən qiymətləndirildi. Bundan əlavə, düşmən tərəfindən yolların müəyyən hissələrində qalaq və dağıntıların yaradılması, körpü və suötürücü qurğuların sıradan çıxarılması ehtimalı nəzərə alınaraq yerinə yetiriləcək mühəndis təminatı üzrə tədbirlər müəyyənləşdirilmişdi, düşmənin hava hücumundan müdafiə və REM vasitələrinin yerləşmə yerləri dəqiqləşdirildi, Qarabağ İqtisadi rayonunda qanunsuz silahlı qruplaşmaların ehtimal olunan fəaliyyətləri, əldə edilmiş məlumatlar əsasında düşmənin tərkibi, ehtimal olunan fəaliyyət imkanları nəzərdən keçirildi, yerinə yetiriləcək fəaliyyət barədə qarşı tərəfdə yanlış təsəvvür yaratmaq, gözlənilməzliyə nail olmaq və bölmələrin döyüş qabiliyyətini qoruyub saxlamaq məqsədilə silah və hərbi texnikanın maketlərindən və oxşarlarından istifadə edilməsi məqsədəuyğun sayıldı.

Antiterror tədbirlərinin başlamasından təxminən bir saat yarım sonra onun gedişi ilə bağlı Azərbaycan Respublikası Müdafiə Nazirliyinin ilk məlumatı açıqlandı. Həmin məlumatda deyilirdi ki, tədbirlər çərçivəsində yalnız legitim hərbi obyektlər və hərbi infrastruktur dəqiq silahlarla hədəfə alınır və sıradan çıxarılır. Qeyri-qanuni erməni silahlı dəstələri atəş vasitələrini yaşayış məntəqələri yaxınlığında yerləşdirməsini nəzərə alaraq, ərazidə olan mülki əhalini hərbi obyektlərdən kənar durmasına və Ermənistan silahlı qüvvələrinin birləşmələrinə dəstək verməməsinə çağırış edilmişdi. Bununla bağlı mobil SMS xidməti vasitəsilə Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinə məlumat göndərilmişdi. Eyni zamanda səsgücləndirici texniki vasitələrlə əhali xəbərdar edilir və məlumat vərəqələri paylanılırdı.

Azərbaycan Respublikasının qanunlarına və beynəlxalq humanitar hüquq normalarına uyğun olaraq təhlükəsizliyinə zəmanət verilən inzibati, sosial, təhsil, tibbi, dini və digər obyektlərin mühafizə və müdafiəsinin təşkil olunması bir vəzifə kimi müəyyənləşdirilmişdi. Yerli əhalinin nəzərinə o da çatdırılırdı ki, qadınlar, uşaqlar, qocalar, habelə fiziki məhdudiyyətli şəxslər və xəstələrə lazımi tibbi və digər yardımlar göstəriləcək, onlar içməli su və ərzaqla təmin olunacaqdır. Əhalinin təhlükəli ərazidən təxliyəsini təmin etmək üçün Laçın yolu üzərində və digər istiqamətlərdə humanitar dəhliz və qəbul məntəqələrinin yaradılması da Müdafiə Nazirliyi tərəfindən bəyan edildi [20; 21].

Antiterror tədbirlərinin xüsusiyyəti nəzərə alınmaqla döyüşlərin və idarəetmənin təşkilində, qoşun növləri və bölmələr arasında qarşılıqlı əlaqələrin yaradılmasında, raket-artilleriya və hərbi-hava qüvvələrinin tətbiqində Vətən müharibəsinin təcrübəsinin yaradıcı şəkildə nəzərə alınması əldə edilən nəticələrin miqyasına da öz təsirini göstərdi. Belə ki, kütləvi atəş zərbələri plana uyğun olaraq vaxtında yerinə yetirildi, ardınca sistematik atəş təsirləri mütəmadi olaraq həyata keçirildi, antiterror tədbirlərinin keçirildiyi bölgədə olan bütün hərbi obyektlər, döyüş postları, komanda-müşahidə məntəqələri dəqiq raket və artilleriya zərbələrinə tutuldu, yaşayış məntəqələrinə, mülki şəxslərə və obyektlərə zərər vurmamaq üçün yüksək dəqiqliyə malik raket zərbələrinə geniş yer verildi, düşmənin kritik döyüş mövqelərinə raket və artilleriya zərbələri endirməklə Azərbaycan bölmələrinin itkilərinin minimuma endirilməsi təmin edildi. Eyni zamanda antiterror tədbirlərinin başlanması ilə Azərbaycanın Hərbi Hava Qüvvələri tərəfindən əməliyyat rayonu üzərində havada üstünlük, hava məkanının müdafiəsi, hərbi obyektlərin və qoşunların hava hücumlarından etibarlı qorunması təmin olundu. Bütün bunlar isə antiterror tədbirlərinin uğurlu gedişini təmin etdi. Bölmələr və qüvvələr üçün isə döyüş tapşırıqları konkretləşdirildi, onlar üçün döyüş sektorları müəyyənləşdirildi.

Sentyabrın 19-da axşam saatlarında Müdafiə Nazirliyi tərəfindən antiterror tədbirlərinin ilk gününün nəticələri ilə bağlı ictimaiyyətə açıqlama verildi. Bu məlumatda deyilirdi ki, gün ərzində Ermənistan silahlı qüvvələri birləşmələrinin 60-dan çox döyüş mövqeyi Azərbaycan bölmələrinin nəzarətinə keçib, Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus 20-dən artıq hərbi təyinatlı avtomobil, 40-dan artıq artilleriya qurğusu, 30-dan artıq minaatan, 2 ədəd zenit-raket qurğusu, 6-dan artıq "Martira" radioelektron mübarizə stansiyası və digər hərbi təyinatlı vasitələri zərərsizləşdirilib. Lokal xarakterli antiterror tədbirlərinin başlamasından dərhal sonra Ermənistanın hərbi-siyasi dairələri, onları dəstəkləyən qüvvələr, guya erməni diasporu geniş təbliğat kampaniyasına başlayaraq Azərbaycanı ermənilər yaşayan məntəqələri və obyektləri vurmaqda ittiham edirdilər. Müdafiə Nazirliyinin açıqladığı məlumatda bu ittihamların əsassız olduğu haqqında dəlil və faktlar da ortaya qoyuldu. Təqdim edilən videogörüntülər vasitəsilə də çatdırıldı ki, mülki şəxslərin ziyan görməməsi Azərbaycan bölmələrinin fəaliyyətində də öz əksini tapmışdır. Qeyd olundu ki, Azərbaycan Respublikasının SQ bölmələrinin hədəfindən yayınmaq məqsədilə Ermənistan silahlı qüvvələrinin birləşmələri müxtəlif təyinatlı zirehli döyüş texnikası və atəş vasitələrini yaşayış məntəqələrində yerləşdirib. Həm də hərbi təyinatlı obyektlərə mülki şəxslər cəlb edilir. Azərbaycanın peşəkar hərbi qulluqçularının yüksək dəqiqliyə malik silahlardan istifadə etməklə hədəfə aldıqları hərbi obyektlərin məhv edilməsi üzrə verilən tapşırıqlar bir çox hallarda məhz hərbi obyektdə mülki şəxslərin olması aşkar edildikdən sonra obyektin hədəfə alınması dayandırılmışdır. Müdafiə Nazirliyinin məlumatında deyilirdi ki, Ermənistan SQ birləşmələrinin döyüş texnikasını yaşayış məntəqələrində və yaxud onların ətrafında yerləşdirməsinə baxmayaraq, yüksək dəqiqliklə həyata keçirilən atəş nəticəsində yalnız uzunmüddətli atəş nöqtələri, döyüş texnikası və hərbi məqsədlər üçün istifadə edilən hərbi infrastruktur sıradan çıxarılır və zərərsizləşdirilir [22; 23].

Antiterror tədbirlərinin elə birinci günü Azərbaycan Ordusunun bölmələri və hissələri verilmiş döyüşlərin icrası istiqamətində kifayət qədər ciddi nəticələr əldə etdilər. Əslində, elə ilk saatlardan Qarabağın dağlıq hissəsində dislokasiya edilmiş erməni hərbi obyektlərinə güclü zərbələr vuruldu. Xeyli sayda erməni hərbi texnikası və canlı qüvvəsi məhv edildi. Sentyabr ayının 19-da gecə saatlarında Azərbaycan Respublikasının Müdafiə Nazirliyi antiterror tədbirlərinin keçirildiyi rayonda yerləşən Ermənistan SQ bölmələrinə silahın yerə qoyulması ilə bağlı çağırış etdi. Bildirildi ki, bu halda antiterror tədbirləri də dayandırılacaqdır [24].

Lakin Ermənistanın hərbi-siyasi rəhbərliyi və Qarabağın dağlıq hissəsində yerləşən erməni hərbi qüvvələri bu çağırışı qəbul etmədilər və oktyabrın 20-də səhərdən döyüşlər yenə davam etdirildi. Bu döyüşlərin gedişində düşmənin birləşmələrinə məxsus minaatan mərmisi ilə dolu 6 ədəd Ural markalı hərbi avtomobil və 4 ədəd minaatan Silahlı Qüvvələrimizin bölmələri tərəfindən qənimət olaraq ələ keçirildi. Müdafiə Nazirliyinin təmsilçisi tərəfindən açıqlanan məlumatda bildirilirdi ki, Ermənistan SQ birləşmələri uzunmüddətli fortifikasiya qurğularını tərk edərək yaşayış məntəqələrində yenidən tərtiblənir və Qarabağ bölgəsindəki dinc əhalini məcburi qaydada silahlandıraraq döyüş mövqelərinə cəlb etməyə çalışırlar. Bununla əlaqədar bölgədəki bir daha düşmən qüvvələrinə silahı yerə qoymaq çağırışı edildi. Məlumatda o da qeyd olundu ki, döyüş bölgəsində hərbi şərait Azərbaycan Ordusunun nəzarəti altındadır [25].

Antiterror tədbirlərinin başladığı saatlardan etibarən əməliyyat bölgəsinin dağlıq, sıx meşəlik (təchizatla hərəkətə, demək olar ki, imkan verməməsi) olmasına baxmayaraq, bölmələrimizin şəxsi heyəti yüksək fiziki və döyüş hazırlığı nümayiş etdirərək təyin edilmiş həddə düşmənlə bilavasitə təmas şəraitində sürətlə çıxmış və tapşırıqlarını yerinə yetirmişdilər. Döyüşə qatılmış bölmələr düşmən mövqelərinə qruplar-yarımqruplar tərkibində cinah mühafizəsini və atəş dəstəyini saxlamaqla irəliləyərək verilən tapşırıqları uğurla yerinə yetirdilər. Əsas döyüşlər Papravənd – Sərsəng, Qalayçılar – Heyvalı, Canyataq – Sırxavənd, Gülyataq – Mehmana, Abdal – Harov, Abdal – Yemişcan, Yuxarı Veysəlli – Qarakənd, Qacar – SOS, Qarabulaq – Xaçmas, Sıqnax – Dağdağan, Əliağalı – Kolataq, Abdal – Xocalı istiqamətlərində getdi.

Bu döyüşlərin gedişində Ermənistan Silahlı Qüvvələrinin Qarabağın dağlıq hissəsində yerləşən hərbi qüvvələrinə ağır zərbə vuruldu, onların döyüş potensialı məhv edildi. Sentyabrın 20-də günorta saatlarına qədər Ermənistan silahlı qüvvələri birləşmələrinin tərtibləndiyi 90-dan artıq döyüş mövqeyi,

eləcə də bir neçə strateji əhəmiyyətli yüksəklik Silahlı Qüvvələrimizin nəzarətinə keçdi. Eyni zamanda qarşı tərəfə məxsus 7 ədəd hərbi nəqliyyat vasitəsi, 4 ədəd minaatan, 1 ədəd tank, 2 ədəd piyadanın döyüş maşını və xeyli sayda silah-sursat Azərbaycan bölmələri tərəfindən qənimət olaraq götürüldü [26].

Ermənistanın hərbi-siyasi rəhbərliyi də sentyabrın 20-də Qarabağın dağlıq ərazisində yerləşdirilmiş erməni hərbi qüvvələrinə ağır zərbə vurulmasını etiraf etmək məcburiyyətində qaldı. Bildirilirdi ki, bəzi istiqamətlərdə Azərbaycan hərbi qüvvələri "müdafiə ordusunun" döyüş mövqelərini ələ keçirərək bir sıra yüksəklikləri və strateji yol qovşaqlarını nəzarət altına ala bilmişdir. Həmin xəbərlərdə erməni hərbi qüvvələri tərəfindən xeyli sayda itki verilməsi də qeyd olunurdu [27].

Günorta təxminən saat 13:00 radələrində Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış olan xunta rejiminin rəhbərliyi Azərbaycanın şərtlərini qəbul etməyə və silahı yerə qoymağa hazır olduğunu bildirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu məsələyə münasibətini belə bildirirdi: *"Əməliyyatın uğurlu gedişatı təbii ki, Ermənistan dövlətini və onun himayəsi altında fəaliyyət göstərən qanunsuz xunta rejimini ciddi təşvişə salmışdır. Əməliyyatdan bir qədər sonra bizə vasitəçilər tərəfindən müxtəlif qeyri-müəyyən siqnallar gəlməyə başlamışdır və bizim Silahlı Qüvvələrimizin uğurlu irəliləyişi nəticəsində bu siqnallar daha intensiv xarakter almışdır. Bu gün səhər beynəlxalq tərəfdaşlardan bizə verilən məlumat ondan ibarət idi ki, qanunsuz silahlı birləşmələr, Ermənistan ordusunun bu birləşmələri artıq bizim şərtlərimizi qəbul etməyə hazırdırlar. Bizim şərtlərimizi isə mən dünən mənə zəng etmiş Amerika Birləşmiş Ştatlarının Dövlət katibinə çatdırmışdım. Məndən soruşuldu ki, antiterror tədbirlərini dayandırmaq üçün nə lazımdır? Mən dedim ki, Ermənistan ordusunun bizim ərazimizdə qanunsuz məskunlaşmış birləşmələri silahları yerə qoymalı, tərk-silah olunmalı, bizim ərazimizdən tamamilə çıxarılmalıdır və eyni zamanda bütün silahları və texnikaları təhvil verməlidirlər. Ancaq o təqdirdə Azərbaycan antiterror tədbirlərini dayandıra bilər. Əks-təqdirdə sona qədər gedəcəyik və düşmən bizim gücümüzü də, qətiyyətimizi də yaxşı bilir. Bu gün səhər saatlarında artıq bizə bildirildi ki, bizim şərtlərimiz qəbul edilib"* [19].

## 3. Lokal antiterror tədbirlərinin nəticələri

Lokal antiterror əməliyyatının dayandırılması ilə bağlı Müdafiə Nazirliyi tərəfindən ictimaiyyət üçün açıqlama verildi. Həmin açıqlamada deyilirdi: *"Azərbaycan Respublikası Müdafiə Nazirliyi bildirir ki, Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq 2023-cü il sentyabrın 20-də saat 13:00-da aşağıdakı şərtlər altında lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunmuşdur.*

1. Azərbaycan Respublikasının Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərk-silah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır.
2. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.
3. Yuxarıda qeyd olunan proseslərin Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi təmin edilir" [26].

Qondarma qurumun antiterror tədbirlərinin dayandırılması ilə bağlı yaydığı açıqlamada isə deyilirdi ki, Rusiya sülhyaratma kontingentinin rəhbərliyinin vasitəçiliyi ilə Ermənistan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları və bölmələrinin Rusiya sülhyaratma kontingentinin yerləşdirildiyi zonadan çıxarılması, Arsaxın müdafiə ordusunun (?) bütünlüklə tərk-silah edilməsi və ağır silahların və texnikanın Dağlıq Qarabağın (?) ərazisindən çıxarılması haqqında razılaşma əldə edilmişdir. Açıqlamadan sonra bildirilirdi ki, Azərbaycan Konstitusiyası əsasında Dağlıq Qarabağ (?) əhalisinin reinteqrasiyası və bu əhalinin həyat fəaliyyətinin təmin edilməsi sentyabr ayının 23-də Yevlaxda Azərbaycan Respublikasının mərkəzi hakimiyyət nümayəndələri və yerli erməni əhalisi nümayəndələri arasında keçiriləcək görüşdə müzakirə ediləcəkdir [28].

Erməni tərəfi əvvəlcə antiterror tədbirlərinin gedişində 100 nəfər, sonradan isə 200 nəfər canlı itkinin olduğunu bildirdi. Bu rəqəmlər ilkin rəqəmlər idi. Yaralıların sayı isə bu rəqəmlərdən yüksək idi [29].

Antiterror tədbirlərinin dayandırıldığı saatlardan erməni hərbi qüvvələrindən silahların təhvil alınmasına, erməni döyüş mövqelərinin ləğv edilməsinə, silah və sursat anbarlarının nəzarət altına götürülməsinə başlanıldı. Xeyli sayda silah və sursat müsadirə edildi ki, onların da bir qismi 2021-ci ildə istehsal olunmuşdu [30; 31]. Yəni 2020-ci il noyabr ayının 10-da razılaşdırılmış üçtərəfli Bəyanatın şərtlərinin ziddinə olaraq, Ermənistan rəhbərliyi Qarabağın dağlıq hissəsində olan erməni hərbi qüvvələrini silahlandırmaqda davam edirdi.

Oktyabr ayının 2-də saat 18:00-a olan məlumata görə, erməni hərbi qüvvələrindən aşağıdakı sayda silah, sursat və hərbi texnika müsadirə edilmişdi: atıcı silahlar – 2.608, qumbaraatanlar – 235, top və haubitsalar – 60, minaatanlar – 64, tank əleyhinə silahlar – 58, HHM silahları – 165, zirehli texnika – 31, avtomobil texnikası – 265, qoşqular – 23, yardımçı texnika – 9, raketlər – 1.700, top və haubitsa mərmiləri – 5.177, zenit top mərmiləri – 31.771, minaatan mərmiləri – 12.806, qumbaralar – 5.880, əl qumbaraları – 3.068, patronlar – 2.009.970, digər sursatlar – 5.778, optik cihazlar – 314, digər cihazlar – 38, fərdi təchizat vasitələri – 1.027, müxtəlif silahların qurğuları – 15, digər təchizat vasitələri – 3.323 [32].

Bu rəqəmlər ilkin rəqəmlər idi və sonrakı günlərdə də erməni hərbi qüvvələrinə məxsus olan silah və sursatın tapılaraq müsadirə olunması davam etdirildi.

Lokal xarakterli antiterror tədbirləri başa çatandan sonra aşağıdakı yaşayış məntəqələri də qondarma xunta rejiminin nəzarətindən azad edildi: Qırmızı Bazar qəsəbəsi (Xocavənd), Şuşakənd kəndi (Xocalı), Xəlfəli kəndi (Şuşa), Turşsu qəsəbəsi (Şuşa), Daşkənd kəndi (Xocalı), Heyvalı kəndi (Ağdərə/Kəlbəcər), Canyataq kəndi (Ağdərə/Tərtər), Təpəkənd kəndi (Ağdərə/Tərtər), Dağyurd kəndi (Xocalı), Qızıloba kəndi (Xocalı), Çərəkdar kəndi (Ağdərə/Kəlbəcər), Qozlukörpü kəndi (Ağdərə/Kəlbəcər), Qozlu kəndi (Ağdərə/Kəlbəcər), Yuxarı Quşçular kəndi (Şuşa), Zərdəxaç kəndi (Ağdərə/Kəlbəcər), Həsənriz kəndi (Ağdərə/Kəlbəcər), Qızılqaya kəndi (Ağdərə/Kəlbəcər), Yuxarı Oratağ kəndi (Ağdərə/Kəlbəcər), Xanqutala kəndi (Ağdərə/Kəlbəcər), Xaçmaç kəndi (Xocalı), Kərkicahan qəsəbəsi (Xankəndi) [33].

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun yeni bir tarixi uğuru ilə sona çatan lokal xarakterli antiterror tədbirlərinin nəticələrini belə dəyərləndirirdi: *"Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı cəmi bir gün, ondan da az çəkdi. Azərbaycan Ordusu peşəkarlıq və qəhrəmanlıq göstərərək, bütün strateji yerlərə çıxaraq, qısa müddət ərzində o əməliyyatın taleyini həll etdi və düşmən ordusu təslim olmağa məcbur oldu. Nəinki təslim oldu, hətta 30 il bundan əvvəl bizim torpağımızda yaratdıqları qondarma rejimə də xitam verildi, o rejim də süqut etdi, halbuki bu, qanunsuz rejim idi. Beləliklə, biz tarixi ədaləti bərpa etdik. 20 sentyabr 2023-cü il bizim tariximizdə qalacaq, necə ki, 8 Noyabr. Noyabrın 8-də Şuşa əməliyyatından sonra düşmən ordusunun beli qırıldı və bir gün sonra kapitulyasiya aktına imza atdı. Bu il aprelin 23-də biz Laçın istiqamətində Azərbaycan – Ermənistan sərhədini nəzarətə alaraq ərazi bütövlüyümüzü tam bərpa etdik və sentyabrın 20-də dövlət suverenliyini tam bərpa etdik. Bununla separatçıların kitabı bağlandı. Artıq Azərbaycanda separatçılığa yer olmayacaq. Azərbaycan dövləti bu gün bütün əraziyə nəzarət edir"* [5].

## Nəticə

Rusiyanın sülhyaratma kontingentinin yerləşdiyi ərazidə lokal xarakterli antiterror tədbirlərinin keçirilməsi tarixi bir zərurət idi. Çünki 2020-ci il noyabr ayının 10-da Rusiya, Azərbaycan və Ermənistan rəhbərlərinin imzaladığı üçtərəfli Bəyanatın Ermənistan tərəfindən yerinə yetirilməməsi nəticəsində Rusiya sülhyaratma kontingentinin yerləşdiyi ərazidə çox böyük sayda erməni hərbi qüvvələri qalmaqda idi. Bu qüvvələr Azərbaycanın suverenliyini pozur və Azərbaycan hakimiyyətinin bu ərazilərdə bərqərar edilməsinə imkan vermirdilər. Azərbaycan rəhbərliyinin inteqrasiya ilə bağlı çağırışlarına məhəl qoymayan erməni hərbi-siyasi rəhbərliyinin həyata keçirdiyi təxribatlar nəticəsində Azərbaycan vətəndaşları ciddi təhlükə ilə qarşılaşmalı olurdular. Bu təhlükənin qarşısının alınması və üçtərəfli Bəyanatın şərtlərinə uyğun olaraq Qarabağın dağlıq hissəsində mövcud olan Ermənistan hərbi qüvvələrinin zərərsizləşdirilməsi üçün lokal xarakterli antiterror tədbirlərinin keçirilməsi qərara alındı.

Düzgün planlaşdırılmanın aparılması, ordu qüvvələri qarşısında dayanan vəzifələrin dəqiqliklə aydınlaşdırılması, yetərli sayda qüvvə və vəsaitin ayrılması və qətiyyət nümayiş etdirilməsi nəticəsində yalnız legitim hərbi obyektlərin və hədəflərin nişan alınması ilə unikal sayıla biləcək bir tədbir həyata keçirildi. Heç 24 saat da davam etməyən bu tədbirlər nəticəsində bölgədəki mülki əhaliyə və obyektlərə ziyan vurulmadan erməni hərbi qüvvələri məhv edildi və Azərbaycanın bütün ərazilərində respublikanın suverenliyi təmin edildi.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Zəfər yolu: Qarabağ savaşından Şuşa Bəyannaməsinədək / tərt. ed. İ.Həbibbəyli, K.Şükürov – Bakı: Elm nəşriyyatı, – 2021. – 904 s.
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib: [Elektron resurs] / – 27 sentyabr, 2020. URL: https://president.az/articles/48205
3. İlham Əliyev Şuşa və Xankəndi arasındakı kəndlərin də azad olunduğunu elan etdi: [Elektron resurs] / – 9 noyabr, 2020. URL: https://virtualaz.org/aktual/172428
4. Prezident İlham Əliyev Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb və çıxış edib: [Elektron resurs] / – 15 oktyabr, 2023. URL:https://azertag.az/xeber/prezident_ilham_eliyev_xankendi_seherinde_azerbaycan_respublikasinin_dovlet_bayragini_ucaldib_ve_chixis_edib_yenilenib__2_video-2788162
5. Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirilib: [Elektron resurs] / – 8 noyabr, 2023. URL:https://mod.gov.az/az/news/xankendi-seherinde-veten-muharibesinde-elde-edilen-zeferin-ucuncu-ildonumune-hesr-olunan-herbi-parad-kecirilib-yenilenib-50052.html
6. Nağıyev, A. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq Ermənistan üç il ərzində öz silahlı qüvvələrini, canlı qüvvəsini və texnikasını bizim ərazimizdən çıxarmamışdır: [Elektron resurs] / – 23 sentyabr, 2023. URL: https://www.qanunla.az/2020-ci-il-10-noyabr-tarixli-ucterefli-beyanata-zidd-olaraq-ermenistan-uc-il-erzinde-oz-silahli-quvvelerini-canli-quvvesini-ve-texnikasini-bizim-erazimizden-cixarmamisdir/
7. İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşüb, evlərin açarlarını onlara təqdim edib: [Elektron resurs] / – 28 may, 2023. URL: https://president.az/az/articles/view/60027
8. Fərrux əməliyyatı: səbəblər və nəticələr: [Elektron resurs] / – 10 aprel, 2022. URL: https://azvision.az/news/290656/news.html
9. Azərbaycan Ordusu "Qisas" əməliyyatı keçirib: [Elektron resurs] / – 3 avqust, 2022. URL: https://mod.gov.az/az/news/azerbaycan-ordusu-qisas-emeliyyati-kecirib-video-41224.html
10. Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub: [Elektron resurs] / – 3 avqust, 2022. URL: https://mod.gov.az/az/news/azerbaycan-ordusunun-movqeleri-atese-tutulub-42256.html
11. Ermənistan silahlı qüvvələri Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törədib: [Elektron resurs] / – 13 sentyabr, 2022. URL: https://mod.gov.az/az/news/ermenistan-silahli-quvveleri-daskesen-kelbecer-ve-lacin-istiqametlerinde-genismiqyasli-texribat-toredib-42328.html
12. Prezident İlham Əliyev Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə iştirak edib: [Elektron resurs] / – 8 noyabr, 2022. URL: https://mod.gov.az/az/news/prezident-ilham-eliyev-zefer-gunu-munasibetile-susada-teskil-olunan-tedbirde-istirak-edib-yenilenib-44539.html
13. Şuşa-Laçın yolunda keçirilən etiraz aksiyasının məqsədi ekoloji terrora, təbiətin təcavüzünə son qoyulmasıdır: [Elektron resurs] / – 21 dekabr, 2022. URL: https://www.yeniazerbaycan.com/YAPxeber_e78546_az.html
14. Prezident İlham Əliyev MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının 53-cü iclasının iştirakçılarını qəbul edib // "Azərbaycan Ordusu" qəzeti. – 2023, 14 oktyabr. – N-78.
15. Четверо силовиков подорвались на мине в Ходжавендском районе: [Электронный ресурс] / – 19 sentyabr, 2023. URL: https://www.kavkaz-uzel.eu/articles/392611

16. Ermənistan silahlı qüvvələrinin birləşmələrinin təxribatı nəticəsində iki hərbi qulluqçumuz yaralanıb: [Elektron resurs] / – 19 sentyabr, 2023. URL: https://mod.gov.az/az/news/ermenistan-silahli-quvvelerinin-birlesmelerinin-texribati-neticesinde-iki-herbi-qulluqcumuz-yaralanib-49345.html
17. Müdafiə Nazirliyinin məlumatı: [Elektron resurs] / – 19 sentyabr, 2023. URL: https://mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-49348.html
18. Xudiyeva, H. Azərbaycan hər zaman istədiyinə nail olur, hədəfləri reallığa çevirir: [Elektron resurs] / – 22 sentyabr, 2023. URL: https://fotofakt.az/gundem/2818-azrbaycan-hr-zaman-istdiyin-nail-olur-hdflri-realliga-cevirir.html
19. İlham Əliyev xalqa müraciət edib: [Elektron resurs] / – 20 sentyabr, 2023. URL: https://president.az/az/articles/view/61113
20. Müdafiə Nazirliyinin məlumatı: [Elektron resurs] / – 19 sentyabr, 2023. URL: https://mod.gov.az/az/news/mudafie-nazirliyinin-melumati-49361.html
21. Serbiya Baş nazirinin I müavini Ermənistanın təxribatları barədə məlumatlandırılıb: [Elektron resurs] / – 21 sentyabr, 2023. URL: https://report.az/xarici-siyaset/serbiya-bas-nazirinin-i-muavini-ermenistanin-texribatlari-barede-melumatlandirilib/
22. Eyvazov, A. Bölmələrimiz tərəfindən yalnız legitim hərbi hədəflər zərərsizləşdirilir: [Elektron resurs] / – 19 sentyabr, 2023. URL: https://mod.gov.az/az/news/polkovnik-anar-eyvazov-bolmelerimiz-terefinden-yalniz-legitim-herbi-hedefler-zerersizlesdirilir-video-49396.html
23. Müdafiə Nazirliyi yeni video yaydı: [Elektron resurs] / – 19 sentyabr, 2023https://modern.az/olke/431547/mudafie-nazirliyi-daha-bir-video-yaydi/. URL: https://modern.az/olke/431547/müdafie-nazirliyi-daha-bir-video-yaydı/
24. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin açıqlaması: [Elektron resurs] / – 26 mart, 2022. URL: https://mod.gov.az/az/news/azerbaycan-respublikasi-mudafie-nazirliyinin-aciqlamasi-49402.html
25. Eyvazov, A. Ermənistan silahlı qüvvələrinin birləşmələrini silahı yerə qoymağa və təslim olmağa çağırırıq: [Elektron resurs] / – 20 sentyabr, 2023. URL: https://mod.gov.az/az/news/polkovnik-anar-eyvazov-ermenistan-silahli-quvvelerinin-birlesmelerini-silahi-yere-qoymaga-ve-teslim-olmaga-cagiriri-49427.html
26. Eyvazov, A. Lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunmuşdur: [Elektron resurs] / – 20 sentyabr, 2023. URL: https://mod.gov.az/az/news/polkovnik-anar-eyvazov-lokal-xarakterli-antiterror-tedbirlerinin-dayandirilmasi-barede-raziliq-elde-olunmusdur-49444.html
27. Достигнута договоренность о полном прекращении боевых действий в Нагорном Карабахе: [Электронный ресурс] / – 20 сентября, 2023. URL: https://news/am/news/782030.html
28. Степанакерт и Баку договорились о полном прекращении боевых действий с 13:00: [Электронный ресурс] / – 20 сентября, 2023. URL: https://news/am/news/782038.html
29. Варданян, Р. В результате агрессии Азербайджана против Арцаха уже погибли около 100 человек: [Электронный ресурс] / – 20 сентября, 2023. URL: https://news.am/rus/news/782016.html
30. Qarabağ bölgəsindəki mülki obyektlərdə aşkarlanan külli miqdarda silah-sursat müsadirə edilib: [Elektron resurs] / – 29 sentyabr, 2023. URL: https://mod.gov.az/az/news/qarabag-bolgesindeki-mulki-obyektlerde-askarlanan-kulli-miqdarda-silah-sursat-musadire-edilib-video-49599.html
31. Qarabağ bölgəsində aşkar olunan sursatların bir qismi 2021-ci ildə istehsal edilib: [Elektron resurs] / – 29 sentyabr, 2023. URL: https://mod.gov.az/az/news/qarabag-bolgesinde-askar-olunan-sursatlarin-bir-qismi-2021-ci-ilde-istehsal-edilib-49916.html
32. Qarabağ bölgəsində müsadirə edilmiş döyüş texnikası, silah və sursat – SİYAHI: [Elektron resurs] / – 2 oktyabr, 2023. URL: https://mod.gov.az/az/news/qarabag-bolgesinde-musadire-edilmis-doyus-texnikasi-silah-ve-sursat-siyahi-49650.html
33. Azad olunmuş yeni ərazilər - Adlar və xəritə: [Elektron resurs] / – 23 sentyabr, 2023. URL: https://teleqraf.com/news/qarabagh/391658.html

**Аннотация**
**Локальная антитеррористическая меры по обеспечению суверенитета Азербайджана**
**Мехман Сулейманов, Севиндж Алекперова**

19-20 сентября 2023 года в районах временного размещения российских миротворческих сил Азербайджана была проведена локальной антитеррористической меры против незаконных армянских вооруженных формирований. В ходе этой антитеррористической меры, проведенной силами Азербайджанской Армии, был нанесен сильный удар по армянским вооруженным силам, которые не пожелали подчиняться властям Азербайджана, не причинив при этом никакого ущерба гражданскому населению и объектам. После этой операции, продолжавшейся всего 23 часа, незаконные армянские вооруженные формирования были разгромлены и заявили о своей готовности сдаться и сдать все свое оружие. В представленной статье проведен предварительный анализ местной антитеррористической меры. Существует научно-историческая необходимость изучения данного предмета с точки зрения изучения территориальной целостности республики и истории ее обеспечения. Целью исследование является изучение роли азербайджанской армии в успешном завершении однодневной антитеррористической меры в сфере обеспечения суверенитета Азербайджана. Исследование показало, что в результате правильного планирования, грамотных действий и применения специальной тактики задача, поставленная перед Азербайджанской Армией была выполнена полностью и без вреда для мирного населения.

**Ключевые слова:** Отечественная война, трехсторонняя декларация, капитуляция, антитеррористическая операция, суверенитет

**Abstract**
**Anti-terrorist event of a local nature, carried out to ensure the sovereignty of Azerbaijan**
**Mehman Suleymanov, Sevinj Alekperova**

On September 19-20, 2023, a local anti-terrorism event was held against illegal Armenian armed formations in the areas of temporary deployment of Russian peacekeeping forces in Azerbaijan. During this anti-terrorist operation, carried out by the forces of the Azerbaijan Army, a strong blow was dealt to the Armenian armed forces, who did not want to obey the Azerbaijani authorities, without causing any damage to the civilian population and objects. After this operation, which lasted only 23 hours, the illegal Armenian armed groups were defeated and declared their readiness to surrender and hand over all their weapons. This article provides a preliminary analysis of local anti-terrorism measures. There is a scientific and historical need to study this subject from the point of view of studying the territorial integrity of the republic and the history of its provision. The goal is to study the role of the Azerbaijani army in the successful completion of a one-day anti-terrorism measure in the field of ensuring the sovereignty of Azerbaijan. The research showed that as a result of correct planning, competent actions and the use of special tactics, the task assigned to the Azerbaijan Army was completed and without harm to the civilian population.

**Keywords:** Patriotic War, tripartite declaration, surrender, anti-terrorist operation, sovereignty

*Məqalə redaksiyaya daxil olmuşdur: 05.12.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 11.12.2023*
*Çapa qəbul edilmişdir: 10.01.2024*

**HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE**
**№1/2024, səh. 65-72**
***HƏRBİ XÜSUSİ ELMLƏR*** ***MILITARY SPECIAL SCIENCES***

UOT 378

# XÜSUSİ TƏYİNATLI TƏHSİL MÜƏSSİSƏSİNDƏ MÜƏLLİMİN PEDAQOJİ FƏALİYYƏTİNİN VƏ PEDAQOJİ USTALIĞININ XÜSUSİYYƏTLƏRİ

**Təkminə Cabbarova**
tcabbarova@bk.ru
**Ramil İbrahimov**
ramilagen@gmail.com
*Hərbi Elmi Tədqiqat İnstitutu*
DOI: 10.30546/mk.2024.1.0065.

***Xülasə.*** Hərbi təhsil müəssisələri özünün spesifik xüsusiyyətləri və təyinatı ilə fərqləndiyi kimi, burada təhsil fəaliyyətinin özünün də bir sıra spesifik və fərqli xüsusiyyətləri mövcuddur. Bunlar da müəllimin pedaqoji fəaliyyətinə və peşəkarlığına bir sıra xüsusi tələblər qoyur. Məqalədə hərbi təhsil müəssisəsi müəlliminin pedaqoji fəaliyyətinin xarakterik xüsusiyyətləri, müəllimin pedaqoji ustalığının mahiyyəti, müəllimin pedaqoji fəaliyyətinin tərkib komponentləri (konstruktiv, təşkilati, kommunikativ) ətraflı araşdırılmışdır. Eyni zamanda müəllimin professional fəaliyyətinin əsas tərkib hissələri, elmi-tədqiqat fəaliyyətinin xüsusiyyətləri məqalədə geniş şərh edilmişdir.

Hərbi ali məktəb şəraitində onların hər birinin strukturunu, spesifikasını və məzmununu başa düşmək müəllimin pedaqoji ustalıq səviyyəsini düzgün müəyyən etməyə və qiymətləndirmə kriteriyalarını müəyyənləşdirməyə imkan verdiyindən bunlara məqalədə geniş yer verilmiş, mürəkkəb, çoxcəhətli anlayış kimi pedaqoji ustalıq anlayışının mahiyyəti araşdırılmışdır. Pedaqoji ustalığın elementləri olan psixoloji-pedaqoji erudisiya, pedaqoji qabiliyyətlər və pedaqoji texnika kimi tərkib hissələrinə toxunulmuşdur.

Bu məqalədə hərbi təhsil müəssisələri müəllimlərinin pedaqoji fəaliyyətinin xarakterik xüsusiyyətləri və bu fəaliyyətin tərkib hissələri geniş şərh olunub, hərbi təhsil müəssisələrinin müəllimləri üçün peşəkarlıqda uğur qazanmaq və effektiv olmaq üçün bəzi xüsusi tələblər qeyd edilib.

**Açar sözlər:** xüsusi təyinatlı təhsil müəssisələri, konstruktiv komponent, kommunikativ komponent, təşkilati komponent, pedaqoji fəaliyyət, elmi-tədqiqat fəaliyyəti, pedaqoji ustalıq

## Giriş

Xüsusi təyinatlı təhsil müəssisələrində təlim-tərbiyə prosesini təşkil edənlərdən və həyata keçirənlərdən biri də müəllimdir. Müəllim pedaqoqdur, tədris edəndir, təhrik edəndir və ustadır. Pedaqoji fəaliyyətin əsas simalarından biri olan müəllimlər kursantların tərbiyə olunması kimi məsul işi yerinə yetirirlər. Pedaqoji fəaliyyət tələbatdan yaranır və onların ödənilməsi ilə təşəkkül tapır. Pedaqoji fəaliyyət prosesində müəllim şəxsiyyəti formalaşır, zənginləşir və inkişaf edir. Pedaqoji fəaliyyət dedikdə, kursantların tərbiyə olunmasına yönələn fəaliyyət, başqa sözlə desək, təlim, tərbiyə, inkişaf prosesinin həyata keçirilməsinə, o cümlədən kursant şəxsiyyətinin formalaşmasına yönəldilən peşə fəallığı başa düşülür.

Pedaqoji fəaliyyətin məqsədi tarixin dərinliklərindən gələn və inkişaf etmiş ümumbəşəri dəyərlərlə şəxsiyyətin ahəngdar tərbiyə olunmasını həyata keçirməkdir. Bu ümumi strateji məqsədə təlimin müxtəlif formalarından istifadə etməklə nail olunur.

İstənilən fəaliyyət müəyyən bilik, bacarıq və vərdişlər sistemi əsasında həyata keçirilir. Onun tam formalaşmış strukturu bir sıra qarşılıqlı əlaqəli elementlərdən ibarətdir. Onlardan biri birinci dərəcəli, digərləri ikinci dərəcəli hesab olunur. Bütün bunlar həm də hərbi pedaqoqun pedaqoji fəaliyyətinə aiddir.

## Müəllimin pedaqoji fəaliyyəti və pedaqoji ustalığı

Müəllimlik sənətində peşəkarlıq çox mühüm şərtdir. Peşəkarlıq dedikdə, ixtisasa yiyələnmək prosesində qazanılan bilik və bacarıqlar, düşünmə qabiliyyətləri nəzərdə tutulur. Onlardan: müəllimin öz fənninə və fənnin tədrisi metodikasına yiyələnməsini, psixoloji hazırlığı, dərin biliyin, geniş mədəni səviyyənin, pedaqoji ustalığın olmasını, pedaqoji işin sirlərini bilməyi, təşkilatçılıq bacarıq və vərdişlərinin olmasını, pedaqoji nəzarəti, ünsiyyət qabiliyyətini, natiqlik məharətini göstərmək olar.

Təlim-tərbiyə işinin səmərəli təşkili müəllimin pedaqoji ustalığından çox asılıdır. O, müəllimi sevdirən, ideallaşdıran, qiymətləndirən amillərdən biridir. Pedaqoji ustalıq öz həvəsi, istəyi və uşaqları sevməsi ilə fəaliyyət göstərən hər bir müəllimin təlim-tərbiyə sahəsində daim təkmilləşmə məharətidir. Pedaqoji nəzəriyyədə müəllim ustalığına iki formada yanaşılır: birinci, pedaqoji işin metodlarının dərk olunması, ikinci, tərbiyədə başlıca rolun metod deyil, müəllim şəxsiyyəti olduğunun əsaslandırılması. Pedaqoji ustalığa yiyələnmək üçün tərbiyənin prinsiplərini, metodlarını, qanunlarını bilmək, təlim-tərbiyə prosesinin texnologiyasından səmərəli istifadə etməyi bacarmaq lazımdır. Professor Y.P.Azarovun yazdığı kimi, “*pedaqoji işdə hər şeyi pedaqoji ustalıq həll edir*”.

Müəllimin ustalığı birinci növbədə tədris prosesini ən əlverişsiz şəraitdə belə, kursantların tərbiyəsinin, inkişaf və biliklərinin lazımi səviyyədə həyata keçirilməsinə imkan verən şəkildə qurmaq bacarığıdır. Əsl müəllim həmişə istənilən suala qeyri-standart cavab tapır, kursanta xüsusi yanaşmağı, onun ürəyini alovlandırmağı və həyəcanlandırmağı bacarır. Belə müəllim öz fənnini, dərs dediyi fənnin əsaslarını, onun inkişaf perspektivini, müasir ədəbiyyatı, mədəniyyət və idman yeniliklərini bilir, beynəlxalq hadisələri təhlil etməyi bacarır, o, tərbiyə etdiklərinin sevdikləri jurnalların daimi oxucusu olur. Lakin çox bilikli olmaq hələ kifayət deyildir. Əsas məsələ müəllimin öz biliklərini kursantlara çatdırmaq bacarığından asılıdır. Deməli, usta o müəllimdir ki, o, müasir təhsilvermə metodlarını mükəmməl bilir. Öz üzərində inadla çalışan hər bir yaradıcı müəllim, istəyi varsa, belə səviyyəyə qalxa bilər.

Müəllimin ustalığı, xüsusən, dərsdə kursantları öyrətmək bacarığında özünü göstərir. Belə müəllimlər proqram materialını dərsdəcə kursanta mənimsədirlər. Onun üçün ev tapşırığı bilikləri dərinləşdirmək, möhkəmləndirmək və genişləndirmək məqsədi daşıyır. Təcrübəli müəllimin uğurlarının sirrini uşaqların fəaliyyətini idarə etmək bacarığı təşkil edir.

Müəllim ustalığının bir mühüm göstəricisi də kursantları, öyrənənləri fəallaşdırmaq bacarığının olmasıdır. Müəllimin ustalığı təlim prosesini fəallaşdırmaq üçün rəngarəng metodlardan istifadə etmək yolu ilə dərsdə kursantları düşünməyə vadar etmək istedadına malik olmasıdır.

Müəllim ustalığının tərkib hissələrindən biri də təlim prosesində tərbiyə işini səmərəli aparmaq, kursantlara yüksək əxlaqi, vətənpərvərlik, əməksevərlik, müstəqillik hisslərini formalaşdırmaq bacarığıdır.

Peşə potensialı (*“potensia”* latın sözüdür, *ümumiləşmiş qabiliyyət, imkan, qüvvə* deməkdir) pedaqoqun başlıca xarakteristikasıdır. Professional potensial bir sistem halında birləşdirilmiş təbii və qazanılan keyfiyyətlərin məcmusudur. Bu keyfiyyətlər pedaqoqun lazımi səviyyədə öz vəzifələrini yerinə yetirmək qabiliyyətini müəyyən edir. Professional potensial professional biliklərin, bacarıqların vəhdət halında götürülmüş bazası, təbii və professional hazırlıq prosesində qazanılmış keyfiyyətlərin sistemi kimi də müəyyənləşdirilir.

Pedaqoji potensialın strukturu “ideal pedaqoq” anlayışı ilə ifadə olunur. İdeal pedaqoqun keyfiyyətləri üç qrupa ayrılır: ideal pedaqoq bir mütəxəssis kimi; ideal pedaqoq bir işçi kimi; ideal pedaqoq bir insan kimi.

Pedaqoji ustalığın vacib əlamətlərindən biri müəllimin pedaqoji iş üslubunun (texnikasının) yüksək səviyyədə olmasıdır.

Müəllimin pedaqoji ustalığının komponentlərinə bir sıra ümumi bacarıqlar daxildir. Nitqin mənalılığı, ifadəliliyi, anlaşıqlılığı, təsirliliyi, səlisliyi bacarıqları, mimik və pantomimik ifadəliliyi, pozitiv və neqativ tələbləri ifadə etmək, özünün psixi vəziyyətini idarəetmə və emosional yanaşma, yaranmış gərginliyi aradan qaldırmaq, qarşıdakı ünsiyyətdən əvvəl yaradıcı əhval ruhiyyənin səfərbərliyi, kursantların yalnız ağlına deyil, həm də hisslərinə təsir etməyə imkan verən münasibət, ətraf

aləmə emosional-dəyər münasibəti təcrübəsini kursantlara vermək və informasiyanın obrazlı ötürülməsi bacarıqlarından asılıdır.

Pedaqoji fəaliyyətin özünəməxsus növləri vardır. Buraya müəllim əməyinin, cəmiyyət tərəfindən irəli sürülən məqsədləri və pedaqoji fəaliyyət sistemini müəllimin necə qavraması və həyata keçirməsinin, konkret şəraitdən asılı olaraq öz fəaliyyətinin vəzifə, forma və metodlarının aktuallığını necə dərk etməsinin pedaqoji-psixoloji qanunauyğunluqları daxildir. Pedaqoji fəaliyyətin strukturuna aşağıdakı cəhətləri aid etmək olar:

– pedaqoji fəaliyyətin motivləri (insanları tərbiyə edərkən sosial tələbatı nəzərə almaq vacibdir);
– pedaqoji fəaliyyətin məqsədi (gələcək hərbçilərin tərbiyəsidir);
– pedaqoji fəaliyyətin predmeti (özünəməxsus xüsusiyyətə malikdir. Burada əsas məqam ondan ibarətdir ki, kursant öz fəaliyyətinin həm obyekti, həm də subyektidir);
– pedaqoji fəaliyyətin vasitələri - hərbi təhsil müəssisəsində təlimin məzmunu, forması və metodlarıdır;
– pedaqoji fəaliyyətin şəraiti - hərbi təhsil müəssisəsinin maddi cəhətdən təchiz olunması, pedaqoji kollektivdəki birlik, hərbi təhsil müəssisəsinə lazımi səviyyədə rəhbərlik etməkdir;
– pedaqoji fəaliyyətin nəticəsi - kursant şəxsiyyətinin keyfiyyətlərinin formalaşmasıdır.

Bunlar pedaqoji fəaliyyətin səmərəliyinin artırılması üçün əsas amillərdir. Bu səbəbdən onların hər biri pedaqoji fəaliyyətin tələblərinə uyğun səviyyədə olmalıdır.

Xüsusi təyinatlı təhsil müəssisələrində pedaqoqun fəaliyyət strukturunun çoxsaylı elementləri arasında beş əsas komponenti ayırd etmək olar: konstruktiv, təşkilati, kommunikativ, elmi-tədqiqat, qnostik. Onların hər birinin strukturunu, spesifikasını və məzmununu başa düşmək müəllimin pedaqoji ustalığının səviyyəsini düzgün qiymətləndirməyə, kriteriyalarını müəyyən etməyə imkan verir. Hər bir müəllimin pedaqoji ustalığının dərəcəsi məhz elə pedaqoji əməyin əsas sahələrində ustalığın müxtəlif səviyyələrinin uzlaşması ilə izah olunur. Bəs bu sahələrin hər birində hərbi pedaqoqun fəaliyyətinin mahiyyəti və xarakterik xüsusiyyətləri nədən ibarətdir? [1].

*Konstruktiv komponent* kursantların fərdi psixoloji xüsusiyyətlərini, onların inkişaf səviyyələrini, təlimin məqsəd və tapşırıqlarını nəzərə almaqla auditoriyanın heyətinə nisbətdə tədris materiallarının yaradıcı emalına istiqamətlənir. Bu iş mühümdür, çünki müəllimin bütün təşkilati və kommunikativ komponentləri onun əsasında qurulur [2]. Müəllim öz işində dövlət qanunlarının və digər rəhbər instansiyaların əmrlərinin tələblərini rəhbər tutur. Bundan başqa, pedaqoq öyrədərkən fənnin tədris planına və proqramına, tədris müəssisəsinin və kafedranın rəhbər şəxslərinin göstərişlərinə uyğun öz fəaliyyətini layihələndirir, elmi ədəbiyyatdan, dərsliklərdən, metodiki vəsaitlərdən və nəhayət, kafedranın pedaqoji kollektivinin təcrübəsindən istifadə edir.

Müəllimin konstruktiv komponentinin xarakteri onun pedaqoji ustalığının artım dərəcəsinə görə dəyişir. Tədris prosesinin müxtəlif dövrlərində bu komponentin aktivliyi də eyni deyil. Perspektiv və xüsusi tapşırıqların rasional nisbətini hazırlamaq, onların həllinə məqsədəmüvafiq yanaşma tapmaq, son nəticəni proqnozlaşdırmaq bacarığı müəllimin pedaqoji ustalığının qiymətləndirilməsinin mühüm kriteriyasıdır. Təcrübəli pedaqoqlar perspektivi nəzərə almaqla tədris materiallarının seçilməsini, ona yanaşma prinsiplərini hazırlamış olurlar ki, bunlar da həm kursantların bilik keyfiyyətinin yüksəlməsinə, həm də müəllimin özünün pedaqoji səriştəsinin təkmilləşməsinə əsaslı təsir göstərir. Müəllimin fəaliyyətinin bu sahəsi pedaqoji əməyin ən mürəkkəb növüdür. Konstruktiv komponent daha çox pedaqoqun işindəki uğurlara, onun ustalığının formalaşmasına və təkmilləşməsinə, xüsusən də təşkilatçılıq komponenti ilə ahəngdar əlaqələndiyi zaman təsir edir. Yaxşı seçilmiş və layihələndirilmiş tədris materiallarına baxmayaraq, əgər müəllim kursantların diqqətini məşğələlərə cəlb edə bilməsə, tədris prosesinin gedişində öz işini effektiv təşkil edə bilməsə müvafiq uğur qazana bilməz.

Konstruktiv komponent zamanı müəllim kursant şəxsiyyətinin inkişaf layihəsini hazırlayır, onun şəxsiyyətinə hörmət edir və təlim materiallarını kursantın bilik və yaş xüsusiyyətlərinə uyğun şəkildə qura bilir. Bununla da hər bir müəllim kursantın fərdi keyfiyyətlərini öyrənməyə nail olur.

*Təşkilati komponent* müəllimin layihələrinin, metodiki planlarının praktik realizasiyası və daha effektiv layihələndirməsinin şərtidir.

Konstruktiv və təşkilati komponentlərdə müəllimin ustalıq səviyyəsi tamamilə müxtəlif olur. Təşkilati sahədə pedaqoqun cəhdləri əsasən aşağıdakı istiqamətləri əhatə edir:

– tədris materiallarının dəqiq və hərtərəfli izahı;
– hər bir konkret tədris situasiyasında öz davranışını nizamlaması;
– dərs və dərsdənkənar vaxtlarda kursantın fəaliyyətinin təşkili.

Burada uğur müəllimin bu aspektləri uzlaşdırma bacarığından asılıdır.

Təşkilati komponent kursantları müxtəlif fəaliyyət növlərinə cəlb etmək, kollektivi, hər bir fərdi tərbiyəvi təsir alətinə çevirməyi bacarmaq, şəxsiyyətin fəallığını təmin etmək deməkdir. Təşkilatçılıq komponenti hər bir müəllimə kursantları mütəşəkkil surətdə tərbiyə işlərinə, ictimai-faydalı tədbirlərə cəlb etməyə imkan verir.

Hərbi pedaqoqun əməyinin psixoloji strukturunda *kommunikativ komponentin* xüsusi yeri vardır. Kursantlarla pedaqoji tapşırıqların daha effektiv həllinə kömək edə biləcək təlim və tərbiyədə qarşıya qoyulmuş məqsədlərə nail ola bilmək üçün əlverişli şərait yarada biləcək qarşılıqlı münasibətlərin yaradılması olduqca vacibdir. Bu, müəllim-kursant münasibətlərinin pedaqoji yönümlülüyünün təmin olunmasında əlverişli əhəmiyyətə malikdir.

*Kommunikativ komponent* kursantlar arasında, həmçinin kursantlarla müəllimlər arasında qarşılıqlı əlaqələri və münasibətləri düzgün inkişaf etdirmək, qiymətləndirmək deməkdir. Kommunikativ fəaliyyət hər bir kursantın müəllimə, öz kursant yoldaşlarına necə münasibət bəslədiyini, kursantlar arasında yoldaşlıq və dostluq, qarşılıqlı yardım münasibətlərinin necə inkişaf etdiyini, necə formalaşdığını aşkar etməyə şərait yaradır.

Bu cür qarşılıqlı münasibətlər kursantların psixoloji xüsusiyyətləri, onlara edilən pedaqoji təsirin effektivliyi haqqında məlumatlar nəzərə alınmaqla qurulur. Belə münasibətlər müəllimin hazırlığından, hisslərindən, iradəsindən, taktikasından, özünü yaxşı insan kimi göstərmək bacarığı və s. şəxsi keyfiyyətlərindən də çox asılıdır. Pedaqoq və kursantlar arasındakı düzgün qarşılıqlı münasibətlər zamanı qarşılıqlı anlaşmaya, təlim-tərbiyə işində mütəşəkkilliyə nail olunduğundan bunların nəzərə alınması olduqca faydalıdır.

Bəzən yetərincə pedaqoji təcrübəyə malik olan, tədris etdiyi fənni yaxşı bilən, erudisiyaya malik olan müəllim kursantlar arasında yetərincə nüfuz qazana bilmir. Bir qayda olaraq, belə münasibətin səbəbləri aşağıdakılardır:

– ünsiyyətdə səbirsizlik və ya kursantların tələblərinə təkəbbürlü münasibət;
– məşğələlərin keçirilmə metodikasında intizamsızlıq və tələskənlik;
– məşğələlərdə və dərsdənkənar vaxtlarda həddindən artıq qapalılıq;
– pedaqoqun kursantlarla qarşılıqlı münasibətlərində nizamnamənin tələblərinə sərt şəkildə riayət olunması və s.

Əlbəttə ki, belə səbəblər kursantlarda qavrama aktivliyini azaldır ki, bu da təlimin effektivliyinə mənfi təsir göstərir.

*Elmi-tədqiqat komponenti* hər bir müəllimin yaradıcılıq işinə cəlb olunmasını, qabaqcıl təcrübəni öyrənib öz təcrübəsini zənginləşdirməsini nəzərdə tutur. Elmi-tədqiqat komponenti kursantların şəxsiyyətinin əqli, sensor və emosional sahəsinin, idrak imkanlarının formalaşması və inkişafı yollarını müəyyənləşdirə bilir, onlara müstəqil işləmək bacarığı aşılayır.

Müəllimin pedaqoji fəaliyyətindəki qnostik komponentin məqsədi hərbi məktəbdə fənlərin dərindən dərk edilməsidir. Qnostik komponent müəllimdən tədris fənninin spesifik cəhətlərini, məzmununu, tədris metodlarını bilməyi, öyrənilən materialın mühüm əlamət və keyfiyyətlərini ayırmaq bacarığını, eləcə də proqramda və dərslikdə verilmiş tədris materialını kursantların dərk etmək imkanları və mənimsəmədəki çətinliklərin səbəbləri barədə biliyə malik olmağı tələb edir.

Qnostik komponent müəllimi müntəzəm surətdə öz üzərində işləməyə, özünü təhsillə məşğul olmağa, pedaqoji fəaliyyətini elmi innovasiyalarla zənginləşdirməyə sövq edir.

Qnostik komponent aşağıdakıları əhatə edir:

– pedaqoji nəzəriyyəni bilmək və ondan yaradıcı şəkildə istifadə etmək;
– özünün və yoldaşlarının təcrübəsini ümumiləşdirə bilmək;

– elmi tədqiqat işlərində iştirak etmək;
– psixologiyanı bilmək;
– dərslikləri, tədris kitablarını oxumaq, öyrənmək;
– kursantların çətinlik çəkdikləri fənləri aşkarlamaq və onların fənləri mənimsəməsini asanlaşdırmaq üçün yeni yol tapmaq [3].

Pedaqoji fəaliyyətin bütün komponentləri bir-biri ilə sıx əlaqədə həyata keçirilir. Lakin onların özünəməxsus tərəfləri vardır. Bu da özünü müəllimin fəaliyyətində göstərir. Bəzi müəllimlərdə kommunikativ komponent, bəzilərində konstruktiv komponent, bəzilərində isə hər ikisi üstünlük təşkil edə bilər. Bu, müəllimin fərdi keyfiyyətlərindən asılıdır. Bunun nəticəsində müəllimin iş üslubu formalaşır. Üslub hər bir insanın öz peşəsinə verilən obyektiv tələblərə səmərəli uyğunlaşmasıdır. Deməli, müəllimlərin əsas komponentləri onların müəllimlik ustalığını artırır, öz işində üstünlük və çatışmayan cəhətləri aşkar edir, psixoloji və pedaqoji nəzəriyyələri dərindən öyrənir.

Xüsusi təyinatlı təhsil müəssisəsində məşğələ aparan müəllimin fəaliyyətinin strukturunda elmi tədqiqat işi müəyyən yer tutur. Təhsilin daima “sənayeləşən” şəraitində pedaqoq elmi məlumatın daşıyıcısından və ötürücüsündən çox, kursantların qavrama fəaliyyətinin onların müstəqil yaradıcılıq işinin təşkilatçısına çevrilir. Bu da müəllimin elmi tədqiqat işində şəxsən aktiv iştirakını tələb edir. Hal-hazırda hərbi ali təhsil müəssisələrində elmi işlərin geniş vüsət alması və səviyyəsi daha çox mütəxəssislərin hazırlıq səviyyəsini, tədris müəssisəsinin fəaliyyət səviyyəsini müəyyən edir [4]. Kafedraların elmi tədqiqat işlərinin ciddi planlaşdırılması, ali təhsil müəssislərinin tədqiqatlarının ağıllı praktik yönümlülüyü və kompleksliyi, onların təhsil sferasına daxil edilməsi və onun effektivliyinin artırılması, müəllimin peşə ustalığının yüksəldilməsinin mühüm effektiv və rasional istifadə edilməsi, pedaqogika və psixologiya elmlərinin son nailiyyətlərini təlim-tərbiyə prosesinə tətbiq etmək bacarığı ilə xarakterizə olunur.

Müəllim fəaliyyətinin bütün növləri qarşılıqlı əlaqəlidir və təlim-tərbiyənin müxtəlif tapşırıqlarının həlli gedişində təzahür edir. Onların effektiv realizasiyası müəllimin yüksəksəviyyəli pedaqoji ustalığından, psixoloji-pedaqoji erudisiyasından, pedaqoji qabiliyyət və pedaqoji texnikaya yüksək səviyyədə yiyələnməsindən asılıdır.

Psixoloji-pedaqoji erudisiya müəllimin pedaqoji ustalığının nəzəri bazasıdır. Ona tərbiyənin məqsəd və vəzifələrini başa düşmək, şəxsiyyətin inkişafı və formalaşmasının qanunauyğunluqlarını bilmək, onun effektivliyinə təsir edən faktorlar, təlim və tərbiyə prosesinin idarəedilməsi qaydaları, onun nəticələrinin qiymətləndirilməsi və uçotu daxildir [5].

Müəllimin psixoloji-pedaqoji erudisiyası ona özünün pedaqoji fəaliyyətinə şüurlu elmi mövqedən yanaşmağa, müxtəlif və mürəkkəb təlim-tərbiyə məsələlərinin həlli zamanı yaradıcı yanaşma həyata keçirməyə imkan verir.

Müəllimin pedaqoji qabiliyyətlərinin əsasında pedaqoji prosesin intellektual mahiyyətini əks etdirən və pedaqoji ustalığın əsas komponenti olan *pedaqoji təfəkkür* durur. Pedaqoji təfəkkür müstəqil, yaradıcı xarakter daşımalıdır. Bu, müəllimə təlim-tərbiyəyə təsirinin daha effektiv yollarını və üsullarını seçməkdə təşəbbüs və inadkarlıq göstərməyə, şablonlardan, yeknəsəqlikdən uzaq durmağa imkan verir. Müəllim təfəkkürünün yaradıcı xarakteri onda elmi-pedaqoji işlə məşğul olmağa, pedaqoji tədqiqatlar aparmaq, təhsil prosesini optimallaşdırmaq məqsədilə pedaqoji eksperiment keçirmək tələbatı yaratmalıdır. Qeyd edək ki, bu komponent xüsusi təyinatlı təhsil müəssisəsində çalışan pedaqoq heyəti üçün vacib olan çox mühüm keyfiyyətlərdəndir.

Pedaqoji təfəkkür müəllimin pedaqoji müşahidəçiliyinə və pedaqoji təxəyyülünə əsaslanır. Pedaqoji müşahidəçilik müəllim üçün auditoriya ilə fasiləsiz əks-əlaqəni təmin edir, ona kursantların əhval-ruhiyyəsini, şərh olunan materiala münasibətlərini, onların anlama və mənimsəmə səviyyələrini, özünün tərbiyəvi təsirinin effektivliyini müxtəlif əlamətlər üzrə müəyyən etməyə imkan verir. Bu məlumatlardan istifadə edərək müəllim öz işini korrektdə edir (materialın başqa nöqteyi-nəzərdən təkrar izah olunması, tərbiyəvi təsirin formasının dəyişdirilməsi və s.). Pedaqoji müşahidəçilik müəllimə qarşılıqlı dərs dinləmədə, açıq dərslərdə başqa müəllimlərin təcrübəsini görməyə, təhlil etməyə və istifadə etməyə kömək edir.

Pedaqoji təfəkkürlə yanaşı, müasir müəllim üçün pedaqoji təxəyyülün də olması çox vacibdir. *Pedaqoji təxəyyül* müəllimə öz işinin nəticələrini proqnozlaşdırmağa, fikirləşdiyi və ya planlaşdırdığı pedaqoji tədbirləri fikrən modelləşdirməyə və onların effektivliyini öncədən görməyə, kursantların təlim və tərbiyədəki çətinlik və çatışmazlıqlarını vaxtında üzə çıxarmağa və öncədən görməyə, pedaqoji müşahidəçilik əsasında onların inkişafını layihələndirməyə imkan verir.

Kursantlarla təlim prosesində müəllimin *pedaqoji taktı* vacib elementlərdəndir. Pedaqoji taktı müəllim-kursant ünsiyyətində pedaqoji baxımdan daha məqsədəuyğun ünsiyyət formalarını seçmə, tərbiyəvi təsirin yolları, vasitələri və üsullarının seçilməsində ehtiyatlılıq və həssaslıq bacarığı kimi müəyyən etmək olar. Pedaqoji taktın olması müəllimə kursantlarla təlim prosesinin məqsədlərinə nail olmağa daha yaxşı kömək edəcək münasibətlər qurmağa imkan verir. Nəticədə, məşğələlərə maraq artır, dinləyicilərin qavrama fəaliyyəti aktivləşir, onların yaradıcılıq fəallığı üzə çıxır, müəllimin tərbiyəvi təsirlərinə müsbət münasibət yaranır. N.İ.Piroqov yazırdı ki, *pedaqoji takta malik və fənnin şərhində ustalıq təcrübəsinə malik müəllim hətta mükəmməl olmayan proqramla belə başqasının mükəmməl proqramla edə bilməyəcəyini edə bilər* [6]. Pedaqoji takt müəllimin pedaqoji mədəniyyətinin ifadəsidir, onun əsasında müəllimin özünün pedaqoji fəaliyyətinin nəticələrinə marağı durur, kursantın şəxsi fəaliyyətinə hörmət, onun fərdi və tipoloji xüsusiyyətlərini bilmək, onların davranışlarını proqramlaşdırmaq ustalığı, onlara diqqət, onların hər birinə düzgün yanaşma tapmaq bacarığı durur. Ona görə də pedaqoji takt müəllimdə istənilən pedaqoji situasiyada pedaqoji müşahidəçiliyin və təxəyyülün, nəzakətliliyin, səbrin, düşünülməmiş hərəkətlərdən uzaq durmaq qabiliyyətinin mövcudluğunu nəzərdə tutur [7].

*Pedaqoji texnika* pedaqoji vərdişlər və bacarıqlar kompleksidir ki, bunların da köməyi ilə müəllim təhsil alanlara birbaşa daha effektiv təsir göstərir. Pedaqoji texnika müəllimin pedaqoji təsirin bütün vasitə və üsullarına yiyələnməsini nəzərdə tutur. Birinci yerdə müəllimin nitqi (müəllimin sözü) durur. Müəllimin canlı nitqi yalnız tədris informasiyasının ötürülməsinin əsas vasitəsi deyil (İ.D.Pavlov nitqi insanın dərketməsinin ali nizamlayıcısı adlandırmışdır), həm də dinləyiciyə böyük psixoloji təsir göstərir, onun hisslərinə təsir edir və onun inamını, şəxsi yönümünü, fənnə münasibətini formalaşdırır. Ancaq bunun üçün müəllim öz fikrini savadlı, məntiqli, dəqiq, aydın və obrazlı şərh etməyi bacarmalı, diksiya, informasiya, mimika və jestə malik olmalı, onun nitqində rasional-fikir və sözlər harmoniya təşkil etməli və emosional şərh olunan materiala onun şəxsi hiss və münasibətini, onun həqiqiliyinə inamını ifadə etməli, təhsil alanları maraqlandırmalıdır [8].

Müəllimin pedaqoji texnikası özündə həm də nitqin keyfiyyəti ilə sıx əlaqəli olan kursantların qavrama fəaliyyətini aktivləşdirmək, hər şeydən əvvəl, sualları formalaşdırmaq, məşğələlərdə maraqlı problemli situasiyalar yaratmaq bacarığını ehtiva edir. Pedaqoji texnikaya, şübhəsiz, müəllimin müxtəlif məşğələ növlərinin və tərbiyəvi tədbirlərin hazırlanması və keçirilməsi vərdişləri və bacarıqları, kursantların tədris materialını mənimsəməsinin və tərbiyəvi təsirin effektivliyinin uçotu və yoxlanılmasının həyata keçirilməsi vərdişləri və bacarığı daxildir. Pedaqoji texnikanın mühüm elementi müəllimin lövhədən (o cümlədən müəllimin qrafik vərdişləri), əyani vasitələrdən rasional istifadə etməsi, təlimin və nəzarətin müxtəlif texniki vasitələrinə yiyələnməsidir.

## Nəticə

Beləliklə, nəticə olaraq deyə bilərik ki, müəllimlərin çalışdıqları ali hərbi təhsil müəssisələrinin spesifik xüsusiyyətlərini dərindən bilmələri və pedaqoji fəaliyyətlərində əsl ustalıq nümayiş etdirmələri olduqca vacibdir. Hərbi intizam, qayda-qanun, pedaqoji prosesin spesifik olması və digər bir sıra vacib amillər burada çalışan müəllimlərdən əsl pedaqoji ustalıq, peşəkarlıq və səriştəliliyin mühüm keyfiyyətlərinə malik olmalarını tələb edir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Подласый, И.П. Педагогика: 100 вопросов-ответов / И.П. Подласый – Москва: Владос пресс, – 2004. – 365 с.
2. Копытова, Н.Е., Макарова, Л.Н. Конструктивно проектировочная функция в профессиональной деятельности преподавателя высшей школы // – Москва: Вестник Тамбовского университета. Серия Гуманитарные науки, –2014. № 5(133), – с.246.
3. Həsənov A. Pedaqogika / A.M.Həsənov, Ə.Ə.Ağayev – Bakı: Nasir, – 2007. – 411-420 s.
4. Макарова, Л.Н. Научная деятельность в контексте модернизации исследовательской инфраструктуры университета: проблемы оценивания // – Тамбов, Россия: Социально экономические явления и процессы: – 2012. № 42, – с. 28-34.
5. İlyasov, M.İ. Müəllimin pedaqoji ustalığı / M.İ.İlyasov – Bakı: Elm və təhsil, – 2013, – 215 s.
6. Пирогов, Н.И. Избранные педагогические сочинения / Н.И.Пирогов – Москва: Педагогика, – 1985. – 416 с.
7. Исаев, И.Ф. Профессионалъно педагогическая культура преподавателя / Исаев, И.Ф. – Москва: Академия, – 2002. – 208 с.
8. İbrahimov, F. Pedaqogika / F.İbrahimov, R.Hüseyzadə – Bakı: Mütərcim, – 2012. – 706 s.

## Аннотация
### Особенности педагогической деятельности и педагогического мастерства учителя в учебных заведениях специального назначения
**Такмина Джаббарова, Рамиль Ибрагимов**

Подобно тому, как военные учебные заведения различаются по своим специфическим характеристикам и назначению, существует и ряд специфических и различных особенностей самой образовательной деятельности. Это также предъявляет ряд особых требований к педагогической деятельности и профессионализму учителя. В статье подробно рассмотрены характерные особенности педагогической деятельности преподавателя военного образовательного учреждения, сущность педагогического мастерства преподавателя, составные компоненты педагогической деятельности преподавателя (конструктивный, организационный, коммуникативный). При этом в статье подробно описаны основные составляющие профессиональной деятельности учителя, особенности научно-исследовательской деятельности.

Понимание структуры, специфики и содержания каждого из них в условиях военного вуза позволяет правильно определить уровень педагогического мастерства преподавателя и определить критерии оценки. Затронуты такие элементы педагогического мастерства, как психолого-педагогическая эрудиция, педагогические способности и педагогическая техника.

**Ключевые слова:** военный вуз, конструктивная, коммуникативная, организаторская, педагогическая деятельность, научно-исследовательская деятельность, педагогическое мастерство

## Abstract
### Characterıstıcs of the teacher's pedagogıcal actıvıty and pedagogıcal skılls ın a specıal educatıon ınstıtutıon
**Takmina Jabbarova, Ramil Ibrahimov**

Just as military educational institutions differ in their specific characteristics and purpose, there are also a number of specific and different characteristics of the educational activity itself. These also give a number of special requirements to the pedagogical activity and professionalism of the teacher. In the article, the characteristic features of the teacher's pedagogical activity of the military educational institution, the essence of the teacher's pedagogical mastery, the constituent components of the teacher's pedagogical activity (constructive, organizational, communicative) were examined in detail. At the same time, the main components of the teacher's professional activity, the characteristics of the scientific-

research activity are described in detail in the article.

Understanding the structure, specifics and content of each of them in the conditions of a military higher school allows to correctly determine the level of pedagogical mastery of the teacher and to determine the evaluation criteria. Elements of pedagogical mastery, such as psychological-pedagogical erudition, pedagogical abilities and pedagogical technique, have been touched upon.

**Keywords:** military higher educational institution, constructive, communicative, organizational, pedagogical activity, scientific-research activity, pedagogical mastery

*Məqalə redaksiyaya daxil olmuşdur: 12.12.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 26.12.2023*
*Çapa qəbul edilmişdir: 26.01.2024*

HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE
№1/2024, səh. 73-79
HƏRBİ XÜSUSİ ELMLƏR MILITARY SPECIAL SCIENCES

UOT 355/359

# DÜNYA TƏHLÜKƏSİZLİYİNƏ HEGEMON DÖVLƏTLƏRİN YARATDIQLARI QLOBAL TƏHDİDLƏR

**dosent, polkovnik Yaşar Kərimov[1]**
yasarkerimov430@gmail.com
**Davud Kazımov[2]**
*[1]Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu*
*[2]Milli Müdafiə Universiteti*
DOI: 10.30546/mk.2024.1.0073.

***Xülasə.*** Məqalədə dünyanın müxtəlif bölgələrində – Afrika, Yaxın Şərq, Şərqi Avropa və Cənubi Qafqaz regionunda baş verən silahlı münaqişələr, onların dünyanın təhlükəsizlik sistemində doğurduğu fəsadlar, müharibə və münaqişələrin həllində beynəlxalq təşkilatların gücsüzlüyü, inkişaf etmiş ölkələrin yaratdığı qarşıdurma fonunda əziyyət çəkən xalqların və dünyanın hegemonluğuna can atan ölkələrin mübarizəsi açıqlanıb.

Tədqiqat işinin məqsədi dünyanın təhlükəsizlik sistemində davam edən böhranlı vəziyyət və onun müxtəlif istiqamətlər üzrə yaratdığı fəsadların müəyyən edilməsi, inkişaf etmiş ölkələrin dünyanın hegemonluğuna can atmaları və çoxqütblü dünya uğrunda davam edən mübarizənin aspektlərini göstərməkdir. Bu tədqiqat işi üçün aşağıdakı vəzifələr qarşıya qoyulur: dünyanın təhlükəsizlik sisteminə təsir edən amilləri və beynəlxalq təşkilatların acizliyini qiymətləndirmək.

Bu zaman yaranmış vəziyyət statistik məlumatlara əsaslanaraq təhlil edilib və icmal xarakteri daşıyır.

Təhlil nəticəsində müəyyən edilmişdir ki, dünyanın təhlükəsizlik sistemində böhranlı vəziyyət hələ uzun müddət qalmaqda davam edəcək. Çünki inkişaf etmiş dövlətlərin açıq və gizli şəkildə mübarizəsi davam edir.

**Açar sözlər:** milli təhlükəsizlik, müasir müharibələr, beynəlxalq təşkilatlar, yüksək dəqiqliyə malik silah, döyüş taktikası, mübarizə

## Giriş

XX əsrin sonlarında soyuq müharibənin başa çatması və SSRİ-nin dağılması ilə dünyanın təhlükəsizlik sistemində olan qarşıdurmanın və gərginliyin öz həllini tapdığı düşünülürdü. Lakin dünyanın hegemonluğuna can atan inkişaf etmiş ölkələr öz mübarizələrindən əl çəkmədi. Qərb ölkələri beynəlxalq və regional təşkilatlar çərçivəsində müxtəlif ideyalar və layihələr irəli sürür, milli maraqlarına uyğun siyasət formalaşdırmağa çalışırdı. Bunlar isə SSRİ-i dağılandan sonra təkqütblü dünya nizamı fonunda baş verirdi. Lakin belə vəziyyətin uzun müddət davam etməyəcəyi hamıya məlum idi. Çünki bu qarşıdurmanın müxtəlif tərəfləri, eləcə də Rusiya və Çin Xalq Respublikası kimi digər qütbləri var idi.

XXI əsrin əvvəllərindən etibarən qarşıdurma və ziddiyyətlər artdı, bunlar bir çox hallarda silahlı münaqişələrə qədər böyüdü. Əslində, bu, dünyanın inkişaf etmiş ölkələrinin üzdə görünməyən mübarizəsidir. Bu mübarizədə isə ancaq Afrika, Yaxın Şərq, Şərqi Avropa və Cənubi Qafqaz regionunda yerləşən ölkələr və mübarizə aparan xalqlar əziyyət çəkir. Dağılmış iqtisadiyyatı, miqrasiya etmiş əhalisi ilə üz-üzə qalan İraq, Liviya, Suriya, Yəmən, Əfqanıstan hələ də stabillik tapa bilmir və bu ölkələrdə böhran vəziyyəti davam edir. Rusiya – Ukrayna müharibəsi Şərqi Avropa və region ölkələri üçün təhlükə mənbəyi olaraq qalır. Əfqanıstanda davam edən qeyri-müəyyən vəziyyət və gərginlik Orta Asiya və qonşu ölkələr üçün təhlükə yaradır.

Yaxın Şərqdə davam edən münaqişələr və Rusiya – Ukrayna müharibəsi beynəlxalq təşkilatların acizliyini göstərdi. Beynəlxalq hüququn işləmədiyini və dünya nizamının pozulduğunu üzə çıxardı.

Məqalənin əsas məqsədi dünyanın hegemonluğuna can atan güc mərkəzlərinin yaratdığı gərginlik fonunda böhranlı vəziyyətin yaratdığı fəsadları və xalqların təhlükəsiz dünya uğrunda apardıqları mübarizəni təhlil etməkdir. Bu zaman yaranmış vəziyyət statistik məlumatlara əsaslanaraq təhlil edilib və icmal xarakteri daşıyır.

## Əsas hissə

Dünyada sürətlə cərəyan edən prosesləri labüd edən bir çox amillər var. Bunlardan ən başlıcası isə texnologiyanın sürətli inkişafıdır. Bu da öz növbəsində zamanla yarışa böyük mənada müsbət təsir göstərib və bir çox məsələlərin həllini sürətləndirib. Planetimizin inkişaf etmiş ölkələri bunu fürsət bilərək bəzən gizli, bəzən də açıq şəkildə dünya hegemonluğuna can atır. Bu da beynəlxalq nizamın və mövcud təhlükəsizlik sisteminin arxitektura strukturunun pozulmasına səbəb olub. Son zamanlar dünyada baş verən böhran, gərginlik və ziddiyyətlərin dərinləşməsi artan tendensiya ilə davam edir.

Elə bunun nəticəsində son on ildə dünyada həm siyasi, həm də hərbi baxımdan çox təzadlı proseslər baş verir. Yaranmış böhran beynəlxalq hüququn işləmədiyini və güclünün zəiflər üzərində hökmünü diktə etdiyini, eləcə də özündən asılı vəziyyətə saldığını göstərir. Müharibə və hərbi toqquşmalar bəzən gözlənilməz, bəzən isə planlı şəkildə baş verir. Təəssüf ki, belə nümunələr çoxluq təşkil edir. Öz maraqlarını güdən Qərb uzun müddət bundan məharətlə istifadə edərək bir çox ölkələrin daxili işlərinə qarışır, “yumşaq güc” tətbiq edərək, özünə loyal hakimiyyətlər formalaşdırır, bu mümkün olmadıqda isə güc amilinə üstünlük verir. Qərbin dəstəyi ilə formalaşan ölkələrdə isə hakimiyyətin onların maraqlarına uyğun fəaliyyət göstərdiyini unutmaq olmaz. Bunun bariz nümunəsini indi daha çox Afrikada görmək mümkündür. Qərbin diktəsinə boyun əyməyən, müstəqil fəaliyyət göstərmək istəyən ölkələrə müdaxilə üçün ilk növbədə onların daxili işlərinə qarışaraq beynəlxalq aləmdə terrorçu dövlət obrazı yaradılır, sonra onlara qarşı mübarizə adı altında həmin ölkələrə silahlı müdaxilə edilir. Xüsusilə, bunu qədim mədəniyyətin və sivilizasiyanın beşiyi hesab olunan Yaxın Şərqdə görmək mümkündür. XX əsrin sonlarında İraqda başlayan Körfəz müharibəsi elə bir zərbə oldu ki, hələ də ölkə düşdüyü çətin vəziyyətdən çıxa bilmir. Bundan cəsarətlənən Qərb “ərəb baharı” adı altında Afrika və Yaxın Şərq ölkələrinin daxili işinə qarışır, xalqların azadlığı və demokratiya uğrunda mübarizədən manipulyasiya edərək bu ölkələri qarşıdurmaya sürükləyir. İndi həmin ölkələrin normal inkişafı üçün illər tələb olunur.

Bu gün görünən odur ki, silahlı müdaxilə yolu ilə İraq və Liviya hakimiyyəti devrilsə də, onların yerinə qurulan hökumətlər ölkənin təhlükəsizliyini və inkişafını təmin edə bilmir. İraq və Liviyadan fərqli olaraq Suriyanın üzləşdiyi məsələ isə tamamilə fərqlidir. Ölkə praktiki olaraq Yaxın Şərqdə maraqları olan böyük dövlətlərin poliqonuna və qarşıdurmasına çevrilib. Mərkəzi hökumət Suriyanın bütün ərazilərinə nəzarət edə bilmir.

Bu ölkələrin dağılmış və çökmüş iqtisadiyyatı, əhalinin çox hissəsinin miqrasiya etməsi, daxili çəkişmələrin və qarşıdurmaların davam etməsi vəziyyəti daha da çətinləşdirir. Qərb isə bunları kənardan seyr edir, ancaq lazım bildiyi məqamlarda öz maraqları çərçivəsində müdaxilə edir. Tunis və Yəməndə inqilab yolu ilə hakimiyyətə gələnlər ancaq onlara dəstək verənlərin maraqlarında ölkəni idarə etdilər, xalqın ümidlərini isə doğrultmadılar. İndi bu ölkələr də hər baxımdan xaosa sürüklənib.

Qərbin vəd etdiyi inkişaf və inqilab dalğası SSRİ-nin dağılmasından sonra müstəqilliyini qazanmış Şərqi Avropa, Cənubi Qafqaz və Orta Asiya ölkələrinə də sıçradı. İqtisadiyyatı və vətəndaş cəmiyyəti zəif olan ölkələr Qərbin təsiri altına daha tez düşdü. Bundan məharətlə istifadə edən Qərb yaxşı gələcək naminə mübarizəyə qoşulan xalqlardan istifadə edərək hakimiyyəti inqilab yolu ilə dəyişdirməyə nail ola bildi. Həmin ölkələrə Ukraynanı, Moldovanı, Gürcüstanı, Qırğızıstanı, belə cəhdin uğursuz alındığı Belarusu göstərmək olar.

Dünya hegemonluğuna can atan ABŞ və təkqütblü dünya nizamına qarşı çıxan Rusiyanın milli maraqlarını qoruma adı altında apardığı qarşıdurmanın rəngli inqilablar, eləcə də silahlı mübarizə nəticəsində Moldovanın Dnestryanı bölgəsinin, Gürcüstanın Abxaziya və Cənubi Osetiya bölgələrinin işğalı, Rusiya – Ukrayna müharibəsinin nəticəsində Ukrayna ərazisinin, Krım da daxil olmaqla hazırda 17%-ə qədər hissəsinin işğalda olması bunun bariz nümunəsidir. Qarşıdurmalar poliqonuna çevrilən ölkələrin hələ heç biri arzuolunan nəticəni əldə edə bilməyib, əksinə bütün sahələrdə böyük çətinliklərlə

üzləşib. Qərb Belarusda bir neçə dəfə hakimiyyət dəyişikliyinə cəhd etdi, lakin bu mümkün olmadı, ona görə də Belarus hakimiyyətini diktator adlandırır və ona təzyiqlər olunur.

Qırğızıstanın iqtisadiyyatında olan mövcud problemlər ölkəni digər aktorlardan asılı vəziyyətə salırdı. Ona görə də Qırğızıstanda tez-tez – üç ildə üç dəfə inqilab yolu ilə hakimiyyət dəyişmişdir. Bu da ölkədə daxili sabitliyin pozulmasına və vəziyyətin daha da çətinləşməsinə səbəb olurdu. Lakin Türk Dövlətləri Təşkilatının (TDT) yaranması və Orta Asiya ölkələrinin bu təşkilata üzv olması, eləcə də “Birlikdə daha güclüyük” məntiqi ilə fəaliyyət bir çox məsələləri həll etmiş oldu. TDT çərçivəsində yaradılan investisiya fondu bu kimi bir çox məsələləri həll etməklə yanaşı, həm də təşkilat çərçivəsində ölkələr arasında qarşılıqlı etimadı da gücləndirdi.

Qərb uzun illərdi ki, “yumşaq güc”dən istifadə edir, bu mümkün olmadıqda isə hərbi yola əl atmaqla öz maraqlarını qorumağa çalışır. Lakin Qərbin bu yanaşması, demək olar ki, pik nöqtəsinə çatıb. Dünyada informasiya qarşıdurması mühitində baş verənlər Qərbin əsl simasını və ikiüzlülüyünü üzə çıxara bilib. Çünki bu yolu seçmiş ölkələrin və xalqların aqibəti indi göz qabağındadır.

Dünyanın aparıcı ekspertləri bütün bu baş verənləri müasir müharibələrin tərkib hissəsi kimi qiymətləndirirlər. İndi müharibələrin nə zaman və harada baş verməsini proqnozlaşdırmaq çox çətindir. Müasir müharibələr çox sadə proseslərin, eləcə də uzun müddət davam edən qarşıdurmaların sonunda hərbi müstəviyə keçməsi ilə başlaya bilir. Bu, ilk baxımdan informasiya qarşıdurması ilə başlayır, digər həyati vacib sahələr enerji, qida və təminat sektorlarını əhatə edir və sonra genişmiqyaslı hərbi qarşıdurmalara qədər böyüyür. Müasir müharibələrdə yüksək dəqiqliyə malik silahlar geniş tətbiq olunur, bu da öz növbəsində müharibələrin gərgin və dinamik cərəyan etməsinə böyük təsir göstərir.

Hansı tərəf uzunmüddətli müharibəyə hazırdırsa, o bu qarşıdurmadan qalib çıxır. Bəzi hallarda isə belə müharibələrin qalibi olmur, ancaq qarşı tərəfi zəiflətmək məqsədi daşıyır. Hazırda bunu Rusiya – Ukrayna müharibəsində müşahidə etmək olur. 2022-ci il fevralın 24-də Ukrayna ilə müharibəyə başlayan Rusiya qısa müddətdə qarşıya qoyduğu hədəfə nail olacağını düşünsə və özünə əmin görünsə də, müharibənin gedişatı bunun əksini göstərdi. Hazırda müharibə 649-cu gündür davam edir və hər iki tərəf də böyük itkilər verir. Ukrayna Baş Qərargahının verdiyi məlumata əsasən, Rusiya indiyə qədər 332.810 hərbçi, 5.580 ədəd tank, 10.401 ədəd zirehli döyüş maşını, 7.961 ədəd artilleriya sistemi, 913 ədəd yaylım atəşli reaktiv sistem, 602 ədəd HHM sistemi, 323 ədəd döyüş təyyarəsi, 324 ədəd helikopter, 6.017 ədəd PUA, 1.569 ədəd qanadlı raket, 22 gəmi (kater) və 1 ədəd sualtı qayıq itirib [1].

Rusiya Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, Ukrayna ordusu indiyə qədər 545 təyyarə, 256 helikopter, 9.353 PUA, 442 ədəd HHM sistemi, 13.743 tank və digər zirehli texnika, 1.187 reaktiv yaylım atəş sistemi, 7.215 artilleriya və minaatan, 15.844 xüsusi hərbi avtomobil texnikası itirib [2].

Əlbəttə, indi hamını bir məsələ düşündürür, görəsən, Rusiya – Ukrayna müharibəsi nə ilə nəticələnəcək və onun qalibi kim olacaq? Bu savaş indi elə bir xarakter alıb ki, qarşı duran tərəflərin heç biri cəbhədə aşkar üstünlük əldə edə bilmir. Müharibə yorucu və uzunmüddətli xarakter alıb, cəbhədə vəziyyət praktiki olaraq dalana dirənib. Müharibənin gedişinə strateji baxımdan təsir göstərməyən və ələ keçirilsə belə əhəmiyyət kəsb etməyən, yalnız iki tərəf üçün də simvolik rol oynayan Baxmut şəhəri uğrunda altı aya yaxın davam edən qarşıdurmada otuz minə yaxın insanın həlak olması, indi həmin prosesin Donetskin Avdeyevka şəhəri uğrunda gedən döyüşlərdə bir ay ərzində Rusiyanın on minlərlə şəxsi heyət, 100-dən çox tank, 250 ədəd digər zirehli döyüş texnikası, 50-yə yaxın artilleriya sistemi və 7 ədəd Su-25 təyyarəsi itirməsi bunu bir daha sübut edir. Bunun qarşılığında Qərb Ukraynanı kifayət qədər silah-sursatla təmin etmir, bu isə müharibənin Qərbin maraqlarına uyğun ssenari ilə davam etdiyini və idarə olunduğunu göstərir. Ukraynanı dəstəkləyərək Rusiya ilə müharibəyə sürükləyən Qərb, əslində, Rusiyanın da məğlubiyyətini istəmir. Belə olan halda Qərb, onun maraqlarına qarşı çıxan və getdikcə güclənən Rusiyanı zəiflətmək istəyir, Ukraynadan da bu məqsədlərə çatmaq üçün istifadə edir. Lakin NATO-nun Baş katibi Rusiyanın mümkün qələbəsini təkcə Ukrayna üçün deyil, həm də NATO üçün faciə adlandırıb, ancaq “NATO Ukraynaya dəstəyini davam etdirməlidir” deməklə kifayətlənir. Hər iki tərəf üçün də yorucu və dağıdıcı müharibənin nəticəsi getdikcə üfüqdə görünməyə başlayıb. Qərbin Ukraynaya sonuna qədər dəstək öhdəçiliyinin olmadığı, Rusiyanın isə Ukraynada əldə etdiklərini qorumaqla münaqişəni dondurmaqda maraqlı olduğu hiss olunur. Hazırda döyüş meydanında tərəflərdən

birinin aşkar üstünlüyü yoxdur, həmçinin müharibə tərəfdarları olan ölkələrin vətəndaş cəmiyyəti yorulub. Ukraynaya dəstək fonunda Qərb ölkələrində insanlar öz hökumətlərindən hesabat tələb etməyə başlayıb, Rusiyada isə sanksiya dalğası fonunda iqtisadi durum çətinliklər yaradır. Müharibənin davam etdirilməsi üçün hər iki tərəfdə mövcud itkilərin yerini doldurmaq və əlavə qüvvələrin cəlb olunması üçün səfərbərlik həyata keçirməlidir. Bu isə Qərbdən asılı olan Ukraynaya əlavə maliyyə vəsaiti, sanksiya ilə üzləşən Rusiya üçün isə hərbi məqsədlərə daha çox maliyyə vəsaiti ayırmağı tələb edir.

Elə müasir müharibələrin hədəflərindən biri həm də qarşı tərəfi iqtisadi baxımdan çökdürməkdir. Qərb Ukraynaya dəstək verməklə müharibəni tükəndirici metodla davam etdirməyə üstünlük verir və bu zaman Rusiyanı iqtisadi baxımdan zəiflətmək məqsədi güdür.

Hazırda cəbhədə üstünlüyün əldə olunması üçün daha çox müasir texnologiyalar ilə hazırlanmış silah-sursat tələb olunur. Lakin müharibələr miqyasına və davametmə müddətinə görə, o qədər geniş sahələri əhatə edir ki, daha çox maliyyə xərcləri hesabına hazırlanmış müasir silah nümunələrinin davamlı döyüş tətbiqi ölkə iqtisadiyyatına külli miqdarda zərər vurmuş olur. Bu baxımdan hər iki tərəf də çalışır ki, müasir silah nümunələrini ancaq kritik anlarda: yaranmış vəziyyəti inkişaf etdirmək və ya itirilmiş mövqeləri bərpa etmək məqsədilə tətbiq etsin.

Müasir müharibələrdə istifadə olunan adi silahlar ilə yüksək dəqiqliyə malik silahlar arasında fərq onların istehsalına sərf olunan maliyyə və zərər vurulan hədəflərin məhv edilməsinə sərf olunan vaxtdadır. Qısa zamanda çoxlu sayda silah istehsal etmək mümkündür, lakin yüksək dəqiqliyə malik silahların hazırlanmasına kifayət qədər çox vaxt tələb olunur. Müasir müharibələrin sürətli və dinamik cərəyan etməsini nəzərə alsaq, o zaman yüksək dəqiqliyə malik silahların tətbiqi əvəzolunmaz rol oynayır. Çünki məhv edilməsi nəzərdə tutulan hədəflərə qısa zamanda və yüksək dəqiqliklə zərər vurulması düşünülən üstünlüyü təmin edə bilir. Dünyanın inkişaf etmiş ölkələri müasir müharibələrdə milli maraqlarını qorumaq üçün adi silahların tətbiqindən, yəni kəmiyyət anlayışından daha çox yüksək dəqiqliyə malik silahların tətbiqinə, keyfiyyət anlayışına üstünlük verir və ya buna sürətli keçid edir. İndi nə qədər çalışsaq da bunun həlli mümkün olmur, çünki istehsal olunmuş külli miqdarda adi silahlar var.

Buna baxmayaraq döyüş meydanında yüksək dəqiqliyə malik silahların tətbiqi və onların taktiki-texniki imkanları fərqli döyüş taktikasının formalaşmasını təmin edir. II Dünya müharibəsi və ondan sonrakı dövrdə baş verən lokal, eləcə də genişmiqyaslı müharibələrin təhlili fərqli yanaşmalar ortaya çıxarır. Adi silahlarla birgə yüksək dəqiqliyə malik silahların da tətbiqi kombinəedilmiş döyüş taktikasının formalaşmasını təmin edir. Müharibənin gedişində adi silahlar tətbiq edən ölkələr, adətən, döyüş fəaliyyətinə səhər tezdən başlayır, bir növ belə döyüş taktikasına üstünlük verir. Yüksək dəqiqliyə malik silahlar tətbiq edən ölkələr sutkanın istənilən vaxtında fəaliyyətə başlaya bilər, çünki qarşı tərəfə münasibətdə qəfillik amili daha çox rol oynayır. Bu silahların gecə vaxtı belə tətbiqi döyüş tapşırıqlarının icrasını təmin edə bilir.

Müasir müharibələrdə yüksək dəqiqliyə malik silahlar kimi, şəxsi heyətin hazırlığı və döyüş təcrübəsi də çox böyük rol oynayır. Müharibənin ilk günlərindən etibarən peşəkar hazırlıqlı heyətin döyüşlərdə iştirakı və zaman keçdikcə itkilər səbəbindən onların döyüşdən çıxması və yerinə səfərbərliklə gələn heyətin cəlb olunması, əlbəttə, döyüşün effektivliyinə və sürətli inkişafına mənfi təsir göstərir. Müasir müharibələrin gedişatı bunları müşahidə etməyə və təhlil etməyə imkan verir.

Rusiya – Ukrayna müharibəsində tətbiq olunan yüksək dəqiqliyə malik silahların bəziləri gözlənilən effekti vermədi və sınaqdan uğurla çıxmadı. Bunun bir sıra səbəbləri ola bilər, əslində bu, dinc dövrdə silah istehsalçılarının qarşı tərəf üzərində apardığı güc nümayişinin və özlərinin reallıqdan uzaq olan reklamlarının xətasıdır. Bir çox silah nümunələri Rusiya – Ukrayna müharibəsində tələb olunan anlarda meydanda görünmür və özünün effektivliyini təsdiqləmir. Məsələn, Rusiya istehsalı olan "Armata" tankının təkmilləşdirilmə işləri rəsmi məlumatlara görə, davam etdirilir və döyüş tətbiqinə hazırlanır.

Rusiya Ukrayna ilə müharibəyə başlamazdan əvvəl qısa zamanda Ukrayna ərazisinin böyük hissəsini işğal edib, yerdə qalan ərazilərdə isə Rusiyaya meyilli hakimiyyət formalaşdırmaqla qarşıya qoyulan məqsədlərə çatacağını düşünürdü. Lakin görünən odur ki, bundan sonra müharibənin

nəticəsindən asılı olmayaraq yanlış qiymətləndirmə göz önündədir. Əks halda müharibə bu qədər davam etməzdi. Bu məsələdə yüksək dəqiqliyə malik silahlarla yanaşı, Ukrayna xalqının inadkar mübarizə əzmi, şübhəsiz, böyük rol oynayır. Rusiyanın müharibəyə başlaması üçün seçdiyi taktikanın yanlış olduğu bir neçə gündən sonra özünü göstərdi. Belə ki, Rusiya Ordusunun artilleriya hazırlığı keçirmədən tank və zirehli döyüş texnikalarından təşkil olunmuş hücum qruplaşması ilə bir neçə istiqamətdən Ukrayna sərhədlərini keçərək dərinliyə doğru hərəkətə keçdi, Ukrayna Ordusu isə onları irəli buraxıb hərəkət marşrutlarında kiçik qruplarla həmlə edib onlara tank əleyhinə müasir vasitələr olan "Javelin" və NLAW tətbiq etməklə zərər vurmağa üstünlük verdi və müharibənin birinci mərhələsini öz xeyrinə dəyişdirə bildi. Lakin nə Rusiya, nə də Ukrayna havada üstünlüyü təmin edə bilmədi. Ona görə də müharibənin yerüstü mərhələsi dalana dirənib və zaman keçdikcə tərəflər bundan çıxış yolu axtarır.

Ukraynanın Ordu komandanlığı hökumət qarşısında süni intellektin tətbiqi ilə hazırlanmış robot ordu yaradılmasını təklif edir. Bunu müharibə tərəfdarlarının bir-birini yaxşı tanıdıqları və döyüş taktikalarına bələd olduqları ilə əsaslandırırlar. Cəbhədə üstünlüyü təmin etmək üçün fərqli yanaşma, eləcə də daha çox yüksək texnologiya ilə hazırlanmış vasitələrin müharibəyə cəlb olunduğu yeni nəsil müharibə modelinin tətbiqini təklif edirlər. Bunun bəzi elementlərini nümayiş etdirməklə, məsələn, Ukrayna müdafiə sənayesinin istehsalı olan sualtı və suüstü dəniz vasitələri ilə Rusiyanın Qara dəniz donanmasının fəaliyyətinin qarşısını almaq mümkün olmuşdur. Bu vasitələrin tətbiqi ilə Rusiyanın Qara dəniz donanmasının gəmiləri Ukraynanın sahil sularından daha çox Rusiyanın Qara dəniz sahilində yerləşən Novorosiyski, Novoçekassı liman şəhərlərinin bazasına geri çəkilib. Döyüş gəmiləri açıq dənizdə təhlükəsiz fəaliyyət göstərə bilmir və bunun nəticəsində Rusiya Ordusu böyük itkilər ilə üzləşib. Ukraynanın PUA-lar vasitəsilə Krımda yerləşən Dəniz bazalarına və təmir zavodlarına endirdiyi zərbələr nəticəsində bir neçə döyüş gəmisi zədələnib və onların bərpasına kifayət qədər vaxt tələb olunur. Ukrayna tərəfi müasir döyüş vasitələrinin tətbiqi ilə yüksək nəticənin əldə olunmasının mümkünlüyünü nəzərə alaraq hökumətdən Ordunun müasir vasitələrlə təmin olunması istiqamətində əməli işlər görülməsini təklif edir.

Hazırda Yaxın Şərqin Qəzza bölgəsində baş verən hərbi münaqişə dünyanın diqqətini bu bölgəyə cəlb edib. Lakin Rusiya – Ukrayna müharibəsi davam edir, tərəflər cəbhənin müxtəlif istiqamətlərində taktiki üstünlük əldə etdiyini açıqlayırlar.

Hərbi gücün üstünlüyü ön plana çıxdığı və beynəlxalq hüququn işləmədiyi bir vaxtda yeni dünya nizamı adı altında dünyanın hegemonluğuna can atan böyük dövlətlərin yaratdığı böhrandan iqtisadiyyat zəifləyir və mülki insanlar zərər görür.

Bu gün müharibələr beynəlxalq hüquqdan uzaq, əxlaq dəyərlərinin pozulduğu, beynəlxalq təşkilatların öz vəzifələrini icra edə və səsini çıxara bilmədiyi şəraitdə davam edir, sanki qeyri-müəyyənlik yaranıb. Xəstəxanalar, BMT-nin himayəsində olan məktəblər və qaçqın düşərgələri, ibadətgahlar, məscidlər və kilsələr, eləcə də mülki infrastruktur obyektləri hədəf alınır. Bütün bunlar Azərbaycan Ordusunun sentyabr ayında Qarabağ iqtisadi rayonunda keçirdiyi lokal xarakterli antiterror tədbirlərinin fonunda kölgədə qalır. Azərbaycan Ordusu ancaq legitim hədəflərə, HHM və REM vasitələrinə, idarəetmə məntəqələrinə, tank və zirehli döyüş texnikalarına, YARS, artilleriya və minaatan batareyalarına, canlı qüvvə və atəş vasitələrinə, döyüş və müşahidə postlarına, silah-sursat anbarlarına, ötürücü stansiyalara yüksək dəqiqliyə malik silahlar vasitəsilə dəqiq və öldürücü zərbələr vurdu. Qorxu və vahimə ilə yeni dünya nizamı yaratmağın mümkün olmadığı hamıya məlumdur. Reallıqda isə dünyanın təhlükəsizlik sistemində böhran yaşanır, mövcud qarşıdurmalar dərinləşir və nəticədə hərbi toqquşmalara qədər genişlənir. Uzun illər Azərbaycan torpaqlarını işğalda saxlayan və sonunda kapitulyasiya edən Ermənistan təhlükəsizliyini təmin etmək məqsədilə Qərb ölkələrini Ermənistana dəvət etməklə Cənubi Qafqazın təhlükəsizlik arxitekturasını pozur və böyük güclərin mübarizə meydanına çevrilməsinə zəmin yaradır [3].

Təəssüflə qeyd etmək lazımdır ki, dünyanın bir tərəfində insanlar aclıqdan əziyyət çəkir, o biri tərəfində isə dünya hegemonluğuna can atan ölkələr sürətlə silahlanır, hərbi sahəyə böyük maliyyə xərcləri ayırır. İndi silah istehsal edən şirkətlər arxa planda müasir müharibələrin görünməyən tərəfi kimi

qiymətləndirilir. Nə qədər acı olsa da, həmin şirkətlər açıq şəkildə olmasa da müharibə tərəfdarı kimi çıxış edir. Bu da təhlükəsiz dünya uğrunda mübarizə aparan xalqların fəaliyyətinə kölgə salır.

## Nəticə

Dünyanın təhlükəsizlik sistemində və dövlətlərarası münasibətlərdə yaranmış gərginlik hələ uzun müddət davam edəcək. Çünki mübarizə tərəfdarları həm siyasi, həm də hərbi baxımdan qarşılarına qoyduqları məqsədlərə çatmayıblar. Əlbəttə, bunun müxtəlif səbəbləri var. İlk növbədə, yaranmış vəziyyətlə barışmayan qüvvələr müqavimət göstərir, proseslərin axarına təsir göstərməyə çalışırlar. Dünyanın inkişaf etmiş ölkələri müxtəlif regionlarda münaqişə ocaqları yaradır, rəqiblərini zəiflədir və hədəflərinə çatmağa can atırlar. Bu proseslər nəticəsində pozulmuş dünya nizamı qabarıq xarakter alır, dünya hegemonluğuna can atan ölkələr açıq şəkildə güc nümayiş etdirir, bunun qarşılığında bir çox ölkə öz təhlükəsizliyini təmin edə bilmədiyindən böyük dövlətlərdən asılı vəziyyətə düşür. Belə ölkələrə Ermənistanı nümunə göstərmək olar: təhlükəsizliyini təmin etmək məqsədilə ABŞ, Fransa və Almaniyanı Ermənistana dəvət etməklə Cənubi Qafqazda maraqları olan kənar qüvvələri qarşıdurmaya sürükləyir. Cənubi Qafqazın sülh və əməkdaşlıq regionuna çevrilməsinin qarşısını alır.

İndi II Qarabağ müharibəsindən və Azərbaycan Ordusunun Qarabağ iqtisadi rayonunda keçirdiyi uğurlu lokal xarakterli antiterror tədbirlərindən sonra Cənubi Qafqaz regionunda sülh və əməkdaşlıq üçün böyük fürsət yaranıb. Bu fürsətdən faydalanmaq, regionu sülh və əməkdaşlıq məkanına çevirmək isə bu regionda yaşayan bütün xalqların vəzifəsidir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Ukrayna Rusiyanın itkilərini açıqladı: [Elektron resurs] / – 28 fevral, 2024. URL: https://axar.az/news/planet/836620.html
2. Rusiya Ukraynanın itkilərini açıqladı: [Elektron resurs] / – 28 fevral, 2024. URL: https://axar.az/news/planet/836789.html
3. Mustafazadə, A. 44 günlük diplomatiya dərsləri / A.Mustafazadə. – Bakı: Elm və təhsil, – 2021. – 251 s.

## Аннотация

**Глобальные угрозы, создаваемые государствами-гегемонами окружающей среде безопасности мира**

**Яшар Керимов, Давуд Казымов**

В статье излагается вооруженные конфликты, происходящие в разных регионах мира – Африке, на Ближнем Востоке, в Восточной Европе и регионе Южного Кавказа, последствия, которые они вызывают в системе мировой безопасности, бессилие международных организаций в разрешении войн и конфликтов, народы, страдающие на фоне конфликта, созданного развитыми странами и стремящиеся к гегемонии в мире.

Целью исследовательской работы является определение сложившейся кризисной ситуации в мировой системе безопасности и ее последствий по различным направлениям. Он призван показать аспекты стремления развитых стран к мировой гегемонии и продолжающейся борьбы за многополярный мир. Перед данной исследовательской работой поставлены следующие задачи: оценить факторы, влияющие на мировую систему безопасности и слабость международных организаций.

Ситуация, возникшая в это время, проанализирована на основе статистических данных и носит обзорный характер.

В результате анализа было установлено, что кризисная ситуация в мировой системе безопасности будет сохраняться еще долгое время. Потому что борьба развитых стран продолжается открыто и тайно.

**Ключевые слова:** национальная безопасность, современные войны, международные организации, высокоточное оружие, тактика боя, борьба

**Abstract**

**Global threats posed by hegemonic states to the world's security environment**

**Yashar Kerimov, Davud Kazımov**

In the article, the armed conflicts occurring in different regions of the world - Africa, the Middle East, Eastern Europe and the South Caucasus region, the consequences they cause in the world security system, the powerlessness of international organizations in resolving wars and conflicts, the peoples suffering against the background of the conflict created by developed countries, and those striving for hegemony in the world. The struggle of the countries has been announced.

The purpose of the research work is to determine the ongoing crisis situation in the world's security system and its consequences in various directions. It is to show the aspects of developed countries striving for world hegemony and the ongoing struggle for a multi-polar world. The following tasks are set for this research work: to assess the factors affecting the world's security system and the weakness of international organizations.

The situation that arose at this time was analyzed based on statistical data and is of an overview nature.

As a result of the analysis, it was determined that yet the crisis situation in the world's security system will continue to remain for a long time. Because the struggle of developed countries continues openly and secretly.

**Keywords**: national security, modern wars, international organizations, high-precision weapons, combat tactics, combat

*Məqalə redaksiyaya daxil olmuşdur: 26.01.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 29.01.2024*
*Çapa qəbul edilmişdir: 06.02.2024*

HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE
№1/2024, səh. 80-86
*HƏRBİ XÜSUSİ ELMLƏR* *MILITARY SPECIAL SCIENCES*

UOT 341

# BEYNƏLXALQ HUMANİTAR HÜQUQUN BEYNƏLXALQ HÜQUQ NORMALARI SİSTEMİNDƏ YERİ VƏ ROLU

**h.ü.f.d., dosent Əlövsət Allahverdiyev[1]**
lawyer.406@gmail.com
**ədliyyə kapitanı Aytən Hüseynova[2]**
imcd@mod.gov.az
*[1]Bakı Dövlət Universiteti*
*[2]Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi*
DOI: 10.30546/mk.2024.1.0080.

***Xülasə.*** Beynəlxalq humanitar hüququn beynəlxalq hüquq normaları sistemində özünəməxsus yeri vardır. Dövlətlərin beynəlxalq humanitar hüququn tələblərinə biganə yanaşmaları onu daha da aktuallaşdırır.

Məqalədə beynəlxalq humanitar hüququn beynəlxalq hüquq normaları sistemində yerindən bəhs olunur. Burada onların fərqliliyi və yaxınlığı kimi məsələlər nəzərə alınır. Beynəlxalq humanitar hüquq beynəlxalq hüququn müstəqil bir institutu olduğu üçün beynəlxalq hüquq normalarından kənarda inkişaf edə bilməz. Həmçinin məqalədə əsasən beynəlxalq humanitar hüquq normalarının yaranma tarixi, mahiyyəti və funksiyası izah olunub, eyni zamanda beynəlxalq cinayət hüququ və beynəlxalq insan hüquqları institutları ilə qarşılıqlı əlaqəsinə toxunulub. Hər iki halda, həm insan hüquqlarının pozulması, həm də beynəlxalq cinayətlərin baş verməsi nəticə etibarilə beynəlxalq humanitar hüququn ciddi pozuntularından qaynaqlanır.

Dünyada nə qədər ki, silahlı münaqişələr baş verir, beynəlxalq humanitar hüquq öz aktuallığını qoruyub saxlayar, o cümlədən müharibənin aparılmasının müəyyən üsul və metodlarının tətbiqini qadağan edən və ya məhdudlaşdıran hüquq sahəsi kimi beynəlxalq cinayət hüququ ilə əlaqəli şəkildə inkişaf edərək fərdin hüquqlarının qorunmasını təmin edər və münasibətləri tənzimləyər.

**Açar sözlər:** beynəlxalq humanitar hüquq, Cenevrə Konvensiyaları, silahlı münaqişələr, insan hüquqları

## Giriş

Beynəlxalq humanitar hüququn beynəlxalq hüquq normaları sistemində özünəməxsus yeri vardır. Beynəlxalq humanitar hüququn mahiyyəti, tətbiqi ilə bağlı məsələlər müasir dövr üçün olduqca aktualdır. "Beynəlxalq humanitar hüquq" anlayışı müasir beynəlxalq hüququn məhsulu olsa da, onun yaranma tarixi daha əvvəl olmuşdur. Bəşəriyyət var olduqca müharibələr də olmuş, müharibələr olduqca onun əzablarını yüngülləşdirən normalar da olmuşdur. "Müharibəni tənzimləyən normalar" anlayışı bütün mədəni dəyərlər, din və adətlərdə tanınır. Beynəlxalq humanitar hüququn tarixi qısa olsa da, məzmunu hadisələrlə çox zəngindir. Bu da bir həqiqətdir ki, bəşər tarixi çoxsaylı münaqişə və müharibələri ilə yadda qalır. Müharibələr həmişə çoxlu sayda insanın, genefondun, infrastrukturun və ətraf mühitin məhv olmasına səbəb olur. Beynəlxalq səviyyədə buna qarşı ciddi mübarizə aparılmasına baxmayaraq, silahlı münaqişələr heç zaman bitmir, əksinə, yeni üsullarla daha da genişlənir. Təəssüflə qeyd etmək istərdik ki, bu gün bir çox dövlətlər çoxsaylı silahlı münaqişələrin gətirdiyi iztirab və müsibətlərə son qoya bilmir. Baş vermiş təhlükə və insanlar üçün onun ağır nəticələri tədricən beynəlxalq humanitar hüququn inkişafını aktuallaşdırdı. Hesab edirik ki, beynəlxalq humanitar hüququn məqsədləri tam şəkildə həyata keçirilənədək onun aktuallığı qorunub saxlanılacaq.

Aktuallığı şərtləndirən ən mühüm xüsusiyyətlərdən biri dövlətlərin beynəlxalq humanitar hüququn tələblərinə biganə yanaşmalarıdır. Beynəlxalq humanitar hüququn həyata keçirilməsinə laqeyd münasibət nəticə etibarilə dövlətlərin bir-birinə qarşı inamsızlığına səbəb olur. Tərəflərdən birinin qeyri-qanuni hərəkətlərdə iştirakına dair şübhələr beynəlxalq və daxili silahlı münaqişələrdə dəfələrlə müxtəlif

formalarda cavab sanksiyaları üçün bəhanə kimi istifadə edilib: münasibətlərin kəsilməsi və iqtisadi sanksiyalardan tutmuş raket hücumları və bombardmanlara qədər. Dövlətlərin böyük əksəriyyətinin beynəlxalq humanitar hüququn pozulmasının qarşısının alınmasında obyektiv marağı ilə bu sahədə beynəlxalq əməkdaşlığı universallaşdırmaq imkanının olmaması və ya istəməməsi arasında ziddiyyət, beynəlxalq təminatların və nəzarət mexanizmlərinin yaradılmasının fövqəladə ehtiyacı son dərəcə mürəkkəbliyi və aktuallığı müəyyən edir [1, s.14]. Beynəlxalq hüquqşünaslar – S.A.Yeqorova, A.Y.Kapustina, İ.İ. Kotlyarova, B.R.Tuzmuxamedov – beynəlxalq humanitar hüququn müasir problemlərinə toxunaraq, onun yeniliyi və aktuallığını, habelə vahid yanaşmanı özündə əks etdirən, dünya birliyi üçün əhəmiyyətli olan bir çox beynəlxalq-hüquqi sənədlərin qəbuluna ehtiyac olduğunu vurğulamışlar.

Beynəlxalq hüququn müstəqil institutu kimi formalaşmış beynəlxalq humanitar hüquq beynəlxalq silahlı münaqişənin humanistləşdirilməsinə kifayət qədər mühüm töhfə vermişdir. Beynəlxalq hüquqla beynəlxalq humanitar hüquq fərqli münasibətləri tənzim etsə də, hər ikisinin fəaliyyətinin əsası beynəlxalq hüquq normalarına bağlanır. Beynəlxalq hüquq normaları ümumilikdə dövlətlərarası münasibətləri tənzim etməklə bərabər, beynəlxalq hüququn digər sahələrinin fəaliyyətinə də təsir edir. Beynəlxalq humanitar hüquq beynəlxalq hüquq normalarından kənarda fəaliyyət göstərə bilməz. Əslində, müasir beynəlxalq hüquq ayrı-ayrı institutların (beynəlxalq cinayət hüququ, diplomatiya və konsulluq hüququ, beynəlxalq humanitar hüquq, beynəlxalq insan hüquqları hüququ) sayəsində formalaşmış və təsir imkanlarına malik olmuşdur.

Görkəmli fransız mütəfəkkiri Monteskyö qeyd etmişdir ki, beynəlxalq hüquq təbii olaraq sülh dövründə dövlətlərin mümkün qədər çox yaxşılıq, müharibə zamanı isə mümkün qədər az pislik etmələri prinsipinə əsaslanır [2].

Beynəlxalq hüquq ayrı-ayrı dövlətlərin milli hüquq sistemlərindən fərqli olan və onlardan asılı olmayaraq mövcud olan hüquqi normalar sistemidir. O, məhz dövlətlər arasındakı müxtəlif xarakterli münasibətləri hüquqi çərçivəyə salmaq üçün yaranmışdır [3, s.5]. Beynəlxalq hüquq normaları dövlətlərarası münasibətlər sisteminin, demək olar ki, hər bir aspektini əhatə edir. Beynəlxalq humanitar hüquq beynəlxalq hüquqla müqayisədə daha aşağı səviyyədədir və əhatə dairəsi daha azdır. Yəni beynəlxalq hüquq ümumi olaraq, bütün sahələrdə münasibətləri tənzim etdiyi halda, beynəlxalq humanitar hüquq ancaq silahlı münaqişələrə aiddir, silahlı münaqişələr zamanı fərdin hüquqlarını qorumağa yönəlir. İsveçrəli hüquqşünas Jan Piktenin fikrincə, beynəlxalq humanitar hüquq insanlığa münasibətdə qayğı prinsipinə əsaslanmaqla fərdin müdafiəsini təmin edir [4, s.5]. Yeri gəlmişkən, qeyd etmək istərdik ki, "beynəlxalq humanitar hüquq" anlayışı Jan Pikte tərəfindən beynəlxalq-hüquqi leksikona daxil edilmişdir.

## Beynəlxalq humanitar hüququn inkişafı və tətbiqi sahəsi

XX əsrin son rübündə beynəlxalq ictimaiyyət silahlı mübarizənin gedişində kəskin dəyişikliklərlə üzləşmişdir. Həm daxili, həm də beynəlxalq silahlı münaqişələrin yeni forma və metodları geniş vüsət almışdır. Sürətli silahlanma və silahların daima təkmilləşdirilməsi şəraitində müharibə üsul və vasitələri mürəkkəbləşir, proses beynəlxalq hüquq normaları ilə idarə olunmur və buna görə də beynəlxalq humanitar hüquq normalarının qadağanedici və məhdudlaşdırıcı müddəalarının tətbiqi mümkün olmur [5, s.9]. Bu isə beynəlxalq humanitar hüquq normalarının ciddi şəkildə pozulmasına səbəb olur. Eyni zamanda yeni nəsil münaqişələrdə döyüşən tərəflərin davranışı ilə beynəlxalq humanitar hüquq normaları uyğunluq təşkil etmir və bu da müəyyən boşluqları üzə çıxarır. Bununla belə, beynəlxalq humanitar hüquq sahəsində yeni müqavilələr beynəlxalq və qeyri-beynəlxalq münaqişələrə eyni qayda və prinsiplərin tətbiqi istiqamətində müasir tendensiyanı əks etdirir [6, s.15-17].

Silahlı münaqişələr hüququ və ya müharibə hüququ kimi tanınan beynəlxalq humanitar hüququ XIX əsrin məhsulu hesab etsək də, onun prinsip və normaları daha qədimdir. Bəzən beynəlxalq hüquqşünaslar beynəlxalq humanitar hüququ müxtəlif zaman və mədəniyyətləri əhatə edən müharibə qaydalarında tapırlar. Digər məqamlarda isə beynəlxalq hüquqşünaslar Solferino döyüşünün şahidi olmuş və Beynəlxalq Qırmızı Xaç Komitəsini yaratmağı, Cenevrə Konvensiyaları ənənələrinin təşviq

olunmasını qarşısına məqsəd qoymuş Anri Dünan ideyalarına əsaslanırlar [7]. Hər iki yanaşma beynəlxalq humanitar hüququn tarixi, mahiyyəti və məqsədi haqqında məlumat əldə etməyə kömək edir.

Göstərilənlərlə bərabər, qeyd etmək istərdik ki, "beynəlxalq humanitar hüquq" anlayışı öz ifadəsini jus in bello – müharibənin aparılması ilə bağlı qanunların mövcud anlayışında tapır.

Beynəlxalq Qızıl Xaç Komitəsi beynəlxalq humanitar hüququ aşağıdakı formada təsvir edir [8, s.124]:

"Beynəlxalq humanitar hüquq dövlətlər arasında münasibətləri tənzimləyən beynəlxalq hüquq normalarının bir hissəsidir. Onun məqsədi döyüş əməliyyatlarında iştirak etməyən və ya artıq iştirak etməyən şəxslərin, xəstələrin və yaralıların, məhbusların və mülki şəxslərin müdafiəsi, döyüş əməliyyatlarının aparılması zamanı münaqişə tərəflərinin hüquq və vəzifələrinin müəyyən edilməsidir" [8, s.126].

Beynəlxalq Qızıl Xaç Komitəsinin izahı müstəsnadır, hüquqşünasların verdiyi təriflər də çox oxşardır [9, s.14]. Geniş şəkildə yanaşsaq, beynəlxalq humanitar hüquq silahlı münaqişənin aparılmasını yumşaltmağa və onun gətirdiyi iztirabları azaltmağa çalışan beynəlxalq ümumi hüququn bir qoludur [10, s.67]. Tanınmış beynəlxalq hüquqşünas Cherif Bassiouni qeyd edirdi ki, bu yanaşmalar o qədər bir-birinə qarışıb və ya bir-birini təkrarlayır ki, bununla bağlı konkret fikir söyləmək çox çətindir. Bunu ancaq eyni sikkənin iki üzü kimi təsəvvür etmək olar [11, s.120].

Göstərilənləri ümumiləşdirərək qeyd edə bilərik ki, "beynəlxalq humanitar hüquq" anlayışı silahlı münaqişəyə aid olan beynəlxalq hüququn bütün qaydalarına – istər beynəlxalq hüquqi adətlər, istərsə də Haaqa və ya Cenevrə Konvensiyalarına uyğun formada istifadə oluna bilər [12, s.42].

Beynəlxalq humanitar hüquq silahlı münaqişələrin gedişində yaranmış narahatlıqlar və hərbi zərurət arasında tarazlıq yaratmaq üçün nəzərdə tutulmuşdur. Təbii ki, o heç bir halda müharibəni qadağan etmir, sadəcə, müharibənin dağıdıcı təsirini məhdudlaşdırmağa, insanların əzablarını yüngülləşdirməyə və xüsusilə, fərdin hüquqlarının qorunmasına xidmət edir. Döyüş əməliyyatlarında birbaşa və ya fəal iştirak etməyən və yaxud artıq iştirak etməyən şəxsləri müdafiə edir, müharibə vasitələri və üsullarına məhdudiyyətlər qoyur. Beynəlxalq humanitar hüquq, həmçinin "müharibə qanunu" və ya "silahlı münaqişə qanunu" kimi tanınır. Beynəlxalq humanitar hüquq, ilk növbədə, müqavilələrdən, beynəlxalq adət hüququndan və hüququn ümumi prinsiplərindən ibarət olan beynəlxalq ümumi hüququn bir hissəsidir.

Xüsusilə qeyd etmək istərdik ki, beynəlxalq humanitar hüquq beynəlxalq insan hüquqları hüququ və beynəlxalq cinayət hüququ institutları ilə sıx bağlıdır. Əslində, beynəlxalq humanitar hüquq və beynəlxalq insan hüquqları hüququ, beynəlxalq cinayət hüququ bir-birini tamamlayan hüquq sahələridir. Müxtəlif şəraitdə və müxtəlif yollarla olmasına baxmayaraq, hər üç hüquq sahəsi insan ləyaqətini qorumağa çalışır. Sadəcə, beynəlxalq humanitar hüquqla beynəlxalq insan hüquqları hüququ arasında ciddi fərq var. Beynəlxalq insan hüquqları hüququ hər zaman və bütün şəraitdə tətbiq edilir və o, dövlətin yurisdiksiyasına tabe olan bütün şəxslərə aiddir, beynəlxalq humanitar hüquq isə beynəlxalq hüququn müstəqil sahəsi kimi beynəlxalq insan hüquqları hüququndan fərqli olaraq hər zaman bütün fərdlərə şamil olunan universal hüquqlar müəyyən etmir. Buna baxmayaraq, hər iki hüquq sahəsi qarşılıqlı əlaqədədir. BMT Baş Assambleyası 19 dekabr 1968-ci ildə Silahlı Münaqişələrdə İnsan Hüquqlarına Hörmət haqqında 2444 (XXIII) saylı Qətnamə qəbul etdi [13, s.70]. Mövzu BMT Baş Assambleyasının 24, 25 və 26-cı sessiyalarında müzakirə olunmağa davam etdi.

1969-cu ildə keçirilən 24-cü sessiyada Baş katib "Silahlı münaqişələrdə insan hüquqlarına hörmət" mövzusunda məruzə etdi. O, silahlı münaqişə ilə bağlı humanitar xarakterli beynəlxalq sənədlərin tarixi tədqiqini ehtiva edir, 1949-cu il Cenevrə Konvensiyaları ilə BMT-nin insan hüquqlarına dair sənədləri arasında əlaqəyə baxır və bütün silahlı münaqişələrdə humanitar prinsiplərə hörməti təmin etmək üçün addımları nəzərdən keçirir [13, s.104].

Beynəlxalq cinayət hüququ ilə qarşılıqlı əlaqəyə gəldikdə isə qeyd etmək istərdik ki, beynəlxalq humanitar hüququn ciddi pozuntusu beynəlxalq cinayətin baş verməsinə səbəb olur və müharibə cinayətlərinin tərkibi yaranır. Müharibə cinayətlərini beynəlxalq səviyyədə təqib edən və təqsirkarları mühakimə edən beynəlxalq cinayət tribunallarının hər birinin nizamnaməsində beynəlxalq humanitar

hüquq normaları və Cenevrə Konvensiyalarının müddəaları əks olunmuşdur. Bu da beynəlxalq humanitar hüquqla beynəlxalq cinayət hüququnun qarşılıqlı münasibətlərinə aid nümunədir.

Beynəlxalq humanitar hüququ özündə şərtləndirən Cenevrə Konvensiyasının spesifikliyi ondan ibarətdir ki, bu Konvensiyaların hər biri qorunan şəxslərin fərqli kateqoriyasına şamil edilir və hər bir kateqoriya üçün hörmət edilməli olan minimum rəftar standartını müəyyən edir. Bu halda, beynəlxalq humanitar hüquq normaları vəziyyətindən asılı olmayaraq bütün beynəlxalq və qeyri-beynəlxalq silahlı münaqişələrə tətbiq olunur. Buradan belə bir nəticə əldə olunur ki, beynəlxalq humanitar hüquq müharibəni qadağan etmir, əslində, dövlətlərin müharibə hüququnu tanıyır, sadəcə o, müharibə aparılmasının metod və vasitələrini, habelə mülki əhalinin, xəstə və yaralı döyüşçülərin və hərbi əsirlərin humanitar müdafiəsini tənzimləyən prinsiplər və qaydalar kimi müəyyən edilir [14, s.267]. O, seçimsiz zorakılığa qarşı çıxır, silahlı münaqişə zamanı mülki şəxslərlə humanist davranmanı tələb edir.

Xüsusilə qeyd etməliyik ki, hərbi əməliyyatlarda birbaşa və ya fəal iştirak etməyən və ya artıq iştirakı mümkün olmayan şəxsləri müdafiə edir, müharibə üsul və vasitələrinə məhdudiyyətlər qoyur [15].

Həm hərbi əməliyyatlardan zərər çəkənlərin müdafiəsinə, həm də müharibə vasitələri və üsullarının tənzimlənməsinə tətbiq olunan beynəlxalq humanitar hüququn çox mühüm xüsusiyyətləri var. Onun ən başlıca xüsusiyyəti silahlı münaqişələrə tətbiq olunmasıdır. Silahlı münaqişələrə tətbiqolunma qaydaları aşağıdakı kimi ümumiləşdirilmişdir [16, s.145]:

– *döyüş zamanı* (döyüşdənkənar) şəxslər və döyüş əməliyyatlarında bilavasitə iştirak etməyən şəxslər öz həyatlarına, fiziki və mənəvi toxunulmazlıqlarına hörmət etmək hüququna malikdirlər. Onlar bütün hallarda qorunmalı və heç bir fərq qoyulmadan onlara humanist münasibət göstərilməlidir;

– təslim olan və ya *döyüşə girməyən* düşməni öldürmək və ya yaralamaq qadağandır;

– yaralı və xəstələr üstünlüyü olan münaqişə iştirakçısı tərəfindən toplanır və onlara qulluq edilir. Mühafizə, həmçinin tibb işçilərini, müəssisələri, nəqliyyat vasitələrini və *materialları* əhatə edir. Qırmızı xaç, qırmızı aypara və qırmızı kristalın emblemi belə qorunmanın əlamətləridir və onlara hörmət edilməlidir;

– əsir düşmüş döyüşçülər və qarşı tərəfin tabeliyində olan mülki şəxslər öz həyatlarına, ləyaqətlərinə, şəxsi hüquq və əqidələrinə hörmət etmək hüququna malikdirlər. Onlar bütün zorakılıq və repressiyalardan qorunmalıdırlar. Onların ailələri ilə yazışmaq və yardım almaq hüququ vardır;

– hər kəsin əsas məhkəmə təminatlarından istifadə etmək hüququ vardır. Heç kim törətmədiyi əmələ görə məsuliyyət daşımır. Heç kəs fiziki və ya ruhi işgəncəyə, fiziki cəzaya, qəddar və ya ləyaqəti alçaldan rəftara məruz qala bilməz;

– münaqişə tərəfləri və onların silahlı qüvvələrinin üzvləri müharibə üsulları və vasitələrinin qeyri-məhdud seçiminə malik deyillər. Lazımsız itkilərə və ya həddindən artıq iztirablara səbəb olan silah və ya döyüş üsullarından istifadə etmək qadağandır;

– münaqişə tərəfləri hər zaman mülki əhali ilə döyüşçülər arasında fərq qoymalıdırlar. Mülki əhali və mülki şəxslər hücum obyekti olmamalıdır. Hücumlar yalnız hərbi məqsədlərə yönəldilməlidir.

Qeyd olunan bu qaydalar, demək olar ki, beynəlxalq humanitar hüquq normalarının tam mahiyyətini əks etdirməklə onun birbaşa təyinatını izah edir və beynəlxalq hüquq normaları sistemində yerini müəyyənləşdirir. Eyni zamanda qeyd etmək istərdik ki, beynəlxalq humanitar hüququn bu qaydaları təkcə beynəlxalq silahlı münaqişələrdən yaranan problemlərə deyil, həm də qeyri-beynəlxalq silahlı münaqişələrə də aid edilir. Beynəlxalq humanitar hüququn tələblərini özündə ehtiva edən Cenevrə Konvensiyaları beynəlxalq və qeyri-beynəlxalq silahlı münaqişələrə tətbiq olunur.

Bu gün beynəlxalq humanitar hüquq müharibə zamanı insanların təhlükəsizliyini və ləyaqətini təmin etmək üçün beynəlxalq ictimaiyyətin ixtiyarında olan ən güclü vasitələrdən biridir. O hətta müharibədə də məhdudiyyətlərin olması prinsipini rəhbər tutaraq, münaqişə zamanı insan ləyaqətini qorumağa çalışır.

Beynəlxalq humanitar hüquq üç vəziyyətdə tətbiq edilir:

– ən azı iki ölkənin iştirak etdiyi beynəlxalq silahlı münaqişələr;

– ölkənin bütün ərazisinin və ya bir hissəsinin xarici dövlət tərəfindən işğal edildiyi vəziyyətlər;

– ölkə daxilində hökumətlə bir və ya bir neçə mütəşəkkil silahlı qrup və ya müxtəlif mütəşəkkil silahlı qruplar arasında yaranan silahlı münaqişələr.

Təkcə münaqişə tərəfləri deyil, həm də silahlı münaqişədə iştirak edən bütün şəxslər beynəlxalq humanitar hüquq normalarına riayət etməlidirlər.

Mövzunun elmi yeniliyi beynəlxalq humanitar hüquq normalarının müxtəlif aspektləri, növləri, formaları, metodları, mexanizm və normalarının həyata keçirilməsində, beynəlxalq hüququn digər sahələri ilə qarşılıqlı əlaqəsinə təsir edən amillərin hərtərəfli təhlili yolu ilə onların tətbiqi problemlərinin işlənib hazırlanmasındadır. Bununla yanaşı, əsas elmi yeniliklərdən biri kimi, beynəlxalq humanitar hüquq normalarının ciddi pozuntularının müharibə cinayətlərinin tərkibini yaratmasıdır.

## Nəticə

Beynəlxalq humanitar hüququn yaranması, inkişafı və xüsusiyyətləri, habelə beynəlxalq hüquq normaları sistemində yeri ilə bağlı aşağıdakı nəticələri qeyd edə bilərik:

**Birincisi,** "beynəlxalq humanitar hüquq" anlayışı "müharibə", "silahlı münaqişə" anlayışlarından kənar təsəvvür oluna bilməz. Müharibələr olduğu yerdə beynəlxalq humanitar hüquq var. Bu səbəbdən də beynəlxalq humanitar hüquq dedikdə, silahlı münaqişələr zamanı tətbiq olunan, müharibənin aparılmasının müəyyən üsul və metodlarının tətbiqini qadağan edən və ya məhdudlaşdıran hüquq sahəsi başa düşülməlidir. Eyni zamanda bu hüquq sahəsi döyüş meydanına məhz fərdin hüquq və mənafelərini qorumaq üçün gəlir.

**İkincisi,** beynəlxalq humanitar hüquq beynəlxalq ümumi hüququn müstəqil bir institutudur. Onun beynəlxalq hüquq normalarından ayrı formada fəaliyyət göstərməsi mümkün deyil.

**Üçüncüsü,** beynəlxalq humanitar hüquq beynəlxalq və qeyri-beynəlxalq silahlı münaqişələrə tətbiq olunmaqla müharibələrin metod və vasitələrini məhdudlaşdırır, əzabları yüngülləşdirir.

**Dördüncüsü,** beynəlxalq humanitar hüquq beynəlxalq insan hüquqları hüququ və beynəlxalq cinayət hüququ ilə əlaqəli şəkildə inkişaf edir və münasibətləri tənzimləyir.

**Beşincisi,** beynəlxalq humanitar hüquq yalnız silahlı münaqişələrə tətbiq olunur və silahlı münaqişə şəraitində fərdin hüquqlarının qorunmasını təmin edir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Bassiouni, M.Ch. The Normative Framework of İnternational Humanitarian Law: Overlaps, Gaps and Ambiguities: [Electronic resource] / – USA, 2012. URL: https://digital-commons.usnwc.edu/cgi/viewcontent.cgi?referer=&httpsredir=1&article=1436&context=ils,USA,1998

2. Колосов, Ю.М. Устав Организации Объединенных Наций, Действующее международное право. Документы в 2-х т. – т.1. Составители. Учебное пособие. / Ю.М.Колосов, Э.С.Кривчикова – Москва: Международные отношения, – 2002.

3. Hüseynov, L.H. Beynəlxalq hüquq / L.H.Hüseynov. – Bakı: Hüquq Ədəbiyyatı, – 2000.

4. Ореховский, В.О. Возникновение и развитие международного гуманитарного права / В.О.Ореховский. – Москва: Норма, – 1994. – 5 с.

5. Jinks, D. Applying İnternational Humanitarian Law in Judicial and Quasi-Judicial Bodies. / D.Jinks, J.N.Maogoto, S.Solomon – The Hague: T.M.C. Asser Press, – 2014. – 9 p.

6. Конвенция об открытии военных действий (Гаага, 18 октября 1907 года) Международное право // Ведение военных действий: Сборник Гаагских конвенций и иных международных документов. 3-е изд., испр., – Москва: МККК, – 2001. – 15-17 с.

7. Geneva Conventions 1949, 1125 UNTS 3

8. Geib, R. İnternational Committee of the Red Cross, War and İnternational Humanitarian law. / R.Geib, A.Zimmermann – Cambridge University Press, 2010.

9. Раджабов, С.А. Имплантация норм международного гуманитарного права в Республике Таджикистан: проблемы теории и практики, доктора юридических наук: [Электронный ресурс] /

– Москва, 2008. URL: https://www.dissercat.com/content/implementatsiya-norm-mezhdunarodnogo-gumanitarnogo-prava-v-respublike-tadzhikistan-problemy-

10. Bassiouni, M.Ch. divides these sectors differently, as conventional law (Geneva) and customary law (Hague) / M.Ch.Bassiouni. – Publisher İntersentia, – 2010. – 7 p.
11. Bassiouni, M.Ch. divides these sectors differently, as conventional law (Geneva) and customary law (Hague) / M.Ch.Bassiouni. – Publisher Brill Nijhoff, – 2013. – 18 p.
12. Greenwood, Historical Development and Legal Basis in D. Fleck and M. Bothe (eds), The Handbook of İnternational Humanitarian Law, – 2008.
13. Respect for Human Rights in Armed Conflicts, Report of the Secretary-General, Agenda İtem 61, UN Doc. A/7720, – November 20, 1969.
14. Basic Facts about the United Nations / – New York: United Nations, – 1998.
15. War and international humanitarian law: [Electronic resource] / – October 29, 2010. URL: http://www.icrc.org/eng/war-and-law/overview-war-and-law.htm
16. Conventions (hereafter APİ) and rules of customary IHL as stated in J.-M. Henckaerts and L. Doswald-Beck. – Customary İnternational Humanitarian Law: Cambridge University Press, – vol. 1. – 2005.

**Аннотация**

**Место и роль международного гуманитарного права**
**в системе международно-правовых норм**
**Аловсат Аллахвердиев, Айтан Гусейнова**

Международное гуманитарное право занимает уникальное место в системе международно-правовых норм. Безразличный подход государств к требованиям международного гуманитарного права делает ее еще более актуальной.

В статье рассматривается место международного гуманитарного права в системе международно-правовых норм. Здесь учитываются такие вопросы, как их различие и близость. Поскольку международное гуманитарное право является независимым институтом международного права, оно не может развиваться вне норм международного права. В статье главным образом раскрыта история, природа и функции норм международного гуманитарного права, а также их взаимодействие с международным уголовным правом и международными правозащитными институтами. В обоих случаях как нарушение прав человека, так и возникновение международных преступлений являются результатом серьезных нарушений международного гуманитарного права.

Пока в мире существуют вооруженные конфликты, международное гуманитарное право будет сохранять свою актуальность, в том числе развиваясь в связи с международным уголовным правом как область права, запрещающая или ограничивающая применение отдельных методов и способов ведения войны, обеспечивающая защиту, регулирует права и отношения личности.

**Ключевые слова:** вооруженные конфликты, международное гуманитарное право, Женевские конвенции, права человека

**Abstract**

**The place and role of international humanitarian law**
**in the system of international law norms**
**Alovsat Allahverdiyev, Aytan Huseynova**

International humanitarian law has a unique place in the system of international legal norms. The indifferent approach of states to the requirements of international humanitarian law makes it even more urgent.

The article discusses the place of international humanitarian law in the system of international legal norms. Here, issues such as their difference and closeness are taken into account. As international

humanitarian law is an independent institution of international law, it cannot develop outside the norms of international law. The article mainly explains the history, nature and function of the norms of international humanitarian law, as well as their interaction with international criminal law and international human rights institutions. In both cases, both the violation of human rights and the occurrence of international crimes result from serious violations of international humanitarian law.

As long as there are armed conflicts in the world, international humanitarian law will maintain its relevance, including developing in connection with international criminal law as a field of law that prohibits or restricts the application of certain methods and methods of waging war, ensuring the protection of individual rights and relations regulates.

**Keywords:** armed conflicts, İnternational humanitarian law, Geneva Conventions, human rights

*Məqalə redaksiyaya daxil olmuşdur: 26.01.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 30.01.2024*
*Çapa qəbul edilmişdir:08.02.2024*

**HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE**
**№1/2024, səh. 87-93**
***HƏRBİ XÜSUSİ ELMLƏR*** ***MILITARY SPECIAL SCIENCES***

UOT 341

# QARABAĞ MÜNAQİŞƏSİNDƏ BEYNƏLXALQ HUMANİTAR HÜQUQ NORMALARININ POZULMASI

**ədliyyə müşaviri Elmin Həsənov**
elminnk@mail.ru
*Ədliyyə Nazirliyi*
DOI: 10.30546/mk.2024.1.0087.

***Xülasə.*** Beynəlxalq təşkilatların qətnamələri müasir beynəlxalq hüququn mühüm mənbələrindən birini təşkil edir. Təcavüzkar Ermənistan silahlı qüvvələri Birinci və İkinci Qarabağ müharibələri zamanı beynəlxalq hüququn fundamental norma və prinsiplərini, insan haqlarının, xüsusilə də "Quruda Müharibə Aparma Qanunları və Adətləri Haqqında" Haaqa Konvensiyası, "Müharibə Qurbanlarının Müdafiəsinə Dair" Cenevrə Konvensiyalarının tələblərini pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini və strateji obyektləri raket və ağır artilleriyadan atəşə tutmuşdur. Ermənistandan fərqli olaraq Azərbaycan Respublikası öz üzərinə götürdüyü hüquqi öhdəlikləri vicdanla yerinə yetirmiş və ümumilikdə Birinci və İkinci Qarabağ müharibələri zamanı beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq normalarına əməl etmişdir.

Məqalədə Qarabağ münaqişəsində Ermənistanın Azərbaycan Respublikasına qarşı beynəlxalq hüququn çoxsaylı normalarının qadağan etdiyi fəaliyyətlər həyata keçirməsi, qadağan edilmiş silahlardan istifadə etməsi və mülki obyektləri hədəfə alması faktları araşdırılmış, həmçinin əhalinin sıx məskunlaşdığı ərazilərimizdə kaset bombalarından və ağır artilleriyadan istifadə etməsi nəticəsində mülki vətəndaşlarımızın həlak olması və infrastruktura böyük ziyan dəyməsi barədə müharibə cinayətləri sistemli şəkildə təqdim edilmişdir.

**Açar sözlər:** pozucu fəaliyyət, Qarabağ münaqişəsi, beynəlxalq hüquq, humanitar norma

## Giriş

27 Sentyabr 2020-ci il tarixdə Ermənistan silahlı qüvvələri yenidən genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini iriçaplı silahlar, artilleriya qurğularından intensiv atəşə tutmuşdur. Ermənistanın hərbi-siyasi rəhbərliyi təxribatçı əməllərini davam etdirərək, 3-cü ölkələrin münaqişəyə cəlb edilməsi üçün xeyli səylər göstərmiş, Cenevrə Konvensiyaları ilə üzərinə düşən öhdəlikləri kobud şəkildə pozmaqla dinc əhalinin sıx yaşadığı əraziləri ağır silahlardan atəşə tutmuş, bununla da mülki əhaliyə qarşı müxtəlif cinayətlər törətmişdir. Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli, Cəbrayıl rayonunun Cocuq Mərcanlı, Goranboy və Daşkəsən rayonlarının bir neçə kəndinin intensiv atəşə tutulması nəticəsində mülki əhali arasında həlak olanlar və yaralananlar olmuş, o cümlədən çoxsaylı ev və mülki obyektlərə külli miqdarda ziyan dəymişdir. Azərbaycan Ordusunun ön xətt bölmələri bu təxribatın qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə cavab tədbirləri görmüşdür.

Beləliklə, hərbi əməliyyatlar intensiv xarakter almış və Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilmişdir. 44 gün ərzində həyata keçirilən sürətli döyüş əməliyyatları ilə Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olunmuşdur.

Məqalədə məqsəd Azərbaycana qarşı Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində beynəlxalq humanitar hüquq normalarının ciddi şəkildə pozulması, mülki vətəndaşların düşmənçilik

niyyəti ilə qəsdən öldürülməsi, habelə əhalinin əmlakının bilərəkdən məhv edilməsi və s. cinayətlərinin sistemli şəkildə təqdim etməkdir.

### Əsas hissə

***Hədəfə alınmış mülki strateji obyektlər.*** 27 sentyabr tarixdən başlayan hərbi əməliyyatların gedişi zamanı Ermənistan hərbi qüvvələri Azərbaycanın bir neçə strateji obyektini hədəfə almaqla münaqişənin miqyasını genişləndirmək, əhali arasında vahimə yaratmaq, digər dövlətləri münaqişəyə cəlb etmək niyyəti güdmüşdür. Ermənistan silahlı qüvvələri 06 oktyabr 2020-ci il gecə saatlarından başlayaraq mülki əhalinin sıx yaşadığı və münaqişə zonasından uzaq olan Yevlax rayonu ərazisini, bu ərazidən keçən Bakı –Tbilisi – Ceyhan əsas ixrac neft boru kəmərini kaset tipli raketlərlə atəşə tutmuşdur. Raketlər Yevlax rayonu ərazisindən keçən boru kəmərinin 10 metrliyinə düşmüşdür. Nəticədə 300-dən çox kaset tipli bombanın qəlpələri ətrafa yayılmışdır. Bu isə mülki əhalinin həyat və sağlamlığı üçün ciddi təhlükə və təhdiddir. ANAMA-nın xüsusi mobil qrupu tərəfindən ərazidə aparılan araşdırma zamanı fakt təsdiqini tapmış, ətrafa səpələnmiş bombacıqlar ərazidən götürülərək zərərsizləşdirilmişdir.

18 oktyabr saat 13.00 radələrində Xızı rayonunda partlayış səsi eşidilmiş və əraziyə raket qalıqları düşmüşdür. ANAMA-nın xüsusi mobil əməliyyat qrupu hadisə yerində, Sitalçay ərazi-sində operativ taktiki raketin qalıqlarını aşkarlamışdır. Raket Azərbaycan Hərbi Hava Qüvvələri tərəfindən vurulmuşdur. Bu raket 300 km radiusda hədəfləri aşkarlama qabiliyyətinə malikdir. Raketin 250 – 280 km məsafədə uçuş qabiliyyətinə malik olması müəyyənləşdirilmişdir.

***Beynəlxalq hüquq normalarının pozulması.*** Təcavüzkar Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn fundamental norma və prinsiplərini, insan haqlarının, xüsusilə də “Quruda Müharibə Aparma Qanunları və Adətləri Haqqında” 18.10.1907-ci il Haaqa Konvensiyasının 25 və 27-ci maddələrinin, “Müharibə Qurbanlarının Müdafiəsinə Dair” 12.08.1949-cu il tarixli Cenevrə Konvensiyaları və onlara 08.06.1977-ci il tarixdə əlavə olunan “Beynəlxalq Silahlı Münaqişə Qurbanlarının Müdafiəsinə Dair” I Protokolun və “Qeyri-Beynəlxalq Xarakterli Silahlı Münaqişə Qurbanlarının müdafiəsinə dair” II Protokolun, həmçinin 10 oktyabr 2020-ci il tarixdə saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini və strateji obyektləri raket və ağır artilleriyadan atəşə tutmağa davam etmişdir [1, s.1-12].

Ermənistan silahlı qüvvələri 17.10.2020-ci il tarixdə gecə saat 01 radələrində növbəti dəfə Mingəçevir Su Elektrik Stansiyasını hədəfə almaqla cəbhə zonasından 100 km-dən artıq uzaqlıqda yerləşən, iri sənaye şəhəri Mingəçevirə raketlər atmışdır. Raketlər Azərbaycan Ordusunun hava hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilmişdir. Humanitar atəşkəs dövründə cəbhə xəttindən kənarda yerləşən şəhərlərin hədəfə alınmasında Ermənistanın məqsədi Azərbaycanın dərinliklərində yerləşən ərazilərdə əhali arasında vahimə yaratmaq olmuşdur.

22 oktyabr 2020-ci il tarixdə Ermənistan hərbi birlikləri, Abşeron yarımadasını içməli su ilə təchiz edən və respublika üçün xüsusi strateji əhəmiyyətə malik Oğuz – Qəbələ – Bakı su kəmərini hədəfə alaraq raket atəşinə məruz qoymuşdur. Azərbaycan Ordusunun Hava Hücumundan Müdafiə Qüvvələri tərəfindən raketin zərərsizləşdirilməsi nəticəsində onun qalıqları su kəmərinin yaxınlığına düşmüşdür. Oktyabrın sonlarında təmas xəttindən kənarda yerləşən Göygöl və Daşkəsən rayonlarının meşə massivinin atəşə tutulması nəticəsində yanğınlar baş vermiş, fauna və floraya ciddi ziyan dəymiş və ekoloji terror törədilmişdir [3].

Beynəlxalq təşkilatların qətnamələri müasir beynəlxalq hüququn mühüm mənbələrindən birini təşkil edir. Sözsüz ki, yaradılış məqsədləri dünyada sülhün və təhlükəsizliyin qorunub saxlanması və dövlətlər arasında əməkdaşlığın inkişaf etdirilməsinə xidmət etmək olan nüfuzlu beynəlxalq təşkilatların ən geniş beynəlxalq-hüquqi subyektlik səlahiyyətinə malik olanı Birləşmiş Millətlər Təşkilatıdır. BMT Nizamnaməsinin 103-cü maddəsində Birləşmiş Millətlər Təşkilatı üzvlərinin bu Nizamnamədən irəli gələn öhdəlikləri ilə onların hər hansı digər beynəlxalq sazişdən irəli gələn öhdəlikləri arasında ziddiyyət olduqda, onların bu Nizamnamədən irəli gələn öhdəliklərinin daha üstün gücə malik olması ifadə olunmuşdur. Hətta BMT-nin Beynəlxalq Məhkəməsi BMT Baş Məclisinin “Dövlətlərin Müstəqilliyinin və Suverenliyinin Məhdudlaşdırılması Məqsədilə Onların Daxili İşlərinə Qarışmağın Yolverilməzliyi

Haqqında BMT Baş Məclisinin Bəyannaməsi, Qət-namə №2131 (XX), 21.12.1965-ci il; Dövlətlərin Daxili İşlərinə Qarışmağın və Onlara Qarşı İntervensiyanın (hərbi, siyasi, informasiya və iqtisadi müdaxilə yolu ilə bir və ya bir neçə dövlətin digər bir dövlətin daxili işlərinə qarışması və suverenliyini pozması) Yolverilməzliyi Haqqında BMT Baş Məclisinin Bəyannaməsi, Qətnamə №36/103, 09.12.1981-ci il; Beynəlxalq Mübahisələrin Dinc Yolla və Ədalətlə Həlli Haqqında BMT Baş Məclisinin "Manila" Bəyannaməsi, Qətnamə №37/10, 15.11.1982-ci il;" kimi Qətnamələrinə dəfələrlə, o cümlədən 1986-cı ildə baxdığı məşhur Nikaraqua işində istinad etmişdir [4, s.19].

Bütün Cenevrə Konvensiyaları üçün ümumi olan 1-ci maddədə isə nəzərdə tutulur ki, "Razılığa gələn Yüksək Tərəflər bütün hallarda bu Konvensiyaya əməl edəcəklərini və əməl olunmasını təmin edəcəklərini öhdələrinə götürürlər [5, s.5]. Cenevrə Konvensiyaları və Beynəlxalq humanitar hüquq normalarının əksəriyyəti özü icra olunan normalardır. Belə ki, onların tətbiqi üçün xüsusi tədbirlərin görülməsinə ehtiyac yoxdur. Cenevrə Konvensiyaları və onlara Əlavə Protokolların bəzi müddəalarının icra olunması üçün dövlətlər implementasiya tədbirləri görməlidirlər. İmplementasiya tədbirləri dedikdə, beynəlxalq humanitar hüquqa aid sazişlərin prinsip və normalarının milli səviyyədə konkretləşdirilməsi üçün hüquqi və ya praktiki xarakterli xüsusi tədbirlərin görülməsi nəzərdə tutulur [6, s.450,451].

BMT Nizamnaməsinin 103-cü maddəsinin Birləşmiş Millətlər Təşkilatı üzvləri tərəfindən icrası ilə əlaqədar olaraq bildirmək yerinə düşərdi ki, Azərbaycan Respublikasında beynəlxalq hüquq normalarının implementasiyası (həyata keçirilməsi) inkorporasiya (daxiletmə) yolu ilə aparılır. Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin (Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan aktlar) II bəndində göstərilmişdir ki, Azərbaycan Respublikasının tərəfdaş çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Göstərilən maddə bütün beynəlxalq müqavilələrin, yəni dövlətlərarası, hökumətlərarası, idarələrarası sazişlərin də ümumi inkorporasiyasını (Azərbaycan Respublikasında beynəlxalq hüquq normaları, onların məcburiliyi dövlət tərəfindən müvafiq qaydada tanındıqdan sonra heç bir dövlətdaxili akt olmadan birbaşa milli hüquqa daxil edilir və milli hüquq normaları kimi tətbiq olunur. İnkorparasiya "beynəlxalq hüquq milli hüququn tərkib hissəsidir" kimi anlaşılır) nəzərdə tutur.

Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsində (Beynəlxalq aktların hüquqi qüvvəsi) göstərilmişdir ki, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir [7].

Azərbaycan Respublikasından fərqli olaraq Ermənistan öz üzərinə götürdüyü öhdəlikləri vicdanla yerinə yetirməmiş və ümumilikdə Birinci və İkinci Qarabağ müharibələri zamanı beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq normalarına əməl etməmişdir.

Azərbaycan Respublikasının Ermənistan tərəfindən silahlı təcavüzə məruz qalması ilə əlaqədar olaraq BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822 (30.04.1993, Kəlbəcər rayonunun işğalı ilə əlaqədar), 853 (29.07.1993, Ağdam rayonunun işğalı ilə əlaqədar), 874 (14.10.1993, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının işğalı ilə əlaqədar), 884 (11.11.1993, Zəngilan rayonunun işğalı ilə əlaqədar) saylı qətnamələr işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsini tələb edir. Qətnamələrin qəbul edilməsindən 27 il keçməsinə baxmayaraq onun müddəaları Ermənistan tərəfindən icra edilməmişdir. İşğal olunmuş ərazilərdə qanunsuz məskunlaşma həyata keçirilmiş, bütün yaşayış məntəqələri yer üzündən silinmişdir [8, s.122].

BMT Baş Assambleyasının Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 2006-cı il sentyabrın 7-də qəbul etdiyi "Azərbaycanın İşğal Olunmuş Ərazilərində Vəziyyət" adlı Qətnaməsində işğal edilmiş ərazilərdə ermənilər tərəfindən törədilən yanğınlar pislənilmişdir. Baş Assambleyanın 2008-ci il martın 14-də qəbul etdiyi "Azərbaycanın İşğal Olunmuş Ərazilərində Vəziyyət" adlı Qətnaməsi də münaqişənin hüquqi, siyasi və humanitar aspektlərini əhatə edir və həlli prinsiplərini yenidən təsdiqləyir. Bu prinsiplər Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşılmasını, erməni qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını, işğal edilmiş ərazilərdən məcburi köçkün düşmüş insanların öz doğma

yurdlarına qayıtmaq hüququnu, hər iki icmanın Azərbaycanın tərkibində muxtar idarəetmə formasına malik ərazidə birgəyaşayış şərtlərinin təmin edilməsini və ərazilərin işğalı nəticəsində yaradılmış vəziyyətin qeyri-qanuniliyini vurğulayır [3].

Avropa Şurası qərarlarının əsasən siyasi və hüquqi islahatlar sahəsini əhatə etməsinə baxmayaraq, bu qurum vaxtaşırı olaraq Avropada, o cümlədən Cənubi Qafqazda cərəyan edən münaqişələrlə bağlı mövqeyini ifadə etmişdir. İlk olaraq, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin ağırlığını nəzərə alaraq, Avropa Şurasının Parlament Assambleyası (AŞPA) müxtəlif hesabatlar hazırlayaraq, onların heç bir şərt olmadan qayıdışının təmin olunmasına çağırıb və üzv dövlətlərin bu humanitar faciəyə həssas yanaşmalarına çalışıb. AŞPA münaqişənin ATƏT-in vasitəçiliyi ilə "BMT Baş Məclisinin XXV sessiyasında 2625 saylı Qətnamə ilə qəbul olunmuş BMT Nizamnaməsinə uyğun olaraq Dövlətlər Arasında Dostluq Münasibətlərinə və Əməkdaşlığa Aid Beynəlxalq Hüquq Prinsipləri Haqqında 24.10.1970-ci il Bəyannaməsi"nin, "Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Helsinki Müşavirəsinin 1 avqust 1975-ci il tarixli Yekun Aktı"nın və "01.09.1990-cı il Paris Xartiyası"nın prinsipləri əsasında siyasi həllinin tərəfdarı olmuşdur. Qurumun 1997-ci il aprelin 22-də qəbul etdiyi "Cənubi Qafqazda Münaqişələr Haqqında" 1119 saylı qətnaməsi münaqişənin həllinin sərhədlərin toxunulmazlığı, tərəflər arasında danışıqlar yolu ilə razılaşdırılan Dağlıq Qarabağ üçün geniş muxtariyyət statusunun verilməsi, qaçqın və məcburi köçkünlərin qayıtmaq hüququ, bütün xalqların təhlükəsizlik təminatı, o cümlədən sülhün qorunmasını təmin edən çoxmilli qüvvələrin yerləşdirilməsi şərtlərini tanımışdır. AŞPA münaqişələrin həllini etnik qruplara öz xüsusiyyətlərini ifadə etməyə şərait yaradan muxtariyyət statusunun verilməsində görür. Etnik qruplar öz hüquqlarından tam bəhrələnməli və dövlətin ərazi bütövlüyünə xələl gətirməməlidirlər. AŞPA 2005-ci il yanvarın 25-də qəbul etdiyi 1416 saylı "ATƏT-in Minsk qrupu tərəfindən tənzimlənən Dağlıq Qarabağ Münaqişəsi Haqqında" Qətnamədə Azərbaycan ərazilərinin işğal faktını təsdiqləyərək, bu ərazilərdəki etnik təmizləmələrdən narahatlığını ifadə etmiş, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə riayət edilməsinə və qoşunların işğal edilmiş ərazilərdən geri çəkilməsinə çağırış etmişdir. Təşkilat, həmçinin məcburi köçkünlərin öz torpaqlarına qayıtmaq hüququnu təsdiqləmiş, üzv dövlətin ərazisinin digər üzv dövlət tərəfindən işğal edilməsinin yolverilməzliyini vurğulamışdır. Bundan başqa, Azərbaycanın 6 rayonunun 100 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin etmək üçün 1976-cı ildə Tərtər çayı üzərində inşa edilmiş Sərsəng su anbarının işğal nəticəsində qəzalı vəziyyətə düşməsi və sakinlərin suvarma suyundan məhrum olması barədə AŞPA-nın Sosial Məsələlər, Səhiyyə və Davamlı İnkişaf Komitəsi tərəfindən məruzə hazırlanmışdır. Məruzə əsasında 2016-cı il yanvar ayının 26-da qəbul edilən "Azərbaycanın Sərhədyanı Bölgələrinin Sakinləri Qəsdən Sudan Məhrum Edilib" adlı Qətnamə erməni qoşunlarının sözügedən bölgədən geri çəkilməsini tələb edir, qəsdən süni ekoloji böhranın yaradılmasını "ekoloji təcavüz" kimi qiymətləndirir və eyni zamanda Azərbaycan ərazilərinin bir hissəsinin Ermənistan tərəfindən işğal edilməsini bir daha təsdiqləyir [3].

BMT tərəfindən silahlı münaqişələr zamanı ətraf mühitin qorunması daim diqqət mərkəzində saxlanılmış və bununla bağlı bəzi beynəlxalq hüquqi sənədlər qəbul edilmişdir. Onlardan biri də BMT-nin "Ətraf Mühitə və İnkişafa Dair" 14.06.1992-ci il Rio-de-Janeyro Bəyannaməsidir. Bəyannamənin 23-cü prinsipində məzlum və işğal altında yaşayan xalqların ətraf mühitinin və təbii resurslarının qorunmalı olması, 24-cü prinsipində müharibənin dayanıqlı inkişaf prosesinə dağıdıcı təsirinin qaçılmaz olması, dövlətlərin silahlı münaqişələr zamanı ətraf mühitin müdafiəsini təmin edən beynəlxalq hüquqa hörmət etməyə borclu olmaları və zərurət olduqda onun gələcək inkişaf işində də əməkdaşlıq etmələri, 25-ci prinsipində isə sülh, inkişaf və ətraf mühitin mühafizəsi bir-biri ilə bağlı və ayrılmazdır ifadələri təsbit olunmuşdur.

Lakin işğal olunmuş ərazilərdə törədilən ekoloji terror, həmçinin 27.09.2020 – 10.11.2020-ci il tarixlərini əhatə edən İkinci Qarabağ müharibəsi zamanı Ermənistan hərbi birləşmələrinin Gəncə, Bərdə Mingəçevir, Qəbələ, Xızı şəhərlərini ballistik raketlərlə, həmçinin cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini, təsərrüfat sahələrini fosforlu bombalarla atəşə tutması "Ətraf Mühitə və İnkişafa Dair" 14.06.1992-ci il Rio-de-Janeyro Bəyannaməsinin müddəalarına tamamilə ziddir.

Ümumilikdə qeyd edilənlər mülki əhalinin – uşaqların, qadınların, ahılların, əlilliyi olan şəxslərin hərbi münaqişələr zamanı insan hüquqlarının qorunmasına dair beynəlxalq sənədlərin, o cümlədən BMT-nin “Hərbi Münaqişələr Dövründə Mülki Əhalinin Qorunmasının Əsas Prinsipləri və İnsan Hüquqlarına Hörmət Haqqında” BMT Baş Məclisi tərəfindən müxtəlif vaxtlarda qəbul edilmiş Qətnamələrinin (XXIII sessiya 2444 №-li, 19 dekabr 1963-cü il; XXIV sessiya 2597 №-li, 16 dekabr 1969-cu il; XXV sessiya 2674 və 2675 №-li, 09 dekabr 1970-ci il) və xüsusən də “Fövqəladə Hallarda və Silahlı Münaqişələr Dövründə Qadınların və Uşaqların Müdafiəsi Haqqında” BMT Baş Məclisinin XXIX sessiyasinda qəbul olunmuş 3318 №-li, 14 dekabr 1974-cü il tarixli Qətnamənin, “Uşaq Hüquqları Haqqında”, “Əlilliyi Olan Şəxslərin Hüquqları Haqqında” Konvensiyalarının, “Quruda Müharibə Qanunları və Adətləri Haqqında” 18.10.1907-ci il Haaqa Konvensiyasının Düşmənə zərər verilmə vasitələri, mühasirə və bombardmana həsr olunmuş 23-cü maddəsinin, habelə 08.06.1977-ci il tarixdə “Müharibə Qurbanlarının Müdafiəsinə Dair” 12.08.1949-cu il tarixli Cenevrə Konvensiyalarına əlavə olunan “Beynəlxalq Silahlı Münaqişə Qurbanlarının Müdafiəsinə Dair” I Protokolun Mülki əhalinin müdafiəsi haqqında 51-ci, Mülki obyektlərin ümumi müdafiəsi haqqında 52-ci, Mədəniyyət obyektlərinin və ibadətgahların müdafiəsi haqqında 53-cü, Mülki əhalinin sağ qalması üçün zəruri olan obyektlərin müdafiəsi haqqında 54-cü, Təbii mühitin mühafizəsi haqqında 55-ci və Tərkibində təhlükəli qüvvələr olan qurğuların və tikililərin müdafiəsi haqqında 56-cı maddələrinin və “Qeyri-Beynəlxalq Xarakterli Silahlı Münaqişə Qurbanlarının Müdafiəsinə Dair” II Protokolun Mülki əhalinin müdafiəsi haqqında 13-cü, Mülki əhalinin sağ qalması üçün zəruri obyektlərin müdafiəsi haqqında 14-cü, Tərkibində təhlükəli qüvvələr olan qurğuların və tikililərin müdafiəsi haqqında 15-ci və Mədəni obyektlərin və ibadətgahların müdafiəsi haqqında 16-cı maddələrinin müddəalarının tələblərinin ciddi şəkildə pozulmasının əyani sübutudur [4, s.125 ].

Ermənistan qeyd olunan beynəlxalq hüquq normalarını pozmaqla Azərbaycan Respublikasına qarşı “Sülh və İnsanlıq əleyhinə” və “Müharibə cinayətləri” törətmişdir. Bu kimi neqativ əməllərin davam etməsi, çoxsaylı cəzasızlıq nümunələri yaratmaqla müharibə və insanlıq əleyhinə yeni cinayətlərə, dinc əhalinin isə daim həyati təhlükə ilə üz-üzə qalmasına şərait yaradır [1].

***Ermənistan hərbi qüvvələri tərəfindən mülki əhalinin hədəf alınması.*** Bonn Beynəlxalq Konversiya Mərkəzi tərəfindən 2020-ci ilin fevralında açıqlanan dünya ölkələrinin silahlanma indeksinə görə, Ermənistan, min nəfərə düşən hərbi qulluqçu sayına, silahlanmanın ümumi daxili məhsuldakı (ÜDM) payına, hərbi xərclər, səhiyyə, əsgər sayı və ağır silahların miqdarına görə dünyada üçüncü, Avropada isə birinci yerdədir. Məruzədə bildirilir ki, Ermənistanın silahlanma yarışında lider mövqeyinin səbəbi Dağlıq Qarabağ münaqişəsi və son 30 ildə apardığı militarist və ekspansionist siyasətdir [10].

Ermənistanın baş naziri Nikol Paşinyanın baş müşaviri Vaqarşak Arutyunyan 2020-ci ilin 8 oktyabrda Rusiyanın “Rossiya 1” telekanalında yayımlanan “Vesti” televiziya proqramına verdiyi müsahibədə açıq şəkildə bildirmişdir ki, Ermənistan Azərbaycanın dinc şəhərlərini mülki insanlar aralarında çaxnaşma yaratmaq üçün məqsədyönlü şəkildə hədəfə alır və bombardman edir [5].

27 sentyabrda Ermənistan və Azərbaycan arasında müharibə başladığı andan Ermənistan silahli qüvvələri cəbhə bölgələrindən uzaq məsafədə əhalinin sıx məskunlaşdığı yerləri, strateji cəhətdən əhəmiyyətli mülki obyektləri və enerji infrastrukturlarını atəşə tutmağa davam etmişdir. Ermənistan silahlı qüvvələri münaqişə zonasından 80 kilometrdən uzaq məsafədə yerləşən, Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncəyə, respublikanın ən böyük su elektrik stansiyası və su anbarının yerləşdiyi Mingəçevir şəhərinə, həmçinin Bərdə, Tərtər və Beyləqana intensiv raket zərbələri endirmişdir. Onlar, həmçinin Azərbaycanın paytaxtı Bakı şəhərinin yaxınlığındakı Xızı və Abşeron rayonunu ortamənzilli raketlərlə vurmuşlar. Ermənistan qorunmayan şəhər, rayon, qəsəbə və kəndləri atəşə tutaraq Azərbaycanı cavab reaksiyası verməyə təhrik etməyə çalışmışdır. Əgər Ermənistan hərbi əməliyyatların yalnız Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlarının ərazisində deyil, özünün beynəlxalq hüquqla tanınmış ərazilərində də aparıldığını sübut etmiş olardısa, bu halda Kollektiv Təhlükəsizlik Müqavilə Təşkilatı müqaviləsini rəhbər tutaraq təşkilatın aparıcı qüvvəsi olan Rusiyadan hərbi dəstək istəmək hüququ qazanardı.

Azərbaycanın cəbhədən xeyli aralıda yerləşən ərazilərinin Ermənistan tərəfindən raket atəşinə tutulması ilə əlaqədar Azərbaycandakı Amerika Ticarət Palatası (AmCham Azərbaycan) Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanat yaymışdır. Bəyanata görə, “AmCham Azərbaycan” Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və digər bölgələrində baş verən hadisələrdən dərindən narahatlığını bildirmişdir. Palata Azərbaycana edilən bütün hücumları, xüsusən də Ermənistan ərazisindən mülki əhalinin və strateji infrastruktur obyektlərinin genişmiqyaslı atəşə tutulmasını kəskin şəkildə pisləmişdir [3].

Azərbaycan Respublikası ümumi beynəlxalq hüququn imperativ xarakter daşıyan “jus cogens” normalarının və qoşulduğu Cenevrə Konvensiyalarının bütün pozuntuları ilə müəyyən edilmiş qaydada mübarizəni təşkil etmək məqsədilə, müharibə cinayətlərinə görə adekvat cəza nəzərdə tutan qanunvericilik qəbul etmiş və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində XVI fəsil “Sülh və İnsanlıq əleyhinə cinayətlərə”, XVII fəsil isə “Müharibə cinayətlərinə” (maddə 100-119) həsr olunmuşdur. Bu isə öz növbəsində silahlı münaqişə zamanı əsas məhkəmə təminatlarının həyata keçirilməsinə imkan yaratmaq deməkdir. Silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma haqqında 116-cı maddədə yuxarıda sadalanan əməllər “ağır müharibə cinayətləri” hesab olunur və maddənin sanksiyasında on ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılma nəzərdə tutulmuşdur [8].

## Nəticə

Nəticə olaraq, digər bir məqam erməni vəhşiliyinin sübut olunmasıdır. Həm münaqişə zamanı, həm də müharibədən sonra Azərbaycanın əhalisi qaçqın vəziyyətinə salınmış, malları talan edilmiş, yeraltı və yerüstü sərvətləri istismar edilmiş, ekologiyaya ziyan vurulmuşdur. Həmçinin Ermənistan BMT-nin qətnamələrini icra etməmiş, beynəlxalq hüquq normaları və insan haqlarının kəskin şəkildə pozmuş, xalqımıza qarşı amansız soyqırımılar həyata keçirmişdir. Lakin onun bu hərəkətləri hər hansı bir hüquqi norma çərçivəsində cəzalandırılmamışdır. Bu ərazilər Azərbaycan Respublikasının siyası və hərbi müdaxiləsi ilə öz doğma və əzəli sahiblərinə geri qaytarılmışdır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. “Azərbaycan” Rəsmi Dövlət qəzeti № 222 (8538). çərşənbə axşamı, – 2020, 27 oktyabr. Azərbaycan nəşriyyatı, – s.12.
2. “Azərbaycan” Rəsmi Dövlət qəzeti № 223 (8539). çərşənbə, – 2020, 28 oktyabr. Azərbaycan nəşriyyatı, – s.12.
3. Beynəlxalq Avrasiya Mətbuat Fondunun (IAMF) İkinci Qarabağ müharibəsinin başlamasının səbəbləri, onun nəticələri və törədilmiş cinayətlər (sentyabr-oktyabr 2020) haqqında hesabatı: [Elektron resurs] / URL: http://iepf-ngo.org/uploads/files/IEPF-hesabat-sent-January-October-2020.pdf
4. Hacıyev, N.T. Beynəlxalq hüququn nəzəri əsasları / N.T.Hacıyev. – Bakı: Füyuzat nəşriyyatı, – 2020. – 156 s.
5. CaspianNews. (n.d.): [Electronic resource] / URL: https://caspiannews.com/news-detail/pashinyans-advisor-confirms-armenias-deliberate-attacks-on-azerbaijani-civilian-settlements-2020-10-9-0/detail/pashinyans-advisor-confirms
6. İbayev, V.A. Beynəlxalq Humanitar Hüquq / V.A.İbayev. – Bakı: Hüquq ədəbiyyatı nəşriyyatı, – 2001. – 496 s.
7. Cenevrə Konvensiyaları və onların Əlavə Protokolları // 12 avqust 1949. – Bakı: BQXK-nın Azərbaycan Nümayəndəliyi nəşriyyatı, – 2015. – 328 s.
8. 8. Azərbaycan Respublikasının Konstitusiyası: [Elektron resurs] / – Bakı, – 12 noyabr, 1995. № 00. URL: http://www.e-qanun.az/fra-mework/897
9. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi // – Bakı: Hüquq nəşriyyatı, – 2020. – 752 s.

10. Turan İnformasiya Agentliyi. (n.d.). Ermənistan hərbiləşmə səviyyəsinə görə Azərbaycandan xeyli irəlidədir. Silahlanma indeksi, Bonn Beynəlxalq Konversiya Mərkəzi Fevral 2020: [Elektron resurs] / URL: https://www.turan.az/ext/news/2020/2/free/analytics/az/121836.htm

**Аннотация**

**Нарушение норм международного гуманитарного права в Карабахском конфликте**

**Эльмин Гасанов**

Резолюции международных организаций являются одним из важных источников современного международного права. В ходе Первой и Второй Карабахских войн вооруженные силы Армении-агрессора умышленно преследовали мирное население Азербайджана, нарушая основополагающие нормы и принципы международного права, права человека, особенно требования Гаагской конвенции «О законах и обычаях ведения войны на суше» и Женевской конвенции «О защите жертв войны» и обстреливали ракетами и тяжелой артиллерией населенные пункты и стратегические объекты. В отличие от Армении, Азербайджанская Республика во время Первой и Второй Карабахских войн добросовестно выполняла свои юридические обязательства и в целом следовала нормам международного права и международного гуманитарного права.

В статье приводятся факты осуществления Арменией запрещенных многочисленными нормами международного права действий против Азербайджанской Республики, применения запрещенного оружия и нанесения ударов по гражданским объектам в Карабахском конфликте, а также гибели наших мирных граждан. Систематически были расследованы последствия применения кассетных бомб и тяжелой артиллерии в наших густонаселенных районах, а также крупный ущерб инфраструктуре.

**Ключевые слова:** подрывная деятельность, Карабахский конфликт, международное право, гуманитарные нормы

**Abstract**

**Violation of international humanitarian law norms in the Karabakh conflict**

**Elmin Hasanov**

Resolutions of international organizations are one of the important sources of modern international law. During the First and Second Karabakh Wars, the aggressor Armenian armed forces deliberately targeted the peaceful population of Azerbaijan, violating the fundamental norms and principles of international law, human rights, especially the requirements of the Hague Convention "On the Laws and Customs of Waging War on Land" and the Geneva Convention "On the Protection of War Victims". and fired rockets and heavy artillery at settlements and strategic objects. Unlike Armenia, the Republic of Azerbaijan faithfully fulfilled its legal obligations and generally followed the norms of international law and international humanitarian law during the First and Second Karabakh wars.

In the article, the facts of Armenia's implementation of activities prohibited by numerous norms of international law against the Republic of Azerbaijan, the use of prohibited weapons and the targeting of civilian objects in the Karabakh conflict, as well as the death of our civilians as a result of the use of cluster bombs and heavy artillery in our densely populated areas, and major infrastructure damage were investigated. war crimes of damage have been systematically presented.

**Keywords:** disruptive activity, Karabakh conflict, international law, humanitarian norms

*Məqalə redaksiyaya daxil olmuşdur: 06.03.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 07.03.2024*
*Çapa qəbul edilmişdir: 12.03.2024*

**HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE**
**№1/2024, səh. 94-102**
***HƏRBİ XÜSUSİ ELMLƏR*** ***MILITARY SPECIAL SCIENCES***

UOT 355/359

# AZƏRBAYCAN AĞQOYUNLU DÖVLƏTİNDƏ AĞIR ZİREHLİ SÜVARİLƏR: PUŞANDARLAR

**Nəriman Şirəliyev**
nariman.shireliyev@gmail.com
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
DOI: 10.30546/mk.2024.1.0094.

***Xülasə.*** Tədqiqatın məqsədi Azərbaycan Ağqoyunlu ordusunun hərbi sistemində xüsusi rola malik olan ağır zirehli süvari qüvvələrin – puşandarların ordu daxilindəki mövqeyinin öyrənilməsi, hərbi ləvazimatları və taktikalarının dəqiqləşdirilməsi və sistemləşdirilməsindən ibarətdir. Tədqiqat işi struktur etibarilə giriş, üç altbaşlıq və nəticədən ibarətdir. Araşdırma çərçivəsində dövrün qaynaqlarında zirehli süvarilər üçün verilən məlumatlar və rəqəmlər müasir dövrdə hərb sahəsində yazılmış elmi əsərlər və Azərbaycan Ağqoyunlu dövlətinin mövcud olduğu dövr ərzində onunla qonşu olan dövlətlərin hərbi sistemlərində eynitipli qoşun növləri haqqında verilən məlumatların sintezli təhlili əsas metodlardan biri olmuşdur. Təhlillər əsasında Ağqoyunlu dövlətinin ağır zirehli qüvvələri üçün mənbələrdə istifadə olunan puşandar termininin hərfi mənasının aydınlaşdırılmasına cəhd göstərilmiş, Ağqoyunlu ordusunun süvari kimliyi qaynaqlarda verilən məlumatlar əsas götürülərək dəqiqləşdirilmiş, ağır zirehli qüvvələrin yaraq-yasaqları, əsas hücum silahlarının texniki parametrləri, aktiv döyüşdə avantaj və dezavantajları göstərilmişdir. Məqalənin üçüncü altbaşlığında isə adıçəkilən qüvvələrin döyüşlərdə istifadə etdiyi hərbi taktikalar üzrə mülahizələr öz əksini tapmış və Ağqoyunlu ordusunun yarımköçəri türk-monqol hərbi ənənəsinə əsaslanan döyüş stilindən istifadəsində puşandarların yeri və rolu tədqiq edilmişdir.
**Açar sözlər:** cövşən, puşandar, ağır zirehli süvarilər, Ağqoyunlu, Uzun Həsən, Ağqoyunlu qoşunlarının silahları

## Giriş

Azərbaycan, Şərqi Anadolu, Yaxın Şərq və İran coğrafiyasının ən böyük dövlətlərindən biri olan Ağqoyunlu imperiyasının formalaşmasında və qalibiyyətlərində onun hərbi gücünün rolu danılmazdır. Azərbaycan Ağqoyunlu dövləti qoşunlarının əsas tərkib hissəsi süvarilərdən təşkil olunmuşdur. Qoşunun əsas güc mərkəzi olan və digər hərbi ünsürlərin hərəkətini və döyüş düzənini təmin edən ağır zirehli süvari qüvvələr hücumla yanaşı, müdafiə zamanı da digər qüvvələrin müdafiə ehtiyacını təmin etmək məcburiyyətindədir. Gənc yaşdan hərbi təlimlərə cəlb olunan ağır zirehli bu qüvvələrə Ağqoyunlu qoşunlarında "puşandar" deyilib. Avropa qoşunlarında "cəngavər" adlandırılan seçmə birliklərin Ağqoyunlu ordu sistemində hərbi qarşılığı kimi meydana gələn bu qüvvələr hakimiyyətdə də xüsusi gücə malik idilər. Yarımköçəri həyat tərzi sürən Ağqoyunlu tayfalarının daxilində siyasi mübarizədə hərbi güc önəmli idi, bu baxımdan da puşandarların tayfadaxili gücü danılmazdır.

Xüsusən, Uzun Həsənin hakimiyyəti dövründə müxtəlif strategiyalardan istifadə etməklə əldə olunan zəfərlər hesabına bir dövlət kimi formalaşan, daha sonra isə imperiyaya çevrilən ağqoyunlular yarımköçəri həyat tərzinə sahib olan və əsası süvarilərdən formalaşan bir qoşuna sahib idilər.

Qoşunların süvari kimliyinin formalaşmasında xüsusi önəm kəsb edən ağır zirehli süvari qüvvələrin Ağqoyunlu qoşunlarındakı rolunu öyrənmək tədqiqatın əsas hədəflərindən biridir. Belə süvarilərin istifadə etdikləri silah və zirehlərə əsaslanaraq əsas döyüş strategiyalarının öyrənilməsi yalnız adıçəkilən qüvvələrin deyil, eyni zamanda bütünlükdə qoşunların savaş meydanında hərəkətini öyrənmək baxımından önəmlidir.

## 1. Ağqoyunlu qoşunlarında puşandar

"Puşandar" sözünün hərfi mənası ilə bağlı dolğun bir məlumat yoxdur. Cəlaləddin Dəvvaninin "Ərznamə" əsərində "puşandar", "puşdar" və "puşanpuş" kimi fərqli şəkillərdə istifadə olunan bu terminin

təsvir olunan birliklər baxımından ağır zirehli qüvvələri göstərməsi açıq-aydın görünür. Farsca lüğətlərdə bu sözə rast gəlinmir. Ancaq Ferit Devellioğlu "Osmanlıca – türkçe ensiklopedik lüğət"ində "puş" kəlməsinin geymək mənası daşıdığını və digər sözlərə birləşərək tam mənaya sahib olduğunu bildirir. Lüğətdə "puş" sözü üçün ikinci məna isə zireh anlamda verilmişdir [1, s.868]. "Ərznamə"nin orijinal dilindən tərcümələrində də terminə yanaşma fərqlidir. Professor Şahin Fərzəliyev bu sözün tərcüməsi, yaxud işlənilmə prinsipi ilə bağlı bir açıqlama vermir, terminin qoşunun ağır zirehli süvariləri üçün istifadə edildiyini vurğulayır [2, s.58]. Əsəri türk dilinə tərcümə edən İ.Baharlu termindəki "puşan" sözünün "cövşən" sözünün yanlış yazılmış forması olaraq göstərmiş, "dar" əlavəsini də sahiblik anlamında işlədilməsini önə çıxarmış, sözün "cövşəndar" (zireh sahibi) və "cövşənpuş" (zireh geyən) kimi istifadə edilməli olduğunu və nəticədə süvari, yaxud piyada zireh geyən döyüşçülərə aid edildiyini vurğulayır [3, s.82]. V.Minorski də tədqiqatında "puşan" sözünün "cövşən"in yanlış yazılmış forması olduğunu ehtimal edir, ancaq "puşandar" sözünün hər növ zireh geyinən döyüşçülərə aid edilə biləcəyini də istisna etmir [4, s.165]. Göründüyü kimi, əksər müəlliflər "puşandar", "puşanpuş", "puşdar" sözlərinin fərqli versiyalarının ağır zirehli döyüşçülərin adlandırılması üçün istifadə edilməsində həmfikirdirlər.

Eyni dövr üçün mənbə xarakteri daşıyan digər iki əsər – həm Əbu-Bəkr Tehraninin "Kitabi-Diyarbəkiriyyə", həm də Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsərində bu ifadəyə rast gəlinmir. Əvəzində Tehrani "cebe-puş[1]" (zireh geyən) ifadəsindən istifadə edərkən, bir çox yerdə də "zirehli süvarilər" ifadəsindən istifadə edir [5, s.182, 365]. "Əhsənüt-təvarix"də isə "cövşən geyən bahadır", "cövşən geyən igid", "cövşən geyən atlı" sözlərindən istifadə edilir [6, s.90, s.98, s.102]. Ağqoyunlu hərbi qüvvələri ilə bağlı tədqiqatların, demək olar ki, hamısında ağır zirehli süvarilər üçün məhz "puşandar" ifadəsindən istifadə edilməsi bizim də adıçəkilən birliklər üçün bu termindən istifadəmizi zəruri etmişdir.

Ağqoyunlu qoşunlarının süvari kimliyi ilə bağlı qaynaqlarda göstərilən saylara nəzər yetirdikdə piyadalarla müqayisədə olduqca çox atlı birliyin olduğunu görürük. Bu rəqəmlərlə bağlı italiyalı səyyahların qeydlərində müxtəlif rəqəmlər verilir. Venesiyalı A.Kontarini səyahətnaməsində Uzun Həsənin atlı birliklərinin 25 mindən çox olduğunu vurğulayır [7, s.106]. Maraqlıdır ki, Kontarini bu süvarilərin nizədən istifadə etmədiyini bildirir. Onun səyahətnaməsinə əsasən, bu süvarilərin əsas silahları ox, yay, qılınc və qalxandır, onlar olduqca gözəl zireh və dəbilqələr geyinirlər [7, s.106]. Müəllif müxtəlif şəxslərdən aldığı məlumatlara əsaslanaraq səyahətnaməsinin sonunda Otluqbeli savaşında Uzun Həsənin 50 minlik süvari birliyinin olması məlumatını verir [7, s.144]. Katerino Zeno isə Ağqoyunlu süvari birliklərinin sayını 100 min nəfər göstərir [7, s.22]. 1474-cü ildə şahzadə Uğurlu Məhəmməd atasının ölüm xəbərini eşidərək Şirazı ələ keçirmək məqsədilə buraya hücum edir. Bu vaxt Təbriz yaxınlığında olan Uzun Həsən qoşunu ilə Şiraza yürüşə çıxır və Şiraz yaxınlığında qoşunların sayımını həyata keçirir. Bütün bu prosesin içində olan venesiyalı Giosafat Barbaro da öz səyahətnaməsində Uzun Həsənin qoşunlarında 25 minlik seçkin süvari, o cümlədən min nəfərlik nizəli, beş min nəfərlik qalxanlı və on min nəfərlik oxçu döyüşçünün olması barəsində məlumat verir [8, s.72].

1473-cü ilin avqustunda Ağqoyunlular və Osmanlılar arasında baş vermiş Otluqbeli döyüşündən öncə Ucan yaxınlığında qoşunlara baxış keçirən Uzun Həsənin birliklərinin sayı haqqında Həsən bəy Rumlu 40 min nəfərlik nizəli süvaridən bəhs edir [6, s.285].

"Ərznamə"də isə Ağqoyunlu qoşunları üçün daha detallı rəqəmlər görmək mümkündür. Bu əsər eyni zamanda birbaşa puşandarların sayını verməsi baxımından tədqiqatımız üçün olduqca mühümdür. 1476-cı ildə Şirazda Ağqoyunlu qoşunlarının rəsmi keçidinin ikinci günü müxtəlif əmirlərin başçılığı altında sıra-sıra hərəkət edən qoşunların sağ cinahındakı 9.150 nəfərdən 2.392-si, sol cinahındakı 7.370 nəfərdən 1.731-i, mənqalay (öncül qüvvələr) birliyindəki 5.662 nəfərdən 932-i məhz puşandarlardır.[2]

---

[1] Bu ifadə əsərin Mürsel Öztürk tərəfindən tərcümə versiyasında istifadə edilib. Arxeologiya və Etnoqrafiya İnstitutunun 1998-ci ildə nəşr etdiyi tərcümədə belə bir ifadəyə yer verilməyib. "Cebe" ifadəsi zəncirdən və ya halqalardan hörülmüş zireh, "-puş" əlavəsi isə geymək mənasında istifadə edilir [1].

[2] "Ərznamə"nin İran Məclis nüsxəsinə əsasən, bu rəqəmlər fərqlidir. Sağ cinahda hərəkət edən əsgərlərin sayı 9.392 nəfərdir və burada puşandarların adı çəkilmir. Sol cinahdakıların ümumi sayı Həmidiyə nüsxəsi ilə eynilik təşkil etsə də, puşandarların sayı 1.731 nəfər olaraq göstərilmişdir. İran Məclis nüsxəsində mənqalayın ümumi sayı 5.362 nəfər qeydə alınmış, lakin puşandarların sayı digər nüsxə ilə eyni göstərilmişdir [3, s.82-86].

Bunlardan əlavə, inaqlar və xüsusi xidmətçilərin keçidində qeydə alınan 6.714 nəfərdən 583-ü, Çələbi Seyfəddin Müntəşanın 240 nəfərlik xidmətçisindən 38-i, hassa nökərlərin 3.230 nəfərindən 810-u puşandardır [2, s.78-80]. Bu rəqəmlərdən göründüyü kimi, qoşunların sağ cinahının yüzdə 26-sı, sol cinahının yüzdə 23-ü, mənqalay birliyinin isə yüzdə 16-sı, ümumilikdə isə keçidin ikinci günü iştirak edən 33.430 nəfərdən 6.486-sı, faiz hesabı ilə 19 faizlik bir hissəsi puşandarlardan ibarət olmuşdur.[3] Lakin "Ərznamə"nin mövcud iki nüsxəsində də rəsmi keçiddə hərəkət edən birliklər ilə bağlı rəqəmlərin fərqli göstərilməsi, qoşunun ümumi sayı altında verilən birlik saylarının da müxtəlif olması yazılan rəqəmlərin doğruluğunu şübhə altında qoyur.

Ağqoyunlu qoşunlarının əsas döyüş sistemi klassik meydan müharibələrindən fərqli olaraq daha çox sürətli axınlar və basqınlar üzərində qurulduğu üçün qoşunun tam sayda savaşa getdiyinə çox az rast gəlinir. Daha çox birliklər şəklində fərqli-fərqli əmir və şahzadələrin başçılığı ilə hücum əməliyyatları keçirən Ağqoyunlu qoşununun hərbi baxışları da məhz bu istiqamətdə həyata keçirilir və insan amili əsas götürülməyərək sayım əmirlərin başçılıq etdikləri qüvvələr haqqında verdikləri məlumatlara görə hesablanırdı. Bununla bağlı J.Barbaro səyahətnaməsində məlumat verir və bu sistemin italyanlardan fərqli olduğunu vurğulayır [8, s.71].

"Kitabi-Diyarbəkiriyyə"də tez-tez rast gəlinən "süvarilər" ifadəsi bəzən mükəmməl, bəzən zirehli, bəzən təcrübəli, ya da adlı-sanlı kimi ifadələrlə digərlərindən fərqləndirilir. İstifadə olunan sadəcə "zirehli" ifadəsi adı çəkilən süvarilərin puşandarla eynilik təşkil edə biləcək fərqləndirmədir. Böyük ehtimalla müəllif bu fərqləndirmələrlə puşandarları təsvir etmək niyyətində olub. Ümumiyyətlə isə yuxarıda qeyd etdiyimiz kimi, Ağqoyunlu qoşununun bütöv bir sistem kimi yox, ayrı-ayrı əmirlərin başçılığı ilə hücum əməliyyatları keçirdiyini nəzərə alsaq, "Kitabi-Diyarbəkiriyyə"yə əsaslanaraq ümumi qoşunun və tərkib hissələrinin sayı haqqında tam məlumat vermək mümkün deyil. Lakin Ağqoyunlu hərbi gücünün müəyyənləşdirilməsi baxımından Muş yaxınlığındakı döyüşdən öncə Cahanşahın elçisi ilə Həsən padşah arasında keçən dialoq önəmlidir. Belə ki, elçi ağqoyunluları qorxutmaq və öz qoşununu daha ehtişamlı göstərmək məqsədilə Cahanşahın 150 minlik seçilmiş və zirehli (cəbə-puş) süvari gücünün olduğunu vurğulayır. Uzun Həsən isə bu rəqəmin yalan olduğunu və Qaraqoyunlu qüvvələrinin 30 min süvaridən çox olmayacağını olduqca əminliklə bildirir [5, s.267]. Bizim fikrimizcə, düşmən dövlətin elçisinə bu rəqəmin verilməsi, sonra isə olduqca soyuqqanlılıqla Cahanşahın hakimiyyətinin alçaldılması, onunla eyni səviyyədə və hətta daha üstün olduğunu vurğulayaraq heç bir şəkildə asılılığın qəbul edilməyəcəyini bildirən Həsən padşahın əslində Qaraqoyunlu süvarilərinin öz qüvvələrinə təxmini bərabərliyi, yaxud bu sayda bir qüvvədən əsla qorxmadıqları anlamına gəlir. Nəticədə, Ağqoyunlu qoşununun zirehli süvarilərinin də təxminən eyni sayda olması ehtimalı yaranır. Bu rəqəmlər venesiyalı səyyahlar Kontarini və Barbaronun verdikləri rəqəmlərlə oxşarlıq təşkil edir. Eyni zamanda dialoqda yalnız süvari birliklərdən bəhs edilməsi də olduqca maraqlıdır və əslində bu qüvvələrin qoşunlarda və döyüşdəki həlledici rolunu öyrənmək baxımından mühüm əhəmiyyətə malikdir.

Ə.Tehraninin nəql etdiyinə əsasən, Cahanşahın ordugahına gələn elçi Uzun Həsənin 12 minlik bir süvari qüvvə ilə hücum hazırlıqlarında olduğunu bildirir. Əsərdə bu süvariləri öymək məqsədilə onların sultana sadiqliyi ön plana çıxarılmış, qaniçən qılınc və zirehdeşən ox qədər güclü olduqları ifadə edilmiş və bu süvarilər üçün "*Kimsə onların döyüşdə arxasını çevirdiyini (geri çəkildiyini – N.Ş.), ya da qarşılarında düşmənlərin durduğunu görməmişdir*" bənzətməsindən istifadə edilmişdir [5, s.266]. Burada xüsusilə vurğulanan *"özlərini sultanın iqtidar qəbzəsinə sağlamca bağlayan*" ifadələri böyük ehtimalla Uzun Həsənin xassə qüvvələrini (şəxsi qoşununu) göstərmək üçün istifadə edilmişdir.

"Kitabi-Diyarbəkiriyyə"də müxtəlif hücum əməliyyatlarında süvarilərdən istifadə geniş şəkildə və bir çox yerdə diqqətə çatdırılır və əksər hallarda yuxarıda qeyd etdiyimiz fərqləndirici ifadələrdən istifadə edilir. Uzun Həsənin Qaraqoyunlu Cahanşahın evinə (xanəsinə) basqını zamanı yanında 600 adlı-sanlı süvarinin olduğunu vurğulayan müəllif bu birliyin gecə basqını üçün uyğun olduğunu *"sabah (səhər) olduğu üçün düşündüklərini həyata keçirməkdə aciz qaldılar"* ifadələri ilə göstərir [5, s.128].

[3] Rəqəmlər keçiddə hərəkət edən birliklərin Həmidiyə nüsxəsində verilən birliklərin ümumi sayı hesablanaraq ortaya çıxarılmışdır.

Ağqoyunlu qoşununun klassik savaş düzəni ilə döyüşdüyü nadir döyüşlərdən biri də Cahanşahın sərkərdələrindən olan Rüstəmin 20 min nəfərlik süvari ilə Diyarbəkirə hücumu zamanı gerçəkləşir. Müəllif bu qoşunu *"poladdan və dəmirdən bir dəniz"*ə bənzədir və bütün növ zireh, silah və təchizatla silahlandığını ifadə edir [5, s.171]. Ə.Tehrani Uzun Həsənin döyüşdən əvvəl qoşunun sağ və sol qanadlarını, həmçinin öncül qüvvələrini düzənlədiyini, toplu şəkildə hücum edən Ağqoyunlu qoşununun döyüşün sonunda qalib gəldiyini vurğulayır [5, s.175-180].

Ağqoyunluların çoxsaylı süvari ilə hücumlarından digəri isə 1473-cü ildə Yusif bəyin 20 minlik süvari dəstəsi ilə Qaramana yürüşüdür. Ə.Tehrani döyüş haqqında yetərli məlumat verməsə də, Osmanlı qüvvələri ilə qarşılaşan bu ordunun sadəcə onda birinin, yəni təxminən iki minlik bir hissəsinin qaçıb canını qurtara bildiyini ifadə edir [5, s.371].

## 2. Puşandarların döyüş yaraq-yasaqları

Ağqoyunlu dövlətinin ağır süvari qüvvələri olan puşandarların hərbi geyim və silahları da digər döyüşçülərdən seçilirdi. Əksər hallarda cövşən adlanan dəmir halqalardan hörülmüş və üzəri metal parçalarla zənginləşdirilmiş zirehlər, xüsusi nəbati naxışlarla bəzədilmiş polad, yaxud dəmir dəbilqələr, metal qolçaqlar, dizliklərlə yanaşı, əsas hücum silahı olaraq nizə, ya da qılınc-qalxandan istifadə edən bu qüvvələr, eyni zamanda yanlarında ikinci silahla da təmin olunurdular. Nizəli süvarilər təkbətək döyüşdə ikinci silah kimi əksər hallarda qılınc, toppuz, balta kimi effektiv yaraqlardan istifadə edirdilər.

Müdafiə geyimlərinin ən əsası təbii ki, bədənin böyük bir hissəsini örtən zirehlər idi. Yuxarıda məlumat verdiyimiz kimi, bir çox tədqiqatçılar tərəfindən puşandar sözünün hərfi mənası məhz zirehlərlə və xüsusilə cövşənlə əlaqələndirilir. Buna əsasən deyə bilərik ki, bu qüvvələr üçün zirehlər olduqca önəmlidir.

Puşandarlar seçmə qüvvələr olduğundan istifadə etdikləri zirehlər də buna əsasən dövrünün ən inkişaf etmiş və türkmanlara xas olan, cövşən adlanan yastı halqalı donabənzər, ön və arxa hissəsində metal parçalar olan, döyüşçünün çiyinlərindən dizlərinə qədər olan hissəsini qoruyan, dövrünə görə olduqca qiymətli zireh növü idi [9, s.73]. J.Barbaro bu zirehlərdən bəhs edərkən onların Beşköy adlı yerdə hazırlandığını və hədsiz dərəcədə gözəl olduğunu, başqa heç bir yerdə belə zirehlərin hazırlanmadığını vurğulayır [8, s.72]. Ağqoyunlu süvarilərinin istifadə etdikləri cövşəntipli zirehlərə ən gözəl örnəklər Metropolitan İncəsənət Muzeyində sərgilənən 04.3.456b inventar nömrəli və İstanbulda "Askeri Muze"də sərgilənən 4339-2 və 4331-2 inventar nömrəli eksponatlardır.

Zirehin halqalı dizaynı kəsici silahlardan müdafiə məqsədilə hazırlanırdı və onun bu cür olması döyüşçünü əlavə ağırlıq daşımaqdan azad edirdi. Puşandarların at üstündə sürətli hücumlarına qarşı onların döyüş nizamının pozulması məqsədilə düşmən tərəfdən istifadə olunan uzaqməsafəli klassik ox və yay, çarx kimi silahlara qarşı bu halqalı dizaynın üzərinə metal parçaların əlavə edilməsi döyüşçünü bu tipli silahlara qarşı da qoruyurdu. Bu tipli metal lövhələr zirehin önündə əsasən sinə qəfəsinin alt hissəsinə yerləşdirilirdi. Zirehin arxa hissəsi isə, adətən, daha kiçik lövhələrlə qısa ara məsafəsi ilə tamamən örtülürdü. Zirehlərin bu cür dizaynı əslində puşandarların döyüş taktikalarının öyrənilməsi baxımından önəmlidir. Sürətli hücumlar zamanı at üzərində əyilərək hücum edən döyüşçülər düşmənlə yaxın məsafədə qarşılaşdıqlarında açıqda qalan qarın boşluğunu qoruyan metal parçalar, qoşun geri çəkilərkən isə müdafiə funksiyasını icra edəcək döyüşçüləri arxadan atılacaq ox, cirit kimi deşici silahlardan qorumaq üçün zirehin arxa hissəsinə qısa-qısa parçalarla bütünlükdə əlavə edilirdi. Halqalı zireh üzərinə əlavə edilmiş metal parçalar döyüşçünün sosial statusundan asılı olaraq müxtəlif nəbati naxışlarla bəzədilir və üzərinə qızıl, gümüş kimi qiymətli metallarla əlavələr edilirdi.

Puşandarların digər önəmli müdafiə vasitəsi başı qorumaq üçün istifadə etdikləri dəbilqələrdir. Tülbənd, yaxud türkman tipli bu dəbilqələr poladdan, ya da metaldan hazırlanır və arxa hissəsinə halqalardan hörülmüş "bərm" adlı əlavə bərkidilirdi. Bərm döyüşçüyə əlavə ağırlıq yaratmadan müdafiə potensialı yaradır və döyüş əsnasında boyunun rahat hərəkətini təmin edərək ətrafı daha rahat görə bilmək üçün şərait yaradırdı. Yarımdairəvi formada olan bu tip dəbilqələr yuxarıya doğru uzanan dördtilli, yaxud rombvari dəmir ucluqla bitirdi. 20 – 25 santimetrlik diametrə sahib olan dəbilqələr döyüşçünün alın hissəsini tamamilə əhatə edir və adətən, burunun üzərinə qədər qoruyucu vasitə ilə

birlikdə istehsal olunurdu [10, s.260]. Dəbilqələr də cövşən kimi döyüşçünün sosial statusundan asılı olaraq olduqca gözəl naxışlarla və qiymətli metallarla bəzədilirdi. Müxtəlif mərasimlərdə istifadə edilə biləcək səviyyədə və gözəllikdə olan bu dəbilqələri puşandarlar döyüşlərdə də istifadə edir və düşmən üzərində müəyyən psixoloji üstünlük yaradırdılar.

Bədənin müdafiəsi məqsədilə istifadə edilən köməkçi vasitələrdən digəri isə qalxanlardır. Puşandarlar kimi bütün vasitələri döyüşçünün effektiv qorunmasına yönəldilmiş döyüşçülərin qalxanları da metaldan hazırlanır və olduqca parlaq olurdu. Həsən bəy Rumlu əsərində qalxanları zərnigara bənzədərək, parlaqlıqlarına diqqət çəkir və üzərinə düşən günəş şüalarının gözləri kor etdiyini vurğulayır [6, s.91]. K.Zenonun ifadə etdiyinə görə, Ağqoyunlu süvarilərinin istifadə etdiyi qalxanlar döyüşçünün bütün bədənini qoruyacaq böyüklükdə və dairəvi dizaynda hazırlanırdı [7, s.22]. Qalxanların diametri 50 – 60 santimetr olur və əksər hallarda tam mərkəzdə metal qabartmalardan istifadə edilirdi. Qalxanların istifadəsini zəruri edən məqamlardan birincisi puşandarların sürətli hücum, basqın kimi hərbi strategiyalarından qaynaqlanırdı. Üzərində metal parçalardan istifadə edilməsinə baxmayaraq, cövşən, xüsusən, deşici zərbə gücünə malik silahlara qarşı yetərli müdafiə potensialına malik deyildi. Belə zəiflik isə döyüşçünün sinə və üz nahiyələri üçün olduqca həyati önəm kəsb edirdi. Məhz bu məqsədlə qalxanlardan istifadə edilir, eyni zamanda üzbəüz döyüşdə zərbə gücü ilə seçilən toppuz, həm kəsici, həm də zərbə silahı olan balta ilə silahlanmış, əsasən ağır zirehli düşmənlərdən müdafiəni təmin edirdi. Hücum silahı kimi qalxandan da istifadə müəyyən hazırlıq tələb edirdi. Əsas hücum silahları ilə qalxandan istifadəni sintezli şəkildə öyrənmək döyüşün müəyyən mərhələsində döyüşçüyə qalxanla zərbə gücü belə qazandıra bilərdi. Əksər hallarda döyüşçülərin sol əllərinə iki qayış vasitəsilə keçirilən qalxanların qola keçirilmiş arxa hissəsində müxtəlif yumşaq materiallardan istifadə edilir və bu, döyüşçünün qolunun zədə almasını minimuma endirirdi [9, s.75]. Qalxanlar da digər döyüş ləvazimatları kimi müxtəlif şəkillərdə bəzədilir, xüsusən də Quran ayələrindən istifadə edilirdi ki, bu da bir növ müqəddəslik və qoruyucu ritual idi.

Döyüşçülər ayaq və qolların müdafiəsi üçün dizlik və qolçaqlardan istifadə edirdilər. Cövşənlərin qol dizaynları dirsəklərə qədər olduğundan qolların dirsəkdən aşağısı üçün bir neçə parçadan ibarət metal qolçaqlar hazırlanırdı. Xüsusən, yaxın döyüşdə qolların dirsəkdən biləyə qədər olan hissəsinin qorunmasında istifadə olunan qolçaqlar puşandarlar üçün metaldan hazırlanır və bu, yaxın döyüş zamanı döyüşçünün qolçaqlarının qalxan kimi istifadəsinə şərait yaradırdı. Əksər hallarda iki hissədən ibarət olan bu müdafiə geyiminin hissələri bir-birinə metal halqalarla torabənzər əlavələr, ya da qayışlarla birləşdirilirdi [10, s.267]. Ayaqlıq, yaxud dizliklər də eyni şəkildə bir neçə hissədən ibarət olub ayaqların dizdən topuğa qədər olan hissəsinin qorunmasını təmin etmək məqsədilə istifadə olunurdu. Yüksək statusa malik şəxslər tərəfindən istifadə olunan qolçaq və dizliklərin üzəri də digər zireh vasitələri kimi xüsusi şəkildə bəzədilirdi. Bunun üçün müxtəlif ov səhnələrindən, nəbati naxışlardan, Quran ayələrindən istifadə olunurdu.

Puşandarların sürətli hücumlar zamanı istifadə etdikləri ən önəmli hücum silahlarından birincisi nizə idi [11, s.340]. Başlıq hissəsi 60 santimetr olan bu tipli nizələrin ümumi uzunluğu iki metrə çatırdı [12, s.193]. Həm deşici, həm də zərbə funksiyalarına malik bu döyüş silahının başlığı onu istifadə edən döyüşçünün istəyinə və hərbi qruplaşmanın döyüş strategiyasına əsasən dəyişkən ola bilərdi. Dördtilli, üçtilli, rombvari, oval başlıqlara malik olan bu nizələrin puşandarlar tərəfindən istifadəsi isə, demək olar ki, eyni idi. Nizənin sapı döyüşçünün qoltuğu altında olmaqla başlıq hissəsi atın başının sağ tərəfindən, ya da atın qulaqlarının arasından qarşıya doğru tutularaq hücum əməliyyatları icra olunurdu. Qeyri-döyüş şəraitində, yaxud köç əsnasında nizə döyüşçülər tərəfindən sağ əldə dik bir şəkildə tutulur və əksər hallarda sap atın üzəngisinə keçirilirdi. Xüsusi statuslu döyüşçülərin nizələri fərqli olmaqla yanaşı, üzərində döyüşçünün aid olduğu tayfanın fərqləndirici nişanı, yaxud bayrağı asılırdı.

Puşandarların fərqli qılınclardan istifadəsini silahın öncəliyi baxımından iki hissəyə ayırmaq olar. Birinci qrup əsas silah olaraq nizə ilə silahlanmış və ikinci silah olaraq qılıncdan istifadə edən döyüşçülər, ikinci qrup isə əsas silah olaraq qılınc və qalxandan birlikdə istifadə edən döyüşçülər idi. Bu qrupların döyüşdə istifadəsi ilə bağlı fərqli yanaşmalar göstərmək mümkündür. Açıq ərazi döyüşlərində və sürətli hücumlarla düşmənə onun görə biləcəyi hücum əməliyyatı icra edildikdə nizəli süvarilər ön

plana çıxırdısa, gecə basqınlarında, yaxud döyüşçülərin görünmədən hücum edə və birbaşa yaxın döyüşə girə biləcəkləri vəziyyətlərdə əsas silah kimi qılıncdan istifadə edən süvarilər ön plana çıxırdılar. Puşandarların istifadə etdiyi qılınc növü əyri tiyəli (tiyəsinin uzunluğu 80 – 90 sm) [13, s.729], əsas istifadə spektrinin kəsici zərbələr olduğu və at üstündəki döyüşçülər üçün istifadəsinin olduqca rahatlığı ilə seçilən qılınclar idi. Zaman keçdikcə bu şəkildə dizayn edilən qılıncların iç hissəsinin də kəsiciliyi artırılmaqla onlara əlavə üstünlük imkanı verilirdi. At üstündə hərəkət edən döyüşçü üçün ideal olan bu qılınclar həm atlı, həm də piyada düşmənlərə zərbə endirmək imkanı verməsi ilə seçilir, həmçinin bir əllə olduqca rahat istifadə edilir, eyni zamanda atlının dövrəsindən gələ biləcək hücumlarda müdafiə gücü qazandıra bilirdi. Qılıncın yalnız hərb meydanındakı gücü deyil, eyni zamanda türkman toplumundakı psixo-sosial yeri də olduqca önəmlidir. 21 yaşında cəngavər təhsilini başa vuran döyüşçülər rəsmi olaraq bu ada sahib olmaq məqsədilə keçirilən mərasimdə qılınc qurşanırdılar [11, s.345]. Müdafiə geyimləri kimi, qılınclar da sahibinin statusu baxımından ehtişamlı dizaynları ilə seçilirdi. Qızıl və digər qiymətli metallarla bəzədilmiş qılınclar və qılınc qınları tayfa daxilində hədiyyə məqsədilə də istifadə edilirdi.

Nizəli süvarilərin istifadə etdikləri ikinci silahlar arasında toppuz və baltalar özünəməxsus yerə malikdir. Olduqca rahat daşınan, eyni zamanda yaxın döyüşdə zərbə gücü baxımından inanılmaz dərəcədə effektiv olan toppuz, yaxud gürzlərin istifadə edilməsi döyüşçüyə əlavə zərbə gücü verirdi. Xüsusən, bir çox türk toplumlarında hakimiyyət simvolu olan bu silahlar ağır zirehli düşmənə qarşı əvəzsiz vasitə hesab olunurdu. Uzunluğu 50 – 60 sm olan bu silahların başlıq hissəsi müxtəlif materiallardan hazırlanır və üzəri çıxıntılı, yaxud sadə şəkildə dizayn edilirdi. Döyüş baltaları da toppuzlarla təxminən eyni uzunluqda olub, adətən, silahın daşınmasının daha rahat olması üçün sapının içi boş şəkildə dizayn edilirdi. Bu silahlar toppuzdan fərqli olaraq kəsici zərbələrlə düşmənə zərərvermə qabiliyyətinə malik idi. Ağqoyunlu qoşununda istifadə olunan döyüş baltalarının kəsici səthi olduqca qısa olmaqla yanaşı, bu kəsici səthə paralel olaraq silahın başlığının arxa hissəsində ancaq zərbə gücü üçün hazırlanmış səth dizayn edilirdi. Bu, döyüşçüyə düşmənin zirehini nəzərə alaraq müxtəlif stillərdə hücumetmə imkanı verirdi.

### 3. Puşandarların döyüşdə istifadəsi və hərbi taktikaları

Ağqoyunlu qoşununda ağır süvari birliklər döyüşlərdə qoşunun əsas hücum gücünü təşkil edirdi. Puşandarlar xassə qüvvələrinin önəmli bir hissəsi idi [14, 257]. Xüsusən, atlı axınlar, ilqar (ani hücum), gecə basqınları kimi xüsusi hərbi hazırlıq və peşəkarlıq tələb edən taktikaların həyata keçirilməsində bu qüvvələrdən geniş şəkildə istifadə edilirdi. Həm silahlardan istifadə, həm də zirehlərinin digər birliklərə nisbətən olduqca effektli olması hücum əməliyyatlarında xüsusi üstünlük yaradırdı. “Ərznamə”dən göründüyü kimi, qoşunun həm qanadlarında, həm də öncül birliklərinin tərkibində yer alan puşandarlar döyüşlərdə həlledici gücə malik idilər.

Xüsusən də Avropa ağır süvari birliklərindən onların ən böyük neqativ xüsusiyyəti olan yavaş hərəkətetmə və manevr qabiliyyətinin zəifliyi kimi bir çox məsələdə fərqlənən Ağqoyunlu ağır süvari qüvvələri eyni zamanda yuxarıda qeyd etdiyimiz kimi, bir neçə silahdan rahat istifadə etmələri hesabına təkbətək döyüşdə də olduqca effektiv savaşçılar idi.

“Kitabi-Diyarbəkiriyyə”də müəllif tərəfindən tez-tez istifadə olunan “ilqar” ifadəsi əslində Ağqoyunlu qoşununun və dolayısı ilə puşandarların döyüşdəki əsas strategiyalarının müəyyənləşdirilməsi baxımından mühüm önəm kəsb etməkdədir. İfadənin hərfi tərcüməsi “bir yerə anidən edilən atlı hücumlar”, yaxud “atlı axınları” deməkdir. Düşmənin ən zəif anında planlanmış və qəfil həyata keçirilən hücum əməliyyatları qarşı tərəfin reaksiyasının gecikməsinə və düşmənin məğlub edilməsinə hesablanırdı. Lakin əksər hallarda mənqalay tərəfindən həyata keçirilən bu cür hücumlar düşməni zəiflətmək və onun üzərində basqı yaratmaq məqsədi güdürdü. Belə taktikalar Həsən padşah tərəfindən həm Cahanşaha, həm də Teymuri Əbu Səidə qarşı istifadə edilmiş və olduqca uğurlu olmuşdur. Bir çox köçəri, yaxud yarımköçəri tayfaların istifadə etdiyi döyüş taktikaları nəzərə alındığında bu cür hücumlarda həm oxçu süvarilərin, həm də ağır süvarilərin döyüşə göndərildiyini görürük. Savaş əsnasında ağır süvarilərdən əsas gözlənti düşmənin ağır zirehli qüvvələrini

neytrallaşdırmaqdan ibarət olur. Bunun əsas səbəbi oxçu birliklərin ağır süvarilər üzərində yetərli məhvedici üstünlüyü olmadığı üçün eynitipli birliklərdən istifadə olunurdu. Həmçinin paralel olaraq ağır süvarilər düşmənin yüngül silahlı birliklərinə də dağıdıcı hücumlar həyata keçirməklə onları ciddi itkilərə uğrada biləcək potensiala malik idilər. Belə hücumlara ən gözəl örnək Uzun Həsənin 14 yaşında olarkən Sultan Həmzənin qüvvələrinə qarşı həyata keçirdiyi hücum əməliyyatlarıdır [5, s.109]. Sultan Həmzənin Urfa qalasının mühasirəsi zamanı qaladan 40 süvari ilə birlikdə çıxaraq 1.000 nəfərlik düşmən qüvvəsinə qarşı hücum edən Uzun Həsənin bu savaşdan qalibiyyətlə çıxması döyüşçülərin belə hücum əməliyyatlarından məlumatlı olmalarından qaynaqlanır.

Müxtəlif zamanlarda yüngül süvari birliklər üzərinə düşmən tərəfindən həyata keçirilən hücumlar zamanı puşandarlar müdafiə mövqeyinə keçir və nisbətən zəif zirehlənmiş bu qüvvələrin müdafiəsini təmin edirdilər.

Türk qoşununun istifadə etdiyi ən önəmli hərbi taktikalardan biri saxta geriçəkilmədir: düşmənə əvvəlcə az qüvvə ilə saxta hücum təşkil edilir, bir müddət döyüşdükdən sonra hücumdakı birliklər geri çəkilir və düşmən bu qüvvələri təqib edir. Bu üsulla düşmən qüvvələr aldadılaraq geridə dayanan qoşunun pusquda durmuş əsas hərbi gücünə tərəf yönləndirilir və gözlənilmədən əsas hücum başlanır. İstər saxta hücumda, istərsə də əsas hücum zamanı ağır süvarilərdən geniş şəkildə istifadə olunurdu. Bu taktikanın istifadəsində digər önəmli məqam geri çəkiləcək ərazinin və geriçəkilmənin nə qədər vaxtda və yaxud hansı genişlikdə həyata keçiriləcəyi idi. Daha uzun müddətdə və daha geniş ərazilərə hesablanaraq geri çəkilərkən düşmən qüvvələrinin irəliləyişini ləngitmək və onun həm qida, həm də digər təminat yollarını kəsmək məqsədilə yol üzərindəki yaşayış məntəqələri dağıdılırdı. Bu da təqib edən ordunun hərəkət sürətini təbii olaraq ləngidir və geri çəkilən ordunun əsas hücumu zamanı düşmənin müqavimət gücünü əhəmiyyətli dərəcədə azaldırdı. Əgər düşmən hələ də təqibi davam etdirirdisə, hücum üçün dar boğazlar, keçidlər seçilir və hücum zamanı burada ilişib qalan düşmən qüvvələri oxçular tərəfindən ox atışlarına tutulur, daha sonra öndə ağır zirehlilər olmaqla ümumi əks-hücum həyata keçirilməklə qalibiyyət əldə olunurdu. Bu tipli döyüş növünə Otluqbeli savaşından öncə Ağqoyunlu və Osmanlı öncül qüvvələrinin qarşılaşması zamanı rast gəlirik. 10 minlik süvari döyüşçü ilə Ağqoyunlu mənqalayına rəhbərlik edən şahzadə Uğurlu Məhəmməd düşmən qüvvələrinə dəfələrlə aldadıcı həmlələr edərək onların Fərat çayını keçməsini gözləyir və daha sonra gizləndikləri mövqedən çıxaraq əsas hücum əməliyyatını həyata keçirib Osmanlının öncül qüvvələrinin 4 minə yaxın döyüşçü itirməsinə nail olur [5, s.373].

Ağqoyunlu qüvvələrinin tez-tez istifadə etdikləri digər önəmli savaş strategiyası öncədən gizlənərək düşmənin ən zəif anında ani hücumlar təşkil etmək olmuşdur. Bu taktikadan ən uğurlu istifadə Uzun Həsənin başçılığı ilə Cahanşahın ordugahına edilən hücumdur. Ə.Tehrani 6 min süvari ilə yola çıxan Uzun Həsənin Cahanşahın xassə qüvvələri, yaxın əyan-əşrəfi və boy nökərləri ilə birlikdə Azərbaycanın qışlaqlarına köç hazırlıqları zamanı yal üstündə gizlənərək günəş batmağa başladıqda ani bir hücumla sağdan və soldan Qaraqoyunlu qüvvələrinin üzərinə hücum təşkil etdiyini yazır. Müəllif döyüşün təsviri üçün bu ifadələrdən istifadə edir: *"... O dumandan səma yenə görünməz oldu, ulduzlar ona gürz, qılınc və balta oldu, (səmanın) üzərində döyüş igidlərinin qılıncının və nizəsinin ucundan, sayıla bilməyəcək qədər ulduz meydana gəldi"* [5, s.276]. Müəllif bildirir ki, döyüşün gedişində Ağqoyunlular Cahanşahın qüvvələrinin qaçış yolunu bağlayırlar. Bu da taktikanın əvvəldən xüsusi peşəkarlıqla hazırlandığını və həyata keçirildiyini göstərir. İstifadə olunan silahlara gəldikdə isə, nizə, gürz, balta kimi, xüsusilə, ağır zirehli süvarilərin istifadəsində olan yaraqlardan bəhs edilməsi puşandarların döyüşdə iştirakının göstəricisidir. Deməli, Ağqoyunlu ordusu belə taktikalarda da puşandarlardan geniş şəkildə istifadə etmişdir.

## Nəticə

Hərbi gücünün böyük bir hissəsini süvarilərin təşkil etdiyi Ağqoyunlu ordusunda həm zərbə gücü, həm də müdafiə potensialı baxımından hərbi təşkilatlanmada xüsusi yerə sahib olan ağır zirehli süvarilərin yeri danılmazdır. Tədqiqatın əsas məqsədi ağır zirehli süvari qüvvələrin Ağqoyunlu hərbi sistemi daxilindəki yerinin və sayının dəqiqləşdirilməsi, həmçinin adıçəkilən qüvvələrin hərbi

potensialının ordunun ümumi döyüş qabiliyyətinə əhəmiyyətli təsirini aydınlaşdırmaq və ümumilikdə Ağqoyunlu ağır süvari qüvvələri haqqında məlumatların sistemləşdirilməsindən ibarət idi.

Tədqiqat çərçivəsində Ağqoyunlu ağır zirehli süvari qüvvələri üçün mənbələrdə istifadə edilən "puşandar" termininin hərfi mənasının izahına, Ağqoyunlu ordusunun tərkibində müxtəlif döyüşlərdə bu qüvvələrin istifadə spektri, hərbi ləvazimatlarının və onların texniki parametrlərinin, istifadə edən döyüşçü üçün müsbət və mənfi cəhətlərinin öyrənilməsinə cəhd edilmişdir.

Ağqoyunlu ordu sistemi daxilində ağır zirehli süvari qüvvələrin xüsusi yerinin olması, həm hücum, həm də müdafiə baxımından yetərli təchizatla təmin olunan bu qüvvələrin köçəri, yaxud yarımköçəri türk tayfalarının tarix boyu istifadə etdiyi müxtəlif hərbi tapşırıqların yerinə yetirilməsindəki professionallığı tədqiqatın əsas nəticələri arasındadır. Puşandarların ağır metal zirehlərdən istifadə etmələri onların sürətli atlı hücumlar zamanı zədə almasını minimuma endirir və hücum əməliyyatlarının effektivliyini artırırdı. Eyni zamanda ağır zirehləri ilə önə çıxarılan qüvvələrin atlı axınlar kimi hücum prosesləri ilə yanaşı, daha yüngül zirehə malik qüvvələrin müdafiəsində də istifadəsi nəzərə çarpır.

Bundan öncə müxtəlif mövzulu elmi əsərlərdə adı çəkilən ağır zirehli qüvvələr haqqındakı məlumatların toplanılması və sistemli təhlili əsasında dərc olunması ilə bu qüvvələrin Ağqoyunlu dövlətinin bütöv ordu kompleksindən kənar və müstəqil təhlilinə əsaslanmaqla ağır zirehli süvari qüvvələrin döyüş tapşırıqlarının icrasındakı həlledici mövqeyi önə çıxarılmışdır.

Yuxarıda bəhs etdiyimiz həm ilk qaynaqlar, həm də bu mənbələrə əsaslanaraq yazılmış tədqiqat işləri nəzərə alınaraq Ağqoyunlu hərbi sistemi daxilində ağır zirehli süvari qüvvələr haqqındakı məlumatlar sistemləşdirilməklə tədqiq edilməsinə cəhd edilmişdir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Devellioğlu, F. Osmanlıca-Türkçe Ansiklopedik Lügat / F.Devellioğlu. – Ankara: Aydın Kitabevi Yayınlar, – 2013. – 1712 s.
2. Dəvani, C.M. Uzun Həsənin Ordusu: Hərbi keçidə baxış / tərc. Ş.Fərzəliyev, A.İftixari. – Bakı: Birol Group, – 2022. – 110 s.
3. "Arzname" ve "Hülasatüt-tevarih" eserlerinde Akkoyunlu ve Safevi ordularının resmi geçitleri / çev. ve not. İ.Baharlu. – Çanakkale: Paradigma Akademi Yayınları, – 2023. – 162 s.
4. Minorsky, V. A Civil and Military Review in Fars in 881/1476 // – London: Bulletin of the School of Oriental and African Studies, – 1939. №10, – s. 141-178.
5. Tihrani, Ə. Kitab-ı Diyarbekriyye / tərc. M.Öztürk - Ankara: Türk Tarih kurumu, – 2014. – I baskı. – 418 s.
6. Rumlu, H. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı) / tərc. O.Əfəndiyev, N.Musalı. – Kastamonu: Uzanlar, – 2017. – 661 s.
7. Uzun Hasan ve Fatih döneminde Doğuda Venedik Elçileri. Caterino Zeno ve Ambrogio Contarinin seyahetnameleri / tərc. T.Gündüz - İstanbul: Yeditepe Yayınevi, – 2021. – V baskı. – 152 s.
8. Barbaro, J. Anadoluya və İrana seyahat / tərc. T.Gündüz. – İstanbul: Yeditepe Yayınevi, – 2022. – V baskı. –120 s.
9. Şirəliyev, N. Azərbaycan Ağqoyunlu ordusunun müdafiə yaraq-yasaqları // Bakı: Geostrategiya, – 2023. №5, 77, – s. 72-77.
10. Azərbaycanın hərbi işi tarixi / red. P.Q.Darabadi – Bakı: Hərbi Nəşriyyat, – 2006. – 520 s.
11. Алиев, Н. Военная история Азербайджана с древнего периода до XVIII вв. / Н.Алиев, С.Ахмедов – Баку, – 2020. – 672 с.
12. Əhmədov, S.Ə. Azərbaycan silahları IX-XVII əsrlərdə: təkamül və inkişafı / S.Ə.Əhmədov. – Bakı, – 2017. – 538 s.
13. Khorasani, M.M. Structural Analysis of Handles of Highly Curved Iranian Swords / M.M.Khorasani, N.Arjmandi // Kafkas University Journal of the Institute of Social Sciences, – 2020. № 26, – p.725-745.
14. Nəcəfli, T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri (Müasir Türkiyə tarixşünaslığında) / T.H.Nəcəfli. – Bakı: Çaşıoğlu, – 2012. – 604 s.

**Аннотация**

**Тяжелые бронекавалерийские части в азербайджанском государстве Аккоюнлу: пушандары**

**Нариман Ширалиев**

Цель исследования - изучить положение тяжелобронированных кавалерийских войск - пушандар, занимающих особое место в военной системе азербайджанской армии Аккоюнлу, определить и систематизировать их военную технику и тактику. Структура научной статьи состоит из введения, трех подзаголовков и заключения. В рамках исследования одним из основных методов был синтезированный анализ сведений и цифр, приведенных для бронекавалерии в источниках того периода, научных трудах, написанных в военной области в современный период, а также сведений о том же роде войск в военных системах соседних государств в период существования Азербайджанского государства Аккоюнлу. Согласно проведенным исследованиям, было выяснено истинное значение используемого в источниках термина pushandar применительно к тяжелобронированным войскам государства Аккоюнлу, на основе приведенных в источниках сведений раскрыт принцип армии Аккоюнлу как армии с преобладанием кавалерии, показаны технические параметры основных оборонительных доспехов и основного наступательного оружия тяжелобронированных войск, их преимущества и недостатки в активном бою. В третьем подразделе исследовательской работы выяснены военная тактика, применяемая этими войсками в сражениях, и военные традиции армии Аккоюнлу, берущие начало от полукочевого турецко-монгольского стиля ведения войны, рассмотрены место и роль пушандара в использовании армии.

**Ключевые слова:** пушандар, Аккоюнлу, Узун Хасан, вооружение армии Аккоюнлу, джаушен, тяжелобронированная кавалерия

**Abstract**

**Heavily armoured cavalry units in the Azerbaijani Akkoyunlu state: pushandars**

**Nariman Shiraliyev**

The study aims to examine the position of heavily armoured cavalry forces - pushandar, which have a special place in the military system of the Azerbaijani Akkoyunlu army, to determine and systematise their military equipment and tactics. The structure of the research article consists of an introduction, three subheadings and a conclusion. Within the scope of the research, one of the main methods was the synthesised analysis of the information and figures given for armoured cavalry in the sources of the period, scientific works written in the military field in the modern period and the information on the same type of troops in the military systems of neighbouring states during the existence of the Azerbaijani Akkoyunlu State. According to the conducted research, the real meaning of the term pushandar used in the sources was clarified for the heavy armoured forces of the Akkoyunlu state, based on the information given in the sources, the principle of the Akkoyunlu army as a cavalry-dominated army was revealed, and the technical parameters of the main defensive armour and main offensive weapons of the heavy armoured forces, their advantages and disadvantages in active combat were shown. In the third sub-heading of the research work, the military tactics used by these forces in the battles and the military tradition of the Akkoyunlu army, which originated from the semi-nomadic Turkish-Mongolian based warfare style, were clarified and the place and role of the pushandar in the use of the army were considered.

**Keywords:** pushandar, Akkoyunlu, Uzun Hasan, weapons of the Akkoyunlu army, jawshen, heavily armoured cavalry

*Məqalə redaksiyaya daxil olmuşdur: 14.12.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 23.01.2024*
*Çapa qəbul edilmişdir: 16.02.2024*

**HƏRBİ BİLİK – MILITARY KNOWLEDGE**
**№1/2024, səh. 103-108**
*HƏRBİ XÜSUSİ ELMLƏR* *MILITARY SPECIAL SCIENCES*

UOT 355/359

# ŞƏXSİ HEYƏTDƏ QƏHRƏMANLIQ KEYFİYYƏTLƏRİNİN FORMALAŞMASINDA AUDİOVİZUAL TƏBLİĞAT VASİTƏLƏRİNİN ROLU
## (Azərbaycan bədii kinosu kontekstində)

**sən.ü.f.d. Əlisəfdər Hüseynov**
alisaftar50@mail.ru
*Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqatlar İnstitutu*
DOI: 10.30546/mk.2024.1.0103.

***Xülasə.*** Filosoflardan biri qeyd edir ki, dünyanı düzgün qavramaq anlayışların mahiyyətini düzgün anlamaqdan başlayır.

Qəhrəmanlıq – igidlik, müstəsna qoçaqlıq, rəşadət, cəsurluq deməkdir. Qəhrəmanlıq, mərdlik – Vətənə məhəbbət kimi ülvi hiss və duyğulardan güc alır, lakin belə yenilməz daxili enerji daşıyan, seçilmiş şəxslərin eyni dərəcədə enerjiyə malik şərlə, xəyanətlə üzləşməsi ehtimalı həmişə gündəlikdədir. Xəyanət qara kabus kimi həmişə qəhrəmanlığın başı üstündə fırlanır. “Kitabi-Dədə Qorqud” dastanları əsasında çəkilmiş filmdə Turalın, Qazan xanın, Beyrəyin, habelə xalq qəhrəmanı Babəkin taleyini deyilənlərə misal göstərmək olar. Xəyanətin qurbanına çevrilmək üçün ali duyğulara inamın aludəçilik həddinə çatmasına imkan verilməməli, şərin mövcudluğu faktı, onun gücü qəbul olunmalıdır.

Məqalədə şəxsi heyətdə rəşadət, dəyanət kimi keyfiyyətlərin formalaşmasında ekran əsərlərinin rolu, qəhrəman və antiqəhrəman qarşıdurmaqsının bəzi aspektləri Azərbaycan bədii kinosu kontekstində elmi-nəzəri baxımdan nəzərdən keçirilmişdir. Məqalədə alınan nəticə bundan ibarətdir ki, bu mövzuda çəkilmiş filmlər şəxsi heyətə göstərilərkən müəllifin yaradıcılıq məramının düzgün anlaşılması, qəhrəmanlığın xəyanətin murdar caynaqlarından sığortalanması üçün seansdan əvvəl, yaxud sonra şəxsi heyətlə izahedici söhbətin aparılması müstəsna əhəmiyyət kəsb edir. Əks təqdirdə, hazırlıqsız əsgərlərdə qəhrəmanlıq barədə ziddiyyətli və yanlış təsəvvür yarana bilər.

**Açar sözlər:** vətənpərvərlik tərbiyəsi, qəhrəmanlıq fəlsəfəsi, “25-ci kadr” effekti, informasiya müharibəsi, cəsarət və xəyanət

## Giriş

Audiovizual, yəni eyni vaxtda həm görmə, həm də eşitmə qavrayışına əsaslanan təbliğat vasitələri şəxsi heyətin mənəvi-psixoloji tərbiyəsində mühüm rol oynayır. Bu, ilk növbədə görmə, əyanilik amilindən irəli gəlir, çünki psixoloqların fikrincə, insan ətraf aləm haqqında informasiyanın çox hissəsini məhz görmə kanalı ilə əldə edir, onun müşahidə yolu ilə əldə etdiyi informasiya, bilgi digər kanallarla əldə etdiyi informasiyadan daha təsirli olur. Bu mənada “Göz gördüyündən qorxar”, “Eşitdiyinə yox, gördüyünə inan”, “Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır” kimi zərb məsəllər məhz praktikada təsdiqini tapan hökmlərdir.

Əyaniliyin, təsvir sırasının bu xüsusiyyəti ötən əsrdə ekran sənətində “25-ci kadr effekti” deyilən bir təsir mexanizminin yaranmasına səbəb oldu. Onun mahiyyəti budur ki, filmin montaj strukturundakı hər 25-ci kadr bir saniyədə yalnız 24 kadr qavramağa qadir olan insan tərəfindən şüuraltı şəkildə qavranılır [1, s.39]. Tezliklə bu tezisdən şüuraltı təsirin müxtəlif sahələrində (məsələn, siyasi təbliğat, diqqətin qeyri-ixtiyari bir nöqtədən digərinə yönləndirilməsi və s.) 25-ci kadr effekti ilə bağlı nəticələr çıxarıldı.

Yuxarıda deyilənlər bir daha sübut edir ki, insanların mənəvi-psixoloji durumunun formalaşmasında audiovizual təbliğat vasitələrinin mühüm rolu var.

Müxtəlif psixoloji xüsusiyyətlərə malik fərdlərdən təşkil olunmuş şəxsi heyət də böyük bir kollektivdir və onun mənəvi-psixoloji tərbiyəsində ekran sənətinin təsir gücündən düzgün istifadə olunması mühüm əhəmiyyət kəsb edir.

Bu yazıda şəxsi heyətə göstərilərkən bəzi məqamlarının şərh olunmasına ehtiyac duyulan bir neçə filmin nümunəsində qəhrəmanlıq, rəşadət kimi yüksək mənəvi keyfiyyətlərin hərbi qulluqçular tərəfindən düzgün qavranılması probleminin bəzi məqamlarına toxunacağıq. Azərbaycan sənətşünaslığında qəhrəmanlıq mövzusunun ekran təcəssümü probleminin hələ də fundamental araşdırma predmetinə çevrilmədiyini nəzərə alsaq, məqalədə toxunulan məsələlərin aktuallığı barədə aydın təsəvvür yaranar.

**Ekranda qəhrəmanlıq mövzusu və onun bəzi aspektləri**

Sovet dönəmində bəzi ideoloji yasaqlara, qadağalara baxmayaraq, kino xadimlərimiz müxtəlif illərdə yadelli işğalçılara qarşı mübarizə mövzusunu ekranlarımıza gətirməyə cəsarət tapmış, həmin mövzunun bu və ya digər aspektlərini əks etdirən "Dədə Qorqud", "Koroğlu", "Uzaq Sahillərdə", "Babək" kimi filmlər yaratmışlar. Azadlıq mücadiləsinin, milli özünütəsdiqin ideoloji prinsipləri, qəhrəmanlıq, vətənpərvərlik, eləcə də bu dəyərlərlə əks qütbdə dayanan xəyanət, qorxaqlıq hissləri baxımından "Dədə Qorqud" və "Babək" filmləri diqqəti daha çox cəlb edir. Təkcə ona görə yox ki, bu filmlərdə epik təhkiyə tərzi problemə genişmiqyaslı baxış üçün yaxşı imkanlar verir. Həm də ona görə ki, hər iki filmin yaradıcıları yersiz pafos və patetikadan yan keçərək, qəhrəmanlıq, düşmənə nifrət motivlərini mümkün qədər əyani detal və real həyati boyalarla əks etdirməyə çalışmış, bu mənəvi dəyərlərin təntənəsini şərtləndirən amillərlə yanaşı, mürəkkəb və ziddiyyətli məqamlarına da diqqət yetirmişlər.

Adi insandan qəhrəmanlığın Beyrək, Qazan xan, Babək zirvəsinə yüksəlişin mənəvi-psixoloji şərtləri hər iki filmdə milli düşüncə və davranış tərzinin sabit atributları kimi təqdim olunub. Qazan xan cəmiyyətdəki ali mövqeyə birdən-birə, sifarişlə qalxmayıb, o, icmanın başçısı, yenilməz sərkərdəsi olmaq haqqını öz iradəsi, səriştəsi və ağlı ilə qazanıb. Qazan xanın həyat fəlsəfəsi, fikir və düşüncələrinin düzəni də bütünlüklə kişiliyin, qəhrəmanlığın halal haqq kimi qazanılmasına inam ruhunda köklənib. Elə buna görə də oğlu Turalın məclisdə hamını ayaqlayıb layiq olmadığı yuxarı başa keçməsinə dözmür, onu danlayır, tənbeh edir. Həmin səhnədə ata ilə oğul arasında gedən mükalimə qəhrəmanlıq anlayışına iki müxtəlif yanaşmanın mahiyyətini əks etdirməsi baxımından maraqlıdır. Atasının danlağına "baş kəsmək, qan tökmək qəhrəmanlıqdırmı" – deyə cavab verən Turalın bu sualla qorxaqlığa, fərsizliyə haqq qazandırmaq istədiyini düşünmək sadəlövhlük olardı. Bu sözlərlə o, əslində bir qədər başqa – şairanə, mənəvi-humanist qəhrəmanlıq modelini təklif edir, baş kəsməklə deyil, insanların böyük ürəyi, ülvi duyğuları zəminində pərvəriş tapan harmoniya arzulayır. Əsir düşərkən göstərdiyi mətanət və dözüm zahirən qəhrəmana bənzəməyən Turalın öz içində nə dərəcədə böyük bir mənəvi güc gəzdirdiyinə tutarlı sübutdur. Lakin xəyanət, rəzalət, satqınlıq, paxıllıq var olan yerdə Turalın qəhrəmanlıq konsepsiyası ifrat dərəcədə humanist və romantik bir şairin utopik illüziyalarından uzağa getmir. Xəyanəti, rəzaləti yalnız qılıncın gücü ilə, zor ilə, qan tökməklə susdurmaq olar (və lazımdır). Elə Turalın öz aqibəti də bu fikrin təsdiqinə xidmət edir. Xain Alp Aruzun boynunu vurmağa əli qalxmayan Tural dərhal aman verdiyi Şərin xəyanətinə tuş gəlir. Aruzun arxadan atdığı ox onun kürəyinə sancılmaqla yanaşı, qəhrəmanlıq haqqında şəxsi fəlsəfəsinin harmoniyasını da pozur.

Qəhrəmanlıq həm də Şərə mənəvi cəhətdən qalib gəlməkdir. Öz-özlüyündə cəlbedici təsir bağışlayan bu fikir filmdə Turalın ifadə etdiyi mövqedən öz təsdiqini tapa bilmir. Çünki bir əlində çiçək dəstəsi tutan Turalın heç olmasa, o biri əlində qılınc tutması tarixi zərurət idi.

"Dədə Qorqud" filminin digər qəhrəmanı Beyrək də sözün müəyyən mənasında Turalın aqibətini yaşayan obrazdır. Turalın faciəsi onun ifrat humanizmində, duyğu və hisslərinin şairanə coşqunluğundadırsa, Beyrək qəhrəmanlıq, cəngavərlik etiketinə fanatik sədaqətin qurbanına çevrilir. Yalın əllə vəhşi şiri boğub öldürməyə gücü, qüvvəsi çatan Beyrək, Yalıncıq kimi miskin, rəzil və qorxaq bir varlıq üzərində mənəvi qələbə çaldığını düşündüyünə görə meydanı kürəyindən ölümcül yara alan uğursuz bahadır kimi tərk edir. Əsl qəhrəmanlara xoş olan ağayana davranış, basdığına aman vermək, onu bağışlamaq mədəniyyəti, düşmənə mərhəmət hissi həddini aşıb sadəlövh humanizmə çevriləndə Beyrəyin faciəsi danılmazdır.

"Dədə Qorqud" filmində qəhrəmanlıq fəlsəfəsinin dərindən işlənməsi, türkdilli xalqların həmrəyliyi ideyası türk dünyasında böyük əks-səda doğurmuş, onun haqqında müxtəlif mətbuat orqanlarında müsbət fikirlər söylənmişdir. Məsələn, Türkiyədə çıxan "Yeni düşüncə" qəzetinin 8 iyul 1975-ci il tarixli nömrəsində Niyazi Yıldırım Gəncosmanoğlu imzası ilə çap olunmuş "Dədə Qorqud" məqaləsində deyilirdi: *"Türk kültür tarixinin ən böyük və dəyərli əsəri olan "Dədə Qorqud"un filmə alınıb televiziya ilə göstərilməsi böyük bir sənət və kültür hadisəsiydi. Bu əsərin Azərbaycanda yaradılması maddi tərəfdən əhəmiyyəti olduğu kimi, mənəvi yöndən də ayrıca bir əhəmiyyəti vardı. Azərbaycan dəmir pərdə arasındakı bir türk yurdu olmasına baxmayaraq, orada milli kültürə bizdən daha artıq və ciddi ölçülərlə xidmət edildiyi gözdən qaçmamalıdır. Bu əsərin filmə alınması, ekrana gətirilməsi azərbaycanlı qardaşlarımız üçün istiqlal dərəcəsində mənəvi həzz vermiş bir hadisəydi"* [2].

Milli kinomuzda azad Azərbaycan ideyası birmənalı şəkildə ilk dəfə "Babək" filmində əks etdirilmişdir. İşğalçı dövlətin bayrağının atın dırnaqları altında parça-parça edildiyini göstərən kadrlar filmin mövzu və problematikasının qəhrəmanlıq pafosuna ən yaxşı illüstrasiyadır. 20 ildən çox Azərbaycanın müstəqilliyi uğrunda qılınc çalmış Babəkin ömür yolu filmdə geniş zaman kontekstində – onun "tuluqda zeytun yağı satan kişinin oğlu" olduğu vaxtdan işgəncə ilə öldürüldüyü ana qədər izlənildiyindən tarixi şəxsiyyət kimi Babəkin zəfər və faciəsinin obyektiv mənzərəsi gözlərimiz qarşısında kifayət qədər canlanır. Ramilə Qurbanlı haqlı olaraq yazır ki, *"Sovetin qılıncının qəbzəsi də kəsən vaxtlarda kinonun dili ilə "Zavallı, sən bilmədin ki, azadlıq yanğısı nə deməkdir", "Bircə gün azad yaşamaq qırx il boyunduruq altında sürünməkdən şirindir", "Azərbaycanı azad görməyincə bu qılınc qınına girməyəcək" kimi ifadələr işlətmək hər oğulun işi deyildi"* [3].

Babək süjetə milli birlik, həmrəylik ideyasının carçısı, dəliqanlı, çılğın gənc kimi daxil olur. O, rəhbərlik etdiyi icmada məhz birliyə nail olduğuna, orduda vahid komandanlıq prinsipini bərqərar etdiyinə görə kamil sərkərdə kimi yetişir, yaratdığı canfədailər ordusu ilə parlaq qələbələr qazanır.

Lakin bu filmdə də baş qəhrəman tarix meydanını mütləq qalib kimi tərk edə bilmir. Nə üçün? Ona görəmi ki, işğalçı ordunun komandanı Afşin sərkərdəlik qabiliyyətinə, taktiki istedadına görə Babəkdən üstün idi? Suala birmənalı cavab vermək çətindir. Hər halda Babəkin çox təhlükəli, hiyləgər, çevik bir rəqiblə qarşılaşdığını etiraf etməliyik. Babək Afşinin xilafətə qarşı gizli və birgə mübarizə aparmaq barədə təklifini öz idealına uyğun gəlmədiyinə görə rədd edir *("Mən 20 il xilafətə qarşı ona görə mübarizə aparmamışam ki, İran taxtında bir müqəvva əyləşsin")*, lakin "bu zəhərli ilanın başını kəsmək" üçün birmənalı çağırışlarından yan keçərək çevik hərbi-siyasi manevrlər də edə bilmir. Afşin isə, əksinə, sərkərdə Babəkə qalib gəlməzdən öncə bir insan olaraq onun zəif damarını axtarır, səbrini sınağa çəkir. Başqa sözlə, Afşin təkcə *"40 il qul kimi yaşamaqdansa, 1 gün azad yaşamaq yaxşıdır"* – deyə hayqıran sərkərdə Babəkə qarşı yox, həm də fərsiz oğul ağrısını yaşayan, ailəsində ikitirəlik yaranan, bir şəxsiyyət kimi ikiləşən Babəkə qarşı döyüşür. Nə qədər paradoksal təsir bağışlasa da, rəhbərlik etdiyi icmada birliyə nail olan Babək öz ailəsi daxilində bunu təmin edə bilmir. O, azadlıq idealını minlərlə insanın mənəvi sərvətinə çevirərək, onlardan canfədailər ordusu yaradır, amma doğma oğlu Buğdaya miskin və qorxaq varlıq kimi nifrət edir. Bu mənada Buğday ağrısı Babəkin süqutunda Səhl Sumbatın xəyanətindən az rol oynamır, – desək yanılmarıq. Babəkin özünə daha inamlı olması, səsinin daha gur eşidilməsi üçün oğlu Buğday ən azı *"gündə yüz dəfə ölən qorxaq"* olmamalı idi. Babəkin daxili tarazlığının pozulmasında onun eşq-məhəbbət, ailə sərgüzəştləri də az rol oynamır. Vaxtilə könlünü qırdığı Pərvini saraya gətirdikdən sonra o, sanki bir şəxsiyyət kimi ikiləşir, iki qadın arasında başlayan açıq və gizli rəqabətin obyektinə çevrilir. Birinci arvadı Zərintacın dediyi sözlər (*"Onu* (Babəki – Ə.H.) *mən şan-şöhrətə çatdırdım, mən..."*) qəhrəmanlıq fəlsəfəsindən bixəbər, azadlıq yanğısının nə olduğunu bilməyən bir qadının mənəvi cılızlığını əks etdirməklə yanaşı, həm də bu cür adamlarla bir yol gedən qəhrəmanlara ibrət dərsi kimi mənalanır.

Əlbəttə, adları çəkilən filmlərdə obrazların belə həyati, realist boyalarla təqdimi onların bədii dəyərini qətiyyən azaltmır. Bədii obraz o vaxt sevilir, yadda qalır ki, onun xarakterini, daxili aləmini səciyyələndirən keyfiyyətlər əsərdə mümkün qədər qabarıq və kompleks şəkildə əks etdirilsin. "Dədə Qorqud" və "Babək" filmlərində bədii yaradıcılığın bu mühüm tələbinə əməl olunduğundan əsas

obrazlar gözlərimiz qarşısında yalnız hansısa ideyanın, fikrin daşıyıcısı kimi yox, həm də düşünən insanlar kimi canlanırlar. Bu isə onların əməllərinə, ideyalarına inamı daha da artırır.

Azərbaycan kinematoqrafiyasında ən savaşlı, davalı film heç şübhəsiz ki, rejissor T.Tağızadənin 1958-ci ildə çəkdiyi "Uzaq sahillərdə" filmidir. Film Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin Adriatik dənizi sahillərində göstərdiyi qəhrəmanlıqlardan bəhs edir. Faşist həbs düşərgələrinə düşdüyünə görə bir vaxtlar M.Hüseynzadənin təmiz adını ləkələməyə, xidmətlərini heçə endirib onu xalq düşməni elan etməyə göstərilən cəhdlər fonunda bu filmin meydana gəlməyi təqdirəlayiq və lazımlı idi. Üstəlik, müharibənin başa çatmasından cəmi 13 il sonra meydana gələn "Uzaq sahillərdə" o dövrdə müharibə mövzusunda çəkilmiş digər filmlərlə müqayisədə heç də pis təsir bağışlamırdı. Filmdə ekran həllinə, səliqəli montaj quruluşuna görə maraq doğuran epizodlar da yox deyil. Aktyor Nodar Şaşıkoğlu öz qəhrəmanının xarakterini dolğun boyalarla canlandırmaq üçün az zəhmət çəkməmişdir. Nəhayət, bəstəkar Qara Qarayevin film üçün bəstələdiyi musiqi parçalarının ekran təhkiyəsində oynadığı önəmli funksiyanı da qeyd etməmək olmaz. Ancaq bütün bu məziyyətlərinə baxmayaraq filmdə onun bədii-estetik dəyərinə xələl gətirən kəm-kəsirlər də yox deyil Hərbə aid situasiyaların, məqamların təsvirində rejissorun sadəlövhlüyü, mövzuya o qədər də dərindən bələd olmaması özünü açıq-aşkar büruzə verir. Məsələn, alman zabiti geyimində Triestə kəşfiyyata gedən M.Hüseynzadənin şəhərin gediş-gəlişli küçələrinin birində özünün anfas və profildən çəkilmiş şəkilləri ilə müşayiət olunan və təhlükəli partizan kimi başına mükafat vəd edən elan lövhəsinin qarşısında dayanıb dəqiqələrlə öz şəkillərinə tamaşa etməsi hər halda kəşfiyyatçı sayıqlığına, istedadına dəlalət etmir. Yaxud onun az qala bir bölük alman motosikletçisinin təqibindən qurtarıb dağlara qalxmasını əks etdirən epizodların reallıq dərəcəsi çox aşağıdır. Lakin bütün bu kəm-kəsirlərə baxmayaraq bu film II Dünya müharibəsinin azərbaycanlı qəhrəmanlarının bədii ekran obrazını yaratmaq sahəsində ilk cəhd kimi milli kinematoqrafiyamızda müəyyən yer tutur. *"Gəncləri qəhrəmanlığa, Vətəni sevməyə çağıran bu ekran əsəri 1959-cu ildə Kiyevdə keçirilən Ümumittifaq kinofestivalında xüsusi prizə layiq görülmüşdür"* [4].

Hamıya məlumdur ki, Azərbaycan 1988-ci ildən öz havadarlarına arxalanan Ermənistan Respublikası tərəfindən təcavüzə məruz qalmış və torpaqlarının 20 faizini itirmişdi, həmçinin 1 milyona yaxın qaçqının yurd, ocaq həsrəti, ərini, oğlunu itirən minlərlə ananın, sinəsinə qardaş dağı çəkilmiş neçə-neçə qız-gəlinin nisgili, qubarı. Biz yuxarıdakı tezisi qeyd-şərtsiz qəbul etsəydik, onda kino ustalarımızdan Qarabağ müharibəsi mövzusunda sənədli, yaxud bədii ekran əsərləri gözləmək istəyimizdə tamamilə haqsız olardıq. Lakin sevindirici haldır ki, Azərbaycanın kino ustaları vaxtdan möhlət istəməmiş, Böyük Zəfərimizə qədər Qarabağ müharibəsi mövzusunda ekran əsərləri yaratmışlar. Fikrimizcə, onların arasında mərhum kinorejissor Ceyhun Mirzəyevin çəkdiyi "Fəryad" filmi ideya-məzmun xüsusiyyətlərinə, qoyulan problemin aktuallığına görə daha çox seçilir.

Filmdə reallıq ermənilərə əsir düşmüş İsmayıl adlı bir azərbaycanlı döyüşçünün hissləri, duyğuları prizmasından göstərilir. Erməni cəlladları İsmayıla olmazın işgəncələr verirlər, onu rezin dəyənəklə döyür, təpiklə harasına gəldi vururlar. Amma İsmayıl üçün bütün bu fiziki işgəncələrə dözmək, ermənilər tərəfindən təhqir edilib sonra da işgəncə ilə öldürülən qızın cəsədinə baxmaqdan, alov içərisində tək, köməksiz qalan erməni uşağının qışqırtısına tab gətirməkdən, "Müzəffər ordumuz Xocalını (sonra Şuşanı, Laçını – Ə.H.) alıb" müjdəsinə şadlıq edən ermənilərin araq içməsinə, tost deməsinə tamaşa etməkdən qat-qat asandır. Budur, başı ülgüclə qırxılmış erməni zabiti əlində oyuncaq tüfəng tutmuş 4-5 yaşlı uşağı qucağına alıb yaralı azərbaycanlı döyüşçünü göstərərək deyir: "Bax, bunu görürsənmi, o sənin düşmənindir. Onu məhv etmək lazımdır ki, gələcəkdə səni öldürməsin". Və azərbaycanlı döyüşçünün gözlərində bir gilə yaş parlayır. Bu bir gilə yaş sonradan hönkürtüyə dönəcək, yaralı bir qəlbin fəryadına çevriləcək və tamaşaçı istər-istəməz M.Cəlilin məşhur "Kamança" pyesinin qəhrəmanını xatırlayacaq: erməni Baxşı, Qəhrəman yüzbaşının əsiridir, amma nakam dostlarının intiqamını almaq ehtirası ilə alışıb-yanan Qəhrəman yüzbaşı ermənini öldürə bilmir, onun çaldığı "Rast"ı, "Segah"ı eşidən kimi kövrəlir, karıxır. Qəhrəman yüzbaşının intiqam duyğusu, düşmənə amansızlığı ilə haradasa ziddiyyət təşkil edən zəifliyi, gücsüzlüyü İsmayıl Hüseynovun şəxsində yeni tarixi şəraitdə bir daha təzahür edir, onların ikisi də ulu bir xalqın mənəvi böyüklüyündən irəli gələn çarəsizliyin faciəvi məqamlarını yaşayır. Əlbəttə, burada söhbət qorxaqlığın, qətiyyətsizliyin nəticəsi

olan naqislikdən yox, qəhrəmanlığa, mənəvi ucalığa yaraşan keyfiyyətlərdən gedir. Təbii ki, İsmayıl alovlanan evdə tək-tənha qalan köməksiz erməni uşağının əzablarına, göz yaşlarına qıya bilməzdi. M.Cəlil qəhrəmanını kamançanın səsi ilə sınağa çəkmişdi, "Fəryad" filminin müəllifləri isə köməksiz bir körpənin göz yaşları ilə. Və hər iki qəhrəman bu sınaqdan öz ulu əcdadlarına xas olan ləyaqətlə çıxır. İsmayıl da Qəhrəman yüzbaşı kimi öz mənəviyyatının ucalığından yıxılır.

*"Əsgər nifrət etməsə, döyüşə bilməz. Ancaq əsgər mütləq düşmənə, onun əsgərinə nifrət etməlidir, bütöv xalqa yox. Düşmənin əsgərinin təmsil elədiyi xalqın qocalarını, uşaqlarını, qadınlarını qırmaq bizim xalqa, onun mənəviyyatına yaraşan iş deyil. Biz bu yolla getsək ermənilərin gününə düşə bilərik. Bu isə millət üçün faciədir"* [5, s.34].

Yazıçı Anarın sözləridir. Ayrı bir münasibətlə deyib və bu sözləri yada salanda bir daha inanırsan ki, dünya nifrət, kin üzərində yox, məhəbbət üzərində qərar tutub. Nə qədər ki, Qəhrəman yüzbaşılar, İsmayıllar var – dünyanın xilasına, insanlığın nicatına ümid etməyə dəyər.

Qəhrəman yüzbaşılar, İsmayıllar olmasaydı dünya qan dənizində boğulardı.

İsmayılın köksündən qopan fəryad yüz illər bundan əvvəl də eşidilib, yüz illər bundan sonra da eşidiləcək.

Çünki bu fəryad insan fəryadıdır.

Və nəhayət, yuxarıda göstərilən tarixi və bədii təcrübə elə indinin özündə də aktual səslənən "qalib gələcəkmi cahanda kamal?" sualına cavab ətrafında düşünərkən praktiki əhəmiyyət daşıyan aşağıdakı qənaətlərə gəlməyə xeyli material verir.

Mərdlik, kişilik etiketinə yalnız açıq, mərdanə mübarizə aparmaq mədəniyyətinə yiyələnmiş rəqiblə münasibətdə riayət etmək məqbuldur. Xəbis, xain düşmənə aman vermək, onu bağışlamaq həmişə faciəli nəticələr doğurur (Beyrəyin, Turalın taleyi).

Əməlləri xəyanətdən, rəzalətdən yoğrulanlarla layiq olmadıqları dildə – insan dilində danışmaq ilana insanı sancmağın pis şey olması barədə moizə oxumaq kimi bir şeydir.

Qəhrəmanlıq fəlsəfəsini dərk etməyənlərə aman verilməməlidir. Onların üzərinə yalnız qəhrəman kimi, cəngavər kimi yerimək lazımdır!

## Nəticə

Şəxsi heyət qəhrəmanlıq mövzusunda çəkilmiş filmlərə baxmazdan əvvəl mənəvi-psixoloji hazırlığa cavabdeh zabitlərin filmin ideyası, mövzusu, aktuallığı barədə təhlil, şərh xarakterli məlumat verməsi filmdə qoyulan problemlərin daha düzgün qavranılmasına kömək edər. İzah olunmalıdır ki, silahı yerə qoyub təslim olan düşmən əsgərini öldürmək, habelə hərbi əməliyyatlara aidiyyəti olmayan köməksiz uşaq, qadın və qocalara silah çevirmək qəhrəmanlığa yaraşmayan keyfiyyətlərdir. Film nümayişi hərbi qulluqçuların əylənməsinə, vaxt keçirməsinə yox, maariflənməsinə, onlarda ali hisslərin formalaşmasına xidmət etməlidir. Bu mənada 44 günlük Vətən müharibəsində igid oğullarımızın göstərdiyi qəhrəmanlıq nümunələrindən bəhs edən bədii və sənədli filmlərə böyük ehtiyac var.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Hüseynov, Ə. Kino terminlərinin izahlı lüğəti / Ə.Hüseynov. – Bakı: Elm və təhsil, – 2015. – 126 s.
2. Yıldırım, N.G. Dədə Qorqud: [Elektron resurs] / – 8 iyul, 1975.
URL: https://www.anar.az/?menu=5
3. Qurbanlı, R. "Babək" filmi haqqında: [Elektron resurs] / – 13 noyabr, 2022.
URL: https://kayzen.az/blog/Azerbaycan-kinosu/27316/bab%C9%99k-filmi-haqq%C4%B1nda.html
4. Nərimanoğlu, M. 60 il "Uzaq sahillərdə" // Azərbaycan. – 2010, 3 avqust. – s. 4.
5. Hüseynov, Ə. Kino: yuxudan reallığa / Ə.Hüseynov. – Bakı: Hərbi nəşriyyat, – 1998. – 128 s.
6. Azərbaycan dilinin izahlı lüğəti / AMEA-nın üzvü prof. Əliheydər Orucov. – Bakı: Şərq-Qərb, – 2006. – 670 s.

**Аннотация**
**Роль аудиовизуальных средств пропаганды в формировании героических качеств личного состава**
**Алисафдар Гусейнов**

Один из философов отмечает, что правильное восприятие мира начинается с правильного понимания сущности понятий. Героизм-означает храбрость, исключительное мужество, отвагу, отвагу. Героизм черпает силу из возвышенных чувств и эмоций, таких как отвага, отвага – любовь к Родине, но такая несокрушимая внутренняя энергия, возможность того, что избранные люди столкнутся со злом, предательством с такой же энергией, всегда присутствует в повседневной жизни. Предательство всегда крутится над головой героизма, как черный кошмар. В фильме, снятом по мотивам эпоса "Китаби-Деде Горгуд", рассказывается о судьбе Турала, Казан-хана, Бейрея, а также в фильме "Бабек" о судьбе народного героя Бабека. Чтобы не стать жертвой измены, не следует допускать, чтобы вера в высшие эмоции доходила до предела зависимости, следует признать факт существования зла, его силу.

В статье рассмотрена роль экранных произведений в формировании у личного состава таких качеств, как решительность, стойкость, некоторые аспекты противостояния героя и антигероя с научно-теоретической точки зрения в контексте азербайджанского художественного кино. Автор приходит к выводу, что при показе фильмов на эту тему персоналу чтобы личный состав правильно понял творческого замысла автора, нужно проводить разъяснительную беседу до или после сеанса. В противном случае у неподготовленных солдат может сложиться противоречивое и неправильное представление о героизме.

**Ключевые слова:** воспитание патриотизма, философия героизма, эффект "25-го кадра", информационная война, мужество и предательство

**Abstract**
**The role of audiovisual means of propaganda in the formation of heroic qualities in personnel**
**Alisafdar Huseynov**

One of the philosophers notes that the correct perception of the world begins with the correct understanding of the essence of concepts. Heroism means bravery, exceptional bravery, bravery and courage. Heroism, courage – draws strength from such sublime feelings and emotions as love for the motherland, but the likelihood that such invincible inner energy-bearing, chosen ones will face equally energetic evil, betrayal, is always on the agenda. Betrayal, like a black nightmare, always revolves over the head of heroism. In the film based on the epics" Kitabi-Dede Gorgud", the fate of Tural, Gazan Khan, Beyray, as well as the people's hero Babek can be cited as an example. In order to become a victim of betrayal, faith in the higher senses should not be allowed to reach the point of addiction, the fact of the existence of evil, its power must be accepted.

In the article, the role of screen works in the formation of such qualities as courage and courage in the personnel, some aspects of the confrontation between heroes and antihero were considered from a scientific-theoretical point of view in the context of Azerbaijani artistic cinema. What the author came to is that when showing films on this topic to the personnel, it is of exceptional importance to correctly understand the author's creative intention, to conduct an explanatory conversation with the personnel before or after the session in order to insure heroism against the unclean claws of betrayal. Otherwise, unprepared soldiers may have a cynical and wrong idea of heroism.

**Keywords:** patriotism education, heroic philosophy, "25th frame" effect, information war, courage and betrayal

*Məqalə redaksiyaya daxil olmuşdur: 13.02.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 14.02.2024*
*Çapa qəbul edilmişdir:21.02.2024*



**kiçik leytenant**
**Nəcəfli Sadiq Nüsrət oğlu**

Nəcəfli Sadiq Nüsrət oğlu 22 iyun 2000-ci ildə Biləsuvar rayonunun Yuxarı Cürəli kəndində anadan olub. 2017-ci ildən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. IV sinif kursantı olanda – 2020-ci ilin sentyabrda Vətən müharibəsi başlananda "kiçik leytenant" rütbəsində cəbhəyə gedib.

Kiçik leytenant Sadiq Nəcəfli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Sadiq Nəcəfli noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Biləsuvar rayonunda dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Sadiq Nəcəfli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Sadiq Nəcəfli ölümündən sonra "Cəsur döyüşçü" medalı ilə təltif edilib.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Sadiq Nəcəfli ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Kiçik leytenant Nəcəfli Sadiq subay idi.

## ELMİ MƏQALƏLƏRİN TƏRTİB EDİLMƏSİNƏ DAİR TƏLƏBLƏR

Təqdim edilən məqalələr jurnalın elmi istiqamətinə (hərbi-nəzəri elmlər, hərbi-xüsusi elmlər, hərbi təbabət, milli təhlükəsizlik) uyğun, aktual elmi problemlərə aid tədqiqatların ilk dəfə dərc olunması üçün nəzərdə tutulmuş materiallara malik olmalıdır. Məqalələr elektron variantda üç dildə (Azərbaycan, rus və ya ingilis) təqdim edilə bilər.

Məqalə MS WORD mətn redaktorunda 12-lik Times New Roman şrifti ilə yığılmalı, sətirlərarası məsafə 1 olmalıdır. Məqalənin strukturuna uyğun olaraq UOT, ORCİD indekslər (əgər varsa) məqalənin adı, müəllif haqqında tam məlumat, xülasə, açar sözlər, giriş, əsas hissə (metodologiya və əldə olunan nəticələr), nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı, və əlavələr (ehtiyac olarsa) ardıcıl və sistemli şəkildə təqdim olunmalıdır. Məqalənin birinci səhifəsinin yuxarı sol tərəfində UOT indekslər göstərilməlidir. Mətnin əvvəlində məqalənin adı, müəllif(lər) haqqında məlumat (adı və soyadı tam şəkildə, elmi dərəcəsi, elmi adı və hərbi xidmətdə olanlar üçün hərbi rütbəsi), müəllif(lər)in işlədiyi müəssisə(lər), müəllif(lər)in elektron poçt ünvan(lar)ı, telefon nömrələri, həmçinin qonorar ödənilməsi üçün onların Azərbaycan Beynəlxalq Bankının hesab rekvizitləri göstərilməlidir. Bu məlumatlardan sonra məqalənin yazıldığı dildə 150 – 250 sözdən ibarət xülasə verilməlidir. Xülasədə tədqiqat işinin mahiyyəti, müəllif(lər)in aldıqları elmi nəticələr, işin elmi cəhətdən yeniliyi, tətbiqi əhəmiyyəti və s. yığcam şəkildə öz əksini tapmalıdır. Xülasədən sonra 5 – 8 sözdən ibarət açar sözlər göstərilməlidir.

Məqalənin mətni 6 – 12 səhifə (A4 formatında) həcmində olmalı, səhifələrdə isə bütün tərəflərdən 20 mm boş məsafə saxlanmalıdır. Səhifələrin nömrəsi səhifənin aşağı orta hissəsində qoyulmalıdır.

İllüstrasiyalar, cədvəllər, qrafiklər, diaqramlar mətndə yerləşdirilərkən (sayı birdən artıqdırsa) ardıcıl olaraq ərəb rəqəmləri ilə nömrələnməlidir. Cədvəl – cədvəlin yuxarısında sağdan (məs., **Cədvəl 1**), şəkil isə şəklin altında ortadan (məs., **Şəkil 2.**) və mətn hissədən (yuxarıdan və aşağıdan) 1 boş sətir buraxmaqla nömrələnməli, həmçinin elə yerləşdirilməlidir ki, məqaləni döndərmədən və ya saat əqrəbinin hərəkəti istiqamətində döndərdikdə onlara baxmaq, yaxud oxumaq mümkün olsun.

Mətndə verilən riyazi ifadələr MS Word proqramının düstur redaktoru (Equation) ilə tərtib olunmalıdır. Düstur sətrin ortasında, nömrəsi isə sağda mötərizədə yazılmalıdır.

Elmi məqalədə mövzu üzrə qısa təhlil verilməli, onun aktuallığı əsaslandırılmalı, həll olunmalı məsələlər açıqlanmalı və onların həlli yolları göstərilməli, əldə edilən nəticələr, işin elmi cəhətdən yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.

Elmi mənbələrə edilən istinadlar mətndə kvadrat mötərizədə verilməlidir (məsələn, [1] və ya [1, s.119]). Məqalənin sonunda verilən ədəbiyyat siyahısı istinad olunan ədəbiyyatların mətndəki ardıcıllığına uyğun şəkildə nömrələnməlidir. Ədəbiyyat siyahısında son 10 ildə nəşr edilmiş elmi məqalələrə, monoqrafiyalara və digər etibarlı mənbələrə üstünlük verilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 29 oktyabr 2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş, 7 may 2021-ci il, 9 dekabr 2022-ci il tarixli qərarı ilə dəyişiliklər edilmiş “Dissertasiyanın tərtibi qaydası”nın tələbləri əsas götürülməlidir. “İstifadə edilmiş ədəbiyyat siyahısı”ndan sonra məqalənin və müəllifin adı, xülasə və açar sözlər (məqalənin yazıldığı dildən əlavə, yuxarıda qeyd edilmiş daha iki dildə) verilməlidir.

Redaksiyaya daxil olmuş məqalələrin çapa tövsiyə olunması jurnalın redaksiya heyətinin anonim rəyindən və plagiatlığın mövcudluğunun yoxlanılmasından sonra müəyyən edilir. Redaksiyaya təqdim olunan məqalə çapa tövsiyə olunmadıqda bu barədə müəllif(lər)ə məlumat göndərilir.

Jurnalın bir nömrəsində eyni müəllif(lər)in iki məqaləsi dərc oluna bilməz. Yuxarıda qeyd edilən tələblərə cavab verməyən məqalələr dərc edilmir və nəşr edilmiş məqalələrin əlyazmaları geri qaytarılmır.

## ТРЕБОВАНИЯ К ОФОРМЛЕНИЮ НАУЧНЫХ СТАТЕЙ

Представленные для публикации в журнале статьи должны соответствовать научным направлениям (военно-теоретические науки, военно-специальные науки, военная медицина, национальная безопасность) журнала и содержать материалы, отражающие результаты исследований научно-актуальных проблем, предназначенные для первичной публикации. Статьи могут быть представлены в электронном варианте на одном из следующих языков: азербайджанском, русском или английском.

Статья должна быть набрана в текстовом редакторе MS WORD шрифтом Times New Roman 12, междустрочный интервал – 1.

Согласно структуре статьи УДК, ORCID индексы (при наличии), название статьи, полная информация об авторе, аннотация, ключевые слова, введение, основная часть (методология и полученные результаты), заключение, список использованной литературы, и приложения (при необходимости) должны быть представлены последовательно и системно. Индексы УДК должны отображаться в левой верхней части первой страницы статьи. В начале текста указывается название статьи, сведения об авторе(ах) (полное имя и фамилия, ученая степень, ученое звание и воинское звание для военнослужащих), учреждении(ях), в котором работает(ют) автор(ы), адрес(а) электронной почты автора(ов), номера телефонов, а также реквизиты счета Международного Банка Азербайджана для уплаты гонорара. После этой информации следует дать аннотацию объемом 150–250 слов на том языке, на котором написана статья. В аннотации следует отразить кратко: суть научно-исследовательской работы, научные результаты, полученные автором(ами), научная новизна работы, важность применения и т.п. После аннотации следует перечислить ключевые слова из 5–8 слов.

Текст статьи должен составлять 6–12 страниц (формата A4), страницы должны иметь свободное пространство по 20 мм со всех сторон. Номера страниц должны быть размещены в центре внизу страницы.

При размещении в тексте иллюстраций, таблиц, схем, диаграмм (если их количество больше одной) их следует нумеровать последовательно арабскими цифрами. Нумерация должна быть вверху таблицы справа (например, **Таблица 1.**), а на странице с рисунком – внизу посередине (например, **Рисунок 2.**) и 1 пустая строка от текстовой части (сверху и снизу). Изображение должно располагаться таким образом, чтобы его можно было рассматривать или читать не поворачивая, а также при повороте по часовой стрелке.

Математические выражения, приведенные в тексте, должны быть составлены с помощью редактора формул (Equation) программы MS Word. Формулу следует писать посередине строки, а их номера в скобках справа.

В научной статье должен быть дан краткий анализ темы, обоснована её актуальность, разъяснены решаемые вопросы и указаны пути их решения. Должны быть чётко представлены полученные результаты, научная новизна работы, её прикладная значимость, экономическая эффективность и т.п.

Ссылки на научные источники в тексте должны быть даны в квадратных скобках (например, [1] или [1, стр.119]). Список литературы, приведенный в конце статьи, должен быть пронумерован в соответствии с порядком цитирования литературы в тексте. В списке литературы предпочтение следует отдавать научным статьям, монографиям и другим достоверным источникам, опубликованным за последние 10 лет. При даче библиографического описания цитируемого источника, за основу должны приниматься требования «Правила составления диссертации», которые были утверждены решением Президиума ВАК при Президенте Азербайджанской Республики от 29 октября 2019 года и внесены и дополнены постановлением от 7 мая 2021-го, 9 декабря 2022-го годов. После «Списка использованной литературы» следует указывать название статьи и автора, аннотацию и ключевые слова (помимо языка, на котором написана статья, на двух других языках, упомянутых выше).

Рекомендация к публикации статей, входящих в редакцию, определяется после анонимного заключения редакционной коллегии журнала и проверки на наличие плагиата. Если поступившая в редакцию статья не рекомендуется к публикации, информация об этом отправляется автору(ам).

Две статьи одного и того же автора(ов) не могут быть опубликованы в одном номере журнала. Статьи, не соответствующие вышеуказанным требованиям, не будут опубликованы, а рукописи опубликованных статей не будут возвращены.

## REQUIREMENTS FOR THE COMPILATION OF SCIENTIFIC ARTICLES

Submitted articles should have materials intended for the first publication of researches related to current scientific problems, in accordance with the journal's scientific direction (military-theoretical sciences, military-special sciences, military medicine, national security). Articles can be submitted electronically in three languages (Azerbaijani, Russian or English).

The article should be typed in MS WORD text editor with Times New Roman font 12, line spacing should be 1. Universal decimal classification (UDC) according to the structure of the article, ORCID indexes

(if any) title of the article, full information about the author, abstract, keywords, introduction, main part (methodology and results obtained), conclusion, list of references used, and supplements (if needed) should be presented in a consistent and systematic manner. UDC indexes should be displayed on the upper left side of the first page of the article. At the beginning of the text, the title of the article, information about the author(s) (full name and surname, academic degree, academic title and military rank for those in military service), institution(s) where the author(s) works, e-mail address(es), telephone numbers, as well as account details of the International Bank of Azerbaijan for the payment of fees. After this information, a summary of 150-250 words should be given in the language in which the article was written. In the summary, the essence of the research work, the scientific results obtained by the author(s), the scientific novelty of the work, the importance of application, etc. should be concisely reflected. After the summary, keywords of 5-8 words should be listed.

The text of the article should be 6-12 pages (in A4 format), and the pages should have 20 mm free space on all sides. Page numbers should be placed in the lower middle of the page.

When placing illustrations, tables, charts, diagrams in the text (if the number is more than one), they should be numbered consecutively with Arabic numbers. Table – should be numbered at the top of the table from the right (e.g., Table 1), and the figure should be numbered from the middle (e.g., Figure 2.) and 1 blank line from the text part (top and bottom), and should be placed in such a way that the article is not rotated or clockwise so that they can be viewed or read when turned in the direction of the movement of the hand.

Mathematical expressions given in the text should be compiled with the formula editor (Equation) of the MS Word program. The formula should be written in the middle of the line, and the number should be written in parentheses on the right.

In a scientific article, a brief analysis of the topic should be given, its relevance should be justified, the issues to be resolved should be explained and their solutions should be indicated, the results obtained, the scientific novelty of the work, its application importance, economic efficiency, etc. should be given clearly.

References to scientific sources should be given in square brackets in the text (for example, [1] or, [1, p.119]). The list of references given at the end of the article should be numbered according to the order of the cited literature in the text. Scientific articles, monographs and other reliable sources published in the last 10 years should be preferred in the literature list. When giving the bibliographic description of the referenced source, the "Procedure for the preparation of the Dissertation" approved by the decision of the Presidium of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan dated October 29, 2019, and amended by the decision dated May 7, 2021, December 9, 2022 requirements should be taken into account. The title of the article and the author, abstract and keywords (in addition to the language in which the article is written, in two other languages mentioned above) should be given after the "referenced literature list".

The recommendation for publication of the articles included in the editorial board is determined after the anonymous opinion of the editorial board of the magazine and after checking the presence of plagiarism. If the article submitted to the editors is not recommended for publication, information is sent to the author(s).

Two articles by the same author(s) cannot be published in one issue of the journal. Articles that do not meet the above-mentioned requirements will not be published, and manuscripts of published articles will not be returned.